AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# MASALLI FOLKLOR ÖRNƏKLƏRİ

## 1-ci kitab

BAKI – 2013

**Azərbaycan MEA**
**Folklor İnstitutu Elmi Şurasının**
**qərarı ilə çap olunur.**

**TOPLAYIB**
**TƏRTİB EDƏNİ:** **fil.ü.e.d., prof. Füzuli BAYAT**

**REDAKTORU:** **fil.ü.e.d. Muxtar KAZIMOĞLU (İMANOV)**

**Masallı folklor örnəkləri, 1-ci kitab,** Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013, 418 səh.

Kitaba Azərbaycanın qədim tarixə malik bölgələrindən olan Masallı rayonundan toplanmış folklor materialları daxil edilmişdir.

**A** $\frac{\textbf{4603000000}}{\textbf{N-098-2013}}$ **Qrifli nəşr**

**© Folklor İnstitutu, 2013.**

# TARİXİNİ FOLKLORUNDA, SÖZÜNÜ TARİXİNDƏ YAŞADAN DİYAR

## Ön Söz

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirinin 01 fevral 2012-ci il tarixli, 37 saylı əmri ilə Masallı şəhəri 2012-ci ildə Azərbaycanın Folklor Paytaxtı elan olunmuşdur. Bu məqsədlə Masallı Folkloru kitabını hazırlamaq üçün Folklor İnstitutunun əməkdaşları ilə ekspedisiya təşkil olundu və nəticədə gec də olsa Azərbaycan Respublikasının Cənub bölgəsi rayonlarından biri olan Masallının söz yaradıcılığı, el sənəti, unudulmağa üz tutan toy adətləri, halaylar, yaxın tarixlə bağlı əhvalatlar toplanmağa başlandı. Masallı folklorunun toplanmasına 22.03.2012 tarixindən etibarən başlanıldı və 05.11.2012 tarixinə qədər aralıqlarla davam etdi. İlk öncə toplama işinin məqsədi müəyyənləşdirildi, daha sonra gediləcək yerlər təsbit edildi. Nələrin toplanması, nələrə diqqət edilməsi xüsusi olaraq seşildi.

100-dən çox yaşayış məskəni, 207 minə yaxın əhalisi, hər 1 $km^2$-ə düşən 288 nəfər əhalisi ilə Masallı dünyada Çindən sonra əhalisi sıx olan ikinci yerdir. Masallıda əhali dünya əhalisinin sıxlığından 7 dəfə çoxdur.

Statistik məlumata görə 30 avqust 2012-ci il tarixində Masallı rayonunun əhalisi 207.000 nəfər olmuşdur. Azərbaycan Dövlət Statistika Komitəsi və Masallı Rayonu İcra Hakimiyyəti saytına görə Masallının etnik tərkibi

**78,73%** azərbaycanlı,

**21,14%** talış,

**0,07%** rus,

**0,06%** digər millətlərdən ibarətdir.

**Səkkiz aylıq qısa bir zamanda (folklor materialları illərlə toplanır) 40 yaxın kənddə** (Masallı mərkəzi də daxil olmaqla Mahmudavar, Köçəkli, Alışanlı, Göylənni, Xalıcallı, Şatıroba, Hacıtəpə, Xırmandalı, Ərkivan, Şərəfə, Bədəlan, Boradigah, Ərəb, Qasımlı, Qızılağac, I Yedioymaq, II Yeddioymaq, Mollahəsənli, Təklə, Çaxırlı, Gəyəçöl, Dadva, Musaküçə, Həsənli, Qəriblər, Hişkədərə, Rüdəkənar, Mişkəmi, Köhnə Alvadı, Digah, Bambaşı, Molloba, I Şıxlar.ş II Şıxlar 2, Seybətin, I. Səmidxan, II. Səmidxan) **toplama işi aparıldı, 200-dən çox söyləyici ilə görüşüldü.** Bu kəndlərin bəzilərinə bir dəfə, bəzilərinə isə 3-4 dəfə gedildi, bəzi söyləyicilərlə də bir neçə dəfə söhbət aparıldı.

## Qısa Tarixi Ekskurs

Qədim insanların 15-20 min il bundan əvvəl yaşadığı Masallı eramızdan çox-çox əvvəllər türklərin yaşayış məskəni olmuş, tunc dövrünə aid Hişkədərə kəndində Qaraxantəpə, Qoşatəpə, Allahqulutəpə və Mirzətəpə kurqanları, yenə tunc və dəmir dövrlərinə aid Təzə Alvadı kəndində Məmmədtəpə, İstiottəpə, Alıtəpə kurqanları, tunc dövrünə aid Şərəfə və Mahmudavar kurqanları bunu sübut edir. Masallının tarixi lə bağlı Abasqulu Ağa Bakıxanovun “Gülistani-İrəm” (1841), Mirzə Seyidəli Kazımbəy oğlunun “Cavahirnameyi Lənkəran” (1896), Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun “Əxbarnamə” (1882) və digər əsərlərdən məlumat alırıq.

Masallı antik dövrdə Midiya, Midiya-Atropatena, sonralar Qafqaz Albaniyasının Kaspina vilayətinin, XVI yüzildən başlayaraq XVIII yüzilin ortalarına qədər Səfəvilər dövlətinin, XVIII əsrin ortalarında isə Lənkəran xanlığının tərkibin-

də olmuşdur. Sovetlərin qurulmasından sonra 08 avqust 1930-cu ildə Masallı inzibati rayonu yaradıldı və Masallının adı respublika xəritəsinə rayon mərkəzi kimi daxil oldu.

Masallının bir hissəsi orta əsr ərəb tarixçilərinin haqqında geniş məlumat verdikləri Muğan şəhərinə düşür. Xırmandalı, Hacıtəpə ərazilərində aparılan qazıntılar zamanı Muğan şəhərinə aid çoxlu maddi-mədəniyyət abidələri tapılmışdır. Ancaq arxeoloji qazıntılar sistemli olmadığından və mütəxəssislər tərəfindən aparılmadığından Muğan şəhərı haqqında yetərli məlumat əldə etmək mümkün deyildir. Muğan şəhəri ərazisindən tapılan küp qəbirlər, tunc və dəmir dövrlərinə aid alətlər bu şəhərin uzun müddət tarix səhnəsində qaldığından xəbər verir.

Maddi mədəniyyət abidələri – qalaları, türbələri, ocaqları, məscidləri, hamamları ilə zəngin olan Masallı təbii gözəllikləri ilə seçilir. Rayonun İstisu istirahət və müalicə kompleksi sadəcə Azərbaycandan deyil, həm də yaxın ölkələrdən də turist qəbul edir. İstisu həm də el arasında Fatmeyi-Zəhra ocağı kimi tanınır. Burada Fatma nənə təndiri, Hz. Həsənlə Hz. Hüseynin ayaq izləri və digər ziyarət yerləri Masallının inanc turizmində önəmli yer tutduğundan xəbər verir.

## Masallı Folklorunun Özünəməxsusluğu

Adını məsəllidən alan, yəni bir-birinə məzəli əhvalatlar danışan, bir-birinə məsəl çəkən, Masallı Azərbaycanın Cənub bölgəsinin böyük yaşayış yerlərindən biridir. Masallı Azərbaycanın əhalisi ən sıx bölgəsidir. Qədimdən bu bölgənin türklər yaşayan qisminə Muğan deyilmişdir. Həm də burada qədim Muğan şəhəri olmuşdur.

Azərbaycan folklorunun regional xüsusiyyəti əslində milli folklor düşüncəsinin ayrı-ayrı bölgələrdə ifadələşməsi, mətn-

ləşməsi deməkdir. Regional özünəməxsusluq isə hər hansı bir bölgədə bu və ya digər folklor nümunələrinin işlənmə tezliyində özünü göstərir. Bu özünəməxsusluq coğrafi-təbii şəraitdən, ictimai yaşayışın formasından, təsərrüfatın maldarlıq və ya əkinçilik üzərində qurulmasından, mədəniyyətin digər ünsürlərindən (məsələn, klassik musiqi, aşıq yaradıcılığı, yazılı ədəbiyyat, əl sənətləri) asılıdır. Yuxarıda sadalanan özəlliklər etnik-mədəni mühitin regional fərqliləşməsini şərtləndirir. Regional folklorun biçimlənməsində kənd, qəsəbə, şəhər kimi məhəlli bölgələrdə söylənən örnəklər mühüm rol oynayır.

Təbii ki, regional şəraitdə yaranan folklorun məhəlli səciyyəsi elmi-nəzəri baxımdan aktuallıq kəsb edir. Bu aktuallıq folklor mətnlərinin yayılma dərəcəsini, söyləyici özəlliyini, milli-etnik kontekstdə öyrənməklə şərtlənir. Regional folklorun yaranmasında tarixi-mədəni, iqtisadi-siyasi, sosial-ideoloji dönəmlərdə toplumun keçirdiyi dəyişik inkişaf yolu, coğrafi şərait, təsərrüfat tipi, etnik qarışım, qonşu xalqların sosial-psixoloji yaşamı da əsaslı rol oynamışdır. Nəticədə bir millətin həyatı folklor aynasında rəngarəng çalarları ilə əks olunmuşdur ki, buna regional folklor mətnləri deyilir.

Hər bölgənin özünəməxsus folklor örnəkləri dedikdə daha çox folklor koloritini şəkilləndirən şivə özəllikləri, danışıq dili nəzərdə tutulur. Bəzi bölgələrdə (məsələn, Qazax, Şəki, Qarabağ və s.) şivə özəllikləri qabarıq olduğu halda, bəzilərində isə ədəbi dilə yaxınlıq hiss edilir. Masallı bölgəsinin el arasında Muğan deyilən hissəsində əsaslı şivə özəlliyi yoxdur. Buna baxmayaraq Muğan adlanan yerlərin ümumişlək olmayan dialekt sözləri vardır. Muğan bölgəsinin hətta kəndləri arasında da bu baxımdan müəyyən fərqlər vardır.

Sözlü ədəbiyyat bölgədən-bölgəyə özünəməxsusluq göstərsə də, həm Azərbaycanda, həm də Türkiyədə folklor dedikdə insanlar tarix anlayırlar. Bunun əsas səbəbi folklorun xalqın sözlü tarixi olmasıdır. Ancaq digər tərəfdən xalq folklorun özünəməxsusluğunu, mənəviyyatımızın önəmli bir parçası olduğunu yaxşı anlamadığından folkloru tarix, folklor toplayıcısını da jurnalist kimi başa düşün.

Ümumilikdə Cənub, özəldə Masallı bölgəsinin tarixi-coğrafi özünəməxsusluğu, etnik tərkibi, dini inancları folklor mətnlərinin səciyyəsini müəyyənləşdirməkdə başlıca rol oynayır. Sovet dövründə və xüsusən də son əlli ildə Masallı dedikdə Azərbaycanın digər bölgələrinə nisbətdə qızların az oxuduğu, saz-söz dünyasının az inkişaf etdiyi, dövlət xadimlərinin çıxmadığı yer anlaşılmışdr. Buna baxmayaraq Masallıdan görkəmli alimlər çıxdığı kimi, gözəl şair və yazıçılar, müxtəlif vəzifələrdə işləyən dövlət adamları, generallar da çıxmışdır.

Əski türk dünyası üçün spesifik olan tayfa və tirələrə bölünmə, qəbilə strukturunu saxlama, adət-ənənəyə bağlılıq ümumilikdə cənub bölgəsində, xüsusilə də Masallıda daha yaxşı qorunmuşdur. Bölgənin İrana yaxınlığı, əhalisinin tamamının şiə olması, ciddi yasaqların hökm sürdüyü zamanlarda belə Məhərrəmlik ayının keçirildiyini, Şəbih tamaşalarının göstərildiyini, orucun, namazın tərk edilmədiyini nəzərə alsaq Masallının dini baxımdan özəl yer halına gəldiyini qəbul etməmiz lazımdır. Masallının təbii gözəlliyi, torpağının münbitliyi insanlarının qonaqpərvər, zəhmətsevər, səmimi olmasını şərtləndirmişdir. Masallı əhalisinin böyük əksəriyyətinin türklərdən ibarət olan bölgə olması, Şah İsmayılın, Şah Abbasın Mahmudavarda, Qızılağacda, Şeyx Səfi quyusunun Ərkivanda olması kimi faktlar da bu yerlərin dövlətçilik tariximizdə mühüm rol oynadığına

sübutdur. Bir sözlə uzun illər folklor toplayıcılarının, araşdırmaçılarının diqqətindən kənarda qalmış Masallı respublikanın daha çox tərəvəz zonası kimi xatırlanmışdır. Ona görə də Cənub bölgəsi folklorunun toplanması üçün həyəcan siqnalı çalınmasının zamanı artıq gəlib keçməkdədir. Hər şeyin yox olduğunu gözləmədən Masallı, Cəlilabad, Yardımlı, Lerik, Lənkəran, Astara kimi yerlərin folklorunu toplamaq lazımdır.

Folklor yaşamını təkrarlarla sürdürür. Hər hansı bir mətn söyləmirsə, hər hansı bir ritual icra olunmursa, hər hansı ir tamaşa göstərilmirsə zamanla unudulmağa məhkumdur. Elmi ictimaiyyətin diqqətindən uzaq bu bölgədə radio-televizorun da mənfi təsiri ilə sözlü yaşam dünyası yerini passiv seyrə tərk etmişdir. Getdiyimiz kəndlərdə, qəsəbələrdə insanların bayatı söyləmədiyi, nağıl danışmadığı, əhvalat anlatmadığı və ya bunlara maraq göstərmədiyi müşahidənin ilk və gözə çarpan tərəfi olmuşdur. Söylənib dinlənməyən mətn yaddaşlarda uzun müddət qala bilməz. Bir zamanlar nağılları, məsəlləri, mahnıları ilə məşhur olan Masallı artıq folklor yaşamını başa vurmaqdadır. Yenə də klassik folklor tam ölmədən bəzi şeyləri lentə almaq mümkündür.

Masallı folklorun bütün janrlarının icra olunduğu bölgədir. Burada xalq deyimləri, əfsanələr, rəvayətlər, məzəli əhvalatlar, bayatı və nəğmələr, məsəllər, atalar sözləri, halay, mənkabələr, memoratlar (başa gələn əhvalatlar), bir sözlə insanı sədaqətə, vətən sevgisinə, dost yolunda ölümə, böyüyə, kiçiyə hörmətə səsləyən hər şey vardır. Buna baxmayaraq Masallı folklor örnəklərinin ağırlıq mərkəzi daha çox dini əfsanələr, təriqət böyüklərinin, seyidlərin kəramətlərini anlatan mənkabələr, memoratlar (adamların başından keçənləri ikinci və ya üçüncü şəxsin şahidliyi kimi anlatması), bayatılar, xüsusən də

toy bayatıları yaxın tarixdə baş vermiş əhvalatlar üzərinə düşür. Dini əfsanələri söyləyənlərin çoxu ya hal-hazırda mollalıq edənlərdir, ya da namazını, orucunu heç vaxt tərk etməmiş möminlərdir. Bununla bərabər ali təhsilli insanların da çox sayda dini əfsanə danışdığını gördük. Dini əfsanələrin nisbətən yaxşı qorunmasının tək səbəbi icra ortamının olması və onların bu sosial çevrədə təkrar-təkrar söylənməsidir. Bayatılar qısa, lakonik, əzbərdə qalması asan olan janr olduğundan yaşlı qadınlar bir neçə bayatı xatırlaya bilirlər.

O ki qaldı yaxın tarixdə baş vermiş əhvalatların xatırlanmasına, bunun da təbii səbəbləri vardır. Hər şeydən öncə insan yaddaşı yaxın 100-150 ilin hadisələrini yaddaşında canlı olaraq qoruya bilir. Bu əhvalatlar kənd və ya qəsəbə camaatı tərəfindən tez-tez xatırlanır. Yaxın tarixdə baş vermiş əhvalatlara gəldikdə bunlar o yerin baməzə insanı, qaçağı, qoçusu, nakam sevgililəri haqqında ola bilər. Məsələn, Xoççabanlıda Qaçaq Mozu, Hacıtəpədə Qaçaq İbad, Xırmandalıda Qara Paşa, İslam haqqında olan əhvalatlar buna misal ola bilər. **Yaxın tarix adı altında topladığımız materiallar folklorda tarix və ya çox dəbdə olan Dədə Qorqud, Koroğlu dastanlarında axtarılan tarix deyil. Əslində tarixçilərin folklorlaşan tarixi deyil, olmuş tarixi dastanlardan, bayatılardan, atalar sözlərindən çıxarmaq cəhdləri məsələnin məğzini anlamamaqdan gəlir. Folklor yaşayan tarixdir, anaxronizmlərlə, ümumiləşdirmələrlə dolu tarixdir. Belə olmasaydı o folklor yox, elə tarix olardı.**

Masallı folkloru kitabına Folklor Antologiyası tarixində ilk dəfə olaraq "Yaxın keçmişlə bağlı əhvalatlar" adı ilə ayrıca bir bölmə daxil etdik. Bunu sözlü tarixin bir qolu kimi başa düşmək lazımdır. Ancaq sözlü tarix anlayışı Azərbaycanda bilinmədiyindən və bir elm sahəsi kimi araşdırılmadığından

(mənim bir məqaləmi və dərs kitabımdakı müvafiq yerləri nəzərə almasaq) tarixlə bağlı danışılan əhvalatları "Yaxın tarix" başlığı altında topladım.

Masallı məzəli əhvalatları, bəzəmələri ilə də diqqət çəkən yerdir. Toplama zamanı lətifələrin, məzəli əhvalatların çoxluğu diqqət çəkməklə bərabər, bu bölgə insanlarının optimist düşüncələrini də ortaya çıxartdı.

Ancaq bu bölgədə ən çox yayqın olan halaydır ki, araşdırma halayın artıq toylarda çox az icra edildiyini göstərdi. Halay təşkil edilmiş, xorla oxunan və oynanan folklor örnəyi kimi yalnız Mahmudavar kəndində qalmışdır. Masallı bölgəsinin əhalisi yalnız Azərbaycan türklərindən ibarət olan və Muğan adlanan hissəsində isə halay çox az halda yaşlı qadınların yaddaşında qalmışdır. Halay bir sıra bayramlarda, çəltik əkinində və biçimində oxunsa da, onun əsl oxunma yeri xınayaxdı (Masallı bölgəsində qızbaşı) və toylardır. Son zamanlara qədər qızların, qadınların xına gecələrində xüsusi avazla oxuduqları mahnı olmuşdur ki, **hələ də bəzi uçqar kəndlərdə saxlanılır**. Və bu xınayaxdılarda, toylarda halay **olmazsa olmazlardandır**. Halay əsasən, halayı çox yaxşı bilən bir və ya iki nəfər tərəfindən idarə edilir, üçdən az olmamaqla iki qrup qarşılıqlı şəkildə mahnılaşmağa başlayırlar. Hər dəstədə üçdən tutmuş ona qədər adam ola bilər. "Halay nədir" sualına söyləycilər "Halay – dəstə, yığıncaq, deməkdir" cavabını verdilər. Halayın başlanğıc hissəsi olan lolo, yenə də söyləyicilərin dediyinə görə yelləncək, beşik anlamına gələn sözdür. Az-çox Şərəfədə, Köçəklidə, Xalıcallıda, Həsənlidə, Xırmandalıda, Alışanlıda yaddaşlarda qalan halay aşağıdakı hissələrdən ibarətdir:

1-ci, lolo

2-ci, uca dağlardan səsləərəm səni.

3-cü, yeri ha yeri
4-cü, yar əli yar düymələri mərcan.
5-ci, sunalar.
6-cı, dəst eylər gül eylər. Yəni gülü dəstəliyər.
7-ci, aman mələk.
8-ci, basma, basma tağları.
9-cu, ay yordu, yordu
10-cu, aman aman.

Ancaq əhalisi əsasən talışlardan ibarət olan Mahmudavar kənd mədəniyyət evinin müdiri, veteranlar qrupunun rəhbərinin fikrinə görə "Halay – səslənmə, çoxluq deməkdir. Halay həm də bayatı söyləməkdir." Halayın başlanğıcı olan "Lolu isə haraydır, nənələrin çağırışıdır." Söyləyicinin dediyinə görə halay əsasən, xına gecələrində, çəltik biçimində oxunmuşdur. Halayda hamının iştirakı vacıbdır. Hətta bunun üçün

Çəkin halay düzülsün,
Xumar gözlər süzülsün,
Kim halaya gəlməsə,
Əli yardan üzülsün –

şəklində bayatı-qarğış da söylənir.

Halayda əsas olan nəqarətdır. Bayatı söyləyənlər bəzən eyni bayatını müxtəlif nəqarətlarla oxuyub yallı gedirlər:

Oğlan adun Yağubdu.
Gün dağlara doğubdu.
Sən aldığın üzüklər.
Barmağımı boğubdu.
Basma basma tağları
Saraldı yarpağları.

Oğlan adun Yağubdu
Gün dağlara doğubdu
Sən aldığın üzüklər,
Barmağımı boğubdu.
Canı mələk, mələk
Aman mələk, mələk.

Masallı toy adətlərinin qədimliyi və orijinallığı ilə seçilən bölgədir. Halay da toy şənliklərinin tərkib hissəsi olmuşdur. Toyla bağlı qarşılaşılan orijinal durumlardan biri də ata evindən ər evinə köçən gəlinə verilən nəsihət zamanı

Əylən gəlin, əylən gəlin.
Bizim dil farsi dilidir
Öyrən gəlin, öyrən gəlin –

şəklindəki bayatıdır. Bu ifadə daha çox Masallının türklər yaşayan yerlərində işlədilir. Burada ata evindən ər evinə gedən qıza yeni evin adət-ənənəsinə, tərzinə uyması məsləhət görülür. Söyləyici (Həcər Həsənova, 1950, orta təhsilli, Şərəfə kəndi) özü bunun mənasını belə açır: “Bunun mənası var e, biz fars deyilik ki, bəs niyə belə deyürük. Yəni bizim evin xasiyyəti sizin kimi deyil, evin adətini öyrən, gəlin.” Və ya

İstəkanı nəlbəkiyə qoy, gəlin,
Evdəki dilləri yerə qoy, gəlin –

şəklindəki mahnı da əskidən qızların getdikləri yeni ocağa alışmaq məqsədi ilə söylənmişdir.

Masallıda bayatı şəklində söylənən ağılara oxşama deyilir. Ağı sözü bu bölgədə anlaşılsa da daha çox oxşama termini işlədilir. Bununla bərabər camaatı ağlatmaq üçün ölü üzərində

yazılı ədəbiyyatdan məlum olan, ancaq şifahiləşmiş mərsiyə də söylənir. Bəzi bölgələrdə bayatıya mani deyildiyi ilə də qarşılaşdıq. Fürsət düşmüşkən demək lazımdır ki, folklor bəzi alimlərin yazdığı kimi dəyişməyən bir şey deyildir. **Folklorun özəlliyi onun dəyişməsində, yenilənməsində, çeşidlilik göstərməsindədir.** Toplama zamanı 3, 5, 6 misradan ibarət bayatıların olduğunu gördüyümüz kimi heca ölçüsü klassik bayatı şəklinə uymayan nümunələrlə də rastlaşdıq. **Bunları olduğu kimi, mətnə müdaxilə etmədən, yaşlı folklorçuların dediyi kimi söyləyicinin naşılığı, savadsızlığı kimi deyil, sözlü ədəbiyyatın özəlliyi kimi verdik.** Bundan başqa kitabda sağımla bağlı (bir nümunə), bir zamanlar özəlliklə əsgər məktublarının sonlarında verilən şeir parçalarından (iki nümunə) ibarət mətnləri də bayatı bölümündə verdik. Oxucu bu kitabda bayatıların hər zaman "Əzizinəm", "Mən aşiq", "Aşiqəm" kimi şablon ifadələrlə başlamadığını, hər zaman dörd misradan ibarət olmadığını da görəcəkdir.

Masallıda bəzi deyim və ifadələrin özəl anlamı vardır. Türk təsəvvüf tarixində gəzərgi dərviş zümrəsi olan abdallarla bağlı izlər bayatıda:

Mən aşiq, abdal olubdur,
Yığmamışam, abdal olubdur.
Gündə oxuyan bülbül
Bu sabah lal olubdur –

şəklində qalmışdır.

Bu bölgənin əhalisinin qızılbaş olduğu, qızılbaşlığın əsilzadəlik olduğunu toy adətlərindən öyrənmiş oluruq.

Ey gülü xaş-xaşdı gəlin,
Əsil qızılbaşdı gəlin.
Evlisən, ev halı bil,
Ev sənə peşkəşdi, gəlin.

Masallı bölgəsində din böyüklərinin, seyidlərin, müqəddəslərin ziyarət yerlərinə ocaq deyilir. Pir sözü bu bölgədə yayqın deyildir. Bəzən türbə kəlməsi də işlədilir, ancaq daha çox ocaq termini ilə qarşılaşılır. Bir az fərqli baxıldıqda ocaq haqqında kəramətlər anlatılan şəxsin yaşadığı yerə, türbə isə bu şəxsin məzari üzərində tikilən günbəz tipli məzara deyilir. Ancaq daş yığını, ayaq izlərindən ibarət ocaqlar olduğu kimi, bəzi məzarlar da ocaq adlanır. Ocaq və türbələrin zənginliyi və bölgə insanlarının bu müqəddəs yerlərə diqqəti və hörməti, xalq arasında seyidlərin böyük sayğıya sahib olması övliya mənkabələrinin, başqa sözlə dini rəvayətlərin də zəngin olduğundan xəbər verir.

Masallının Muğan adlanan hissəsində danışıq dili qismən də olsa ədəbi dilə yaxındır, özəl ləhcə özəlliyi yoxdur. Ancaq toplanan materialların təbiiliyini, şirinliyini və ən əsası da danışıq dilinin etnoqrafiyasını qorumaq üçün yazıldığı kimi də verdik. Bəzən söyləyicilər rusca – **uje, qde-to, voobşe, samalyot, otpuska, rak, ispisəlni, abrabotka, imenni** və s. kimi danışıqda çox işlənən sözlərdən istifadə edirlər. Biz bunları da olduğu kimi saxladıq. Yaşadığımız tarix, dilimizin kirlənməsi, insanlarımızın savadsız nitqi baxımından bu mühüm məsələdir. Masallı folklorunun bəzi nümunələrini nəşr olunan kitablardan götürdük. Bunların dili üzərində müəlliflər düzəlişlər etdiklərindən oxucu bu mətnlərdə deyim və ifadə tərzinin fərqli olduğunu anlayacaqdır. Nə etmək olar, folklor materiallarının dilini, üslubunu dəyişdirmək bizdə bir xəstəlik halını alıb.

Söyləyicinin söylədiyi mətnə müdaxiləsini, verdiyi əlavə məlumatları, aydınlaşdırıcı izahatları bir zamanlar əsl folklor mətninə dəxli olmayan şeylər kimi mətndən çıxarılmışdır. Biz bunları mətnin içində, mötərizədə verdik. Bu, söyləyicinin psixologiyasını, dövrə, siyasi və iqtisadi quruluşa münasibətini açmaqda əsas elementdir.

Masallıda dülgərlik, dulusçuluq, dəmirçilik, xalçaçılıq kimi sənətlərlə bərabər bəzi nadir sənət növlərinin də inkişaf etdiyini söyləmək lazımdır. Həsirçilik, zənbilçilik, sandıqçılıq, kənəfçilik, camçılıq və s. buna misal ola bilər. Toplama zamanı bunlar haqqında da məlumat aldıq.

Folklor ekspedisiyası zamanı Masallı bölgəsi folkloru haqqında aşağıdakı qənaətlərə gəldik.

1. Sahə araşdırması (toplama) zamanı məlum oldu ki, folklor az-çox oxumuş, savadlı insanların yaddaşında daha yaxşı mühafizə olunmuşdur. Sürətlə dəyişən sosial-mədəni dünyada yaşlı nəsil ki, folklor daşıyıcıları əslində onlar olmalıydı, çox təəssüf ki, bu yaşlı nəslin çoxu müasir texnoloji inkişafla bağlı olaraq söyləmə auditoriyasını itirdiklərindən, yaddaşlarında olan folklor materiallarını təkrarlamadıqlarından folklor onların şüuraltına keçmişdir və bu adamların bir şeylər xatırlaması indilik mümkün kimi görünmür. Yaddaşın yenidən işə salınması üçün uzun bir vaxt lazımdır.

2. Bir zamanlar nağılları, məsəlləri, lətifələri, bəzəmələri ilə məşhur olan Masallıda indi nağıl bilən, hər hadisəyə bir məsəl çəkən söyləyici tapmaq hardasa imkansızdır. Hər halda toplamanın şərtlərindən biri olan uzun müddətli müşahidə, uzun müddətli ezamiyyət imkanı olmadığından bu təsbitləri yüzdə yüz doğru kimi də qəbul etmək olmaz. Ancaq ilkin müşahidələr bu yöndədir.

3. Folklorun bəzi janrları, bəzi folklor hadisələri zamanla əskiyir, icra olunmaqdan çıxır. Məsələn, rituallarla bağlı icra edilən janrlardan halay toyların, xınayaxdıların müasirləşməsi ilə istər-istəməz əskiyir. Kənd yerlərində uşaqların oynadığı dirədöymə, ənzəli, aşıq, çilingağac və s. oyunlar sosial mühitin dəyişməsi ilə tarixə qarışmışdr.

## Son Söz

Bir zamanlar Türkiyədə Qaziantep Universitetində müəllim işləyərkən Güney-Doğu Anadolu bölgəsində 18 aylıq toplama, sistemləşdirmə, dəyərləndirmə və mədəni kimlik məsələləri ilə bağlı bir layihə çərçivəsində Yavuz elində bir ağsaqqaldan, nədən insanlarımızın yaddaşında nağıl, əfsanə, rəvayət kimi folklor janrları çox az qalıb, – deyə soruşduqda söyləyici "O atlılar ki, vardı, gözəl atlarına minib getdilər" kimi çoxanlamlı bir cavab vermişdi. Bugünkü folklorun durumunu obrazlı şəkildə atlarına minib gedən, yerində piyadalar qalan bir topluma bənzətmək mümkündür.

Texnologiyanın sürətlə məişətimizi işğal etdiyi bir zamanda piyadalaşan, mənəvi dünyası kiçilən bir cəmiyyət formalaşır ki, bu bizi biz edən, bizi özgələşməyə qoymayan folklorun faciəsidir. Folklorun sahəsi hər gün daha da daralır, mənəviyyatımızın aynası, kimliyimizin pasportu olan klassik folklor sürətlə ölür, icra ortamından (auditoriyasından) çıxır. Ölən folklorun yerini süni kişilik, süni namus, süni ailə münasibətləri haqqında çəkilən dizilər (seriallar) tutur. Mənşəyi məlum olmayan, məqsədi isə bizi yadlaşdıran, özgələşdirən teleşoular, teleseriallar, əyləncə proqramları və daha nələr təhkiyə folklorunu sıxışdırıb ortadan çıxarır.

Son olaraq demək lazımdır ki, folklorun regional kontekstdə bölgələr üzrə toplanması gələcəkdə folklor atlaslarının yaranmasına, folklor fondunun tərkibinin təyin və təsbit edilməsinə, janrların yayılma sahəsinin və tezliyinin öyrənilməsinə yardım edəcəkdir.

Sonda Masallı folklorunun toplanmasında, hazırlanmasında mənə yardım etmiş insanlara – başda İctimai-siyasi və humanitar məsələlər üzrə Masallı Rayon İcra Hakimiyyəti başçısının müavini Nəsir Muxtarlıya, Rayon mədəniyyət və turizm şöbəsinin müdiri Lətifə Mövsümovaya, Masallı şəhər mədəniyyət evinin direktoru Vəkil İsmayılova, Masallı Rayon İcra Hakimiyyəti Hüquq Şöbəsinin məsləhətçisi Hikmət Xəlilova, Masallı Rayon İcra Hakimiyyətinin Yetkinlik Yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Qulam Şükürova, İctimai-siyasi və humanitar şöbəsinin baş məsləhətçisi Gülşən Xəlilovaya, dostlarım Lətif Babayevə, Arif Fərzəliyevə təşəkkür edirəm.

Ayrıca Masallı Folkloru kitabını hazırlama layihəsini dəstəkləyən Folklor İnstitutunun direktoru Muxtar İmanova, toplama və hazırlama prosesində Folklor İnstitutunun əməkdaşlarından Çiçək Əfəndiyevaya, Nailə Rəhimbəyliyə, Nuridə Muxtarzadəyə, Qurban Əliyevə, Tünzalə Məmmədovaya, Vüsalə Kərimovaya, İlahə Heybətovaya və digərlərinə də təşəkkür etməyi özümə borc bilirəm.

***Füzuli Bayat***

# 1. İNANCLAR

## Namazın növləri

Günəş tutulanda bizdə namaz qılıllar, ayət namazı. "ƏssAllah"nan başlıyır, "Həmd"dən sonra beş dəfə "İxlası" oxuyursan, ya da "İxlası" beş yerə bölürsən. Gündü, küləydi, qara küləkdi, bulara ayət namazı qılınır. İnsan rəhmətə gedənnən sora, mən əgər rəhmətə getmişəmsə, namazı qılmıramsa, heç namaz qılmamışamsa, mənim yaşımdan on beş yaş çıxırlar, on beşi vurullar ikiyə. Ayət namazı qılırlar küləydi, zəlzələdi belə-belə şeylərə.

Vəhsət namazı vacibdi, ona görə ki, qəbir evində birinci gecə qəbir əzabı onun üçün hasan keçsin. O ölüm ki, Allahtala yazıb, nə bir saniyə bu üzə ola bilər, nə bir saniyə o üzə. Başqa deyimlər hamısı boş şeydi.

## Çillələr haqqında

Kiçik çillə deyir ki, ömrüm az, qabağım yaz. Böyük çillə qırx gündü, dekabrın 21-i başlıyır. Yanvarın 30-da qurtarır. Böyük çilləynən kiçik çillənin arasında Xıdır var. Xıdır dörd gün böyük çillədən götürür, üç gün kiçik çillədən. Kiçik çillə çaxmaq olur, kiçik çillə müsübət olur. Ona görə deyir ömrüm az, qabağım yaz. Sonra var oğrubığ, doğrubığ. Oğrubığdan sora doğrubığ gəlir.

## Şeytan haqqında

Öz ənənəmizdə deyirik ki, şeytan pis adamlardı – bizi azdırır, bizi yolundan eliyir. Məsələn, şeytan girir qəlbimizə

bir də görürsən, yolumuzu azırıq. Ondan sora oğurruğa gedirik, pis əməllərə gedirik. Onu şeytan eliyir.

## Göy qurşağı

Göydə yeddi dənə rəng belə gedir a, göy qurşağı odur. Bax, Əlinin Fatiməynən evlənmə mərasimidi. Yeddi rəng ordan qalıb. Onnarın toylarında asiman bəzənib. Səmada olub onnarın toyları. Olar əmiqızı, əmioğludular. Ona görə deyirlər: əmiqızı əmioğlu məhrəm olar. Kəbinnəri göydə kəsilər. Yeddi rəng olarındı. Göy qurşağının altından keçəndə xoşbəxtlik gətirər. Ona baxarsan, salavat çəkərsən. Onnan sora ürəyindən xoş şeylər keçər.

## Müqəddəs quşlar

Müqqəddəs quşdu qaranquş. Qaranquşu vurmaq olmaz. Qaranquş Kərbəladan xəbər gətirib. Hacıleyleyin ayağı niyə qırmızıdı? Orda qana batıb gəlib. Göyərçin də Kərbəla müsübətini görüb. Ona görə müqqəddəsdi. Vurmaq, öldürmək olmaz.

## Arı

Arı Allah-talanın ən gözəl nemət verən həşəratlarındandı. Arının əzaları dəvənin əzaları ilə eynidir. Onun verdiyi bal dünyada hər şeydən yüksəkdi. Arıdan xəbər alıblar ki, sən gedirsən acı çiçəylərdən acı çəkirsən, bal əmələ gətirirsən. Deyir:

– Mən hər xortumumu salıb onun şirəsini çəkəndə, mən bir salavat çəkirəm, ona görə o, bala çevrilir, şirin olur.

* * *

Göydə hər kəsənin bir ulduzu var. Səyyarə də ulduzdu, Şövkət də ulduzdu, Ülkər də ulduzdu. Ulduzlar səmada olan cisimlərdir. Allah-tala oları elə yaradıbdır ki, göynən yerin arasındadır.

* * *

Küləy əsəndə namaz qılırığ iki rukət.

* * *

Yağış yağması üçün əlimizi qaldırarığ Allaha, deyirik İlahi, rəhm eylə.

* * *

Məsələn deyərlər ki, qırx günlük çiləsi çıxmamış körpə uşağın başının altına çörək qoymasan, su qoymasan, pis olar. Uşağı qırxı çıxmadan ağacın altınnan keçirtməzlər. Ağacın altınnan keçirdəndə o qorxar. O qorxar, beyni tərpənər, hissiyatı azalar. Körpə anadan olanda qırx gün qonşudan, dualı adamdan onun evinə gedə bilməz. Əgər dua üstündə o, uşağın üstünə getsə, o uşağ tələf olar. Qırx gün çilədən gərək uşağı qoruyasan. Gələn adamların hamısını elə çöldə saxlayırsan, içəri qoymursan. Uşağı çıxardırsan, qapının üstünə tutursan, həmin adam altdan keçər. Onda körpə çiləyə düşməz. Çiləyə düşəndə uşağ qıçını-qıçının üstünə keçirəcək. Sora arığlıyar, eybəcər fason olar. Biz uşağlarımızı belə qorumuşuq. Bunnan qabağ qırx gün yatardılar. İndi elə deyil axı. Bir dənə şişi başına keçirib fırrıyardılar arvadın, həmin gəlinin – doğanın dörd tərəfinə. Üç dəfə o durannan sora edərdilər. Onu götürüb atardılar çölə.

* * *

Mis çalırlar Ay tutulanda.

* * *

Keçmişdə Ay tutulanda, Gün tutulanda mis çalarmışlar.

## Göz dəymə

Uşağlara göz dəyəndə qızdırma – zad gəlirdi. Uzərrigi, pambığı, duzu – bu üçünü də qoyardılar bi qaba, yandırardılar. Onun tüstüsünü evin dört bi yanına verərdilər, uşağın da başına fırradardılar. Evin, uşağın azar-bezarı ücün eliyirdilər. Kecmişdə günortadan sora evə süpürgə vurmazdılar ki, süpürgə axşamın mal ayağında evə vurulanda, onun düşər-düşməzi olur. Evin bərəkəti qacar.

## Məsumlar

Kim ki deyir, ibadətkaram mən, günahkar deyiləm, günahım yoxdur, inanma. Hamımızın günahı var. 124 min peyğəmbəri Allah-taala bəxş eliyib dünyaya, onnarın da günahı var. Təkcə 14 məsum və məsumə günahkar deyıl. Pak və təmizdir. Bu da peyğəmbər, Əli Əleyissalamdır. On bir övladı ilə xanım Fatimeyi-Zəhradı. Dünyaya pak gəlib, pak gedirlər. Yəni oların nə sorğusu var, nə günahı, nə də əzabları.

## Şükür etmək

Allah-taala nə qədər əzab verseydi o peyğəmbərə, başın qaldırıb ötəndən sora, deyərdi, İlahi, çox şükür sənə, dərgahıva, çox şükür sənin böyüklüyüvə.

Başına daş vururdular, ağacla vururdular, üzünə tüpürürdülər. Biri dəli deyirdi, biri səfil deyirdi. Hamı deyirdi, onun başı xarabdı. Amma ona nə qədər zülm elədilərsə də, həmişə deyərdi, çox şükür sənə, Ya Rəbb, hər kim ki nə qədər şükür eləsə, o, Allahın dostudur.

* * *

Səhər tezdən durursan, axşam məsəl üçün görürsən ki, Ay çıxıb. Deyirsən:

– Allahun məssəlli əla Muhəmmədin və ali Muhəmməd. Günəşi də görəndə deyirsən, Ayı da görəndə.

* * *

Toyunda yağış yağanda, qar yağanda deyirsən, qazan dibi yemisən a.

* * *

Cənamaz isladırdığ, yağış yağsın. Əkin qalıb axı, yağış yağsın. Qabağdakı "Ərrəhman" oxuyurdu, ruzi oxuyurdu. Gedə-gedə, biz də onun dalınca. Yağış çox yağanda su basırdı ölkəni Dayansın deyə onda çıxırdı camaat müsəlliyə.

* * *

Uşağın dişi çıxanda qoyun baş-ayağı qatırdığ, bişirirdik.

* * *

Uşağ gəzmiyəndə, gec gəzəndə aparırdılar, qoyurdular zənbilə. Öybəöy gəzdirirdilər. Yağ verən verirdi, yumurta verən verirdi. Öy yiyəsi onu bişirərdi, paylıyırdı qohum-qonşuya.

* * *

Dil açmıyan uşağa da dua yazdırırdılar. Aparırdılar molla yanına. Qəbirsanlığa aparırdılar, yeddi qəbrə atırdılar uşağı. Uşağ qışqırırdı. Gedirdilər, götürürdülər.

* * *

Çiləyə düşən uşağı, gec danışan uşağı atırdılar qəbrə. Özləri çəkilirdi dala. Uşağ nənə görmüyəndə qışqırır axı. Uşağ qışqırırdı, tez qaçıb götürürdülər.

* * *

Yuxu belədi, ayın iyirmi ikisindən sonra nə yuxu görsön, o, düz olar. Ancax müsəlman ayında. And belədi birinin belə səhvi var, ya boşuyur arvadın, ya evdə davası düşür, yalannan and içir, Allah keçər.

* * *

Gecə güzgüyə baxarsan, şeytan səni azdırar, dəli olarsan.

* * *

Gecə incil altından keçmək olmaz.

* * *

Haran ağrıyır, hərəkətin yoxdu, get göy söyüdü qucağla denən ki, düzgünnüyümü verirəm sənə, düzgünnüyüvü ver mənə. Üç dəfə o söyüd yanacağ, sən diriləcəysən.

* * *

Qabağ oğlan uşağını ocağa tos tutarmışlar, ya səkiyə bir belə üstünə su səpirsən. Yeyərdilər, düyünü bir qırağa tökər-

dilər, deyərdilər, onda toyuğun da payı var. Biz yeyərdik, həmişə süfrəni aparıb həyətə çırpardığ.

* * *

Həyəti süpürüb küncə yığarsan a, o, kifirlikdi.

* * *

Qədimdə deyərdilər, süpürgəynən süpürüb küncə yığma, cinlər yığılar ora.

## Aşura, məhərrəmlik

O vaxtı plov bişirərdilər, tökərdilər məcmeyə, apardılar məçid qabağına. Məçid qabağında tökərdilər onu zənbilə, apardılar. Zənbil sənbil deməkdi. Aşura günü halva-yuxa paylıyardılar. Şəbeh tamaşası olardı. Buların biri İmam Hüseyin olarmış, biri Əbəlfəz olarmış. Atın üstündə al qanın içində olarmışlar. Zincir vurarmışlar. Ocağın qabağı dolu olarmış. Ələmi apardılar gəzdirərdilər. Mərsiyə deyərdilər. Bir qiyamət olurdu. Səhərəcən "Hüseyin" deyə-deyə sinə vurardılar.

Məhərrəmlikdə günahdı oruc tutmaq. Aşura səhəri xörəy bişirərdilər. İmamın üçün verərdilər, yeddisin verərdilər. İmamın yeddisi ehsan verərdilər. Teş qoyurduğ, içinə su qoyurduğ. Bir dənə qab qoyurduğ yanına, üstünün qarynan örtürdük. Qırxınacan o teş qalardı. O suyu içirdilər, deyirdilər kimyədi. Teşdin suyu qalırdı. Məsələn, bu gün anan xəstə oldu, gətir ver içsin. Uşağın xəstə oldu, teşdin suyun ver içsin, şəfa tapsın. Adi sudan olurdu. Yığılan pulu verirdik imamın yeddisində imam ehsanı.

* * *

Məhərrəmlik ayında kəndimizdəki evlərdə təkiyyə bəziyirdilər. Kişilər bu evə gedirdi. Zənənlər bir başqa evə gedirdi. Ağlıyırdılar ordan dururdular. Kimin qəlbi sınığdı, ölüsü ölüb, müharibədə şəhid olub gəlmiyib, o evlərə, həyətlərə gedirdik. Yığışırdığ, gedirdik qəbirsanlığa, o qəbirsanlığın dörd tərəfin tolanırdıq, ağı deyirdik, ağlıyırdıq.

* * *

Deer sufrəni gecə çırpmaq olmaz. Əyər çırpasan da təndirxanaya çırpmaq lazımdır ki, evin bərəkəti qaçmasın. Ayağ alta çırpmıyasan.

* * *

Baş tükünü ayağ altina atmaq olmaz. Saçıvı daradun, yumırra biyaz üssinə tüpir, qoy bi yerə. Sabah atarsan, gecə olmaz.

* * *

Qız uşağı gecə güzgüyə baxmaz, baxtı bağlanar. Bi də gecə baxmaq olmaz ki, lapdan xoflanarsan, şəklənərsən.

* * *

Bizdə belədi, Ay tutulanda vedrəyə döyürlər danq-danq, dəmirnən döyürlər ki, Ay açılsın. Namazı var, iki rükər ayət namazı qılırsan. Şüşəni qaraldırsan, hisnən baxırsan ki, Ay tutulub, ya da tutulmuyub.

* * *

Yuxu görəndə isə suya danışırsan. Hər adama yuxu danışmazlar. Arvad görən yuxunu tərsinə yozurlar.

* * *

Yağış yağmayanda ehsan verirsən ki, yağış yağsın.

* * *

Uşağın başının altına bıcax qoyurlar ki, qorxmasın. Bu, Quranı əvəz edir.

**Söyləyicilər:**

Rəfayıl Vahabov, doğum tarixi 1944, təhsili ali, Göylənni kəndi

Həcər Həsənova, doğum tarixi 1950, təhsili orta, Şərəfə kəndi

Ələkbər Ələkbərov, doğum tarixi 1928, təhsili orta-ixtisas, Qızılağac kəndi

Şabikə Bəşirova, 75 yaş, təhsili yoxdur, Dadva kəndi

Südabə İsayeva, doğum tarixi 1952, təhsili orta, Ərkivan kəndi

Mənsurə Abdullayeva, doğum tarix 1933, təhsili yoxdur, Qızılağac kəndi

Gülcahan Ələkbərova, doğum tarixi 1927, təhsili yoxdur, Qızılagac kəndi

Gülsüm Muradova, doğum tarixi 1937, təhsili 5-ci sinif, Xallıcalı kəndi.

Fatma Tağıyeva (Pərzad), doğum tarixi 1938, təhsili 7 illik, Gəyəçöl kəndi

Mövsüm Ağayev, doğum tarixi 1932, təhsili 7 illik, Ərkivan kəndi

Bulqeyis Gözəlova, doğum tarixi 1947, təhsili orta, Xırmandalı kəndi

**Toplayanlar:**

Füzuli Bayat (Gözəlov)

Çiçək Əfəndiyeva

Nuridə Muxtarzadə

# 2. DİNİ RƏVAYƏTLƏR

## İmam Hüseynlə ərəb

Həzrəti İmam Hüseyindən sual edirlər:

– Ya İmam Hüseyin, özüm acam, kasıbam, vətənnən də uzağam. Özüm də borcluyam. Barı mənim borcumu ver.

Həzrət dedi:

– Mən sənin borcunu verərəm. Ancaq sənnən üç dənə sual eliyəcəm, əgər onun üçünü də bilsən, borcunun hamısını verəcəm. Yox, ikisini bilsən, borcun ikidən birini verəcəm. Yox, birini bilsən, üçdən birini verəcəyəm.

Deyir:

– Ya imam sən nə danışırsan? Mən hara, sən hara, sən elm sahibi, sən İmam oğlu İmam. Mən nə bilirəm.

(Allah rəhmət eləsin Hacı Zeynəlabdin Tağıyevə. Bir gün Hacı Zeynəlabdin Tağıyevin yanına ruslar, yahudilər, ermənilər gələrmişlər ki, bizə xərclik ver. Zeynəlabdin Tağıyev çıxardıb onların hərəsinə qızıl pul verib. Müsəlman gələndə gedib şkafı açıb külüng verərmiş, lapatka verərmiş, bel verərmiş. Deyir, biri, Hacıyat acığlanır, deyir, Hacı Azərbaycanın yeraltı, yerüstü sərvətini erməniyə, rusa, cuhuda verib, bizə vermir. Rəhmətlik deyərdi, mən istəmirəm mənim xəlqim ələ baxan olsun, mən istəmirəm mənim xəlqim cibə baxsın. Mən istiyirəm mənim xəlqim öz zəhmətinə alışsın. Çünki insan ki öz zəhmətinə qatlaşarsa, özgəsindən üzü kölgəli olmaz. İnsan ki özgə əlinə baxarsa, insan ki özgəsindən nəsə görəcəksə, həmişə ac olar. İnsan gərək zəhmətə qatlaşsın.)

İmam Hüseyin Əleyhisəlam dedi:

– Mən sənə sual eliyərəm. Üç dənə sual, əgər üçünə də cavab versən, borcunun hamısını verərəm.

Deyir:

– Sən İmam oğlu İmam, mən kasıb bir adam.

İmam Hüseyin dedi:

– Mən sənə elə sual verməərəm ki onda aciz qalasan. Elə sual verərəm, sən onun barəsində danışmağı bacararsan.

Dedi:

– Buyur, Ya imam, əgər bilsəm, deyərəm, bilməsəm, örgədərsən mənə. Bu, yaxşı şeydi.

Dedi:

– İnsanın qiyməti, insanın dərəcəsi var. İnsan istiyir ucalsın, həm Allah yanında, həm məxluqat yanında. Neyləsin ki, insan ucalsın.

Qayıtdı o adam Həzrət İmam Hüseynin sualına belə cavab verdi:

– Ya imam, insan istiyirsə, qiymətli olar, Allah yanında da, bəşər yanında da. Ancaq gərək o insan elmli olsun. Elm nədir? Çox adam deyir ki, xoş xasiyyətli ol, əsəbli olma. Özgəsinin malına göz dikmə.

Dedi:

– Bəh-bəh, üç min dinarın min dinarını verdim. Əgər bir insan var ki, Allah da onu bəyənsin, məxluqat da bəyənsin?

Dedi:

– Ya imam, o insan ki elmi yox, varı-dövləti ola, həm də səxavətli ola. Var-dövlət pul deyil. Var-dövlət qızıl deyil, dollar deyil. Var-dövlət nədir? Var-dövlət insanın can sağlığı. Var-dövlət nədir? İnsan üçün əmin-amanlıqdır. Var-dövlət nədir? Yaxşı övladdır. Var-dövlət nədir? Yaxşı dostdur. Var-dövlət nədir? Yaxşı qonşudur. Var-dövlət nədir? Yaxşı ailən olsun. (Hələ biz deyirik ki, varın-dövlətin var, qızılın var, gümüşün var. Atalarımızın qəşəng sözü var: neynirəm qızıl teşdi ki,

onun içinə qan qusam. İnsanın varı-dövləti ibadətdi, onun can sağlığıdır, onun əl açıqlığı və həm də möhtac olana əl tutmasıdır. Sözü ilə əl tutmasıdır. Allah rəhmət eləsin Mir Möhsüm Ağanı, Allah rəhmət eləsin Mir Həsən Ağanı, Allah rəhmət eləsin başqa-başqa Ağalarımızı, Axundlarımızı. Onlar kasıb olub, amma onların indiki adı yaşıyır, çəkilir, adına salavat deyilir, Quran oxunur, vədinə and içilir. Onların sərvəti qurtarmaz. Ən varlı insan odur onun xəlq arasında hörməti olsun, onun Allah yanında hörməti olsun.) Ya imam, varlı insan təqva sahibləridir. Qiymətli insan kimdir? Təqva sahibləridir.

Allah rəhmət eləsin İmam Hüseynə, dedi:

– Bəh-bəh, sənin borcunun üçdə iki hissəsini də verdim. İmam Hüseyin dedi:

– Ərəb, bir insanın nə varı var, nə dövləti var, nə də səxavəti var. Bəs bu neyləsin?

Dedi:

– Ya imam, Allah yanında gərək insan fəqir olub, səbr eliyən olsun. Fəqir olasan, səbr eliyəsən, İbn Talibnən bərabərsən. Həzrət Əliynən bərabərsən. Fəqir olasan, səbrin də olmaya, onda Allah onu qaldırar qiyamət günündə itnən boyun-boyun eylər. Ay bəxtəvər filankəsin başına, gedən quru çaylar ona sular gəlib. Ay onun belə pulu, varı var, mənim yoxumdu, onun övladı var, mənim yoxumdu, onun qohum-əqrəbası çoxdu, mənim yoxdur. Buna nə deyərlər? Həsəd aparan. Həsəd aparan nədi? Həsəd insan imanını əldən alar.

Dedi:

– Bəh-bəh, ərəb, üç min dinarın hamısını verdim. Amma ərəb, mən sənin borcunu verdim, sən aparıb verdin borcu, yenə oldun kasıb. İstiyirəm sənin özünü dövlətli eliyəm. Bir

vaxt borclu idin, mən gəldim, sənə yaxşılığ etdim borcunu verdim. Amma yenə kasıbladın.

Dedi:

– Buyur.

Dedi:

– Bir adam nə var-dövləti var, nə sərvəti, nə də səxavəti, özdə kasıbdı, səbri də yoxdu neyləsin? Ərəb, neynəsün bu?

Dedi:

– Ya imam, məni bağışlaginən, halalı məhv etmək üçün gərək onu yandırasan. Elə bir insan ki deyir özgəsin pulu var, varı var, Allah onun başına bir od salsın, qoy dırnağınacan yandırsın.

İmam Hüseynin barmağında üzüyü vardı. Həzrəti İmam çıxartdı üzüyü ona verdi.

Ərəb dedi:

– Ya imam, bu üzüy mənimkidi?

Dedi:

– Bəli.

Dedi:

– İstiyirəm bunu satam.

Dedi:

– Mal sənindi, özün bilərsən.

Gətirdi bazara satdı. Bütöv varı, dövləti, sərvəti olmağınan bərabər, özünə də miniy almağınan bərabər, barmağnan göstərilən böyük ticarət sahiblərinnən biri oldu. Nəyə görə? Onun ədəbinə görə. Nəyə görə? Onun insan olduğuna görə. Nəyə görə? Onun mərifəti olduğuna görə.

Dedi:

– Bəh-bəh, qurban olum belə Mövlaya. Bir adam ki bu işi görə, belə Mövlayı tərif etməyə dəyər.

## Hz. Əlinin borcu

Həzrəti Əli Əleyhisalam gəldi bir gün evə, gördü ki, Fatimeyi Zəhra oturub, (Peğəmbərimizin qızıdır) dedi:

– Ya Fatimə, necədir halın?

Dedi:

– Əlican, belə yaxşıyam.

Həzrəti Əli dedi:

– Həsən niyə yatmır?

Dedi:

– Ya Əli, yatacağdır. İndi yuxu gedər gözünə. Axı ac adamın gözünə yuxu getməz.

Həzrət dedi:

– Ya Fatimə, nəsə uşağlarda bir şey var.

Dedi:

– Əlican, sənin nəyinnən gizlədim, üç gündür Həsən acdır. Bir şey yoxdur verməyə. Ona görə yuxu getmir gözünə.

Həzrəti Əli örtdü qapını, çıxdı. Şahmur adında bir yahudi var idi. Həzrət Şahmur adlı yahudidən on dinar borc pul aldı. Həsrəti Əlinin də bir xasiyyəti vardı, hansı küçəynən getsəydi, o küçəylə qayıtmazdı, başqa yolnan gələrdi. Nəyə görə? Qayıdanda o biri küçeylə gedərdi ki, o birilərin də halını soruşsun. Gəldi gördü ki, yolun üstündə Allah rəhmət eləsin Əmmar Yasər (O, Peyğəmbərin səhabəsi olub.)

Dedi:

– Əmmar.

Əmmar tez durdu dedi:

– Əli, sənsən?

Dedi:

– Əmmar, burda niyə əyləşibsən?

Dedi:

– Əli, oturmuşam bir az nəfəs alam, havamı dəyişəm.

Dedi:

– Əmmar, düzünü de.

Dedi:

– Əli, nəyi deyim e, acam, evə də gedə bilmirəm. Xəcalət çəkirəm, balalarım da acdır. Dörd gündür özüm də acam, ailəm də acdır.

Həzrəti Əli heç zad demədən həmən pulu çıxartdı verdi Əmmara. Əmmar ki aldı bu pulu, Əli axı evə necə gəlsin, ailə yanına necə gəlsin, ya məscidə necə getsin, ya Peyğəmbərin yanına necə getsin? Gedirdi gördü qabağdan bir dənə kişi dəvə gətirir. Həzrəti Əli öz-özünə dedi:

– Ay qəşəng bir pulum olaydı, bu dəvəni kəsib füqaraya paylardım. Ya da bu dəvəni minib cihad eliyərdim. Amma pulum yoxdur. Həzrəti Əli kişi ona gəlib çatanda dedi:

– Ərəb, dəvəni satmazsan?

Dedi:

– Satıram.

Dedi:

– Ancağ pulum yoxdur. Nisyə verərsən?

Dedi:

– Verərəm.

– Neçə dinara?

– Min dinara.

– Allah xeyir versin.

Dəvəni aldı. Axı mən evə belə gedə bilmərəm. Axı evdə uşağım ac, özüm ac. Dəvəni nisyə istiyən olsaydı satardım. Gördü iki nəfər qabağdan çıxdı. Gəldi yanaşdı dedi:

– Dəvə sənindi?

Dedi:

– Bəli. Satırsan?

Dedi:

– Satıram.

Dedi:

– Neçiyə deyirsən?

Həzrəti Əli öz-özünə fikirləşdi ki, elə qiymət deyim ki, almasınlar.

Dedi:

– On min dinara.

Dedi:

– Allah xeyir versin.

Çıxartdılar on min dinar pulu verdilər Həzrəti Əliyə. Həzrəti Əlinin kefi sazdır. Aparıb on dinardan borcu verəcəyəm, min dinarın dəvənin sahibinə verəcəyəm, qalanını da yetim-yesirə, füqaraya paylayacağam. Gəldi Peğəmbərin yanına çatmamış füqaralar töküldü. İndi paylayır bu pulları. On dinarını ayırıb, min dinarını da ayırıb, Həsəni üçün bir şey götürmüyüb paylıyıb. Allah tərəfindən Peyğəmbərə nida gəldi. Ya RəsulAllah, əmin oğlu Əlidən xəbərin varmı? Dedi, xeyir. Dedi, Əli bir dənə alver eliyib. Gəldilər dedilər:

– Ya Əli, Peyğəmbər deyir ki, Həsənin evdə acdır ha, yadından çıxartma.

Dedi:

– And olsun o Allaha, bir evin çörəyini saxlamışdım əlimdə. Əgər mənə deməsəydün, bunu da aparıb füqaraya verəcəydim. Gəldi Məscidə Peyğəmbər baxdı, dedi:

– Ya Əli necəsən? Başuva gələn qəzanı mən danışım sənə, ya sən danışırsan?

Dedi:

– Ya RəsulAllah, birinci Allahın Peyğəmbəri bilicidir.

Dedi:

– O dəvə satanı tanıdın? O füqara üçün getdin ha yahudidən pul aldın mənim balalarım üçün, mənim qızım üçün, gətirdin verdin Əmmar Yasərə on dinarı. Əli getdin ki, dəvə gətirdilər satdılar, dəvə alanı, dəvə satanı tanıdın?

Dedi:

– Yox, Ya RəsulAllah.

Dedi:

– Allah buyurur ki, yoxdan əgər bir şey verərsən, bir dinarıva min dinar verərəm. Əli, sən ki, yoxdan verdün, hər bir dinaruva Allah on min dinar sənə pul yetirdi. Dəvəni satan Cənabi Cəbrayıl idi. Dəvəni alan Cənabi Mikayılla İsrafil idi. Əli, heç kəsə borclu deyilsən. Yoxdan xərclədiyinə görə Allah onu sənə yetirib. Gətirdi həmən yahüdinin də borcunu verdi. (Yəni Ağaların etdiyi əməllər bizim üçün örnəkdi. Tikəvi paylıyarsansa, Allah tikəvin əvəzinə tikə verər.)

## Halallıq və ya dişlənmiş alma

Bir cütcü Ərdəbildən gəldi dəstəmaz almağa. Gördü bir dənə alma gəlir, bu adam da dəstəmaz almağ istiyirdi, onu götürdü. Allahın cəhənnəm odu yadından çıxdı. Götürdü almanı dişlədi, yemədi ha! Lapdan fikirləşdi, vay, mən nağarmışam. Bu almanı mən dişlədim. Qiyamətdə mən nə cavab verəcəyəm? Dedi, axtarıb bunun yiyəsini tapacam. Üzü yuxarı getdi. Gördü bu almadan ağacda çox var. Həmin almadı. Fırlandı bu yannan gəldi, öz-özünə dedi ki, bu ev sahibi mənə lazımdı. Dedilər:

– Bağın sahibi Allahnan danışır, yəni namaz qılır.

Namazı qurtardı, bunu buraxdılar.

Dedi:

– Bu almanı bilməmişəm, dişləmişəm. Bu almanı, dedi, gəl alım.

Dedi:

– Yox. Eliyə bilmərəm. Dedi, mənnən öncə qardaşım var. Onundu, əgər mənim payıma düşsə, halal xoşun olsun. Qardaşımın payına düşsə, halal eliyə bilmərəm.

Gəldi onun qardaşını tapdı. Tapanda buna dedi:

– Baba, bilməmişəm bu almanı dişləmişəm. Sənin qardaşının yanına gəlmişdim ki, halal elə. Dedi ki, eləyə bilmərəm. Dedim, niyə? Dedi ki, mal mənim deyil, eliyə bilmərəm. Dedi, baba, iki il qalıb qapında nökər işlərəm. Bunu mənə halal elə.

Dedi:

– Eləmirəm.

Dedi:

– Nə qədər canım var, sənin qapında işlərəm. Bunu mənə halal elə.

Dedi:

– Eləmirəm.

Dedi:

– Nətər eliyim bunu sən mənə halal eliyəsən. Hələ yeməmişəm e, dişləmişəm.

Dedi:

– Onda bu şərtlə sənə halal eliyərəm.

Dedi:

– Nədi?

Dedi:

– Mənim bir qızım var. İki gözü kordu, qulağı kardı, əlləri çolağdı, beldən şildi, ayağı da topaldı, dili də laldı. Bunu al, mən sənə halal eliyim.

Allahın qorxusu gəldi. Durdu bunun fikrinə qarşı dedi:

– Yox, Allahdan qorxuram, bu qızı alacam. Alaram, bir kəniz bunu saxlıyar.

Aldı, axşam gəldi bəy otağına, gəldi gördü bir dənə dünya gözəli oturub, xanımlar – xanımı. Bu, dal-dalı çəkildi.

Dedi:

– Hara gedirsən?

Dedi:

– Sən kimsən, mənim otağıma girmisən? O, kişi ki mənə söz verib, sən o qız deyilsən.

Dedi:

– Mənəm, bura gəl. Allah məni sənə yetirib.

Dedi:

– Mənim atam deyib gözləri kordu, namərdə baxmamışam mən, atam deyib dili laldı, qiybət qırmamışam, atam deyib beli şildi, yəni əyilə-əyilə bir şey götürməmişəm, qulağları kardı, bir dənə pis söz eşitməmişəm, əlim çolağdı, bir şey oğurlamamışam, ayağım topaldı, ora-bura getməmişəm. Bu şeylər məndə olub. Ona görə Allah yaradıb məni sənin üçün.

Bu adamın onnan iki oğlu olur. Birinin adını qoyur Müqqəddəs, birinə də öz adını qoydu. O, Əhməd idi. Anası ona o qədər süd verərdi. Deyərdi, Pərvərdigara, Ağam İmam Hüseyinin ziyarətinə gedəndə birinci qapını mən açım. Dəstəmaz alıb süd verərdi. Bir dəfə bilmədi cənabatdı, qüsulsuz buna süd verdi. Vaxt oldu Əhməd Kərbəlaya gedəndə gördü Kərbəlanın qapıları bağlanıb. Dedi:

– Məni buraxın içəri, mən elə bir qadınnan bu qapıya gəlmişəm ki, gərək qapıda qalmıyam, girəm içəri.

Dedilər:

– Belə bir qadınnan indi olmaz, sabah gələrsən.

Anasını sabah gətirdi, özü gəldi, gəzdi gördü İmam Hüseynin qapısında adamlar var.

– Məni buraxın, oğlu Əhməd dedi.

Dedilər:

– Bu gün olmaz, sabah gələrsən.

Dedi:

– Mən bu qapıya gəlmişəm. Bura nətər girəceysən, bağlıdı. Dedi:

– Qapı sahibi, bilirsən mən kiməm? Mən o şəxsin oğluyam ki, atam bir dənə almanı dişləməyinən gəldi mənim anamı aldı. Mən o ailədən əmələ gələn oğlanam. Öz də anam həmişə mənə dəstəmazdı süd verib. Qapı açılsın, mən girim. Qapı açıldı, girdi içəri. Ağanı ziyarət elədi, çıxdı.

Dedilər:

– Sən İmamsan, ya hansı Peyğəmbərsən? Sən bu qapını açdın. İmam Hüseyinsən ki, qapını açdın, Əbəlfəzsən?

Dedi:

– Ədə, nə İmam, nə Peyğəmbər, mən bir adi adamam. Bunu sən də eliyərsən, əgər qəlbin düz olsa, qabağından su axar. Gedib suya desən dayan, dayanacaq.

Qapını bağladı, çıxdı gəldi. Bu arvad səhər ora gələndə qapını açanda dedilər ana, oğlun gəldi ziyarət eylədi. Bu necə oğlandı, gəldi ziyarət elədi. Nə? Oğlum gəldi. Mən demişdim birinci mən gedərəm. Oğul, sənə bir dəfə bilməmişəm qüsulsuz süd vermişəm. Yoxsa birinci qapını mən açmalıydım. (Qadınların gərək üzü açıq olmalıdır. Qadınların heç bir yeri görülməməlidir. Qadın qadındır. Kişi kişi. Qadın çox zərif bir adamdır. Qadın ləkə götürər, kişi götürməz.)

## Qonaq

Bir adama qonağ gəlmişdi. Bu adam dedi ki, qaydadı belə, sən çörək yeyəndə “Bismillah” deyəndən sonra “İlahi, şükür” deməlisən.

O biri adam dedi:

– Yox mənim yetmiş yaşım var. Belə sözü deməmişəm.

Dedi:

– Madam ki, belədi, dur, mənim sənə verəcək çörəyim yoxdur.

Qonağ durub getdi. Allahdan nida gəldi ki, onun yetmiş yaşı var, çoxlu çörəyi var, gəlini var, ailəsi var. Sənin biraz çörəyini yeyəcəydi. Sən ona niyə çörək vermədin? Get, harda olsa, onu tap gətir. Qoy günorta yesin, getsin. Belə baxanda gördü ki, qonağ yolu alıb əlinə gedir. Bu adam gəldi çatdı qonağa. Dedi:

– Gəl gedək, çörək yeyək.

Dedi:

– Yox, getmirəm.

Çox elədi gəl gedək, dedi, getmirəm. Girdi atının qarnının altından keçdi. O, o kişini at qarışığ qoydu boynuna, gətirdi. Qoydu həyətinə. Dedi:

– Düş, çörəy yeyirsən?

Dedi:

– Yox. Bunun səbəbin mənə deyəcəksən. Axı sən mənə əvvəl çörəy vermədin. Soradan da ardımca niyə gəldin?

Dedi:

– Mənə Allahdan nida gəldi. Dedi ki, onun yetmiş yaşı var, dünyada bir şeydən ehtiyacı yoxdur. Həmi övlad, həmi ailə, həmi çörəy, bəs sənin biraz çörəyivi yesəydi nə olurdu, niyə vermədin? Get onu tap gətir, çörəyivi yesin. Qonağ çörəyi yedi.

Dedi:

– Mən də dönüb sizin dininizi qəbul edirəm. Deyin görüm siz nə eliyirsiz?

–Dedi:

– Allahımın elçisi var. Xəbər aparıb, xəbər gətirən. Allah yetmiş iki millət yaradıb. Ancağ Allah birdi.

O qonağ çörəyi yedi, sora Kəlmeyi-şəhadəti dedi, Kəlmeyi-təyyubəti dedi. Döndü oldu müsəlman. (Şıx Əhməddən eşitmişəm. Şıx Əhməd otuz iki nəfər uşağa dərs deyirdi. O cümlədən mən də uşağların içində idim. Bizə namaz öyrətdi, bizə "Yasin" öyrətdi, kəlmeyi-şəhadət öyrətdi. Belə-belə söhbətləri kəndin yaşlı arvadları gəlirdi söhbət eliyirdi. Mən də oturub onların söhbətlərini eşidirdim.)

## İmam Hüseynlə Əli Əkbər

Bir gün İmam Hüseyin Ağa küsüb çıxmışdı Kufədən. Ancağ ordan o qədər məktublar gəldi. Ya Hüseyin, sən burdan gedibsən, bizim günümüz çox çətindi. Sən gəl səni burda xəlifə qoyaq. Məktublar Kufədən gəlmişdi. Bəyəm atamı qılınclamağ yadınızdan çıxıb? Bəyəm qardaşıma zəhər verib öldürməy yadınızdan çıxıb? Mənə nə qədər əziyyətlər verdiyiviz yadımdan çıxıb? Yenə məktublar gələndə İmam balalarına iki nəfər – birinin adı Aqil, birinin adı Tofiq, qoşub onları göndərdi ora. Bu uşağlar getdi, dedilər ki, İmam Hüseyin gəlir. Hər yerdə hər zaman özünün söz gəzdirəni var, aravuran var.

O vaxtı Allah-tala Adəmi də yaratmamışdı, bizdən qabağ ki, Adəmi yaratmamışdı, bütün ruhları yığdı bir yerə, pərdəni götürdü, bir dənə də bayrağ qoydu ora. O pərdəni götürəndən sonra Kərbəla müsübətini ruhlara göstərdi. Dedi, bu bayrağı

kim götürə bilər. Bunu Əli Əleyhisalam istədi, İmam Həsən istədi, Əyyub Peyğəmbər istədi, İmam Hüseyin getdi götürdü.

Bunları qarşıladılar, onda Yezit Şamda idi. Şama getdilər ki, ay evin yıxılsın, oturubsan burda, İmam Hüseyin gəlir. Xəlifə keçəcək. İki dənə də uşağ göndərib. Gəldilər bir nəfərin evinə yığışıb əyləşmişdilər. O, uşağları tutdular, hamı qaçdı, hərə bir yerə. O uşağları qətlə yetirdilər.

Bunu eşidən İmam Hüseyin çox kədərləndi, adamlarını da götürüb Kufəyə yola düşdü. İmam Hüseyin Ağa gəlib Kərbəlaya çatdı. Nə qədər istiyir ki, bunun miniyi getsin irəli, getmədi. Düşdü aşağı, başını qoydu sinəsinin üstünə dedi:

– Ay Allah, bura mənim sonumdu, niyə yerimirsən?

Özü də baxıb gördü ki, on bir dəstə qoşun dayanıb. Uşağlar deyir, ata, biz bu yolu gəlib keçəndə heç burda əriy ağacı yoxdu. Burda nə qədər əriy ağacı var. İmam Hüseyin bilir, uşağlara demir. Çox qəmlənib oturmuşdu, Allah Salmana rəhmət eləsin. Ürəyini o qədər imamlara vermişdi ki, Imamın balaları buna əmi deyirdi.

Bir gün günəş yerindən çıxmışdı. Əli Əkbər çadırın böründə, günçıxana sarı durmuşdu. Yəmən şəhərinin şahına dedilər:

– Evin yıxılmasın, gör iki dənə çadır qurulub. Gecənin bir günü keçsə, bizi qıracağlar. Dedi:

– Qalanını biz qırağ da.

Dedi:

– Yox, özüm gedərəm.

Səhər-səhər şah gələndə gördü ki, çadırın böründə elə bil ay canlanıb. Əgər gecə qaranlığ olsa, işıq verər. Gün hava bulud olsa, gün şaxıyar.

Bu şahın bir qızı var idi. Dedi:

– Nə olaydı, bu cavan mənim qızımı alaydı.

Əli Əkbər gördü ki, şah gəlir, yeridi irəli, salam elədi, görüşdü.

Dedi:

– Sən kimin oğlusan?

Dedi:

– Mən İmam Hüseynin oğluyam.

Dedi:

– Atan hardadı?

Dedi:

– Çadırda əyləşib.

Gəldi keçdi içəri, salam eylədi, görüşdü. Əli Əkbər atasından haya eliyib içəri daxil olmadı.

Dedi:

– Ya Hüseyin, sən kimsən?

Dedi:

– Əli oğlu Hüseyinəm.

Dedi:

– Nə işdi, belə?

Dedi:

– Mənimlə vuruşmağa gəliblər.

Yəmən şahı dedi:

– İcazə ver onları bir saatın içində qətlə yetirim.

Dedi:

– Yox. Müharibə belədi. Ana oğulsuz qalar, gəlin yarsız qalar, qız qardaşsız qalar. Bəlkə onlarnan danışaram, razılaşar. İstəmirəm qan tökülsün.

Dedi:

– Ya Hüseyin, bir qızım var onu bu cavana verəcəm. İmam Hüseyin bilirdi ki, günortayacan Əli Əkbər qətlə yetiriləcək.

Dedi:

– Allah mübarək eləsin.

Şahın o saat qəlbi şad oldu. Bu sözü gəldi qızına dedi:

– Qızım, səni bu cavana vermişəm. Günü Günəş əvəz eliyər, gecəni Ay əvəz eliyər.

Dedi:

– Ata, nə o məni gördü, nə mən onu görmüşəm.

Dedi:

– Qızım, görməmiş vermişəm səni ona.

Səhər oldu, müharibə başladı. Allah Salmanı rəhmət eləsin. Aldılar əhatiyə uşağları, böyükləri yığdılar ora. Qəmli-qəmli oturmuşdu İmam Hüseyin Ağa. Düşməndən elçi gəldi dedi, nəyə oturmusan? Nəhlətə gəlmiş dedi, Arvad kimi başıvı aşağı salmısan. Gəl, müharibə eliyirəm. Gəl, qan tökməyə.

Dedi:

– Yox.

Dedi:

– Səni öldürməsəm, getmiyəcəm.

İmam Hüseyin hazırlaşırdı ki, Əli Əkbər gəldi. Dedi:

– Ata, meydana mən gedəcəm.

Dedi:

– Yox, oğul, özüm gedəcəm.

Dedi:

– Ata, sən mənim gözümün qabağında şəhid olsan, mən dözə bilmərəm, özüm gedəcəm.

Dedi:

– Onda anannan vidalaş, ondan sora get. Əli Əkbər gəldi ximələrinə gördü, ana elə qəmli oturub ki. Nə oğulun nitqi olmadı anaya bir söz deməyə, nə də ananın. Onsuz da Əli Əkbər gedir. Durdu ayağa dedi:

– Ya Əli Əkbər, bir ayağ saxla. Sənin tellərinə əl çəkməmişəm, oğul, sənə toy eləməmişəm, əllərə xına yaxmamışam, axı mən qəribəm. Qayda budu. Ana öləndə onu məzara oğul aparır.

Ana-bala vidalaşdılar. Əli Əkbər gəldi, getdi meydana.

Mən aşiq qarğamışa.

Ya Hüseyin.

Ya İmam Həsən.

Ya Imam Hüseyin.

Qar yağar qar qamışa.

Sizin o zülümlərinizə.

Dözərmi qarğamışlar.

Dedi:

– Ey uşağ, sən kimin oğlusan?

Dedi:

– Mən İmam Hüseyin oğluyam.

Dedi:

– Sənin ağzınnan süd iyi gəlir, sən get.

Dedi:

– Az danış, biz həmişə fürsəti düşmana vermişik. Əvvəl sən başla.

O ki onnan döyüşən şəxs fırlatdı qılıncı, düşdü Əli Əkbərin başına. Gördü qan gözlərini tutur, əl atdı torpağ götürdü, çəkdi başına ki, qan gəlməsin. Sora fırlandı, onun başına bir qılınc çəkdi ki, elə bil yerdən duman qopdu. Göydə mələklər əhsən, dedi.

Dedi:

– Sənə demədim uşağsan?!

Dedi:

– Haran sancdı?

Dedi:

– Ürəyimin başı.

Dedi:

– Allah sənə lənət eləsin. Sənin alnın möhür görmüyüb. Sənin dilin “La İlahə İllAllah” demiyib. Ürəyində Allah xofu, Əli xofu yoxdur. Ona görə ürəyin sancdı.

Orda düşmən pəhlivanı ikiyə parçalandı.

## Nuh peyğəmbərin yazısı

Nuh Peyğəmbər bilirsiz ki, ikinci Adəmdi. Nuhun gəmisi qərq olandan sonra onun qalıqlarını tapdılar. Bir dənə lövhə tapdılar, onun üstündə yazılar var idi. Dünyanın səkkiz dənə dilçi alimi gətirdilər bunu oxumaq üçün, heç biri də müsəlman deyil. Oxudular onu. Nuh Peyğəmbər yazıb, Ya Rəbbimsən bu beş kimsə üçün bu aləmi yaratmısan. Bu beş kimsəyə görə bizə kömək eylə. Olar da Muhəmməd, Əli, Həsən, Hüseyin, Fatimə. (O dua yazan var ha, onun yaxşısınada lənət eliyib pisdiyirlər.)

## Peyğəmbərin məsləhəti

İbrahim Peyğəmbər əsil bizim dinimizə aid olan Peyğəmbərdir. O, uşağ vaxtında elə baxıb səmaya. Hamı istaiş edib bütlərə, başqa-başqa şahlara, amma o deyib ki, mən bunu heç vaxt qəbul edə bilmərəm. Göyü, Yeri yaradan var, gecəni, gündüzü yaradan var. Onun da əmisi büt düzəldirdi, İbrahim də aparıb bu bütləri satardı bazarda. Sonra boğaza gəldi ki, mən nə vaxta qədər inanmadığım bir şeyi eliyirəm. Odu ki, gətirdi bütlərin boğazına ip bağladı başladı, sürüməyə. Heç kəsə xeyri olmayan, heç kəsə yaramıyan bütləri.

Camaat bunu eşitdi gəldilər bunu döydülər, söydülər, neylədilər, axır kənddən çıxmalı oldu.

Vilayətdən çıxandan sonra başına çox oyunlar gəldi. Oda atdılar Allahın yarikarlığıynan gül baxçasına döndü həmin oturduğu od. Çox müsübətlərdən sonra İbrahim peyğəmbərin yaşadığı ölkənin şahı dedi:

– Mən Allaham, səni öldürə də billəm, dirildə də billəm.

Dedi:

– Öldürədə bilərsən, dirildədə bilərsən, amma Allah kimi öldürüb-dirildə bilməzsən.

Gətirdi məhbusları bunu öldürün. Neylədilər, bu qəbul eləmədi. Allahsansa, neynək, Günəşi şərqdən çıxatma, qərbdən çıxart, şimaldan çıxart. Bunu eliyə bilməyəcəksən. Odur ki, kənddən, vilayətdən çıxmalı oldu. Vilayətdən çıxandan sonra Sara adlı yoldaşı oldu. Çox gözəl qız idi. Gözəlliyinə görə qorxdu ki, bunu mənim əlimdən alarlar. Sandığda apardı onu. Nə təhərnən getdi başqa vilayətlərdə məskən salmağa. Ümumiyyətlə, bunun günü-güzaranı o oldu ki, Allahın birliyini tanıtdırmağ. Nəhayət, övladı da olmurdu. Saranın özünün Həcər adı kənizi var idi. Bağışdadı buna. İbrahim Əleyhisalam kənizi götürdü, yaşamağa başladılar. Bundan bir dənə oğlu oldu – İsmayıl adlı. Olmamışdan qabağ Sara dedi:

– Bunu mənim gözüm görməsin.

İbrahim Peyğəmbər gətirdi onnarı Məkkə çölündə – Məkkənin düzənliyində atdı.

Həcər dedi:

– Məni kimə tapşırırsan?

Dedi:

– Səni Allaha tapşırıram.

Dedi:

– Allaha tapşırırsansa, eybi yoxdur, onda qəbulumdu.

Nəhayət, İbrahim Əleyhisalam qocaldı. İsmayıl orda evləndi.

İbrahim gəldi İsmayılın evinə, gördü ki, yoldaşı nəsə iş görür dedi:

– Sənin yoldaşın haradadı?

Dedi ki, iş dalınca gedib. Dedi, necə keçinirsiz? Necə keçinəcəyik, pis. Dolanışığımız pisdi. Dedi:

– Yoldaşın gələndə deyərsən ki, qapının kəndirini dəyişdirsin.

Bu gedəndən sonra İsmayıl Əleyhisalam gəldi. Yoldaşı dedi ki, bir nəfər kişi gəlmişdi dedi ki, qapının kəndirini dəyişdirsin.

Dedi:

– O, mənim atam imiş. O, sənnən narazı gedib. O, deyib ki, yoldaşuvı dəyişdir.

Odu ki, başqasıynan evləndi.

İbrahim Peğəmbər gəldi, yenə də yolu düşdü həmən yerə. Nağayrırsuz, neynürsüz, necə keçinirsiz? Gələn kimi bu gəlin başladı su gətirdi, bunun ayağlarını yumağa. Bunun qulluğunda dayananda dedi ki, necə dolanırsız? Dedi, şükr Allaha, dolanırıq. Lap yaxşı dolanırıq. Zəhmətimiz hədərə getmir. Dedi:

– Onda yoldaşın gələndə deyərsən ki, qapının kəndirindən bərk yapışsın.

Odur ki, İbrahim Əleyhisalam qayıdandan sonra İsmayıl evə gəldi. Yoldaşı elənçik dedi ona. İbrahim Əleyhisalamın sözündən sonra İsmayıl Əleyhisalam dedi ki, o, mənim atam imiş. O, səndən razı gedib. Allah da sənnən razı olsun. O, mənə tapşırığ verib ki, səndən möhkəm yapışım.

## Nuh Peyğəmbər

Min ilə qədər Nuh Peyğəmbərin ömrü olubdu. Allah tərəfindən ona Peyğəmbərlik göndərilib. Amma buna qulaq asanlar olmuyub. Çox təbliğatlar aparıbdı, qəbul olunmuyubdu. Nəhayət, Peyğəmbərlər qarğış eləməzlər heç vaxt. Amma Nuh Peyğəmbər Allahnan nida eliyib ki, Ya Allah, mən artıq bunlarnan bacara bilmirəm. Neyniyim, özün bilən məsləhətdi. Bunların dində olanını bağışla, dində olmayanların cəzasını özün ver. Odu ki, Allahdan nida gəldi ki, Ya Nuh, sənə inananları yığ bir yerə, mən inanmayanların haqı-sabını özüm eliyərəm. Sənniy döyül, sənin gücün çatmaz olara.

Odur ki, Nuh Peyğəmbər böyük bir gəmi düzəldir. Ucubunağ adlı ustaya, ustanın adı olub. Usta hər cürə materiallar yığdı yanına, gəmi düzəltdi. Lazım olan heyvanlardan cüt-cüt, öz yanlarında götürdülər. Biri onu qəbul eləmirdi. Dini qəbul eləmirdi, o qaldı. Qalanını isə götürdü, gəmiyə mindirdi. Bular gəmiyə minəndən sora gəmi dəryaya düşdü. Və o gəmi uca yer hardaydısa orda dayanmışdı. Allahın izni ilə elə sel gəldi, elə su gəldi, elə yağdı, elə tufan oldu ki, dərya əmələ gəldi. Gəldi dəryaya gəmi üzdü. Nə qədər qaldılar o suyun üstündə. Onun bir oğlu da özüynən idi. Amma inanmadığına görə suda boğuldu.

Allah dedi, sən onu qəbul eləməginən. O, sənin dinivi qəbul eləmir. O biri balalarıynan Peyğəmbər Cüdə dağının başında qərar tutdu. Sonra isə təzədən dünya yarandı.

## Qarı əhvalatı

Bi dənə rəvayət var. Allah rəhmət eləsin mənim bibimi. O da belə şeylərdə pis deyildi. O danışıb, mən eşitmişəm ki,

bir qarı varmış. O bi dənə qarı həmişə Allahı yada salarmış. O, Allahı yada saldığı üçün o, axşam yatıb yuxuya qalıb, Nuh Peyğəmbərnən o gəmidə olmuyub. Axşam yatıb, evdə elə su-dərya əmələ gələndə rəvayətə görə qadının xəbəri olmuyub. Ancax qarı sağ-salamat qalıb. Nəhayət, bir də ayılıb qarı gedib təndir başına ki, çörəy bişirsin, görüb təndirin yarısı suda. Balam bu nə olubdu, yağıb nə olub?

Nuh Peyğəmbər dəryadan çıxandan sonra, dünya üzrə gələndən sonra o, qarını tapıb. O, qarını tapıb ki, Allahın rizası varmış ürəyində. Ona görə bu heç dəryanın suyundan xəbəri olmuyub. İndi o, Allahı tanımaq, Allaha istaiş eləmək bir başqa şeydi. Gündə üç dəfə Allahı yaduva salmalısan. Allaha ibadət eliyirsən. Namazdakı sözlər Allaha yalvarışlardı. Allahdan nəsə diləməylərdi. Namazı qılmıyanlar helə bil Allahı yada salmır.

## Hz. Məhəmmədin Namaz Ricası

Peyğəmbər Salavatullah meyraca getmişdi. Məbəs gecəsinə. Həmin Məbəs gecəsində Peyğəmbər Salavatullah Uraq adlı atla Cəbrayıl Əleyhisalamı göyün yeddinci qatına apardı. Qatların hamısında Peyğəmbərlərə rast gəlir. Cürbəcür Peyğəmbərlərə rast gəldi, keçmiş Peyğəmbərlərə. Göyün ən yüksək qatında isə Allahtalaynan Peyğəmbər Salavatullahın arasında pərdə bir şey olub. Bircə dənə Amənə Rəsulu var Quranda "Bəqərə" surəsində. Axırıncı ayələridi. İkinci ayədir. Həmən o Amənə Rəsulda.

Allah-tala Peyğəmbər Salavatullahnan şəxsən özü danışıb. Allahın öz səsiynən, amma üzünü görmüyüb. Pərdə arxasından Allah-tala Rəsulla danışdı. Allahın yanından qayıdanda yolda Musa Əleyhisalam soruşdu:

– Ya Peyğəmbər, Allah-tala sənə nə dedi?

Dedi:

– Mənə dedi ki, əlli bir dəfə namaz qıl.

Dedi:

– Yox, sənin bəndələrin qılmayacaq. Ya Məhəmməd, qayıt Allahdan xahiş elə, rica elə ki, azaltsın bunu.

Qayıtdı Allah-tala əlli bir rukəti gətirdi otuz beş rukət elədi namazı. Musa Peyğəmbər dedi:

– Yenə çoxdu. Mən ümmətlərimə qıldıra bilməmişəm.

Yenə qayıdır, yenə rica eylədi. İkinci ricadan sonra on yeddi rukətə gətirdi. On yeddi rukətə gələndə Musa Əleyhi-salam yenə dedi:

– Yenə çoxdu.

Dedi:

– Yox, day üzüm gəlməz, qayıda bilmərəm. Day bəsdi, üzüm gəlməz Allahnan danışmağa.

Odur ki, on yeddi rukət namaz qaldı. Dedi, Allah-tala Amənə Rəsulda nə dedi sənə? Deyir, Allah-tala əvvəla namazı dedi mənə. İkincisi Allah-tala mənə dedi, sənin ümmətlərin keçmiş ümmətlər kimi deyil. Keçmiş ümmətdərin hər hansı günahı olurdu, o günahı mən boynuna yüz qat, min qat yazırdım. Sənin ümmətdərin üçün sənin xətrinə onu azaltmışam. Əgər bir işi yerinə yetirməzlərsə, mən onu yazmaram. Yetirərlərsə, yerinə mən yenə tövbə edəndə onların tövbəsindən keçərəm. Tövbələrin qəbul eliyərəm.

"Dünyada Seyidlər vardır ki, duası ilə yanan zəmiləri söndürür!... Onların qəlbini sındıranlara Pərvərdigar tərəfindən ən dəhşətli cəzalar qismət olur... Güllənin icadı möcüzə deyil. Möcüzə onun hədəfdən yayındıran Cəddin ağırlığında-

dır. (hacı Azərin Hacı Mir Sultan ağanın xatirəsinə yazdığı "Behişt zəvvarı" kitabından).

## Mansurla Hüssam

Abbasi xəlifələrindən Mənsur Dəvaniqi haqqında belə yazırlar. Mənsur Dəvaniqi Bağdadın bünövrəsini qoymuşdur. Elmə çox maraq göstərən olub, öz dövründə yunan filosoflarının əsərlərini Bağdada gətizdirib ərəb dilinə tərcümə etdirib yaydırmışdır. Lakin Quranı oxumağı yasaq etmişdir. O, Əhlibeytin düşməni olub. Mənsura Allah elə iti bir yaddaş veribmiş ki, hər kim onun yanında həcmindən asılı olmayaraq bir kitab oxusaymış, o, yadında saxlayarmış. Oğluna verilən yaddaş isə ikinci oxunuşda həmin əsərin yadda saxlanılmasına kifayət edərdi. Mənsurun bir kənizi olub, o, üçüncü dəfə eşitdiyin yadda saxlayarmış.

Mənsur baxıb görür məndə, oğlumda və kənizimdə bu məharət var. Bizim yanımızda heç kəs yazdığın deyə bilməyəcək ki, mən yazmışam. Odur ki, car çəkdirir hər kəs yazdığı əsəri başqası bilmədən oxuyub Xəlifəyə təqdim etsə, həmin yazılan əsərin ağırlığı qədər ona xəzinədən, qızıl, ləl-cəvahirat verəcəyəm. Xəbər yayıldı. Yazanlar öz əsərlərini gətirdilər. Xəlifə məclis tərtib etdirdi. Yazana dedi:

– Oxu!

Yazan öz əsərini oxudu. Mənsur dedi:

– Mən bunu bilirəm, inanmırsan bax, mən sənə sətirbəsətir söyləyim. Yazan kitaba baxdı. Mənsur əvvəldən axıra kimi yazını söylədi və dedi, bunu elə mənim oğlum da bilir. Odur ki, oğluna dedi:

– Bala, sən de, o da dedi. Dedi:

– Üstəlik pərdənin arxasında olan kənizim də bilir. Üçüncü oxunuşda kəniz də əzbərləmişdi. O da dedi. Bu qayda ilə nə qədər yazanlar gəldisə, istəklərinə nail ola bilmədilər. Ona görə ki, iti yaddaşlılar onları əzbərləyirdilər.

O dövürdə İmam Cəfər Sadiqin (ə) Hüssam adında bir şagirdi var idi. Gördü ki, Allah bəndəsi Allahın ona verdiyi iti yaddaşa xatir camaatı məsxərəyə qoyur. Gedib mərmər qırıqlarına, daş parçalarına, ağır kütləli qırıntılara kəlmə və cümlə təsiri bağışlamayan qarışıq həriflərdən ibarət cümlələr yazdı. Həmin yazdığlarını iki cuvala yığıb ulağın belinə çatdı. Gəldi xəlifə sarayının qarşısına. Təğyiri-libas olan Hüssamı heç kəs tanımadı. Nəhayət, Xəlifə hüzurunda yazdığını oxudu. Xəlifə yadda saxlaya bilmədi. Dedi:

– Oğul, oxu. O da bilmədi.

Dedi:

– Kəniz, oxu. O da bilmədi.

Xəlifə dedi:

– Kişi vədim vəddir. Gətir yazılarını qoy tərəziyə, qızılı al.

Hüssam dedi:

– Xəlifə yazdıqlarımın çoxu həyətdə ulağın yanındadır.

Dedi:

– Get gətir.

Bir kisə dolusu ağır yükü gətirib yerə qoydu.

Xəlifə dedi:

– Bu qədər qızıl versəm, xəzinənin sərvəti tükənəcək.

Hüssam ikinci çuvalı gətirməyə gedəndə Xəlifə dedi:

– Hara gedirsən?

Dedi:

– Bir çuval qalıb, onu da gətirim.

Dedi:

– Ay kişi, mənim evimi yıxdın, de görüm bu ağılla sən kimsən?

Hüssam təğyiri-libas olub özünü bildirərək dedi:

– Xəlifə, Allah sənə, oğluna, kənizinə bu iti yaddaşı verib ki, camaatı ələ salasan? Bəsdir, çəkil bu yoldan. Hüssamın bu işindən xəlifə nəticə çıxarıb bir daha belə addım atmadı.

## Qəbr əzabı

Bir nəfər peyğəmbərin dostu olur. Bu peyğəmbərdən xahiş eliyir ki, mən rəhmətə gedəndə məni qəbrə özün qoyarsan ki, mənim qəbir əzabım yüngül olsun. O adamı peyğəmbər yaxşı bir adam kimi tanıyırdı. Elə də olur. Bu adam rəhmətə gedir. Vəsiyyət elədiyi kimi o adamı qəbrə peyğəmbər özü qoyur. Qəbirdən çıxanda peyğəmbərin simasında dəyişiklik oldu. Yaxınları soruşur ki, ya peyğəmbər, qəbirə qoyanda adamlar deyirdi ki, xoş bunun halına onu peyğəmbər qəbrə qoydu. Qəbir əzabı yüngül olacağ. Buna peyğəmbər qəzəblənir. Adamlara cavab vermir. Bir az keçənnən sora adamlar deyir:

– Ya peyğəmbər, niyə sual verəndə əsəbləşdüz? Onlar hardan bilir ki, Peyğəmbər onu qəbrə qoyubdu, onun əzabları yüngül oldu. O, elədiyi əməllərə görə cəzasın almalıdır. Mömnin idi, adamlarla yaxşı rəfatr eliyərdi. Ailəsinə o qədər əzazil olub ki, sizlərin görmədiklərini mən gördüm. Mən onun qəbr əzabını, qəbirin onu necə sıxdığını gördüm. Bu əzazil olduğuna görə, ailəsini incitdiyiynə görə ailə ilə rəftarında əzazil olduğuna görə, onun əzabı böyükdür.

## Bir anbar xurma

Peyğəmbər zamanı bir şəxs var idi. Tacir idi. O dünyadan gedənnən sonra bir anbar xurması qalır. Oğul atanın qırxı çıxannan sonra gedib peyğəmbərə dedi:

– Ya Peyğəmbər, sənə fəda olsun. Mənim atamın bir anbar xurması qalıb. Siftə sənin əlinlə onu payliyak yetimə, fağıra, fuğariyə.

Dedi:

– Oğul, getginən gələrəm, amma orda yeyənləri yox, yeməyənləri, kasıbları, yoxsulları yığ oraya. Sonra mən gələrəm paylıyaruq.

Peyğəmbər gəldi ora. Gəldi və bir anbar xurmanı payladı. Axırda gördü kisənin dibində bir xurma düşüb qalıb. Həmişə dibdə olan xurma qurddu olar. Götürdü əlinə, gördü əlinin üstündə qurd gəzir. Dedi:

– Oğul, bura gəl. Bir anbar xurmanın savabın sənlə mən qazandım. Bunun savabı atuva getmədi. Çünki atun özü öz əli ilə eysan etmədi. Bu qurddu xurmanı özü öz əli ilə eysan eləsəydi, yaxşı olardı. Bir yetimin, sağırın ağzın şirin eyləsəydi, o bir anbar xurmanın savabın qazanardı. (Gərək biz öz əlimiznən qazanağ savabı. Sağ əl verəni sol əl bilməsin. Yoxsa burdan eylan eylədün. Sənin verdiğün hədər getdi. Ona görə verdiğivi heç kəsə deməyəsən.)

## Alicənab kişi

Peyğəmbər vaxtı bir alicənab şəxs var idi. Onun üç oğlu var idi. Qızı yox idi. Helə arvad onnan deyinərdi:

– Ay kişi, sən aldığuvu neynəyirsən? Dal günümüzə bir şey yığmuruq. Hara qoyursan, hara xərcləyirsən?

Kişi dedi:

– Ay arvad, olanım budur.

Arvadı bir söz demədi. Deyillər uşaq evdə nə görsə, onu da götürər. Kişi çox oturub fikirləşdi. Gərək mən oğlanlarımı belə başa salam. Mənim gərək oğlanlarım mən gedən yolu getsinlər. Məsələn, onun getdiyi yol nə idi? Kişi o qədər fağur-fuğaraya, o qədər sağur-suğura, o qədər başsızlara əl tutmuşdu ki, heç kəs bilməzdi. Evdə nə arvad, nə gəlin, nə də uşaq bilərdi. Heç nə deməzdi oğlannarına. Bir gün bir şəxs dünyadan gedəndə kişi birinci oğluna dedi:

– Bu gün özümü elə pis hiss edirəm ki, get mərasimə gör nə danışırlar, nə deyirlər? Məndən sonra siz gedəcəksiniz.

Getdi oğul, qayıtdı. Adətən, bir şəxsi qəbrə qoyanda hamı deyər, sənə Allah rəhmət eləsün. Yaxşı insan idi, gözəl insan idi.

Dedi:

– Atacan heç kəs, heç nə demədi. Dəfn elədilər. Hamı başın aşağı saldı. Üz alıb getdi.

Ata dedi:

– Oğul, gördün?

İkinci şəxs dünyadan gedəndə kişi ortancıl oğulu göndərdi.

Dedi:

– Oğul, dəfn edəndə nə dedilər. Gedəndə mərhumlarçin söz diyirlər axır. Dedi:

– Ata, onu torpağa qoyanda, dəfn eliyəndə, heç kim onun üstünə bir ovuc torpağ atmadı. Hamı çıxa-çıxa dedi:

– Şükür sənə, canımız bundan qurtardı.

– Oğul, belə dedilər?

Dedi:

– Bəli.

Bir şəxs dünyadan gedəndə ora kiçik oğlunu göndərdi. Gələndə kiçik oğuldan soruşdu:

– Oğul, getdün nə gördün, nə dedilər?

– Ata necə gözəl insan imiş. Necə alicənab insan imiş. Biri üzün torpağa qoyub ağlıyırdı. Biri deyirdi, torpağıva qurban olum. Biri deyirdi, yataq yerinə qurban olum. Biri deyirdi, çörəyimi kəsdün. Biri deyirdi, əlini üzdüm hər şeydən. Hamının köməyi idi.

Oğul, get qardaşlaruvu çagır. Oğlannarın üçün də əyləşdirdi. Arvaddar bilmir, ana bilmir. Tək özü oldu. Üç oğul oldu. Dedi:

– Oğul, birincini dəfn edəndə gördüz. O adam o qədər mamiləyə pul verərdi ki! O qədər borc əvəzinə puli artığına verərdi. Biz mamilə deyürük. O qədər özü üçün günah qazandı ki, hamı küskün çıxdı. Gördüz.

Dedilər:

– Bəli, ata.

İkincisi hamını şeytan eyləmişdi. Hamının evini yıxırdı. Hamının dalincan danışırdı. Ona görə də hamı şükür deyir ki, ondan canımız qurtardı. Üçüncü şəxs o qədər alicənab idi, o qədər yetim, sagır, fağır, kasıb sevindirib ki, onun böyüklüyün heç kim bilmədi.

– Hansı atanın evladdarı başın aşagı dikmişdı?

Dedi:

– İki nəfərin evladdarı başın aşagı dikmişdi. Dedi, axrincnının evladdarı dik tutmuşdu başını.

Dedi:

– Mən də ogul, sizün başıvuzi dik eləmişəm. Hec vaxtı, mən bu yaşa dolmuşam, ölümümə az qalıb, bilmərəm havaxt

ölerəm. Mən neyləmişəm, özum eləmişəm. Evdə mənim arvadım da bilmiyib, siz oglanlarım da bilmiyibsuz, gəlinlərim də bilmiyib. Niyə görə biləsüz?! Sabah o şəxsin arvadı bir məclisdə əyləşib təzə paltar geyəndə, bir kəlmə söz diyəndə mənim arvadım diyər ki, buna bax, mənim pulumnan gəlib bu yerə cıxıb. Ona sərki verərdi. Mən ona görə deməmişəm arvada, qoy gəlinlər mənim sirrimi bilməsinlər. Mən kimçün neynirəm, onun da gəlni var, gəlni olacag. Nə vaxtsa mənim qaynatam onu gətirib bu yerə cıxardib. Cünki olarin da cavannari var sizun kimi. Olar da cavandılar, söbet eliyəndə olara diyərsuz ki, mənim atamın çöreyilə gəlib bu yerə çıxmısuz. Oglum, mən hec biruzə bildirməmişəm. Əgər mənim yolumnan gedeceksüz, elediyim zəhmətim, hakkım süzə halal olsun, yox, əgər elediyüzi arvada, uşaga, anuza danışacaysuz, onda hakkımı halal eləmirəm. Qoy verdiyüzi hec kim bilməsin. Orda oglanları söz verdilər dedilər.

– Ata, biz də sən gedən yolu gedəcüy.

Vaxt, məqam geldi, kişi dünyadan getti. Allah! Kişini nə nooya apadılar, dəfn eliyəndə hamiya bəyan oldu ki, o kişi kimin ücün nə eliyib, kimin ücün nə işlər görüb. Ogllanlar qaldı məətəl.

Didilər:

– Bizim atamız diyən düz imiş. Biz də bu yoli gedəcüy.

(Ata oğlı yanında otuzdurub, vəsiyyət eləməlidi. Vəsiyyət eləməlidi ki, bala, sən bu yolı ged, gedməğinən. Görün ata nə qədər rahat gedər bu dünyadan.)

## Gəlin-məleykə

Bir gəlin malaykemiş. Bunun qaynanası dünyada heç kimə yaxşılıq eləməmişdi. Bir dənə qonşusuna qara çömçə, bir

dənə süpürgə verir. Biz can verəndə bizim başımızı kəsillər axı. Qaynana can verəndə gəlin məlaykə idi axı. Gedir durur kənarda, əri görub qeyzlənir. Sora mafa gedende malaykə görür, biz görmürüy axı. Görür qara cölməynən süpürgə cala-cala gedir. Gəlin şakqanaq cəkib gülür. Əri dilin-agzın ceyniyir ki, bu niyə gülür?! Ananı məzara qoyaram, bu arvadnan başlıyaram. Ogul gəlib arvadın cagırır. Diyir:

– Neynirsən?

Diyir ki, bura gel, bura! Mənim anam can verirdi, ebele ehali oturmuşdu sən niyə şakqanaq çəkib gülürdün?!

Dedi:

– Soruşma, peşmanciliyin çəkərsən.

Onda diyir yaxşı, mafa gedendə niyə şakqanaq çəkib gülürdün?! Dedi:

– Soruşma, peşman olarsan.

Oğul bir də soruşdu. Gəlin dedi:

– Yaxşı, anan can verəndə munun başın kəsdilər. Camaahat hamı otdi qanın icində, mən onda oturmadım, getdim oturdum qıragda. İkinci mafa gedəndə sənin anan dünyada hec yaxşılıq eləmib, bir qara cölməy, bir də qara süpürgə verib qonşuluğda. Onnar mafanın arxasınca gedirdi. Mən də ona gülürüm. Bunu deyib gəlin gözdən itdi. Malaykə idi də. Oğul başınə, qıçınə döydü. Arvat da əldən getdi, ana da getdi.

## Naxələf oğul

Bir arvad, bir kişi olur. Buların heç evladı olmur. Əlin açır Allah dərgahına. Degir, Ya Rəbbim Allah, bizə bir evlad verginən. Yeddi qurban kəsərəm. Allah-tala bulara bir oğul payı verir.

Bu uşağ böyüyür, çıxır küçiyə. O uşağnan oyniyır, onu vurur, bunu vurur. O zad var e, ater. O uşağın gözün kor eliyir, bu uşağın gözün kor eliyir. Bir gün, iki gün, o gəlir ki, uşağın mənim uşağımın gözün çıxardıb, bu gəlib ki, uşağın mənim uşağımın gözün çıxardıb. Bu kişi bilmir ki, neyləsin. Genə əlin açır Allahın dərgahına. Deyir:

– Ya Rəbbim, boyun almışdım ölməyinə, ginə də yeddi qurban kəsərəm, alginən onu mənim əlimdən.

Allah-tala həmən uşağı alır onun əlindən. (Canı ağriyəndə balasın əyağının altında qoyur axı.)

## Allaha şükr etmək

Bir kişinən arvad varmış. Buların neçə oğlu var imiş. Kişi Peyğəmbərlərdən imiş. Bir gün bu kişinin bədənin qurd basır. Bədəni belə olir ki, mən nə deyim sənə. Arının zadı olur e, biçör. Bir gün şeytan gəlir ki, bu kişinin imanlığın əlindən alsın. Kişi helə diyirmiş ki, Allah məni bundan da pis günə qoysa, ginə də diyəcəm, min şükür. Bir gün bu kişinin bir oğlu rəhmətə gedir. Deyir, Allaha çox şükür. Bir neçə gündən sora ikinci oğlu rəhmətə gedir. Kişi əlin açır, Allaha çox şükür eliyir. Şəri-şeytan gəlir kişinin yanına. Diyir:

– Sənin başua bu işdər gəlib, ginə diyirsən ki, Allaha min şükür.

Kişinin gəlinləri də ölür. Ginə kişi əlin qaldırır Allahın dərgahına deyir:

– İlahi, sənə çox şükür, İlahi, sənə min şükür.

Yarım saatdan sora kişi oldi cavan bir oğlan. Oğlanları da gəldi, gəlinləri də gəldi, ayləsi də dirildi. Deməli, şeytan bunun ürəyin ala bilmədi.

## İnsan Nəfsi

Həzrət Əliyə sual verillər ki, ən mundar şey nədir dünyada?

Deyillər:

– Donuzdu.

Deyir:

– Yox.

Deyillər:

– İtdi?

Deyir:

– Yox, ən mundar şey insanın nəfsidi.

## Peyğəmbərin uzaqgörənliyi

İmam Hüseyn gəlir görür ki, yeməy yoxdu, qardaşı Həsən də uşağıdı. Peyğəmbər deyir ki, nədi? Deyər, nədi? Qızı Fatimə deyir ki, evdə yeməy yoxdu.

Peyğəmbər qızı Fatiməyə deyər ki, keç o üzdən yeməy gətir. Keçər o tərəfə, görər cənnətdən gələn xurma. Gətirər verər atasına.

Peyğəmbər çıxardar bir dənə qoyar İmam Həsənin ağzına, öpər dodağınnan. Bir dənə də qoyar İmam Hüseynin ağzına, öpər onun boğazınnan. Çıxanda Fatimə deyər:

– Baba, sən niyə belə elədün?

Deyir:

– Vaxt gələcəy, bunun ailəsi buna zəhər verəcəy. O qoy ölümü yüngül olsun. Vaxt gələcəy, Şümür olacağ bir dənə Şümürüstandan. Bu Şümür ən yaxın dostu olub İmam Hüseynin. Sonra keçib o biri tərəfə. Şümürün taleyini soruşublar ki, kim-

di, bu deyib, üzr istəyirəm, filankəsdən əmələ gələnnərdi, 6-7 kişidən əmələ gələndi. Onun ürəyində qalmışdı da o, İmam Hüseyn düz danışmalıdı, danışdı da. Deyir, öpürəm onun boğazının altınnan ki, kafirlər bunun boğazını qoy kəsə bilməsinnər. Budu da, kəsə bilmir.

## Loğmanın şağirdi

Loğmanın ən böyük təbibi olub. Günnərin bir günü loğman imtahan götürürmüş. Bütün tələbələr gəlir imtahan verir tibbdən. Axırda nəzəri imtahan imiş, elə-belə imtahan. Görüm bunun biliyi, səviyyəsi çatacaq, çatmayacağ? Bura qoyullar kəlbətin, isti köz, bir də kül. Kim gəlib əlin atıb götürür, yanır əli. Ərəstun baxıb o üzə-bu üzə, gedib külü götürüb, deyib, hə, indi qoyun mənim ovucuma bunu. Qoyublar, keçib imtahannan.

Günnərin bir günü loğman səfərdəymiş. Bunun arvadı möhkəm xəstələnir. Bütün həkimlər yığılar, dayı loğmanın ailəsidi də, xəstələnib, gedəllər bunun yanına. Müalicə eliyə bilməzlər bunu, heç zad yemir. Günü-günnən arığlıyar. Ailəsi gələr deyər ki, Ərəstun, sənin müəlliminin yoldaşı xəstədi, həkimlər onu müalicə eliyəmmir. Sən də get dəy. Səninçün də zəhmət çəkib, sənin müəllimin olub, təbibin olub. Gedər, görər bütün müalicələr olub.

Deyər:

– Deyin görüm mənə, bu loğmanın yoldaşının əsli, nəsli, zatı hardandı?

Deyillər:

– Bunun zatı dağdandı.

Deyib:

– Buna pendir verün, doşab verün, lavaş verün, bal verün, dağ suyu verün. Bunu eliyənnən sora qadın düzələr.

Yolda loğmana deyillər ki, Loğman, bəlkə də ailən indi gedib rəhmətə.

Gələr, görər arvad sağdı. Bütün əhvalatları danışar. Deyər:

– Səni kim sağaltdı?

Deyər:

– Sənin şagirdün Ərəstun.

Deyir:

– Sənə nə dedi?

Deyir:

– Mənə dedi ki, sənin kökün, nəslin hardandı, dedim dağdan. Müalicələr yazdı. Mən onnan sağaldım.

Deyir:

– Əhsən ona.

## Loğmanın möhləti

Bir dəfə Əzrayıl Loğmana deyir ki, sənin canıvı alacam.

Deyir ki, mənim canımı gedək o çəmənniyin, çayın qırağında al.

Gedir.

Deyir:

– Oxxay, necə yaşamalı dünyadı.

Əzrayıl deyir:

– Loğman, sən niyə dedin mənim burda canımı al?

Deyir ki, onsuz da öləcəm, dedim, gözəl bir təbiət namında ölüm.

## Qarışqanın balasına yemək verirəm,
## sənin balana yemək vermiyəcəm?

Bu olur Nil çayı sahilində. Yəni Səudiyyə Ərəbistanı ərazisində. Zəkəriyyə peyğəmbər olur. Görür ki, Əzrayıl gəlir, başdıyır namaz qılmağa. Qutarmır namazı, nə qədər əlləşir, qutarmır. Əzrayıl gedir, ikinci dəfə görür yenə Əzrayıl gəlir. Başdıyır, zikr eləməyə. Zikr eliyəndə Allah-təala, Əzrayıl dəyməz insana. Eliyir, eliyir, eliyir, Əzrayıl da gözdüyür, gözdüyür, axırda, gedir. Üçüncü dəfə Əzrayıl gəlir, libasını dəyişir, başdıyır külüngü götürür, qəbir qazımağa. Bu da bunun yanınnan gəlib keçirmiş. Deyər:

– Allah qüvvət versin.

Deyər:

– Sağ ol.

Deyir:

– Amma bu qəbiri qazıram, bilmirəm bu qazdığım qəbir həmin ölən adama boy verəcəy, vermiyəcəy?

Deyir:

– O adam nə boyda olar?

Deyir:

– Elə sən boyda.

Deyir:

– Uzan, sənin boyuvu ölçüm də mən.

Uzanar, labasın dəyişər, deyər:

– Mən Əzrayılam. Bir dəfə gəldim, gördüm, namaz qılırsan, dinmədim, bir dəfə gəldim, gördüm, təsbeh çevirirsən, dinmədim.

Deyir:

– Onda mənə bir dəqiqə də ver, Allahnan danışım.

Deyir:

– Hə, buyur.

Gedir Allahın yanına. Deyər ki, mən öləcəm, mənim bir dənə qızım var, məndən sora onun aqibəti nə olacağ?

Allah deyər:

– Götür əsanı.

Götürər əsanı.

Deyər:

– Vur çaya.

Vurar çaya, çay quruyar, altında bir qaya görünər.

Deyər:

– Vur o qayaya.

Vurar qayaya.

Deyər:

– Bir dənə də vur qayaya.

Vurar qayaya, görər bir qarışqa ağzında bir dənə bığda balasına yeməy aparır.

Deyər:

– Ya mənim həbibim, mən bu boyda çayın altında bir dənə qaya yaratmışam, qayanın altında da qaya. Qarışqanın balasına yeməy verirəm, sənin balana yeməy vermiyəcəm?

## Böyük gələndə ayağa durarlar

Bir tələbə bir alimin yanında elm öyrənirdi. Tələbə hər gün bulara gələndə din alimi qalxardı ayağa. Bir gün, iki gün, beş gün. Tələbə dedi:

– Qurban olum, mən gələndə sən ayağa durmayasan.

Dedi:

– Bala, sən nə karəsən ki, mən ayağa duram, mən sənə tərbiyə öyrədirəm. Yəni evə adam gələndə ayağa durarlar.

## Daş

Peyğəmbərə daş atdılar, bu yıxıldı. Daş atan dedi:

- Ə get gör öldü-ölmədi.

Gəldi dedi:

- Peyğəmbər deyir İlahi, mənə daş atanın taxsırından keçmişəm səndə keç o, döndü müsəlman oldu.

## Hələ nəzəri üstümdədi

Musa Əleyhisalam Turi-Sinaya Allahla danışmağa gedir. Növbəti dəfə gedəndə kəndlərində bir kasıb lap belə lüt kasıb dedi:

– Ya Musa, mənim ərzibəndiyimi eliyərsən Allah-talıya?

Dedi:

– Eliyərəm.

Musa Səlavatullah Turi-Sinada Allahla danışandan sonra dedi:

– Ya Rəbbim, bizim kənddə sənin bir bəndən var, lap lüt kasıbdı, ərzibəntdiyini eliyirəm.

Dedi:

– Gedib ona deyərsən ki, onu ondan da pis günə qoyacam.

Gəlir. Deyir:

– Ya Musa, neynədin?

Deyir:

– Elədin ərzibəntdiyimi?

Dedi:

– Hə, elədim.

Dedi:

– Nə dedi?

Dedi:

– Onu ondan da pis günə qoyacam.

Dedi:

– Şükür İlahi.

Dedi:

– Ə, nəyə şükür eliyirsən?

Dedi:

– Hələ nəzəri mənim üstümdədi.

Allah-tala ondan sonra tökdü onun başından var-dövləti. Gərək şükr edəsən. Gərək nəfəsi alanda şükür eliyəsən, verəndə də şükür eliyəsən.

## İki şeyi unutma, iki şeyi unut, dörd şeydən də özünü qoru

Peyğəmbər oğluna nəsihət eliyir.

Deyir:

– Oğlum, iki şeyi unutma, iki şeyi unut, dörd şeydən də özünü qoru.

Dedi:

– Ata o, nədi?

Dedi, iki şeyi unutma, o deməkdi ki, ölümü unutma, bir də Allaha zikir eləməyini. O iki şey ki, var, unut, kim sənə pisliy eliyib unut, kimə yaxşılığ eləmisən, onu da unut.

İkinci dörd dənə nədi?

Deyir:

– Gözüvü naməhrəmdən, qulağıvı böhtandan, dilivi yalandan, qəlbivi şeytandan qoru.

## Qonağın qəsri

İbrahim Xəlil Peyğəmbər heç bir zaman qonağsız çörəy yeməzmiş. Günlərin bir günündə qonağı gəlir. Oturur, bunu çörəy yeməyə dəvət edir. Bu vaxt bir dənə sail gəlir. Qonağ əlini atır xurcundan bir dənə çörəy verir. Çörəyi yeyəndən sonra yatırlar. Yatandan sonra İbrahim Xəlil Peyğəmbər yatır, yuxuda görür ki, getdiyi göyün sahibi odur. Yeddinci göydə mənim qəsirimin yanında bir dənə qəsir. Deyir ki, Ya Rəbbim, bu kimin qəsridir?

Deyir:

– Bu sənin evində çörək yeyən qonağın evidir, çünki son çörəyini də sailə verdi.

## Əbabil quşları

Əbabil quşları olub. O olub Peyğəmbər Salavatullah anadan olmamışdan qabağ. O quşlar, deməli, Əbabil adlı bir zalım olub. Gəlib Kəbəni dağıtmağdan ötrü. Qoşunnan gəlibdi. Şəhər əhli şəhərdən çıxıb, təkcə Peyğəmbər Salavatullahın babası Mütəllib qalıb. Heç yerə getmiyib. Axşamçağı olubdu. Əbabil sifariş göndəribdir ki, gəlirik dağıtmağdan ötrü Kəbəni. Bu vaxtı Mütəllib gəlib buların qarşısına deyib ki, mənim dəvələrimin başını sənin qoşunun kəsiblər. Dəvələrimi qaytar. Deyir bir bu boyda vilayət üçün gəlmişik, sən bir dənə dəvə üçün gəlmisən. Deyir dəvənin sahibi mənəm, onun da sahibi var, özü bilər, qoruyar onun sahibi. Odur ki, Əbabil görüb ki, əzəməti belə başqa cürdür, deyib. Bunun dəvələrini qaytarın. Neçə dəvəsini kəsmisizsə, qaytarın. Bunun dəvələrini qaytarırlar. Məqsəd dəvə deyildi, məqsəd o idi ki, deyirdi ki, yəni

mən oranı Allaha tapşırmışam. Oranın yiyəsi var. Dəvənin yiyəsi mənəm, onun yiyəsi özü bilər. Gəldi qapıda dayandı ki, Pərvərdigara, mənim gücüm çatmır, bu boyda qoşunun qarşısında dayanan deyiləm. Bu sən, bu sənin evin. Müdafiyə eliyərsən, sən bilərsən, eləmirsəndə, özün bilərsən.

Odur ki, səhər qoşun hücum çəkibdi, fillərnən gəlibmişlər. Qoşun ki hücum çəkübdü, Məkkəyə daxil olublar. Bu vaxt göydən əbabil quşları deyirlər, bu quşlar ağızlarında rəvayətə görə palçığdı, amma o palçığ oların dimdiyindən yerə düşən kimi qurğuşun olub gəlib düşüb qoşun başçılarının başının üstünə. Bu İlahi bir qüvvədi. Qoşun hamısı məhv olub. Orda fillər hamısı hürküblər. Qoşunnan bi nəfər qaça-qaça gedib ki, getsin xəbər versin ki, Yəmənə ki, bəs belə qoşun qırıldı. Hamısı öldülər. Qalib gələ bilmədik. O bir nəfər gedə-gedə o qoşundan biri onun başının üstüynən uçub ki, getsin bu möcüzadı xəbər versin. Sora onun da başına atıb gözlərinin qabağında görüblər ki, belə bir şey olub. Həmin hadisədən on üç gün sonra Peyğəmbər anadan oldu.

## Yunis peygəmbərin insanları dinə dəvət eləməsi

Yunis Peyğəmbər qohumunu dəvət elədi, Allaha inanın, Allah var, bütdən Allah olmaz! İnanmadı. Yunis peyğəmbər Allahdan bəla istədi, Allah dedi, verrəm bəla. Yunis bilir axı, Allah dedisə, verəcək bəlanı. Bular inamır. Yunis özü o camaatın içinnən çıxdı, qalmadı orda, bilirdi axı, Allah bəla göndərəcək. Bilir axı, peyğəmbərdi, çıxdı gəldi dənizin qırağına, gördü gəmiyə adamlar minir gedir. Bu da mindi gəmiyə. Bəladan qaçır da, Allahın bəlası camaatı qıracaq, mən də öləm. Bu çıxır məna. Ama düz eləmiyib, adamdı dana, nə ol-

sun peyğəmbərdi. Gəmiyə minənnən sora gəmini sürdülər dənizin içinə. Dənizin ortasına gedəndə, ən yekə heyvan dənizdə balinadı dana. Gəmini qalxızdı. Camaat doludu axı gəmidə. Gəldilər gəminin yiyəsinin yanına dedilər, bu nə olan şeydi?

– Vallah mən neçə illərdi bu yolu gedirəm, mənə belə şey rast gəlmiyib. Birinci dəfədi, belə şey heç olmuyub indiyə qədər. Birinci dəfədi aşır nəsə. Yəqin ki, anasınnan qaçan var, belə çıxır məna. Mənnən olsa bi nəfər atayın onun ağzına, yəni bilinmir əjdahadı, balığdı nədi. Həə, bir nəfər atayın onun ağzına, qoy çıxsın getsin. Yoxsa əl çəkməz. Hamımızı qıracaq. Həzrəti Yusif də bu qısa müddətdə söhbətiynən buların hörmətini qazanıb. Peyğəmbərdi axı. Bular da bilmir peyğəmbərdi. Gəldilər püşk atdılar, püşk gəldi düşdü Yunisə. Dedilər, yox, səni atmarıq, genə atdılar, genə gəldi düşdü Yunisə. Dedilər, səni yox, səni atmarıq! Üçüncü kərəm atdılar, genə gəldi düşdü Yunisə, Yunis başa düşdü ki, anasınnan qaçan mənəm. Peyğəmbərdi axı. Anasınnan qaçan mənəm.

Dedi:

– Məni atın.

– Atdılar, düşdü getdi. Qırx gün balığın qarnında qaldı dənizdə. O müddətdə camaat gördü bəla gəlir, bəla nədi, göydə qara bulud. Qara bulud gəlir yavaş-yavaş əyilir bizə tərəf. Camaat qorxuya düşür. Deyir, düzdü gəlir bəla. Onda bir abid vardı, getdilər o abidin yanına, dedilər, bəs, biz nə qayırağ? Abid də bilir buların əhvalatın.

Dedi:

– Vallah, mən bir şey bilmirəm, ancağ bi dənə şey bilirəm. Deyim onu eliyin, ağlıma gəlir. Dedilər, de.

İndi istiyillər bular bəlanı qaytaralar. Yunisin deməyilə razılaşırlar, indi Yunisi gəzirlər, tapmırlar. Tapmadılar Yunisi

desinlər ki, iman gətiririk, qaytar bəlanı.Tapmadılar, getdilər abidin yanına. Abid də dedi ki, şəhərdən cıxın cölə! Hec şəhərdə bi dənə adam qalmasin! Ancax, uşaqlar bir ayrilsin, böyüklər bir. Məsələn, quzuu anasından ayırın bi qalsın, uşagı anasından ayırın bi qalsın. Uşağ da, anasından sarı aglyər dənə. Bəla da, gəlir əyilir yavaş-yavaş. Ot alovdu gəlir. Burda bir vahimə düşdü, aglaşma düşdü, bu şəhrdən köcdülər. Aglamayan olmadi. Başina döyməyən olmadı. Allahın bulara rəhmi gəldi. Buların aglamagına. O bəla gəldi bulara lap yaxinlaşanda dayandi, bir az durdu, durdu, yavaş-yavaş qayıtdı. Bəla cıxdı getdi balığ gəldi dənızin qiranisğına, ağzın acdı, Yunis salamat cıxdı, qırağa. Gəldi qohumlarının yanına. Qohumlar yığışdı bunun başına, Harda idin biz iman gətirdik. Danışdılar, ta bu cür oldu, bu cür oldu. Bu cür elədik. İman gətirdilər Yunisə. Nəqədə, az müddət, genə həmən, genə baxmadılar. Ə, bəladı gəlmədi, daha olmaz. Yenə başladılar əyriyə, üyrüyə inammamaga.

## Allahın Məryama övlad əta eləməsi

Həzrəti İsa Əleyhsəlam peyğəmbər, Allah ona Peyğəmbərlik vermişdi, möcüzə vermişdi, ölünü diriltməyi vermişdi. Ölüylə danışmağı, kor gözü yoxdu, ona göz verməyi ona möcüzə vermişdi. Həzrəti İsa kimin gözü yox idi, əlin cəkirdi göz verirdi ona. Kim ölürdü, Allahın əmriylə dirildirdi. Allah dirildirdir e, İsa istiyəndə Allah dirildirdi. Həzrəti Musaya necə əsanı vermişdi, onun kimi buna da möcüzə vermişdi. Dedilər, bizə bir övlat ver, məscidə xidmətci qoyarıx. Allah buların duasın eşitdi, gətdi Məryamı verdi bulara ovlad. Məryəm bi az böyüdü, apardılar qoydular məscidə, axı deyiblər, nəzir eliyiblər. Verdilər məscidə. O dedi, mən cağırım, bu dedi, mən cağı-

rım, püşk atdılar, gəldi düşdü Yəhyaya. Yəhya saxladı. Daha Məryam yekəlib, yekə qız olub, məsciddə qalir. Bi kərəm gəldi, gördü Məryam namaz qılır, amma onun böyründə, o tərəfdə bir şey fırlanır. Həzrəti Məryəmi elə qoruyur, hec kəs görmür. Elə qoruyur kişilərdən. Məryam namazı qutardı.

Dedi:

– Məryam, bala, bunu sənə kim gətirib?

Dedi:

– Vallah, sən məndən qabaq görübsən.

Məryam oldu bir yekə qız. Bi dəfə əvdə idi, gördü bir cavan oğlan girdi icəri. Cəkildi geri, dedi:

– Səni ant verirəm Allahın adına, mənə toxunma!

Cavan oğlan dedi:

– Qorxma, Məryam! Mən adam deyiləm, mən mələyəm. Məni Allah göndərib, sənə bir ogul əta edəcək. Məryam dedi:

– Mənim ərim var, mənim oğlum ola?!

Onun tutdu əlindən, qolundan pilədi, mələk pilədi, Allah eliyir dənə! Gəldi, bunun hamilənin qarnı böyüyəcək dənə, qarnı böyüyəcək. Qohum, qəbilə ona dedi, bu bici hardan qazandın? Məryəm nə qədər and icdisə qazanmamışam, ərə getməmişəm, mən bi kişi görməmişəm. O qədər dedilər, dedilər, bu bici hardan qazanıbsan. Həə, nə qədər deyir, inanmirlar. Məryam şəhərdən cıxdı getdi, xurma ağacının dibində oturdu. Axı hamının zəhləsi gedir, yaxın qoymur camaat. Xurma ağacı acanda başin əyirdi, gəlirdi qabağına, yeyirdi. Hacan acıxırdı, xurma ağacı eyilirdi, gelirdi qabağına, yeyirdi. Uşağı oldu, uşağı aldı qucağına. İndi genə acıxıb, xurma ağacı əyilmədi. Allahdan nida gəldi! Ya Məryam! Məhəbbətin bölündü, getdi oğluna da. Həm mənə məhəbbət, həm oğluna məhəbbət!

Orda qalmayacax ki. Uşağı aldı qucağına, gəldi evlərinə. Gəldi, evlərinə, "bic balanı aldı qucağına, gəldi" daraşdılar canına. Allah ona dedi:

– Deynən, mən orucam, danışa bilmərəm. Əlinlə işarə elə ki, uşaxdan xəbər alın.

O da Allah diyən kimi elədi, dedi, mən orucam, danışa bilmərəm, uşaxdan xəbər alın. Dedilər, görürsən dünən uşax doğub, bu gün deyir uşaxdan xəbər al. Uşax danışa bilər?! Dedilər, bəlkə soruşaq, bəlkə diyəcək. Səni nətər qazandı? Həzrəti İsa acıx səsnən dedi:

– Mən bic bala deyiləm, mən Ruhullaham, məni Allah yaradıb, mən bic deyiləm. Həə, dunən uşax doğula, bu gün danışa, bular təəccüb elədilər. Ta dinmədilər, daha danışmadılar.

Sora Məryəm ərə getdi. Yusif adında bir adama ərə getdi. Ama Həzrəti İsanı böyütdü.

## Həzrəti İsanın möcüzəsi

Həzrəti İsa da oldu peyğəmbər, camaatı dəvət eləyir, camaat da baxmır. Baxanlar da bitəhər, yalandan. Beş-on nəfər varıydı, onnan gəzirdilər, xeyir ücün. Buları götürdü bir dəfə, Həzrəti İsa bilir dənə, oların icin də bilir, cölün də bilir. Gəldi bir tanınmayan şəhərin qırağına. Gəldi girdi şəhərə, gördü qabaqda bir daxma var, onun qabağında bir oğlan oturub.

Dedi:

– Diyəsən fikirli, sən e?

Tanımır axı, nə bu onu tanıyır, nə o bunu tanıyır.

Dedi:

– Dərdiyi mənə diyə bilərsən?

Dedi:

– Yox.

Dedi:

– Niyə?

Dedi:

– Cünki dərdimə əlac eliyə bilməzsən. Sənin ücun dəyil mənim dərdimə əlac eləmək. Mənim dərdimə əlac eliyən tapılmaz. Əlacı olan dərd deyil.

Dedi:

– Ə kişi, bəlkə elədim.

Bilmir axı peyğəmbərdi.

Dedi:

– De dana.

Dedirtdi.

Dedi:

– Mən şəhərin naxırcısıyam, camaatın malını otarıram. Dünənləri yolnan gələndə, yolum padşah yanından düşdü, padşahın qızını gördüm. Ürəgim ona vurulub, nə ürəgimdəi anası vardı, nə cıxarda bilmirəm, nə də adın tuta bilirəm padşahın qorxusundan. Adın da tuta bilmirəm, məhəbbət ürəgimdən cıxmır. Bu dərt də məni öldürəcək, əlac olmuyacaq buaa. Qorxumdan kimə diyə biləcəyəm?! Həzrəti İsa Əleyhsəlam, onun bi anası vardı, oğlanın.

Dedi:

– Xanım, carşavaıın at başua, get padşahın elci daşının üstündə otur. Səni aparsınlar icəri.

Dedi:

– Əəə, sən nə danışırsan?! Mən onu eliyə billəm?!

Dedi:

– Səni padşah öldürmiyəcək ki, sənə nə qayıracax?! Qorxma! Hec zad deməz sənə. Qorxma, get!

Arvadı göndərdi. Arvad getdi oturdu elci daşının üstündə. Padşaha xəbər verdilər ki, bi nəfər oturub elci daşının üstündə. Padşah güldü, güldü böyük adamdı da dənə. Gətirdilər.

Dedi:

– Arvad, elci daşının üstündə oturmusan. Arvad qorxa-qorxa dedi:

– Bəli.

Dedi:

– Ay arvad! Mənim qızım sənin oğlunun tayı-tuşu deyil, get öz tayın-tuşun tap! Ay arvad, mənim qızıma bir tabaq qırmızı qızıl gəlməlidi!

Arvad yeməyə cörək tapmır.

Dedi:

– Hə, get bir tabaq qırmızı qızıl gətir, qızımı verəcəm sənin ogluaa.

Arvad qayıtdı gəldi. Həzrəti İsaya dedi. Həzrəti İsa dedi:

– Get tabağı cöldə qumla doldur gətir.

Doldurdu gətirdi. Allah möcüzə vermişdi axı ona. Allah eliyir də hamısını. Əlin sürtdü o quma, hamısı oldu qıpqırmızı qızıl. Üstunə bidənə carşab örtdü, qoydu arvadın başına, dedi, apar ver padşaha. Arvad təəccüb elədi. Qoydu başına getdi padşahın cıxdı yanına, qoydu yerə. Bu səfərki ürəkli gedir arvad, qabağ gönülsüz gedirdi, indi gönüllü gedir. Başındakı tabağı qoyur yerə, padşahın qabağında. Acdı üstünü padşah, gördü, məətəl qaldı. Bu nədi ay arvad, bu qızılı hardan tapmısan, xəzinə tapmısan?

Dedi:

– Ay padşah, başıaa dönüm, xəzinə tapmamışam, bizdə bi adam var, gəlib, məni bura göndərən də odu. Əlin sürtdü torpaq oldu qızıl.

Padşah İsanı bilir, ona iman gətirib. Ama, görmüyüb. Düşündü ki, bu İsadı yəqin.

Dedi:

– Arvad, get ogluu da, o torpağı qızıl eliyəni də gətir bura.

Getdi, dedi sizi padşah cağırır.

Buların ücü də gəldilər, cıxdılar yuxarı. Padşah bildi bu İsadı. Görüşdülər, öpüşdülər. Padşah dedi:

– Mənim qızımın elciliyin eliyən peyğəmbərdi.

Dedi:

– Qızımı verirəm, üstündən padşahlığımı da verirəm yeznəmə. Mən qoca kişiyəm.

Həzrəti İsa oğlana dedi:

– Qızın istiyirdin, üstündən padşahlığ da verdi.

Oğlan dedi:

– Xeyr, nə mənə padşahın qızı lazım deyil, nə də padşahlıq! Mən belə bir Allahdan əl cəkmərəm! Səninlə! Hara getdin, ora gedəcəyəm! Mən naxırcının biriydim, mənə gör Allah nələr verdi. Mənə lazım deyil, ölüncə sən hara getdin, peyğəmbər! Mən sənlə gedərəm!

Həzrəti İsa oğlanı götürdü, gəldi onların yanına. Dedi:

– Bax padşahlığı da atdı, padşahın qızını da atdı. Məndən əl cəkmir. Siz necə vaxtdı mənnən bir yerdəsiz, sizdə bunun yüzdə bir əqidəsi yoxdu! Siz elə xeyir gəzirsiz!

* * *

Ən qədim ocağ Geygəl ocağıdı. Musa Peyğəmbər Səlavatullahhın oğlu o vaxt yəhudilər, Allah lənət eləmişlər, öldürmək istiyilərmiş. O gəlib bura cıxıb. Ona görə burdan ocax yaranıb. Ona görə Geygəl ocağı deyillər ki, öz ogluna deyib ki, get, geyin gəl. Uşax o biri oglan gizlənip, o isə geyinip gəlip.

Ona gorə qalıp Gey Gəl ocağı. Burdan da ora bir oğlan gedib, Kəlbayı Tağının ocağında, indi hər iki ocağa gediblər, gəliblər.

## Hər əməli sorğuya yalnız Allah cəkər

İbrahim peyqumbər səlavatullah həmişə çörək yiyəndə, diyərdi, ay Allah, mənə bi adam göndər, sırfada tək oturmuyum. (İbrahim peyqumbərin nuru camalına salavat!) Bi gün də yiyəndə gördü bir şəxs gəldi. Salamun əleykum, dedi, əleykum salam.

Dedi:

– Gəl otur.

Elə istədilər yiyələr, dedi, namaz qılibsan?

Dedi:

– Yox.

Dedi:

– Dur burdan! Namaz vacibdi.

Bu durdu ayağa, Allah-Taaladan səda gəldi, ey mənim həbibim! Mənim istəkli peyqumbərim! Əgər onu tapıb surfa başında oturtmasan, səni peyqumbərlikdən azad edirəm! Namazı qılmıyıb, mən çəkərəm sorğu suala! Sən onun surfa başında niyə qəlbinə dəydin, durğuzdurdun?! Gedib onun gönlünü almasan, səni peyqumbərlikdən cıxardaram. Burdan İbrahim peyqumbər səlavatullah düşdü onun dalına, getdi. Yapışdı gedək. Dedi:

– Yox! Sən məni bayaq qovdun, getmirəm!

Dedi:

– Səni ant verirəm bir olan Allaha, gedək!

Qaytardı, gətirtdi oturtdu, o surfadan, o cörəgdən ona yedirtdi. Allah dedi, namaz qılmıyıb, mən yaratmışam, mən sorğusunu çəkəciyəm, axı mənnən istixasə elədin, dedin, mə-

nə adam yetir. Mən yetirmişəm, niyə onun qəlbinə dəydin, durğuzdurdun?! Ona görə indi qəlbini aldın, oturtdun.

## Nuh peygəmbərin insanları dinə dəvət eləməsi

Nuhun üc dənə oğlu var idi. O, oğlanlarına o qədə təlim-tərbiyə elədi, iksi Nuhun dediginən getdi, biri ama getmədi. Həmmeşə Nuhun əksinə getdi. Vaxt oldu ki, dünyanı su basdı, su basanda Nuha xəbər gəldi ki, (o dağın adın bilmiyəcəm, s-nan başlanır) sən bir gəmi bağlatdırırsan, eni bu qədər, uzunu bu qədər, nə boyda. Sənə biət eliyib sənin sözünə qulaq asanları yığacaqsan o gəmiyə. Yeri-göyü su basacaq, gedəcəksən orda qalacaqsan. Nuh da cağırdı, Nuha biət edib sözünü eşidənləri. Hərə gətirdi taxta, usta, necə min metrə eni, uzunu gəmi bağlatdırdı. Kim Nuhu istiyirdi, oları yığdı gəmiyə. Elə gəmiyə yığmışdı, su gəldi. Aparanda, o biət eləmiyən oğlan minməmişdi, gəldi gəmiyə. Su cıxmışdı bura. Əlin atdı, ay ata! Gəmini saxla, məni götür! Peyqumbərin ürəgü yumşaldı, əlin uzatdı ki, oğlun cəkə, səda gəldi Allah Təbərak Taladan ki, ey mənim həbibim! Burax onun əlini! O sənə biət eləmiyib, qoy getsin! Peyqumbər əlin cəkdi, o orda qərq oldu suda. Oları yığdı götürdü getdi. Getdi o qədər ki, orda qaldılar, su, sel dayandı, bular ordan düşdü gəldi. Axı bular cölə cıxmıyıb, gəmini mundarliyıblar. Allah-Talah bulara bir yara qismət elədi, o gəmidə olanlara, bir yara qismət elədi ki, qaldılar. Dərman yox idi. Biri getdi o gəmidən elə bidəə bi şey götürdü. Belə ozibildən belə cəkdi, bıy yaxşı oldu. Bay filankəs yaxşı olub, Arif yaxşı olub, bay, Həsən də düşdü dalına, Əli də düşdü dalına. Bular getdilər o gəmini belə qaşıdılar, o yaralarna belə sürtdülər, gəmi qaldı gül kimi tər– təmiz. Hindi bular aşağı

düşəndən bir-birinən danışıqlarından, bir-birinə səda gəlmədi. Bir-birinin sözün başa düşmədilər. Odu bizim yetmiş iki olub, onnan əmələ gəlib. Talış dili, fars dili və başqa ordan yarandı.

## Allahın Əyyub peyğəmbəri sınağa cəkməsi

(Əyyub peyqumbərin nuru camalına Salavat!)

Əyyub peyqumbər o qədər Allahın istəkli peyqumbəri idi, o qədər istiyirdi. (Allah ləhnət eləsin Şümürə!) On bir də-nə övladı varıydı. On bir dənə oğlu varıydı.

Dedi:

– Siz biət eləmirsiz, siz Allah tanımırsız, Allahın dediginən getmirsiz.

Dedi:

– Sən gedirsən?

Dedi:

– Bəli! Mən gedirəm!

Dedi:

– Sən gedərsən dana! Dövlət, on bir oğul, peyqumbərlik səndə. Mən nə qayırram, işdiyirəm, hec qarnım da doymur. (Bi dənə də inəyi bütöy yeyirdilər, ləhnət eləmişlər.)

Dedi:

– O dövlət olmasa da, mən yenə də Allahın dediginən gedərəm!

Allahdan səda gəldi! Allah Təbarak Talah Əyyubun oğlanlarını bir-bir qətl elədi ömrün. Qaldı öyladsız. Allah ona bir dərt verdi, bir dərd verdi, onu day şəhərdə qoymadılar. Özü də götürdü ailəsini şəhərdən cıxdı. Bir qalayca yapdı, getdi orda qaldı. Yarıya dərman qoymiyasan, yemiyə, nə olar?! Bu o qədər incəldi, incəldi, bədənini qurd basdı. Qurd

əmərdi, onu düşərdi yerə, qurdu götürərdi qoyardı bədəninin üstünə, diyərdi ye, ay heyvan, Allah Təbarak Talah, məni sənə ruzu yaradıb, düşmə yerə, ye məni.

Ailəsi burdan düşərdi gedərdi, kəntlərdən, əvlərdən belə cörək yığardı, gətirərdi, verərdi, bu, yiyərdi.

Bir gün gənə bu ailə getdi gəzdi hər yanı, cörək tapmadı.

– Allah! Mən nətəhər gedim peyqumbərin yanına?!

Allah ləhnət eləmiş şeytan buna rast gəldi.

– Haradan gəlirsən?

Dedi:

– Peyqumbərə cörəgə getmişdim, tapmadım. Allah Talah qismət eləmədi, eli boş gedirəm.

Dedi:

– Cörəg mən verim sənə.

Dedi:

– Versən yaxşı olar.

Dedi:

– Sacının birini kəs ver mənə, verim.

Dedi:

– Yox! Sacımı yox! Nə olar be belə ver də, peyqumbərə aparım.

Dedi:

– Yox, sacını ver.

Sacının birin arvad verdi.

Gətdi ona be belə cörəg verdi.

(Allah ləhnət eləsin! Min təsbeh şeytana ləhnət!) Allah ləhnət eləmiş o yandan fırlandı, arvatdan qabaq getdi Əyyub peyqumbərin yanına, dedi:

– Arvadı buraxibsan, pis yola düşüb. Şahidəm mən. Sacların da kəsdirib.

Peyqumbər tanıyır, dedi:

– Allah sənə ləhnət eləsin!

Dedi:

– Bu da onun sacı.

Dedi:

– Görərsən, kişi də onnan gələr.

Bu cıxdı getdi, şeytan, Allah ləhnət eləmiş!

Arvad gəldi. Peyqumbərin gözü gəzdi, belə baxdı, gördü arvadın sacları yoxdu. Baxdı, dedi:

– Biy, şeytan, ləhnət olsun ona! Düz deyirmiş.

Dedi:

– Sacın sənin hanı bə?

Dedi:

– Ya peyqumbər! Cörəg tapbadım, cıxmışdım kətdən, bi dəə kişi rast gəldi, sacımı kəsdim, cörəg aldım.

Dedi:

– Allah ona ləhnət eləsin! O kişi deyil, Allah ləhnət eləmiş şeytandı! Sənin sacını kəsib, o cörəgi verdi. Allah ona ləhnət eləsin! Qabaxdan da mənə xəbər gətirdi.

Allah Təbarak Taladan səda gəldi!

Ey mənim həbibim! Get natəmiz şey ye, onnan bədənin yaxşı olar.

Peyqumbər salavatullah hər Allahın dediginnən agah idi.

Dedi:

– Getginən mənə namaz qılmiyandan, məni tanımıyandan cörəy al gətir.

Getdi arvad girdi kəndə, gördü bir arvad təndirə cörək yapır. Getdi onnan bi az danışdı elədi, gördü həə, bu namaz qılmır. Ondan bi az cörəg aldı gəldi.

Dedi:

– Gətdin?
Dedi:
– Gətdim.
Dedi:
– O nədi bilirsən?
Dedi :
– Cörək.
Dedi:
– Cörək dəyil.
Dedi:
– Onu ver əlimə.

Peyqumbər salavatullah əlində o cörəgi belə sıxdı, cörəgdən belə töküldü çirk, qan, irgənc bi şey.

Dedi:

– Namaz qılmıyan buları yiyir! Məni tanımiyan buları yiyir!

Ondan bi damcı yedi, peyqumbər sağaldı.

Gəldi, Allah Təbərak Talah onun on bir öyladını da verdi, canını da sağaltdı. (Allah sənə ləhnət eləsin, şeytan! Bə niyə dinindən dönmədi?!)

Dinimiz neçə sütun üstədi?!

Dinimiz dörd sütun üstədi. Həqiqət, ədalət, mürüvvət, kəramət! Dörd sütun budu, dinimiz bu dörd sütun üstündə dayanıb!

## Hər şeyə qadir olan yalnız Allahdı

Bi gün Musa peyqumbər getdi. Allahnan danışanda dedi:

– Ya Allah! Səndən xahiş eliyirəm, bi gün Allahlığı məə ver.

Dedi:
– Musa, apara bilməzsən.
Dedi:
– Aparram.
Dedi:
– Yox, apara bilməzsən.
Dedi:
– Ver də.
Dedi:
– Verdim get!
Musa gəldi, bi dənə gomuş yaratdı. Gomuş başladı, Musanı qatdı qabağına, heç zad yoxdu. Dedi:
– Ya Allah! Allah! Allah! Gəl Allahlığını verim sənə! Xudavəndə bu mənim işim dəyil!
Allah dedi:
– Dedim mən sənə!
Tez Allah – tala qamış yaratdı, gomuş başını soxdu ora.
Musa dedi:
– Viy! Allah, sən yaxşı! Sənə qurban olum!

## Musa peyğəmbərin Allahı görmək istəməsi

Bi gün Musa peyqumbər dedi:
– Ya Allah, səni görmək istiyirəm. Elə sadaynan danışıram. Görmək istiyirəm. Belə ürəgim istiyir səni görəm!
Dedi:
– Sən məni görə bilməzsən!
Dedi:
– Görrəm. Özüü görkəz.
Dedi:

– Yaxşı, gələrsən dağın başına, ora, görkəzərəm özümü.

Elə Musa gedür catanda ora, görür bi şüa gəldi, Musanın gözü tutuldu, dünyanı hec görə bilmədi. Bi də ayıldı, dedi:

– Ay Allah, görükəydin də! Mən gəlmişdim səni görməyə.

Dedi:

– Mən görükdüm! Bə niyə baxmadın?!

Allahı görməy olmaz! Allahı heç kəs görə bilməz!

## Həzrəti Əli

Heç kəs Kəbədə doğulmuyub, bi dənə Əli Əleyhissalam Kəbədə doğulub. Anası Fatimə Binti Əsəd getdi müşriklərə dedi bıra doğum evi döör. Deer onda gördüy ki, divar yarıldı, kadın girdi içəri. 3 gün kadın içəridə qaldı. Hamı gəldi tökülüşdü ki, bı necə oldi? Onnan sora həmən yerdən yenə divar yarıldı, kadın uşağ qucağında çıxdı. Çıxanda xəbər verdilər bının atasına, gözəl oğlun olub sənin, övladın olub, ancağ gözzərdən binəbidü. Peyqəmbər dedi:

– Onu gətirün mənim yanıma.

Gətirdilər, aldı qucağına. Alan kimi qucağına uşağ aşdı gözzərini baxdı peyqəmbərə. Dedilər:

– Bı necə şeydü?

Dedi:

– Nur nura baxar.

Peyqəmbər barmağın saldı onun ağzına. O qədər süd tökuldü barmağınnan, deməy bir imam Hüseynə, bir də Əliyə peyqəmbər süd verib. Ona görə deyir Əli mənnəndi, mən Əlidən. Vaxt gəldi Əli Əleyhissalam, Allah lənət elısin Maviyyiyə, cahi cəlalnan, qoşunnan Xəndəy davasına gedəndə, xəbər gəldi dedilər ki, qoşun gəlir. Xəndəgin demək 4 tərəfin qazdı-

lar. 3 metrə xəndəgin əni, 3 metrə dərinnigi. Gəldi qoşun hər iki tərəfdən. Birinci Əmirül Əbdəvid ərəbdə onun tayı-bərabəri yoxdu, qüvvəligdə, çıxdı. İkinci Əbul Həmid oğlannarı Harisnən o biri tərəfdən meydana çıxdı. Peyqəmbər üzünü tutdu qoşuna. Dedi:

– Ərəbdə bunun tayı bərabəri yoxdu. Kim bunnan savaşa gedər.

Əli Əleyhissalam deyir mən. Getdi düşməni bi həmlədə məhv elədi.

Ücüncü dəfə də gedəndə peyqəmbər Quranı götürdü dua elədi. Dedi:

– Camaat, bunun ərəbdə tayı bərabəri yoxdu. Ondan Əliyə dua eliyün.

Getdi Əli Əleyhissalam durdu bunun qabağında.

Dedi ki, mən səni deməmişəm, ey Abu Talıb oğlu, mənim sənin atonnan rəfaqətim var. Yəni dosduğum var, ticarət eləmişüg uzun müddət. Deer sən deebsən ki, üş dənə şeyi elə, bi dənə qəbul eliyirəm. Dedi:

– Birinci sən qoşunuyu çək geri, səən peyqəmbərnən nə işün var? Səynən işi yoxdu ki?

Deer:

– Yox.

Dedi:

– Onda çıx get.

Deer:

-Yox, onda mənə qorxağ deyəllər.

Deer:

-Yaxşı, iman gətir.

Deer:

-Yox, onu da eliyə bilmərəm.

Deer:

– Sən atdısan, mən piyada. Əvvəl sən atdan düş, ata yazıq olmasın, Allahın heyvanıdı.

At ağladı. İmam biləcək axı.

Dedi:

– İndi sənin qanun qaraldaram.

Dedi:

– Sən, ya Əli.

Deer:

– Biz tərəfdə qaydadur, firsəndi düşmana verərük.

Ərəb Əlinin başına qılıncla vurdu. İki barmağ dərinnigində yox, enində başına qılınc endirdi.

Allah-təala təbarəki və təəala Cəbrayılı göndərdi ki, get yerin altından dərman gəti. Getdi gətdi. Sürtü başına. Əlinin yarası sağaldı. Növbət Əliyə çatdı. Elə bir qılınc çaldı ki, bına bırdan bını böldi taaa iki para oldu. Dedi ki, nooldi?

Dedi:

– Alnım sajdı, ürəyim sajdı, dilüm sajdı.

Dedi:

– Alnun möhür görmüyüb, ürəyündə Allah xofu yoxdu, dilüvə də lailahəilləllah gəlmiyib. Lənətə vasil oldu.

## Tacir və sail

Bir sail gəlir bazara, Masallının bazarına. Deer, Əli Əleyhissalam yolunda mənə bi qismət verün. Bu tacir bını itəliyər, deyər Əli yolunda sənə hec nə verməræm. Ordan durdu, üstünün tozunu-mozunu çırpdı, gəldi kəndə. Genə həmin tacirin qapısına gəldi, dedi:

– Əli Əleyhissalam yolunda mənə bi qismət verin.

Tacirin arvadı çıxdı nəyi varsa, qır-qızılın çıxartdı, dedi:

– Gala, Əli yolunda verrəm sənə.

Bı getdi bazara, bına heç bi tacir qiymət verə bilmədi. Tacir evə gəldi arvada dedi, hanı qır-qızılın?

Dedi:

– Verdim Əli yolunda.

Dedi:

– Əli yolunda veribsən?

Dedı:

– Hə.

Dedi:

– Bıləngüü ver mənə.

Bının biləngin bırdan kəsdi.

Dedi:

– Get, Əli sənin biləngüü versin.

Qayıtdı getdi bazara gördü ki, bazar ot tutub yanır. Gəldi evə gördü ki, ev də yanır. Gəlin də getdi bir karvansaranın böyründə yıxıldı qaldı. Axşamçağı, karvansara sahiblərinin xasiyyəti idi, kecmişdə həməşə karvansaranın 4 tərəfini dolanırdılar ki, görək azannan-tezannan olar birdən. Bəli, gəldi gördü bi zənən xaylağıdır. Getdi arvadını çağırdı, apardilar təmizzədilər, evin o bitkasında başdadı o ibadət eləməgə. Həmən sail həmən birliyantdan getdi oldu çox varlı bi dövlət sahibi, böyük bir tacir.

Bir gün düşdü yolu həmən yerdən. Gedəndə bu karvansaranın yaniynan gördü ki, bu karvansaranın içində bi işığ yatır, qalxır. Qılıncın götdi, dedi, yani oğrüdü bu. Gördü yooo, bi övrət tayfasıdur, yuxarı qalxanda işığ bunnan qalxır, enəndə də enir. Hay gözzədi, gördü, yox, dedi, bu mümkün dööl bını alacam. Səhər gəldi bilara dedi:

- Qızınızla evlənmək istiyürəm.

Dedi:

– Xeyir, bizib qızımızın ancaq ixtiyarı özündədi.

Bu gəlin deer:

– Onda 3 gün mənə möhlət verin.

Gecə gəldi aləmi ərvahda, yuxuda gördü, göy aləminnən taxt gəldi. Peyqəmbər, Əli, Həsən, Fatimə əyləşdilər. Peyqəmbər dedi:

– Ya Fatimə, əmün oğlu Əlinin yolunda onun biləngin ver.

Onun biləngin qoydu yerinə. Qız sağaldı. Ayıldl gördu əli yerindədir, getdi səjdiyə. Ta səhər açılannan sora gördu ki, biləngi yerindədi. Səhər açıldı, bını bı tacir gəldi aldı, apardı. İndi nə tacir bilmir ki, bı qız kimdi, nə də qız. Vaxt gəldi tovlandı. Həmən o cavan tacir vardı ki, bının biləngin kəsmişdi (qadının öz əri), mal-dövləti yandıqdan sora heç kəs bına pıl vermədi, düşdü sailliyə, oldu sail. Başladı dilənməyə. Bu dilənə-dilənə gəldi çıxdı bıra. Bılar da oturub səhər-səhər nahar edirdilər. Onda gördülər bi səs gəlir ki, Əli yolunda mənə bi qismət. Genə bı gəlin gümüşün parasın çıxartdı verdi ona. Oğlan da əlini saldı cibinə. Bir ovuc qızılı verdi Əli yolunda. Götirdi, qızılı verəndə bu sail əyildi, kadın yerə düşən kimi bını tanıdı. Dedi:

– Ey filani, sənin yaxşı imarətin, dükan-bazarun vardı. Vəziyyətün də əla idi. Sorakı da hələ baxır. Nə oldu sənə belə hala düşdün?

Dedi:

– Vallah məni bədbəxlik tutdu ki, bu Əli yolunda arvadım ən bahalı üzüyünü, öz gümuşun, zadın vermişdi sailə. Mən onun biləngin vırdım kəsdim, dedim, indi get Əli sənin bilənguyü versin.

Dedi:

– Bax Əli Əleyhissalam mənim biləngümü verdi.

Bu baxdı gördü haaaa, bu həmən kadındır. Onnan sora kadın dedi:

– Mən səən inanmadığın Əli Əleyhissalam yolunda səə heç bi şey verməərəm.

## Allah yolunda sədəqə ver

Biri peyqəmbərə deyir ki, istiyirəm dövlətim cox olsun. Deer, dövlətin çox olsun, sədəqə çox ver. Bir insan ki cox sədəqə verər Allahın yolunda, o bəla gəlsə, insana, Allah onu dəf edər.

Deer, bi cavan oğlanın toyu olacağmış, dedilər, ya Rəsulum, o cavanın toyu olacağ, dedi, onu toy güni ilan vıracağ bəy otağında.

İndi bı camaat peyqəmbərin yalan danışmağın görmeeblər axı, özzəri təəccübnən gözzeblər ki, görəy bı toy güni nolacağ. Həyqətənmi bi cavan öləcəy? Nə isə, 3 gün keçər, bi şey, olüm işi olmaz. Peyğəmbərə sual eliyillər ki, ya Rəsulum, sən dedün o cavan öləcəy axı. Dedı, gedün icazə alun onun sahibinnən, daxil olun onun otağına, onun mitəkkəsinin altina baxun. Deer, elə belə de eliyillər, görüllər bi dənə ilan qorulub durub balışın altinda. Deyər, nə gördüz? Deyər, bi dənə ilan. Çün o oğlan bəy çıxanda, evdən çıxanda sədəqə çıxarmışdı. O sədəqədi ki, qoymuyub orda ölüm olsun.

**Söyləyicilər:**

Hacı Mir Qiyas Təhməzov, doğum tarixi 1944, təhsili orta , Masallı şəhəri

Hacı Niftulla Abbasov, doğum tarixi 1940, təhsili orta, Alışanlı kəndi

Gülsüm Muradova, doğum tarixi 1937, təhsili natamam orta, Xallıcalı kəndi

Həcər Həsənova, doğum tarixi 1950, təhsili orta, Şərəfə kəndi

Molla Kərbəlayi Nüsrət Qızılağaclı, Qızılağac kəndi, dünən və bu gün, B., 2003

Ağaverdi Novruzov, doğum tarixi 1940, təhsili orta, Ərkivan kəndi

Südabə İsayeva, doğum tarixi 1952, təhsili natamam orta, Ərkivan kəndi

Arəstə Əsgərova, doğum tarixi 1939, təhsili natamam orta, Ərkivan kəndi

İbrahim Sadıqov, doğum tarixi 1950, təhsili ali, Seybətin kəndi

Rəfayıl Vahabov doğum tarixi 1944, təhsili ali, Göylənni kəndi

İmran Tağıyev, doğum tarixi 1927, təhsili orta, Ərəb kəndi

Bilqeyis Gözəlova, doğum tarixi 1947, təhsili orta, Xırmandalı kəndi

Səmərrux Süleymanova, doğum tarixi 1924, təhsili orta ixtisas, Xırmandalı kəndi

Məhəmməd Abıyev, doğum tarixi 1927, təhsili orta, Köhnə Alvadı kəndi

Mir Yaqub Abdullayev, doğum tarixi 1961, təhsili orta, Bambaşı kəndi

**Toplayanlar:**

Füzuli Bayat (Gözəlov)
Nuridə Muxtarzadə
Qurban Əliyev
Çiçək Əfəndiyeva
Vüsalə Kərimova

# 3. DİNİ NƏSİHƏTLƏR

Görürsüz hevvanı nə formada xəlq eylədi. Dörd qıçı var. Heyvana o qədər agıl, şüur vermiyib, amma o hər agzın atıb, yerdən yeməy yeyəndə, başın qaldırır Allah dərgahına, hər vedrədən su içəndə, başını qaldırır Allah dərgahına şükür eliyir. Biz də Allah-Talaya ibadətdə Allaha səcdə eliyürük. İşimizi-gücümüzü görürük, onda səcdə yadımza düşmür. Təkcə ibadət eliyəndə yadımıza düşür. Ona görə səcdə eliyün. Qaldı, Allah-Tala insanlarçın heyvanlarçın torpaqdan gör nə qədər bol-bol nemət, meyvə, bitki bəxş edib. Kökləri yerdədi, başdarı yuxarıda, lakin onlara fikir verün. Hamısı çıxandan sonra Allaha səcdə eliyir. Ağac da bar gətirəndə Allaha səcdə edir. Sən isə ibadətdə mənə səcdə edir, amma bütün yaratdığım güllər-çiçəklər hər zaman sənin qarşunda baş əyirlər. Allah-Taala deyir, yaratdığım bəndə, qədrini bil. Mən bu dünyanı sizin üçün xəlq eyləmişəm, gen dünya eyləmişəm. Sən çapanda, mən bilirəm, sən necə çapırsan. Necə gəzirsən, necə dolanırsan bu dünyada. Amma axirətini gözünün qabağına gətir. Yəni cavanlığınnan qocalığıva saxla. Varundan, dövlətindən kasıblığıva saxla. Əlivü nə açma, çox tökülməsin, nə də yumma. Sənə o ruzivi qismət eyləmişəm, sənə sınamaq üçün var-dövlət verirəm. Görüm kasıba əl tutacaqsan?

Görüm hələ bir kasıbı, yetimi qaldıracaqsan, yoxsa sən var-dövləti yığ altıva ki, hac gəlib boynuma. Haca gedirəm. Xeyir, hacc heç kəsin boynuna gəlmir. Allahın evidir, hər zaman gedə bilərsən. Halal pulla gedə bilərsən. Sən hər nə qədər qazansan, pul yığsan, qazandığıvın üstünə gör nə qədər xums, zəkat gəlir. Bəli, kim onu ildə verir. Heç kəs vermir. Dövlətti heç vermir. Kasıb gənə də verir. Qızılı salmayanda xums gəlir.

Heç olmasa o puldan çıxarıb verin bir kasıba. Deyin ki, filan salmadığım qızılın xumsudur. Qalır, qalır hacca gedəndə yada salırlar ki, xumsu, zəkatı gətir ver. Biz paylayacıyux. Bu xumsu, zəkatı niyə mən öz əlimlə verib, savab qazanmayıb. Niyə özgə əliylə verib, özgə savab qazansın. Sən onun özünü öz əlinlə ver, o savabı qazan. Haca gedir filankəs. 100-200 manat mənim xumsumdur. Yığdıdığın xumsu neçə ildir, 200 manat edir. Sən ildə onun 20 manatın versön kasıba, sənin xumsun gedər üstünnən. Onu yığasan, yığasan neçə illər, haca gedəndə deyəsən, haca gedir. Gətirəsən verəsən mollaya, axuna.

* * *

Dinimizdə-imanımızda bunlar hamısı əfsanə sözlərdir. Bunlar hamısı xürafə sözlərdir. Dini əldən aparmaq üçün. Nə üçün cənub bölgəsində olur ki. Cənub bölgəsində, burada din güclüdür. Hər kəs cadügarın yanına gedərsə, hər kəs caduya inana, o, kafirdir. Dünyada da, axirətdə də. Bunu Peyğəmbər Həzrətullah deyibdir. Cadu yoxdur, cin var. Cin apardı sözü yoxdur. O, bir məxluqatdır. Ruh cövhərdir, ruh təmizdir, ruh ucadır, ruhun bir yerdə olmağlığı yoxdur. Hər yerdə ki, Allah var, ruh da ordadır. Allahın misalındadır ruh. Deyir, misal budur ki, bir dəstə buket gül veriblər, əlində gül var. O gülü sənə verənə təşəkkür edirsən. Özüvə fəxr edirsən, mənə gül verdilər. Onu bir güldana qoyursan, beş gün, on gündən sonra o güllər töküldü. Deyirsən, qızım, gəlnim, anam, balam deyirsən bu gülləri burdan yığışdır. Deyirsən, bu stolun üstünə bir əl çək, zibili ordan təmizlə. Day gül demirsən, vaxt vardı buket gül idi. Bala, əlivi yavaş vur da ora, tikanı var. Tikanı əlivə batar.

Sənə gülü verən sənə deyərdi ki, gələ, xanım, sənə gül verirəm. Əlivə tikan batır amma indi deyirsən tikanı var. Özdə

aparıb ayağ altına tökmə, zibil yeşiyinə tök. Nə üçün? Ayağ altına tökərsən, özgəsinə əziyyət yetirər. Gülün yarpağı da ordadır. Niyə tökürsən ora, yaraşığı vardı, indi yoxdu, ona görə. Onu bir yerdə saxlıyan nə idi. Onun tərkibindəki su idi. Suda quruyandan sonra deyir, insanı da təravətli edən, insanı da qiymətli edən, insanı da bir birinə məhəbbətini edən onun ruhudur. İnsanın da ruhu olmasa cazibəliyi olmaz. Odur ruh bədəndən çıxandan sonra ay amandı, tez olun, qüsulunu verin. Əl vurma, mən qorxuram e, bu öldü. Dünən mənnən bir yerdə idi. İndi niyə deyirsən qorxuram. Çünki onun ruhu ayrılıb, biz görmürük. Görmədiyimiz nədir, onun ruhudur. Necə ki güldən ayrıldı, deyir ruh misalı həmən gülün tərkibində olan su qismindədir.

* * *

Cin – onu Allah oddan yaradıb. Şeytan elə özü cin tayfasındandır. Amma cin olmağına baxmayaraq hər sürətə düşər. Hətta itin, donquzun sürətinə də düşər. Cin tayfası ilan qismində də görünə bilər. Ancağ İmam və Peyğəmbər sürətinə düşməz. Amma məlakə də məxluqdur axı. Məlakə də qiymətli bir əlamətdir. Məlakə də hər sürətə düşər. Məgər itnən, donuzun sürətinə düşməz. Meyid yuyulan yerdə lopa yandırardılar. Onları mən oradan götüzdürdüm. Bular hamısı xürafə sözlərdir.

* * *

Deməy istiyirəm, görəsən yas mərasimində ağlamağın nə mətləb verir. Mətləb məhəbbəti əbədiləşdirməkdir. Ona zinət verməkdir. İkincisi, bi zinət yoxdur, göz yaşı tökmək zikir eləmək İmam Hüseyn macərasın niyə aradan götürülmədi. Götürülməyəcək day hey nə qədər dünya var. Gərək göz yaşı tökəsən İmam Hüseyni daha doğrusu desək əmanətin kəsb edəcək.

* * *

Badisəlam qəbirsanlığı var Kərbəlada, ora pis əməllər gedəcəy ora. Axırıncı İmam gələcək inşAllah olara baxacaq. Mələklər gedir Allah dərgahına, Allah soruşur ki, niyə gəldiz? Niftullanın canı çıxdı, qoydular qəbirə, biz də gəldik. Deyir, qiyamətə qədər Niftullanın yanında qalın. Tək qoymuyun, darıxar. Deyir, mənim yaratdığım bəndəni tək qoymuyun. Gedin, qiyamətə qədər onun yanında qalın. Məsələn, Allah-Taala on bir ayı bizə verib. Yeyin, halal xoşunuz olsun, on bir ay elədiyiniz günahları mən bağışlayıram. Amma bir ay mənə oruc tutun. Payızın yarpağları kimi sizin yarpağınızı tökəcəm. Görürsən Ramazan ayında orucu tutmadın.

Mənə səcdə elə. Adəm kimi peyğəmbər, yüz iyirmi dörd min peyğəmbər mənə səcdə elədi. Bəs sən kimə arxayınsan. Mənə səcdə eləmirsən. Ey mənim yaratdığım bəndə. Oğul istəmisən vermişəm, qız istəmisən vermişəm, mal vermişəm, dövlət vermişəm, sənə ağıl vermişəm, işiğ vermişəm, göz vermişəm, qulağ vermişəm, nə istəmisən, sənə vermişəm, onun qarşısında mənə səcdə elə. Namaz qıl, orucuvu tut. İndi mən namaz qılmıram, oruc tutmuram, öz də deyirəm, Allah, səni yaxşı tanıyıram.

* * *

Peyğəmbərə deyirəm, səni yaxşı tanıyıram. Deyir, ay üzün qara olsun, nə dərinnən məni tanıyırsan. Deyirəm, namaz qıl-qılmırsan, oruc tut, tutmursan, xüms ver, vermirsən, zəkat ver, vermirsən, bəs nətər yaxşı bəndəsən. Mən səni işiqlı dünyaya gətirmişəm. Sənə yüz il, əlli il ömür vermişəm, sənə yaraşıq vermişəm. Musa peyğəmbər, Yusif peyğəmbər durdu aynanın qabağında dedi, ya Rəbb, görəsən mənim kimi gözəl peyğəmbər yaradacaqsan? Musa dedi, elmə bax, məndə, gözəlliyə bax

məndə. Yusif də dedi bu sözü. Allah dedi, ya Yusif, gözəlliyivə arxayın olma. And olsun izzət-cəlalıma, vaxt olar səni on yeddi-on səkkiz qara pula satdıraram. Qardaşları gətirdi onu on yeddi-on səkkiz köpük qara pul aldı. Aldı gətirdi Misirə. O boydana Misir, o gözəl Allah Yusifi hardan-haraya gətirdi. Bütün camaat onun qapısına töküldü. Qardaşını da onun qapısına gətirdi. Üç dəfə qardaşları gəldi Yusifin qarşısına. Yusif zindanda olanda Allaha səcdə eliyibdir, yatanda səcdə eliyirdi.

* * *

Ağa Mirzə, Allah rəhmət eləsin o mollanı. Onunla çox mollalığ eləmişəm. Onun atasıynan mənim salam əleykim vardı. İndi deməyim budur ki, axşamnan yatıram ailəmin yanında, görürəm ki, gedirəm mən Bakıya, Moskvaya. Özüm yatmışam e, mən. O ruh mənim bədənimdən çıxdı. Peyğəmbər buyurub mənim yatan hümmətimi birdən qaldırmayın. Biri ki gəldi, soruşur ki, filankəs hanı? Deyir, yatıb. Deyir, dərhal onu çağırmıyın. Lapdan başlıyar ürək dayanar. Yavaş-yavaş çağırın. Niftulla, Niftulla səni çağırırlar. Bir var Niftulla, Niftulla hay, ruh gəlmədi, ürək dayandı. Ona görə gərək asta-asta çağırasan. Yatıbsa, ruh bədənnən çıxıb. Hey hər yeri gəzir.

* * *

Bəzi adam deyir ki, cənazə niyə ağır gedir. Deyirlər ona görə ağır gedir ki, bunun qardaşı Rusiyyətdədi, gəlmiyib, oğlu gəlmiyib. Yalan sözdü. Onun ruhu əməli yoxdur. O ruh gedir görür inkir-minkir bunu gözlüyür. O durur gəlir, deyir, ay evi tikilən, əməlin yoxdur. Məni incidəcəklər. Ruh buna deyir, getmə, ona görə cənazə ağır gedir. Əgər əməlin yaxşı olsa, qardaş-bacı sənə qurban olum, görürsən Ərrəhman deməyə

aman vermir. Əməli yaxşıdı. Əgər mənim əməlim olmasa, ruhum getmir. Deyir, burda qalsam, xeyirdi mənə. Məni bu yerə gətirən qəbirdə də hər yerdə, Adil axşamla bura gələn mənim ruhumdur. Mən özüm yatmışam, çörülmüşəm torpağda. Ruhum gəlir, yoxluyur gedir. Əgər mənim ruhum gəlir görür evimdə mənə yasin oxutdururlar, ya bir ehsan verirlər, ruhum şad gedəcək. Yox, gəldi gördü mənim Əhli-beytim televizora baxır, heç məni yada salmır, bədvaris kimi gedir. Bir var deyəsən bivaris, bir də var deyəsən bədvaris. Bivaris övladı olmayanlardır. Bədvaris övladı olub, onu yada salmayanlardır.

* * *

Ey Füzuli məndəxi aləmdə bir ad eylərəm, bəs o nədi? Dedi, o, Kərbəla şəhidlərinindi. Dünya durduqca o duracaq. Seyyidlik Haşimə verilib. Haşimdən sonrası hamı seyiddir. Allah-tala ruhi məhbusi yaradandan sonra bu qələmə baxdı, qələm haçalandı. Dedi, yaz. Yazdı La İlahə İllAllah, öz də beş kimsənin adını Allah-Taala öz adından götürüb. Dedi, yaz Muhəmməd RəsulAllah, peyğəmbərimizin adı Muhəmməd, adı Allahın Mahmud adından götürülüb. Buların ikisinində mənası var. Bu Mahmud Məhəmməd yerim, göyüm mənimki deməkdi dedi.

* * *

On səkkiz min aləmlər yaradıb Allah-tala. Onun altı mini cəmadətdi, altı mini nəbadətdi, altı mini heyvanət. O heyvanətdə biz də varıq. Bütün bu cəmadət, nəbadət, camaatda meyillik də var bir-birinə. Meyilliyin təkamülü keçir şəhvətə. Şəhvət heyvanətə aiddir, biz də heyvan sayılırıq. Şəhvət heyvanat deməkdir. Heyvanatın özü də iki cürədi: bir var şüurlu, biri var şüursuz. Məhəbbətin özü də iki cürdü. Bir var şüurlu məhəbbət,

bir də var tədrici məhəbbət. Şüurlu məhəbbət sipiçkaya bənziyir, yandırdın alışdı, söndü. Tədrici məhəbbət isə yavaş-yavaş olur. Uzun çəkir. Tədrici məhəbbət də sönür. Bunun təkamülü eşqdi. Eşq nədi, eşq Allahadır. Məhəbbət bitə bilər, eşq bitə bilməz. İlahi eşq, o, insanın mayasındadır. Necə ki maqnit dəmiri çəkirsə, o eşq də səni Tanrıya tərəf çəkir. Biz ondan qopmuş hissəciklərik. O eşq bitərsə, kafir olursan. O sönmür.

* * *

Peyğəmbər Əleyhisalam buyurub ki, kafirin qəlbində Quran qərarlaşmaz. Ancağ o sözlər ki eşidilir, kimnənsə onu gərək götürəsən, istifadə edəsən.

* * *

İmam Həzrət Əlidən hədis var: Sədəqə ver ki, gələn bəlanın qarşısın alsın. İnam böyük şeydi, gərək inamın ola ki, inanasan.

* * *

Çox diqqətdi insan idi Mir Tağı Ağa. Qonşuya, qonuma, cəmiyətə qarşı tamam başqa adam olub. Onun bırda hüzürü düşəndə, inanun o qədər millət tökülmüşdü. Mənim heç ağlıma sığmazdı ki, elə adamlar orda ağleerdı ki, şəxsən onların öz valıdeynləri öləndə onları ağlıyan görməmişdim.

Ağanın yanına nəinki ətraf kətdərdən, respublikadan gələnnər olurdu. Bı Asif Kəngərlinin anası rəhmətə getmişdi, bizim bi Vasif Məmmədəliyev, sora bir cox alimlərimiz iştirak eliyirdilər. Orda ağaya bi-iki sual vermişdilər. Sualnan bağlı məsələ çıxdı ortiya. Demə, bu da Bibliyada yazılıb əslində o hadisə. Mən də bilmirdim, sən demə, bı kitab külliyatda

satışda-zadda yoxdu. Bı Ermitajda-zadda saxlanan kitablardı. Bı ədədnən olan kitablardı. Ağam dedi ki, o kitabdan məndə var. Vasif məllim dedi, əşi, ay ağa, ay ağsaqqal, o kitabdan sizdə ola bilməz axı. Qoy təfərrüatıynan o qardaşım danışsın.

Deer peyğəmbər salavatullah deyir ki, Quranda yazılır ki, dağları yerə bir dirəy, dayanacağ olaraq düzəltdim mən. Ağalar da elə bil ki, bı yer uzündə cəmiyətin bi dirəyidilər. Ağaların elə möcüzəsi elə ağalığlarıdı. Hökman döör ki, ağalar hansısa bi sehirbazdığ eliyə, deyələr hə, bı ağadı. Ağanın kəraməti onun dediyi sözündədi, onun o nəfəsinin gücündədi.

Hə, böyük qardaşımın dediyi kimi söhbət Bibliyadan getmişdi, qayıdıram o söhbətə. Orda demişdilər ki, ay ağa, bı kitab sizdə ola bilməz. Bibliya belədi ki, o tomnan verilir, özü də abunəçilərə.

Mən bir az kənara çıxacam mövzudan. Mən də Rusiyada olanda bir sosyoloq qadın var idi, onnan bir dini mübahisəli söbətimiz alındı. O bizim peyğəmbərimiz, qadınlarımız, millətimiz haqqinda artığ-əskik danışdı. Mən ona cavab verdim ki, siz qadınsuz, amma etikanı gözdəmirsüz. İkincisi də, əgər siz doğurdan da dindarsuzsa, mən belə görrəm ki, sizin heç din aləminnən xəbərivüz yoxdu. Çünki din elə bi xətti ki, bütün insanları ümumbəşər dəyərlərə çağırır. Siz isə tərsinə, insanları ayirmağa başdıyırsuz bırda. Cəmiyyət formalaşanda əvvəldən bir sual qoyulur ki, bu niyə belə oldi. Hər şey sualdan başlayır. Niyə insan yarandı? Niyə Allah-tala belə elədi və s. Niyə bı insannarın seçilmişin deyəy seyyidləri, ağaları yaratdı? Nə idi səbəb? Yəni hər hansı bir cəmiyətdə lider olmasa, o cəmiyəti irəli aparan, təkamülə aparan qüvvə yoxdu. Yanı lider olmalıdı. Mən belə başa düsürəm ki, ağalar da bı nöqteyi, nəzərdən Allah-talanın yer üzünə göndərdiyi hərəkət-

verici, aparıcı lider qüvvələrdi. O qüvvələr cəmiyyəti sağlam düşünciyə, sağlam fikrə və cəmiyyətdə Allahın dediyi qayda, qanunlara əməl eləməyə aparan insanlardı.

Qayıdıram bayağkı söbətə, mən bı qadını, rusu, laqiçnı dayandırdım. Dedim mən sizə sualar verəcəm, siz mənə hə və yox cavabları verün. Kankret. Sora mən bına belə suallar verdim. Mən başdadım Quranın tədrisinnən. Dedim, Adəm (ə.) sizdə 1-ci peyğəmbərdi?

Dedi:

– Bəli.

Dedim, bizdə də.

Sizdə, Həvvadı?

– Bizdə də Həvvadı.

Sizdə Avraamdı?

- Bizdə İbrahimdi.

Sizdə İosifdi?

– Bizdə Yusifdi.

Əlqərəz, diyə-diyə gəldim, dedim, bəs yaxşı, əyər səndə deyənnəri bizdə də deyirsə, sənə elə gəlmirmi ki, sən öz kitabıvı təhqir eliyirsən? Bı, qalxdı ayağa, oturdu. Onda mənin 29 yaşım var idi. Dedi, mənimlə hələ bu yaşda cavan bir uşağ, bu mövzuda belə məntiqqnən mubahisə etməmişdi. Soradan mənə dedi ki, mən sosioloq professoram. Həmən o qadın mənə Bibliyanı göndərdi. Bax, Bibliyanın bizə gəlmə tarixi belə olub. Getdim bir gün Bibliyanı götürməyə, aparanda Asif Kəngərli dedi, ağa, ver mənə, mən baxım. Mən dedim ki, ola bilməz ki, sizdəki ariginaldı. Məndə var, detski Bibliyadı. Dedim, buyurun. Aldı, baxdı. Qalxdı ayağa, dedi, ağa, mən sizdən üzr istiyirəm dəfələrnən. Dedi, ağa, səhf elədim. Xalam oğlannarı məə təkid elədi, amma doğurdan da arginal Bibliyadı.

Ümumiyyətlə mənim fikrimcə yer üzərində ariginal xristian, yəhudi kitabı yoxdur. Bı dəqiqdi. Cünki Buxtir Nasirin dövründə bütün kitab və kitabələr ləğv olunub.

Atam bizə başqa dinin kitablarının oxunmasına heç vaxt qadağa qoymamışdı. Sadəcə bi şeyi deyirdi. Yadıvuzda saxlıyun, deyirdi, Allah birdir. Bizdə deyirük üsuliddin və firudiddin var. Üsuliddin 5 şərtdi, firudiddin 10 şərtdi. Bı 5-10 şərt biri onun ideyasıdı, biri də əməllər formasıdı. Biri dindi, biri şəriyətdi. Bu, ümumiyyətlə, İslamdı. İslam sözünün mənası Allaha təslim olmaqdı.

Atam deyərdi elmi elə öyrənün və nəticə çıxardun ki, küfrə getmiyəsüz. Elmi varranmaqçün oxuma, elmi insan olmaqçın oxu.

* * *

Ona görə də Mir Tağı Ağanın təbliğatdarınnan, məsləhətdərinnən biri də bu idi ki, övladdarım, həmişə dinin bizdən tələb elədiyi normaları gözdüyün. Yəni heç vaxt yerli-yersiz, artığ-əksik danışmeyun. İnsannar arasında özüvüzü heç vaxt üstün göstərmiyün.Yanı bu etikadan kənar olan şeylərdi, dinimiz də bunu bizə qadağan eliyir. Çünki peyğəmbərdən bizə hər şey nümunə gəlir ki, o zaman biz kimi belə dördkünc mizdə oturmuyub, həmişə dairəvi mizdə oturub. Bu özü bizə bi örnəgdi ki, o dəyirmi mizin arxasında oturmağın özü bərabər hüququ göstərir. Ona görə peyğəmbər (sav) bizim üçün bir etalon və bəşər üçün böyük bir nümunədir. Ən pisi indi odur ki, insanlar dinin pərdələri altında cürbəcür vasiyələrə gedillər. Yəni peyğəmbər (sav) özü də narahat idi bu kimi məsələlərdən ki, mənim ümmətim 73 firqiyə bölünər. Bının 72-si batil olar. Biri düz olar. Yəni biz indi ayırd eliyəy görəy

73-dən hansı bizüy, hansı biz döyülüy. Hamı deyir ki, biz düzüy. Quran deer helə döör. Quran deer nəyi istiyirsənsə bilmək düzdü, Qurana istinad elə. Ona görə də böyük mütəfəkkir alim Təbrizdə anadan olmuş (1903-cü ildə anadan olmuş) Seyid Məhəmməd Hüseyn Əvvamə Təbai yazır ki, özünün təfsilən mizanında, deer ki, mən bütün bı işdərin gedişatında məəttəl qalıram ki, Allah-tala bı nizam-intizamı göndərməynən insannar nətər olur ki, bu pis yollara gedillər. Məsələ budur ki, onlar Quranın təfsilin Qurana istinadən eləmillər. Hər kəs öz biliy dairəsinə istinadən eliyir. Ona görə də tarıxçı tarıx tərəfə, riyaziyyatçı riyazıyyat tərəfə çəkir.

Atamıznan həmişə elmi mübahisələrimiz olurdu. O deyirdi ki, fikrivi həmişə əsaslandır. Ağa ali təhsilli idi. Texniki savadı var idi. Energetika sahəsini qutarmışdı. Amma dini təhsili də var idi. Bizim Alvadı kəndində Ağababa var idi, olar oxumuşdu, ağa da olardan təhsil almışdı. Atam bıra gələnnən sora, yanı örgənənnən sora da qadağan idi o vaxtı, atam gizzin oxuyurdu. Mən də atamın cibinnən götürürdüm o yazıları oxuyurdum. Həvəsim var idi. Sora ha yavaş-yavaş oxudum, örgəndim mən də. Atam bir gün dedi, mənim cibimə əl girir kimsə. Bını kim eliyir belə? Dedim ata mən girirəm. Dedim, ata, mən bını götürürəm belə, oxuyuram başqa şey eləmirəm. Dedi, oğul, da niyə gizzin eliyirsən? Mənə de sənə də deyim. Sora soruşdu mənnən, gördü bı oxuduğların mən də bilirəm. Bınçın marağlı oldu.

* * *

Deməy, babamın iki oğlu olub: Mir Alı, Mir Rəsul. Mir Alı 1942-ci ildə müharibəyə gedib. İtgin düşüb. Hələ indi də onnan bir məlumat yoxdu. Çox araşdırmalar apardım. Yalnız

itgin düşənnər siyahısında və 1942-ci ildə Yardımlı rayonunun vayenkomatınnan müharibəyə çağrıldığı göstərilir. Onnan başqa heç bir məlumat yoxdu.

Atam 1937 təvəllüddü. Yeganə oğul o qalıb. Rəhmətdik babam deyərdi ki, mənim oğlum bir olub, istərdim ki, 7-8-10 nəvəm olsun, oları oğlum kimi qəbul eliyim. Bizdə də Allaha çox şükür ki, 8 qardaşığ.

Atam rəhmətdik deyərdi ki, seyid o deyil ki, hamının qarşısında başı yuxarı gəzə və deyə ki, mən seyidəm, hamı mənim qulluğumda durmalıdı. Allah-tala bizi ona görə yaradıb ki, bütün Allah bəndələrinin qulluğunda durağ. Haqqı nahaxdan ayıra biləк. Heç vaxt özüvü yüksək tutma, qoy Allah səni yüksək tutsun.

* * *

Mir Rəsul Ağanın bi dənə sözü vardı, deyirdi, bala, Allah nə istəsən bu gün verər sənə, yetər ki sənin inamın yüksək olsun. Deyərdi inamı yüksək olan insanların nəfsi zəif olur, tamahı zəif olur. Ağanın bir xasiyyəti vardı, Azərbaycannan kənarda nə istehsal olsaydı onu yeməzdi. Nə yağı, nə kanfeti, hec bir şeyi. Uzağ bi yerə gedəndə də ərzağın özünnən götürərdi. Deyirdi, bala, elə bilirəm nəfsimə haram qatsam, elə bil mədəmdə bir qoruyucu var, o həmın tikəni geri qaytarar. Ona görə də istəmərəm özümə də əziyyət verim, başqalarına da.

Bi də görərdün mən ya da başqa övladarınnan biri hansısa özünün tay-tuşlarınnan gəlirdüy bizə ya nərd, ya da nəbilim, damino-filan oynamağa, ağanın acığı tutardı. Deyərdi onnansa gedin bir vərəq Quran oxuyun, ya bir dini kitabnan marağlanın. Zeynivi dəyərli şeylərnən yüklə.

Elm oxumağ tərəfdarı idi. Deyərdi, bala, ancağ oxuyun. Mənə sizin heç bir işiniz lazım deyil. Siz oxuyun.

**Söyləyicilər:**

Südabə İsayeva, doğum tarixi 1952, təhsili orta, Ərkivan kəndi

Hacı Mir Qiyas Təhməzov, doğum tarixi 1944, təhsili orta, Masallı şəhəri

Hacı Niftulla Abbasov, doğum tarixi 1940, təhsili orta, Alışanlı kəndi

Rəfayıl Vahabov, doğum tarixi 1944, təhsili ali, Göylənni kəndi

Hacı Nüsrət Nəsrullayev, doğum tarixi 1947, təhsili ali, Qızılağac kəndi

Musarza Mirzəyev, doğum tarixi 1958, təhsili ali, Mahmudavar kəndi

Mir Əli Tağıyev, doğum tarixi 1956, təhsili orta, Masallı şəhəri

Mir Möhsün Tağıyev doğum tarixi 1961, təhsili ali, Masallı şəhəri

Mir Rafiq Bədirov, doğum tarixi 1965, təhsili ali, Şıxlar kəndi

**Toplayanlar:**

Füzuli Bayat (Gozəlov)

Nuridə Muxtarzadə

İlahə Heybətova

# 4. MƏNKABƏLƏR

## Mir Həsən Ağa

Bizdə Seyid Sadiq Ağa və Mir Həsən Ağa var idi. Mən Mir Həsən Ağanı 14-15 yaşlarında olanda görmüşəm. Siması nurlu insan olub. Seyiddərə nəzir verirlər, amma ki, o, nəziri hamıya paylayır. Ağa heç vaxt maşından, minikdən istifadə etmiyib. Mən özüm böyüklərdən eşitmişəm bir nəfər maşında gedəndə görür ki, ağa piyada gedir. Diyir ki, gəl otur, deyir, yox. Ağa səndən incimir. Gəlir görür ki, Ağa ondan qabağ bazarın yanındadı.

## Mir Həsən Ağa yol daşlarını təmizləyir

Allah rəhmət eləsin, bir gün Şeyx Rəhmət Axundnan Mir Həsən Ağa (Şeyx Rəhmət Axund Çaxırlıdan olub. Mir Həsən Ağa Qizilağacli olub) piyada yol gedirmişlər, yayın isti günündə. Axund deyir, mən gedirdim, bir də gördüm Mir Həsən Ağa harda belə-belə daşlar var, (o, əli ilə daşın ölçüsünü göstərir) yolun ortasından daşları götürür, yolun qırağlarına düzür. Dedim:

– Ağa, gedək.

Dedi:

– Yox. Gecə ayaqyalın adam gələr dəyirmana, gedəndə ayağına bu daş ilişər. Ona görə də daşları götürüb qoyuram kənara.

Axund deyir, mən savadlı adam, mən alim gördüm, ancaq beləsini görmədim. Ağa belə deyəndə mən də qoşuldum ona, bu daşlardan götürüb kənara qoymağa. Getdim, bir dənə böyük daş vardı, qaldırmağa gücüm çatmadı.

Deyir:

– Çuxamı çıxartdım qoydum kənara, daşa güc elədim, nəhayət, götürdüm, daşı apardım qoydum kənara.

Mir Həsən ağa da o tərəfdə daş yığırdı. Dedi:

– Axund, Axund.

Dedim:

– Bəli.

Dedi:

– And olsun oxuduğuva, o daşda mənim də əlim var.

Dedim:

– Əşi, mən götürdüm bu daşı, sənin necə əlin ola bilər?

Dedi:

– Yox, mənim fikrim vardı, bu daşı götürəndən sonra onu götürəcəydim. Ona görə də sən onu qaldıra bildin.

Yəni bizdə belə müqəddəs insanlar olub.

## Mir Həsən Ağa qadına paltarını verir

Allah rəhmət eləsin. Aclığ dövründə həmin Mir Həsən Ağa burdan keçəndə görüb bir dənə qadın paltarının bir tərəfini tutub, cırılıb bir tərəfi açığ qalıb. Ağanın da çuxası var, altında da tuman-köynəyi var. Ağa gedir girir bir gizlin yerə, deyir:

– Qızım, qızım bura gəl.

Çəkir əyninnən tumanın çıxardır. Şalvarı çəkir boş bədəninə, deyir:

– Qızım, gələ bunu geyin əyninə.

Tuman-köynəyi verir həmən qadına, özü tuman-köynəysiz qalır. Yəni belə-belə müqqəddəs insanlar olub.

## Quyu

Bizdə kəramətli Ağalar çoxdu. Mir Həsən Ağa hələ onun kəramətinin əlaməti nədi. Yəni camaat onu Xırmandalıda deyib arabaynan gəliblər ki, aparsınlar. Ağa deyib, siz gedin, mən gələrəm. Arabaynan gələnlər gəlir görür ki, Ağa burdadı. Məmmədxanlı camaatı deyib, ay Ağa, bizim suya ehtiyacımız var. Kənd əhli yalvarır ki, ağa, cəddinə qurban olaq, suyumuz qəhətə çıxıb. Deyir, ağa dua oxuyub, sonra üzünü camaata tutub deyir ki, məni qovun, harda yorulub yıxılsam, orda quyu qazarsız, su olar. Ağanı qovurlar, qovurlar, yıxılır. Orda quyu qazırlar, su çıxır.

## Oğru

Mir Həsən Ağanın kəramətləri nədi. Yenə bir gün onun həyətinə oğru girir, soğan oğruluğuna. Deyirlər ki, ay Ağa, oğru girib soğanlığa. Deyib, ola bilməz. Gəlib baxır görür ki, soğanı dəriblər. Həyətin də hər tərəfi kolluğdu. Deyib oğru üçün: ay bala, ay bala, sən nə əziyyət çəkmisən. Halal xoşun olsun.

## Sərçələr

Mir Həsən Ağa öz evində ata-baba ocağında məhərrəmlikdə, qədr gecələrində həmişə ehsan verərmiş. Mötəbər adamlar, ağanı sevənlər ağaya divarlarında quşlar yuva salan köhnə evini söküb, yerində təzəsini tikməyi məsləhət görərmiş.

Mir Həsən Ağanın sora istiyiblər ki, evini söküb təzəliyələr. Onun da evində hələ çalğı çalınmıyıb. Deyirlər ki, gəl,

ay Ağa, köhnə evdi də, qədimnən qalmadı, gəl bunu sökək, təzəliyək. Deyir:

– Yaxşı təzələdiz, bəs bu sərçələrin yuvaları hara gedəcək?

Qoymuyub ona təzə ev tikməyə.

## Maşın yerindən tərpənmir

30-cu illərdə mömin adamların başı çox müsibət çəkib. Ürəklərində Allah xofu olmayanlar, rühanilərimizi, seyidlərimizi izləyib, çoxunu sürgünə göndərib vətəndən didərgin salıblar. Bir gün NKVD işçiləri Mir Həsən ağanı dini təbliğ etdiyi üçün günühlandırıb, maşınla harasa aparmaq istəyirlər. Maşın yerindən tərpənmir. Ağanı düşürürlər. Maşın işə düşür, ağanı mindirirlər maşın işə düşmür. Qərəz, bu möcüzə bir neçə dəfə təkrar olunduqdan sonra gələnlər:

– Biz səni görməmişik, – deyə kor-peşiman geri qayıdırlar.

## Mir Həsən Ağanın mərhəməti

Nəql edirlər ki, Mir Həsən Ağa yolu çox vaxt pay-piyada gedərmiş. Rastına çıxan daşları götürüb, yolun kənarına qoyarmış. Ağa yol adamı kimi, yol quşunun da bu daşlardan zərər görməsini istəməzmiş. Ağa adamları günah işlərdən çəkindirər, onlara öz davranışı ilə ibrət dərsi verir, qəlblərində ədəb-ərkan çırağı yandırardı. Bir dəfə ağanı üstü açıq arabasında aparan şəxs öz atını bərk qamçılayır, ürəyi soyumur, hələ bir söyür də.

Ağa deyir:

– Bala, arabanı saxla!

Və düşür. Deyir:

– Sür get! Mən piyada gedərəm!

Arabaçı peşimançılıqla dillənir ki, ay ağa, olmaya xətrinə dəydim? Ağa deyir ki, rəhmətliyin oğlu, bu at sənə nə pislik edib? Həm döyürsən, həm də söyürsən. Evinə suyu, out, ruzini atla gətirmirsənmi? Deyilənlərə görə həmin adam bu hadisədən sonra özü ilə qırmanc gəzdirməyi belə tərk edib. Masallı Qala bazarını gəzərkən və ya qonşu rayonlara gedəndə verilən nəzir-niyazları Mir Həsən Ağa həmin anda kimsəsizlərə və imkansızlara paylayarmış.

## Pul saxla

Bir dəfə onunla uzaqdan gələn bir adam Ağanın səxavətindən və alicənablığından heyrətə gəlib deyir ki, Cəddinə qurban olum, ay ağa, elə et ki, heç olmasa günorta yeməyə pul saxla!

## Gəmiricilərin dəfi

Atamın başına gələndən danışım. Atam şəhərdə işləyəndə diyir ki, İrandan Azərbaycana humanitar yardım gətirmişdilər: xurma, kişmiş. Bizə göstəriş verilmişdi ki, buları uşaq evlərinə paylamaq lazımdır. O vaxt güclü nəzarət altında idi, represiya dövrü idi. Hətta bir gilə kişmiş mən cibimdən götürə bilməzdim, yolda yoxlayırdılar. Atam diyir ki, bir gün ambara baxdım gördüm ki, siçan, mışovul xurmanı yeyir.

Getdim dedim indiki milis yox, NKVD olub. NKVD-yə didim, NKVD dedi, sən qorumalısan. Mən necə qoruya bilərdim? Qaldım belənçiy, gəldim beşdiy taxtalar varıydı, oların içinə yığdığ, gənə də heç nə olmadı. Dedilər, siçanın mışovulun qabağın almasan, səni tutacuğ. Diyir ki, qorxurdum ki, məni tutub aparacağlar. Dayanmışdım. Gördüm Mir Həsən

Ağa gəlir, tez özümü yığışdırdım. Ağa yaxınlaşanda salam verdim. Ağa məndən soruşdu:

– Nəyə narahatsan?

Mən demək istəmədim. Ağa dedi:

– A bala, mən bilirəm. Mən istəyirəm ki, sənin öz dilindən eşidim. Gördüm Ağa bilir hər şeyi. Mən danışdım Ağaya. Ağa dedi ki, narahat olma. Əlində əsa vardı. Atam diyir ki, həmən əsanı binanın ətrafına gəzə-gəzə əfsun oxuyurdu. Əfsun oxuya-oxuya yeri cızırdı. Binanın dörd tərəfinə oxudu. Qapıya çatanda didi ki, get, rahat yat. Sən qorxub eləmə, mən özüm gedib danışaram. Atam didi, ağa diyəndən sora qarolçuya təhvil verdim. Səhər gələndə hər dəfə qarolçu məni qarşılayırdı. Gördüm bu, yoxdu. Bu vaxtı bu yatmazdı. Mən gələndə həmişə ayığ olurdu. Gəldim soruşdum, dedim, nolub?

Dedi:

– Axşam siz gedəndən sora göy gurulladı.

Dedim:

– Gedim baxım, yoxladım binanı, sora gəlim girim içəri. Helə göy gurullamamışdı. İldırım çaxdı. Yer işıqlanmağıynan gördüm bir sürü pişik böyüklükdə ala-bula pişiyə oxşar şeylərdi, cumur qapılara. Bir dəstəsi gedirdi. Məni vahimə bürüdü səhərə kimi çıxmamışam ambardan. Getdik gördük ki, ambarın qabağında siçanlardı ölüb. Bundan başa düşdük ki, bu ağanın möcüzəsidi. Atam NKBD-ni çağırıb. Olar görüb ki, yaxşı bir şey var. Sora o yeri məçid elədilər.

## Mir Həsən Ağanın inək satmağı

Mir Həsən Ağa o vaxtlar Masallının kəndlərini gəzərmiş. Hacıtəpə kəndində savadlı ədəbiyyat müəllimi (indi rəh-

mətlik) Yaqub Əsədovun da bir inəyi varmış ki, balası doğan kimi də ölərmiş. Anası, arvadı deyirlər:

– Yaqub, sən gəl inəyin doğan balasını Mir Həsən Ağaya nəzir de.

Yaqub müəllim belə şeylərə çox inanmasa da, razı olur. İnəyin doğacaq balasını Yaqub müəllim Mir Həsən Ağaya nəzir deyir. Gəlir bu dəfə inəyin balası ölmür. İnəyin sonrakı balaları da qalır. Nəzir deyilən buzov da böyüyüb bala verir. Ancaq Mir Həsən Ağa kəndə gəlmir ki, gəlmir. Bir gün Yaqub müəllimə uşaqları deyirlər ki, ata, Mir Həsən Ağa bizim evin qabağından keçir. Yaqub müəllim Ağanı evə dəvət edir. Deyir:

– Ağa, bu yanı balalı inək sizindir. İnəyimin balaları ölməsin deyə bunu sizə nəzir dedim, şükür, doğulan balaların hamısı sağ qaldı.

Mir Həsən Ağa deyir:

– İndi ki, bu yanı balalı inək mənimdir, mən də onu satıram. Ancaq ilk sənə təklif edirəm, zəhmət çəkmisən, otunu-suyunu vermisən. Beş manat ver, inəyi balası ilə sənə verim.

Yaqub müəllim çox təəccüblənir. Deyir:

– Ağa, bu inəyin balası ilə bərabər qiyməti iki yüz manatdan çox edər. Siz nə danışırsız?

Ağa deyir:

– Müəllim, inək mənim deyil?

Deyir:

– Sənindir.

Deyir:

– Onda istədiyim qiymətə sataram. İnəyin qiyməti oldu üç manat. Verirsən sənə satım, yoxsa kənddə birinə satacağam.

Yaqub müəllim naəlac qalıb üç manatı verir, inəyi və balasını alır. Mir Həsən Ağa da üç manatı Yaqum müəllimin

həyətdə oynayan uşaqlarına verib deyir ki, gedin özünüzə şəkər alın.

## Seyid Sadiqlə Seyid Rza

Deməli, Seyid Sadiqdən saatı soruşurlar. Deyir:

– Üçə qalır beş dəqiqə.

Elədi. Bizim bir qohum olurdu Alatavada. Seyid Sadiq Alatavanı tanımırdı. (Mən şəhərin mərkəzində qalmışam, sonra işləmişəm avtovağzalda.) Orda Etibar adında oğlan vardı. Seyid Sadiq düşər avtovağzalda, Şamaxinkada. Etibar da balaca həyət evlərində olurdu.

Ay Etibar, Etibar, Seyid söyüş söyən idi, ay alçağ, bilmirsən mən gəlmişəm, çıx qırağa da. Deyir, çıxdım gözlərim bu boyda oldu. Bunu kim gətirib, nətər gəlib bura? Heç Alatavaya getmiyib, Bakıya getmiyib. Onun atası Seyid Rzanı polis gətirmək istiyib. Gəliblər maşını sürüblər, nə qədər əlləşiblər maşın xoda düşmüyüb.

## Qızılağac piri

Qızılağacın tarixi və o kənddə yaşayan insanlar haqqında bizə yazılı mənbələrdən məlumatlar var, o cümlədən xalq deyimləri, söyləmələri əsasında Qızılağacın qədim tarixi özünə məxsus qorunan abidə vasitəsi ilə təstiqlənib. Vaxtı ilə Qızılağac şəhər tarixi antik müəlliflərin əsərlərində şəhər kimi qeyd edilib. İndiki Qızılağac keçmiş qərarlaşan yerdə olub. O da, təxminən, qəbirstanlığ ərazisindən iki kilometrə yaxın məsafə uzağlığındadı. O dövürdə tarixi bizə bəlli olmayan o şəhərə rəhbərlik edən hökümdar tərəfindən şəhərin abadlığ-

quruculuğ işləri yerinə yetirilmədiyindən şəhər əhalisini səfərbərliyə alırlar. O, kiçik yaşlı iş qabiliyyəti olanlardan tutmuş qocalara qədər iməcliyə cəlb edir. O cümlədən həmin dövürdə qoca bir kişi, vardı, Sultan adlı, o da işə cəlb edilir.

Bu Sultan pir, elə kəramətli insan ki, bu şəhərdə yaşıyırmış. Onun yaşının çox olmağına baxmayaraq, şəhər rəhbərliyi onu da səfərbərliyə cəlb etdi. Lakin Allah tərəfindən kəramətli şəxslər öz mövqeyinnən qiymətlənən bu Sultan Pir həmin vaxt şəhərdə tikinti işləri aparan ustalar üçün su daşımağ tapşırığını alıb.

Daşlı quyunun yanına gəlir. Dolu vedrəni dərin quyudan çəkib yanındaki səhəngə tökür (səhəng bişmiş palçıqdan hazırlanan su qabıdır, yayda suyu çox sərin saxlayır).

Sultan pir səhəng dolusu sula bir neçə dəfə ustalara xidmət göstərir. İsti hava şəraitində işləyən ustalar yenə su tələb edirlər. Sultan pir yorulub, ehtiyacı ödəmək qüvvəsinə malik olmadığını bilir. Nə etməli? İşdən yayına bilməyəcək. Çarə ancaq Allaha yalvarmaqdadır.

Sultan pir yenə vedrəni quyudan doldurub səhəngə tökür. Hər tərəfdən su tələb edirlər. Sultan səhəngi götürüb onu səsləyən ustanın yanına gedir.Usta su qabını götürüb qocanın əlində olan səhəngə yaxınlaşırır. Usta baxıb görür ki, səhəngdən su tökülmür. Bu vaxt deyir:

– “Ay Sultan, nə üçün boş səhəngi gətirmisən? Axı bizə su lazımdır. And içir ki, and olsun Allahın izzəti-cəlalına səhəngin içində su var. Usta inanmır, baxırlar görürlər ki, səhəngin içindəki su buz bağlıyıb. İsti yay günündə səhəngdəki su buza dönüb. Sultan pir və yanında olan nəvəsi hadisənin cərəyan etməsini görəndə oradan uzaqlaşırlar.

Xəbər şəhərin başçısına çatır. Sultan piri tutub saxlamaq haqda gösrəriş verir. Həmin vaxt Sultan pir qiblə səmtinə üz tutub yeyin addımlarla hərəkət edir. Arxaya nəzər edəndə görür ki, onu təqib edirlər. İndiki qəbristanlıqda olan oçağın yerində onu təqib edənlərin gözünün qabağında qeyb olur. Şah gəlir o yerə çatanda qocanın hara girdiyini soruşur. Deyirlər ki, burada gözümüzün qabağında qeyb oldu. Həmin yerdə şah iki qəbr tərtib elətdirir. Böyük qəbir Sultan pirin, kiçik qəbir isə nəvəsinindir. O gündən həmin yer ziyarətgaha çevirlir. Sonradan qəbirlərin üstündə bina inşa edilir. Ona "Ocaq" adı veriblər. Sultan pir oçağı kimi məşhurlaşıb. Oçağı ziyarət edən inamlı, etiqadlı şəxslər ondan bəhrələnib nemətləndirildiklərinə görə onun adı dillər əzbəri olub. Son zamanlar hətta Dağıstan vilayətindən bu oçağa gələn ziyarətçilər deyiblər ki, bu ocaq Dağıstanda çox məşhurdur. İndi də qonşu rayon kəndlərindən Ocağa gələn ziyarətçilər çoxluq təşkil edir. Kəramət sahibi olan Sultan pirin və nəvəsinin o yerdə çıxdığı gündə o ərazi qəbiristanlıq üçün vəqf olunub. İslam şəraitində qəbirstanlıq yol üstündə, camaatın o yerdə dəfn etməyi lazım edilməlidir. Şəriət vəfat edənləri o yerdə dəfn etməyi lazım bilir ki, orada kəramətli insanlar, seyidlər, müctəhidlər, din xadimləri, imam və imamzadələr dəfn olunsun. Qəbirstanlıq yaşayış yerindən uzaq olsa da, belə o şəxslər orda dəfn olunmuşsa, gərək vəfat edəni aparıb o qəbirstanlıqda dəfn edəsən.

Sultan Pirin məzarı dillərdə əzbər olub. Hər niyətə gəlirlər. Uşağı olmuyan nəzir eliyir. Dalağ xəstəliyindən olan ora uzanarmış, sağalarmış. O ocağın qədimliyi və o Sultan Pirin isə kəramətli olmağı bir az da insanların bu ziyarətə gəlməyinə çox səbəb oldu. Hər yerdən istiyirlər gəlirlər o ziyarətgaha. O ziyarətgahda öz niyyətinə nail olurlar. Masallının Sığıncağ

kəndi var. Ordan bir kişi hər ildə bir dənə cöngə gətirir. Burda kəsir. Buna sud eylədilər ki, sizin bura ehsan eləməyinizin səbəbi nədi? Dedi:

– Mən hər yerə getdim, Allah mənim istəyimi həyata keçirsin. Mümkün olmadı. Bu ziyarətgaha gəldim. Burda Allah mənim dualarımı eşitdi. Hətta istiyirdi o ziyarətgahı təzələsin. Gələr ehsan verər, camaata özü də orda bişitdirər, verər camaata, yeyərlər. Qalanını da paylayarlar. Ocağın kəraməti var. Orda Mir Həsən Ağa var. Orda Mir Cəfər Ağa var, olar qırağdadı. Sultan Pir nəvəsiynən içəridədi.

## Mir Möhsüm ağanın kəraməti

Mir Möhsüm Ağanın kəramətini deyim. Yay vaxtı oturub nar ağacının altında, onun da iki mərtəbəli evi varmış. Belə deyilişlər çoxdu. Deməli, o vaxt indiki tikililər olmadığı kimi evin altında heyvan saxlıyırmışlar. O cümlədən bu Ağa da çox mömün olub. Sovetin qorxusundan dini işlərlə məşğul olmuyub. Gedib müəllim işliyib. Deməli, nar ağacının altında kitabları oxuyanda qonşular görər ki, ev yanır. Gələrlər, deyərlər ki, ay Ağa, ev yanır, ev yanır. Deyir, yanmaz. Deyir, Ağa, axı ev yanır. Heyvanların yeri yanır, yuxarıda da evdi. Deyir, yanmaz, yanmaz. Camaat görür yanır. Ağa deyir, yanmaz. Bir də görürlər ki, od öz-özünə söndü.

## Mir Cəfər ağanın kəraməti
## Hissiyyat

Mir Cəfər Ağa yetmiş dörddə vəfat eliyib. Mir Həsən Ağa isə əlli beşdə. İkisi də Qızılağaclıdılar. Mir Cəfər Ağaya

kimi özlüyündə nəzir etsəymiş Ağa onu duyarmış. Səhər gedərmiş həmin adamın evinə deyərmiş:

– Dünən mənə nəzir boyun alıb kasaya qoyduğun pulu gətir. Həmin adam deyərmiş:

– Ağa, nə bildün, deyərmiş, mənə ilham edirlər.

## Mir Cəfər Ağanın ov məsələsi

Kəramətlərinin birini deyək. Mir Cəfər Ağaya deməli, payız fəslində deyirlər ki, ay Ağa, gəl gedək yovşana, nə bilim, orda ov tutacağıq. Ağa deyir, yaxşı, gəlləm. Girib evə Ağa ədyaldan-zaddan götürüb. Deyiblər:

– Ağa, bu isti havada nə ədyal götürürsən?

Deyib:

– Nə işivə e, gedirük də.

O biri deyir:

– Ağa, bu isti havada yorğan-döşək götürüb.

Gedirlər yovşana. Səhərisi hava dəyişir. Yağış-qar, Ağa bürünür yorğana.

## Allah dəf eləsin

Mir Cəfər Ağa çox hazırcavab və kəramətli ağa olub. Əsasən onun kəramətini görən adamlar indi də ürək dolusu danışırlar. Bir vaxt əkin sahələrini gəmiricilər korlayarmış. Ağaya müraciət edirlər. Ağa həmin gəmiricilərin əlamətin soruşur. Sonra ağa deyir ki, bu bir bəladı, buna ağanın gücü çatmaz. Ancaq bu bəlanı Allah dəf eləsin.

## 5 manat ver

Ağaya inəyin ətindən bir bud nəzir boyun olan adama ağa deyib:

– Beş manat ver, qalanı sənin olsun.

## Dadaşbala kötək yeyər

Mir Cəfər Ağa söhbətə maraq göstərən olub. Bir gün onu Babakosa (təzə kənd) kəndinə qonağ çağırırlar. Ağa özü ilə Dadaşbala kişini aparır. Süfrə sərirlər. Allah verən nemətin süfrədə olan vaxtında Dadaşbala kişi deyir:

- Ağa şor yeməz, Ağa ət yeməz, Ağa pendir yeməz.

Nəhayət, heç bir şeydən yeməyən ağa qonağ evindən çıxıb gələndə Dadaşbalanı tutur və onu vurmağa başlayır. Deyir, ağa, nə edirsən? Deyir:

Ağa ət yeməz, Ağa şor yeməz, Ağa pendir yeməz, Dadaşbala kötək yeyər.

## Kimyələmə

Mir Cəfər Ağanı həmişə kənd camaatı həyətlərinə aparıb həyət-bacanı, ev-eşiyi kimyələtdirərmişlər. Ağa həyətə girib üç-dörd dəfə tüpürərək oranı kimyəliyərdi və məhsul çox olardı. Ağanın oğlu Mir Abdulda ilanı ram etmək məharəti var idi. O vaxtlar kənd evlərində qızıl ilan çox olardı, ev sahibləri qorxudan evə girə bilməzdilər. Mir Abdul kişi bir dəfə ilanı çağırmaqla neçə metr uzunluğu olan ilan qıvrılıb yığılardı. O isə onu götürüb boynuna dolayardı. Cibinə qoyardı.

## Qızıl ilan

Əlihəsən Kərbəlayi Ağakişi oğlu deyir. Bir gün anam rəfdə olan kasaların içində çox qorxu bəxş edən qızıl ilan görür. Mir Cəfər Ağanı gedib gətirirlər. Ağa ilana üz tutub deyir. Ey Allahın heyvanı buranı tərk eylə. Bir də buralara gəlmə. İlan rəfdən düşür. Rahatca çıxıb gedir, bir daha oralarda ilan görsənmir.

## Cücələr

Mir Cəfər Ağa bir gün bazara satmağa yanında cücəsi olan toyuğ gətirir. O toyuğu alırlar. Səhər toyuğ alanın oğlundan soruşur:

– Toyuq neyləyir?

Deyir:

– Ağa dənləyir.

Deyir:

– Elə et ki, pişik cücələri dənləməsin a... Mən pişiyin əlindən satmışam.

## Oğurlanmış toyuq

Zarafatyana ağanı yoxlamaq üçün ağanın toyuğunu oğurlayıb özünə satırlar. Üç dəfə bu iş təkrarlanır. Ağa pul verib alır. Ancaq satanlara elə münasibət bildirir ki, guya ağa bu toyuğu tanımır.

## Tufu mərəyə

Sovet hökümətinin vaxtında, işsizliklə mübarizə dövründə ağanı altı ay məcburi əməyə cəlb edirlər. Kənd ərazisində əkiləcək üzüm tingləri üçün qazılan çaladan ağa da qazma-

lı idi. Ağa görür ondan qabaqda gedənlər bir neçə çala qazıblar, Ağa deyir:

– Qazdınız?

Deyirlər:

– Bəli.

Ağa çalanın birinə tüpürərək deyir, tufu mərəyə. Deyirlər, o ərazidəki əkindən heç nə hasil olmadı.

## Kərbəlayı Hüseynalı və oğlu İbrahim

Kərbəlayı Hüseynalı və oğlu İbrahim kişi də iti yaddaşlı insan idilər. Kərbəlayı Hüseynalı söhbətlərini dinləmək arzusunda olanlar çox idi. Onun rəvan, incə, ardıcıl kəlmələri hamını özünə cəlb edərdi. Peyğəmbər (sav) buyurub, o şəxslə oturub-durun ki, onun danışığı sizə Allahın varlığını xatırlatsın. Məhz Allah, Quran və 14 məsum əleyhissəlam haqqında idi. Sual olunar, o, bu geniş mövzuları bəs necə öyrənib? Cavab birdir: məhəbbət və istəkdən. Kərbəlayı Hüseynalı Hacı Mir Hüseyn ağa ilə Kərbəla ziyarətinə gedib.

Kərbəlayı Hüseynalı Mir Hüseyn axundla Kərbəlada olarkən Hacı Mir Hüseyn xəstələnir. Altı ay xəstə yatır. Kərbəlayı Hüseynalı onun xidmətində övlad kimi xidmətgüzarlıq eyləyir. Bu altı ay müddətində Hacı Mir Hüseyn axundun yanına zəmanənin bir çox müctəhid, alim, üləma və din xadimləri gəlir. Hər gələn şəxslər elmi-dini söhbətlər edərmiş. Kərbəlayı Hüseynalı o söhbətləri Allahın bəxş etdiyi iti yaddaşına həkk edərmiş. Bəli, Kərbəlayı Hüseynalı oxumayıb, yazmayıb, ancaq eşitdiklərini həm kağız, həm qələmi olan yaddaşına yazıb. Soruşa bilərsiniz, Hacı Mir Hüseyn axundun yanına bu qədər din xadimlərinin gəlməkdə məqsədi nə imiş? Məqsədləri Allahın rəhminə özlərini

şamil etdirmək idi. Şəriət xəstə halda ziyarətinə getməyi ən gözəl, bəyənilmiş işlərdən hesab edir. Məhz bu cəhətə tanınmış axundun xidmətinə gələnlər çoxluq təşkil edirdi.

Hətda İbrahim əmi deyirdi ki, atam Fazili Dərbəndinin söhbətlərinə çox qulaq asıb, xidmətində durub. Hacı Mir Hüseyn axund vəfat etməmişdən qabaq Kərbəlayı Hüseynalının ona göstərdiyi xidməti qiymətləndirir. Öz dəsti-xətdi ilə qəbalə yazaraq öz irsinə onu varis qərar verir. Hacı Mir Hüseyn axund vəfat edəndən sonra Kərbəlada dəfn olunur.

Kərbəlayı Hüseynalı Qızılağaca gəlir. Gələndən sonra gedir Hacı Mir Hüseyn axundun evinə. Evladlarına vəfat xəbərini verir. Hüzr məclisi tərtib edilir, ehsanlar verilir. Növbəti günlərin birində Kərbəlayı Hüseynalı Hacı Mir Hüseyn axundun yazdığı qəbaləni oğlanlarına verir. Hacının övladları ata vəsiyyətinə sadiq olaraq Kərbəlayı Hüseynalını irsdən bir pay qiymətləndirirlər. Kərbəlayı Hüseynalı deyir atanız məni sizə qardaş qərar verib. Qardaşın malı qardaşa halaldır. Mən də öz payımı siz qardaşlara verirəm. O gündən Kərbəlayı Hüseynalını onlar qardaş kimi qəbul edir.

## Seyid Camalın Hikməti

Seyid Camal babamız olub bizim. Mənim anam seyid qızıdı. Mənim Seyid Camal babam İsfahanda olub. Onun iki oğlu olub. Biri Mir Abdulla, biri Mir Ələsgər. O gəlib Şuradaya gələndə görüb ki, Mir Ələsgər Ağa on səkkiz yaşında Mir Abdulla on iki yaşında. Mir Ələsgər deyib ki, baba, farsca deyib:

– Biz acımışıq. Təam istiyirik biz.

Görüb bir tayfanın kişiləri cüt sürür. Bir arvad oturub çöldə – həmin yerdə. Piyada gəlirmişlər. Deyir, səndə təam

var. Bular seyid balasıdı. Başında əmmama, əlində əba, üzündən nur tökülür. Bular acıblar, səndə təam var? Gətir bulara bir az təam ver. Bu arvadında əri cüt sürürmüş. Bu da cücə bişiribmiş, isti çörək bişiribmiş. Verir bu seyid balalarına.

Gətirir çörəydən də kəsir, cücədən də kəsir, aparır ərinin yanına çatanda görür ki, cücə də bitirimdi, çörək də bitirim. Əri deyir:

– Bular nədi?

Deyir:

– A kişi, bəs mən bundan verdim seyid balasına. Üzündən nur tökülürdü. Olara verdim. Olar imam imişlər. Ay qaçırlar, oları tuta bilmirlər. Gəlirlər ki, bu peysər var e, Astaranın peysəri gəlirlər ora. Mir Abdulla babaya deyir ki, oğlum, bura bir dərya gələcək orda, bir gəmi gələcək. Biz gəmiyə minəcəyik. Mən gəmidə harda vəfat eləsəm, orda məni dəfn eliyərsiz. Bu gəlir həmin peysərə ordan dəryaya. Dəryadan minir gəmiyə, orda vəfat eliyir. Gəminin içində vəfat eliyəndən sonra bu suyun yarısı çəkilir. Olur qupquru yer. Sonra gəlirlər bunu dəfn eliyirlər. Burda bir balaca məzar düzəldirlər. Onunçun mərmərdən daş gəlir. Hələ indiyəcəndə qalır. Düzəldiblər, yaxşı şəraiti var.

## Mir Ələsgər ağanın kəraməti

Mir Abdullaynan Mir Ələsgər Ağa azğın düşürlər. Gəlirlər çıxırlar bizim bu vilayətə. Öz də mənim həyətimə çıxırlar. Mən də olmamışam, mənim qaynatamın atası Maştamalı olub. Heç onda qaynatam olmazmış. O vaxt gəliblər, iki dənə uşağ başlarında əmmama, əllərində əba. Sübh namazına duranda görüb, iki dənə uşağ boyun boyunluğa verib. Gəlir bular bizim dili bil-

mirlər. Buların əlindən tutub aparır bizim Məçidimizə. Aparıb ora. Məçiddə axundlar deyib ki, mollalar deyib ki, buların üzündən nur tökülür. Əgər yağış yağmır, göy bitmir.

Əgər bularda bir möcüzat varsa, olar dua eləsin Allaha, yağış yağsın, bilək ki, bularda nəsə var. Abdulla başından əmmamanı götürür, Allaha öz dilində yalvarır. Bir yağış tökür. Mir Ələsgər Ağa qurşağın atır, yalvarır Allaha, yağış dayanır. Mənim qaynatamın atası deyir ki, mən bu iki seyidi gətirim sizə verim, gətirir öz həyətinə, uşağ imişlər. Buları evləndirir də. Öz qohumlarından alır. Mir Abdullaya bir ağac verir. O göyərir, tut ağacı olur. Kimyə kimi qalır orda. Onun adı qaldı Seyid Tutu. Mir Abdulladan olur Mir İbrahim baba. Mir İbrahimdən olur Mir Həsən baba. Bura olub dəniz.

Bizim buralara Lənkəran tərəfdən zəvvar gəlir. Bizim bu çayın üstü var. Çayın üstündə bir-iki dənə ev var imiş. Bizim bu yer də dəniz olub. Bular gəlirlər ki, surfa sərməyə, oları daşlıyırlar. Daşlıyırlar, zəvvarlar şeylərini yığırlar, düşürlər yola. Deyirlər suyu şor olsun, gözüvüz kor olsun, çörəyiviz olmasın. Bizi qarğıyırlar. Pramoy gedirlər Masallıya. Gedirlər otururlar Masallıda. Süfrələrin açırlar yeyirlər, içirlər. Bulara dəyib-dolaşan olmur. Süfrəni çırpırlar deyirlər çörəyiniz çox olsun, ruzunuz çox olsun, özüvüz də şən olasız.

## Ağanın Kitab Açması

Mənim babam, məsələn, biri gəlib desəydi ki, oğlum hardadı? Yoxdu da, beş il, iki il onu mən özüm gözümnən görmüşəm. Başlıyırdı onun duası var idi, oxuyurdu. Deyirdi, görün sən oların böyüyləri gəlir əcinələri. Molla xahiş eliyir ki, olarçun qurban kəs. İndi mənim oğlum hardadı? Oğluvuz oturub qırmızı

köynəy, ağ köynəy. Uşağ deyir, a oğlum, oturub tasnan baxırdı. Onun duaları var. Oturmuşdum Əhməd müəllimgilin evində, babamın evi olub orda. Dedi, baba, məni biri çıxardırlar.

Mir Həbibulla gəldi, deyir, adamın adın dedi. Oxudu elədi, deyir yanındakı qıçın vurmalıdı. Oturdu taxça olur axı dedi, filankəs hardadı? Dedi, çırmalanıb oturub taxçada. Deyir, bir nəfər şəxs gəldi, biri axsıya-axsıya gəldi. Gəldilər açdılar şəhərə çıxdı getdi. Bu saat bu meşəliydədi. Sonra gördülər arabada qoyun-moyun gətiriblər ki, tapmışıq. Kitab açıb itəni tapmağı atamız da bilirdi, babamız da.

## Seyid Sadığ Ağanın kəraməti

Bir dəfə bir yoldaşnan Tümenə qədər gedib çıxdıq pal-paltar alverinə. Trikatin parçası satmağ istiyirdik. Bir neçə atelyeyə girdik. Neçəsinə dedik, heç kim almadı. Mən Seyid Sadığ Ağanın cəddini çağırdım. Yanımdakı yoldaşım mənə dedi:

– Dörd min-beş min uzaqlıqda o, sənə necə kömək eliyər?

Mən didim:

– Köməy eliyər Ağanın cəddi.

Sora əvvəlcə girdiyimiz bir ateliyə girdik dedik. Belə parça var, əvvəl olar bizə istəmirik demişdilər, sora fikirləşib dedilər, biz bir top parçanı alırıq. Mən yanımdakı yoldaşıma didim ki, gördün, Ağanın cəddi kənardan da kömək eliyir?

## Şirin su quyusu

Masallı rayonu tərəvəzçilik rayonudu. Bizdə bir çöl kəndi Muğan deyilən bir yer var, Həsənli kəndi, orda da Ərkivan kəndi var bizdə, böyük qəsəbədi indi. Ən böyük kənddi. Azərbaycanda ikinci kənddi.

Orda yağış yağmır, burda yağış yağır. Bu Həsənnilər sudan çox korruğ çəkirmişlər. Mənim babam Miriş də ağır seyid olub. Deyəllər, ay ağa, başıva dönüm, gəl gedəy bizim kənddə bir dənə quyu qazaq. Hər tərəfdə quyu qazılıb. Bizdə şirin sudu, orda şor sudu. Bir dənə quyu qaz, ordan şirin su çıxsın. Ağanı aparıllar ora. Ağa bizdə gəndəlaş deyilən bir bitki bitir, seyiddi, seyidin də avamı olar də, söyüd ağacınnan bir dənə ağac kəsər. Deyər, gəlin dalımca. Başdıyar bunu at kimi çappağa. Gələr kəndin qabağında dayanar, ayağını vurar, deyər qazun buranı. Qazallar bını, su başdıyar çeşmə vurmağa. Onun dörd tərəfini qazallar, ordan duzlu su çıxar. O Miriş quyusunun adını qoyublar Daşdı quyu. Bu faktdı, belə bir şey olub.

## Çilə qarpızı

Sora onun oğlu, mənim babam Seyid ağa, indi oğlumun adıdı. Miriş babamın atası olub. Bı isə gedər, burda bir talış qızı var bizdə, bizdə talışdar yaşıyır də. Gedəllər oturallar bizdə. Bizdə çilə olur. Çilə günü də qarpız kəsəllər burda, boranı qaynadallar, qamış deyilən bir şey var, onnan hörərdilər, qarpızı asardılar ki, çürüməsin. O da asılmışımış yuxarıda, ağa da gəlib bulara qonağ. Sabah da çilə olacağmış. 19 yanvarda. Ağa deyər ki, talış qızı, gətir qarpızı kəsəy yeyəy. Bunu təsdiq eliyənlər var, görənlər var. Deyir, ağa, cəddivə qurban olum, qarpızı sabah səhər gələrsən, kəsərik, sənin payıvı verərəm, gəlməsən, göndərərəm. Yoldaşı Kərbəlayı Nuru deyər ki, ağa dedi, gətir qarpızı kəsəy. Arvad ayağa duranda, qarpız düşər ağanın qabağına, dilim-dilim olar, paylıyarlar.

## Yağış yağdırma

Hətta bizdə Masallı rayonunda o vaxtı keçmiş katib olub, deyib, ağa, seyidsənsə, yağış yağdır, çəltik gedir əldən, bura çəltikçilik rayonu olub da. Bu ərazilər su olub. Masallıda o vaxtı bütöv ərazilər Xəzər dənizi olub. İki dənə kənd olub bizdə Ərçüvan və Bambaşı (Zəm-zəm kəndi) olub. Belə deyillər. Kəndin tarixi böyükdü. Deyib, ağa, bir yağış yağdır da, başçı çağırıb onları keçmiş katib deyirdilər də Sovet vaxtı. Ağanın qurşağı var da. Bu qurşağı biz saxlıyuruğ. Vermişüy bacımıza. Çırpar bu qurşağı yerə, çırpar özün yerə, əzilər, eliyər. Saat yarımnan sora bir dənə leysan başdıyar bırda, gələr deyər, ağa, məni bağışda, mənim ürəyimnən başqa şey keçirdi. Həqiqətən də sizdə var belə şeylər.

Gəldilər babamın ocağını istədilər eləsinnər, mən ziyalı adamam. Özümün də imkanım, uşağlarım var. Mənim on bacım var, üzr istəyirəm, özümün də 4 övladım var, 6 nəvəm var. Gəldilər, mənə dedilər ki, belə bir ocağ yaratmağ istüyürüy, mən fikirrəşdim ki, bu ocağı mən yaradım. Bacılarımnan mehribanam, yeznələrnən mehribanam, tay bu ocağa nələr gələcey, pul gələcey. Sora da mən olacam bacı düşmanı. Onu mən ləğv elədim. Həqiqi deyirəm a. Heç şəklini də vermədim. Babam ağır seyid olub həddinnən artığ. Adı Seyid ağa idi. Ən böyük seyid olub.

## Çinar Ağacı

İran qranisində Pirzoba ocağı var, mənim babam ordandı, onların törəmələrinnəndi. Babamın tayfası hamısı orda olub. Həmin ocağın ortasında bi dənə quran evi olub. Kim gedərmiş nə

niyyətə, nə işə, o ocağa nəzir boyun alarmış, evi üçün, canı üçün, balası üçün gedərmiş ora, o Quranın qapısında başın qoyarmış ora. Mən xəstəydim, özüm üçün getmişəm ora, 3 ayın gəlini idim onda, dərd tapmışdım. Cavan qardaş itirmişdim. Hə, nəsə apardılar məni ora. O Quran qapısına belənci başımı qoydum ora, üzümü tutdum ocağın içinə. Həmin o Quran ocağına. Gözüvü diriyirsən o qarannığ yerə. Baxdım gördüm ki, gözumə çinar ağacları göründü. Bizim yerdərdə olmur o ağaclardan. Yamyaşıl ağaclar o qarannığ yerdə belə gedir, belə gedir. Ora gedənnər gedib, yatıb yuxu görüllər, durub danışıllar ocağın yiyəsinə. O da yozur. Düzdü, mən yuxu görmədim. Nə qədər elədim, görə bilmədim. Amma belə bi şey gördüm.

Durdum danışdım ki, hal-qəziyyə belə. Ocağın yiyəsi dedi, qızım, get, əlüü at qulağuun dibinə, rahat ol. Binnan da sənin azarun, bezarun getdi. Day bınnan sora sən xəstəlik görməzsən. Özü də yeriyə bilməzdim. Allahın birriginə and olsun, bala, düz padyomudu, yol mil kimi üzüyuxarı. Düşüb cıxmağ zulum idi. Mən də dedim, ay Allah, necə çıxacam, düşəcəm. Elə düşdüm quş kimi. Azarımı da elə o ocağda qoydum. Hə? bax Pirzoba ocağının kəramətini mən görmüşəm.

## Ya babalarımın cəddi

Seyid Məhəmməd aga da ki, olar İrandan kecmiş seyidlərdir. Bilmirəm, 1928-ci illərdə, ya da neçənci illərdə, bilmirəm İrandan üc nəfər adam kecillərmiş Azərbaycana, bu tayda quldurlar bunnarı tutullar. Bunnarın iksin başın kəsiblər. Seyid Məhəmmədin dədəsinin də başını kəsmək istəyəndə deyib, ya babalarımın, cəddi mənə köməy ol.

Lapdan bi nəfər gəlib deyib jandarmalar gəldilər. Deyir, necə yəni gəldilər? Deyib qoy bunun da başını kəsim. O biri yoldaşı deyib ki, burax onu, o da buraxıb qaçır. Bıçax bunun boğazını bir az kəsibmiş. Kişi əlini ordan elə basır, qan dayanır. Quldurlar qacır gedir, iki nəfər ölür. Bu gəlir kecir bizim kəndə, ona yer verirlər. Burada evlənir, ondan Mirsəmiəddin ağa adlı oğlu olur. Seyid Məhəmməd ağa da, o ölməyib, qalan seyidin nəvəsidir. Hə, Mirsəmiəddin ağa, ondan da olub, Mirsəmid, Mir Daməd, Seyid Məhəmməd.

## **İmamzadə**

Bu yaxında bir kişi gəldi Cəlilabaddan, iki gəlindi, arvad-uşağnan, bi yerdə əyləşdilər orda. Gedəndə bı arvad götürdü başının yaylığını qoydu burda, dedim xeyir ola?

Dedi:

– Bir il bunnan qabağ mən bu yaylığı götürmüşəm, üzr istiyirəm, gəlinimin uşağı yox idi. Mən onu bağlamışam gəlinimin belinə, indi Allaha çox şükür, uşağı oldu. İndi bi niyyətim də var, o da olsun, gənə gələrəm.

Bi də mən öz gözümnən görmüşəm. Bir kişi var idi, mağazinçiydi, yaşdı kişiydi. Bunun ağzı belə getmişdi. Yadımdadı, gələrdi, burda yatardı sonra ağzı düzəldi.

Lap ulu babalarımız söybət eliyərdilər ki, o vaxt bırda qəbir olub, deyiblər ki, imam qəbridi bu, hələ o vaxtı ulu babalarımız gediblər meşədən ağac-zad gətiriblər. Necə çöldə qarolçu binası yoxdi? Hə o formada onunçın bi dənə bina düzəldiblər. Bi dövr keçənnən sora helə deer bırda işığ yanarmış o vaxtı, gecələr. Sora camaat bir az zad olannan sora çiy kərpicdən balaca bi dənə bina tikiblər. Sora yenə bi müddətdən

sora hökümətin lap əvvəlində o dağılıb, qırmızı kərpicdən daş parçasınnan tikiblər.

Deməк, biz bi gün Maskvadaydüg, 1995-ci ildən sorakı söbətdi. Nənəmiz seyid arvad idi, uşağlar dedi ki, gəlin nənəmin qəbri üstə bi dənə məqbərə tikəy. Dedim yox, yaxşı alınmaz, heç kimdə yoxdı, bi dənə bizdə olsun, lazım döyil. Onnansa gəlin bu piri, İmamzadəni, biz düzəldəy, İmamzadə ocağını da yəni.

* * *

Əli Rza, Piri Zəhra imam balasıdı, Pir İmamzadə Əli Rzanın adınadı, ordakı qəbirsə 7-ci imam Museyi Kazımın qız nəvəsinindi. Əsasən də cümə günləri gəlillər bura ziyarətə.

## İmamzadə ocağının kəramətləri

El arasında pir yox, ocax deyillər. Sora dedim Vallah, mən biy az hökumətdən qorxan adamam, gedib xəbərin bilərəm, onnan sora. Gəldim Mirqiyas Ağanın yanına, dini idarənin başçışı (qazi), dedim, belə bir vəziyyət var, uşağlar issiyillər buranı bərpa eləsinnər. Dedi:

– Gedək onda icra aparatına.

Getdik Şirəli məllimin yanına, icra başçısı o idi onda. 2000-ci ilin söbətidi, nəysə razılaşdılar. Sora getdüy Maskviyə, orda lahiyə, zad təşkil elədüy, orda getdüy dini idaralara, Maskvada lahiyə gətirdüy oralara, sora genə getdim icraya. Baxdılar, Mirqiyas Ağa dini rəhbərdi getdüy baxdılar, razılaşdılar. Dedim ağa, gəlün mən qorxan adamam, gəl ipi sən çəkginən. Ağa özü gəldi ipi çəkdüy, qalanı bizim boynumuza. Amma nə məzara, nə də bırda balaca bi bina var idi, heç ona

da əl vurmaduy. Mən elə gözümü açannan elə bu qəbir buradadır. Usta gəldi, dedim usta, o qəbir necə var, bir daş da tərpətmədən ətrafını götürdüy. Üstünü də gördüyünüz kimi belə bəzədüy, kənarrarda da qəbirsannığ elə də qaldı. Dedim, indi Allahın sirridi də, necə onu tərpətməy olar eee.

Adamlar başdadı axışmağa, nə bilim biri dedi, Ilahi, oğlum sağ-salamat əsgər getsin gəlsin, gələrəm bura. Getməmişdən qabağ gəlib ziyarət eliyillər. Təzə evlənənnər gəlib buranı ziyarət eliyillər, Həccə, Kərbəlaya gedənlər tez-tez gəlillər bura. Mən atamnan da eşıtmışəm ki, deer Kərbəlaya gedən birinci buranı ziyarət eləməlidi.

Bizdə kolxoz var idi, təftişkomun sədri var idi. Ona deyiblər ki, get İmamzadəni bağla. Bu da gəlir İmamzadə qapısına qıfil vurur, çəpərdən keçəndə paya batır bının boğazına. Onun üzü elə ölənəcən elə şiş qaldı. Sora dedilər ki, bəs bu niyə oldu? Deyir ki, bəs gedirdim ocağı bağlamağa, onnandı. Gəlib görüllər ki, aaa qıfıl yoxdu üstundə.

Bakıdan hansısa muzeyin direktoru idi, dört nəfər idilər, gəldi dedi, mən bura dügün vurmuşdum, açılıb. Soruşdum nə işdi, xeyir ola?

Dedi:

– Mənim qızım ərə getmirdi, indi gedib, düyünüm açılıb.

O vaxtı, mən vəzifədə olanda kamsamol, partkom, həmkar, ispalkom, direktor, sora bələdiyyəyə qədər 29 il mən bu distansiyalarda işləmişəm.O vaxtı mən kənd soveti işdiyəndə uşağ istədi hüquqa girsin, dedi bəs götürmüllər, bəs gərək fəhlə balası ola, atası vəzifədədi, getdi tarixə imtahan verdi, sənəddərin aldı. Dedim, niyə alırsan? Dedi, bəs belə də. Məktəbi də qızıl medalnan qutarırdı, sora direktora dedim biyaz yaxşı alınmaz, deyəllər atası vəzifədədi deyə ona qızıl medal

verdilər. Ona bi dənə 4 yaz, yazdı, hə, yaxşı oxuyurdu. Sora oxudu getdi əsgər, gəldi, onda da mən direktor keşdim. Gənə hüquqa götürmədilər, dedilər, gərək fəhlə balası olsun. Nə isə uşağ da ruhdan düşdü, dedim onda get Moskvaya. O vaxtı mən də ali həmkarlar məktəbi qutarmışdım, o evdə ki mən qalmışam, tanış evdi, getginən ora. Bu getdi, 3-4 aydan sora mən də getdim. Getdüy o unverstetə dedilər göndəriş olmalıdır, ancaq gərək kaminist ola. Onda uşağı mən də rahat uçotdan çıxardım. Uşağ girdi orda fəhləliyə, adi yaşıllaşdırma idarəsindədi. 1 il sora icra ona göndəriş verdi hazırrığ şöbəsinə, sora imtahan verdi, qəbul olundu. İndi həmin oğlan hər həftə bira nəzir pul göndərər ki, deer orda mən dara düşəndə nə niyyət tuturam İmamzadəyçün, qəbul olur. Sidq urəynən. O açılışı da Mirqiyas ağa özü dedi:

– Oğul var, gedir zapravka açır, oğul var, şadlıq evi açır və s. İndi bu da bağlanıb da bura. Bunu edir. Nənəmiz deyərdi ki, biz yalan da deməruk, and da işmərük. O deyirdi ki, əvvəl bütün balalara dua eliyin, sora öz balalarıvıza.

Bura ən çox elə hər yerdən gəlillər. Aşurada da gəlillər bura. Əsasən isə Bədəlan, Ərkivan, yaxın kətdərdən. Ən şox da Masallıdan. İndi biz də buranı yaratmışuğ kənd ücün xalğ gəlir dua eliyir...

## Lal Seyidin ocağı

Bura ən çox elə nəzir boyun alıllar, gəlillər bura. Uşağı olmuyan, nə bilim ee. Orda içəridə bir yatax var, orda gəlib yatan da olur bir gecə, oturan da olur. Çox ağır seyid olub. Yoldaşı da ağır seyid olub, özü də. İkisi də seyid idilər. Lal seyidin on bir övladı olub. Burda olanı da var, Bakıda olanı

da var. Hər cümə günü bura çoxlu qurbannar gətirillər kəsillər. Bu ətrafda ən tanınmış ocaxdı. Bu onun türbəsidi, evi də o evlərin yanındadır. Onun evinə də nəzir boyun alannar var, ora da ocağ kimidir. Kimin ağriyan yeri var, gəlir gündüzlər uzanır orda, sağalır.

## Mir Tağı ocağı

Bura bir şey boyun alıllar, deyillər məsəl uşağımız saldat gedib sağ-salamat gəlsin, gedərüy ağanın ocağına. Gəlinnər gec azad olanda deyillər ki, sağ-salamat azad olsun, gedərüy ağanın ocağına. Gedərüy, qoyun boyun alıllar, pıl boyun alıllar, indi kimin nəyə gücü çatir. Öz həyətində də dəfn olunub ağa. Həftənin yeddi gününün 7-si də bura ziyarətə gəlillər, xəstələr gətirillər bura ki, şifa tapsın. Tapıllar, sora yenə gəlillər.

## Mir Tağı Ağanın kəramətləri

O gördüyünüz daş Əlinin ayağının izidi. Bax, yuxuda görüb ki, məsələn bizim həyətdə qalmamalıydi, gəldi bizdən istədi, biz də məsləhət bildüy ki, gətirdik burda ocağda qoydux o daşı. Kimsə niyyət tutur, məsələn, gətirir qoyur o daşın altında nəzirini. Məsələn, kiminsə niyyətinə ərizə yazdırıllar, qoyullar, sora biz oları götürürüy aparıruy, məsələn, başqa ocağda yerbəyer eliyirüy. Kiminin arzusu, istəyi. Adam var, yasin boyun alır, adam var, ərizə boyun alır, adam var, qoyun boyun alır, ora kəsən yerimizdi. Orda kəsdirirüy. Ağanin sağlığında çox şey olub.

Məsələn, bizim bu Boradigah kəndinin əhalisi bunun cəddiynən dolanan, yaşayan adamlar olublar. Elə bi ki, 12 metrə at-

danma arşında o 12 metrədən çox atdanmağ istiyib, amma biri ona bais olub. Elə bi ki, ipi çəkib o məsafəni atdana bilməsin, məsələn 13, 14, 15 metrə atdana bilməsin, ağa orda xar olsun da. O adam özü də ağır seyid olub, Şatroba kəndindən olub. Sora o gedib görüb ki, nəvəsi düşüb suya boğulub ölüb. O, ağanı pis eləməy üçün belə eləmişdi. Sora gəlib bunun ayağına düşüb ki, deyib ağa mən bilə-bilə o ipi çəkdim ki, sən orda qalib gəlmiyəsən. Ama bizim ağa yenə qalib gəlib o yarışda.

Burda Ərkivanda Seyid Sadiq var ha, o da həmişə deyərdi ki, məsələn, mənim cəddimnən Mir Tağı Ağanın cəddi gücdidi. Məsələn, mənə boyun alan nəziri ona boyun alun. Düzdi, ora da ziyarətə gedən var, amma o, həmişə bunun cəddini özünnən üstun bililirdi.

Mir Tağı Ağamın bir əlində imamlarımızın dırnağ yeri olub. Helə vaxt olub birinin ağzı əyilmişdi, hec həyətə girmir. Elə əl-zad sürtürdü, gedir şəfa tapır.

Bunun haqında danışmağnan qutarmaz eee. Məsələn, günün günorta vaxtı deyib gün çıxsın, gün çıxıb. Bi dəfə elə Boradigah bazarında məçidin qabağında ağacın yerə çırpan kimi, deer helə tufan başdadı, yağış yağdı ki, yığıb yığışdırmağ olmadı. İndi də elə tanıyannar var. Elə kasıb-kusublara nəzir payleeb ki, onçün o qabax 25 manat var idi eee rus pulu, onunçun 1 paçka onnan gətiriblər.

## Boyun olunan pul

Bi adam ağaya bi paçka pul boyun olub. Belə olub da. Kişi boyun alıb, amma gətirmiyib. Ağa girib onun yuxusuna ki, mənim səndə əmanətim var, niyə gətirmirsən? Kişi də gəlib o vaxtı, o, 20 yanvarda olub, deyib burda Masalli şoferlərindən

kim var da. Biri çıxıb deyib neynirsən? Bizim Kərbəlayi Hacıdı bizim bu balaca məhəllədə İmam var, o deeb ki, mənəm Masallı Boradigah şoferi. Deeb, hansı kətdənsən. Deeb, Bədəlan kəndinnən. Deer, bu gecə Mir Tağı ağa mənim yuxuma girmişdi, deer, mənim səndə əmanətim var, niyə vermirsən? Gələ bu 25 manatlıq paçkanı apar çatdır ona. O da deyib niyə çatdırmaram. Hə gəlir deer, ağa, səninçün pul gətirmişəm bir xeyləm, deeb, ədə, mənə pul lazım idi elə zarafatnan.

Ağa, deeb hə, otur maşına sür bu evdə saxlagınan. Saxlıyıb, bi 25-dik o qadına, bu qadına verib, kasıba-kusuba helə helə axırda bi dənə gilə qalıb. Deeb, İmam, bu da sənün, şoferin də yəni. Şofer deyib, ağa, bə kişinin yuxusuna niyə girmişdin? Axı demişdin mənim səndə əmanətim var? Deeb elə muna görə olub, camaatlara paylamay ücün.

## Məni aşırlı qəbiristanlığına aparmayın

Sora bu evin qabağında bi dənə armud ağacı var idi, orda bi dənə pələmə var idi. O, həmişə orda yatıb bütün fəsillərdə, xəstələnənə yaxın uje axır nəfəsində, o ev var ha, bi dənə əmimiz var o aparıb evınə. Burda bu ev yox idi, o vaxti soradan tikilib. İstəmiyib heç vaxtı ki, yaxşı ev-eşıyi olsun. Hə bax o əmimin balaca evində rəhmətə gedib hüzürün-zadın veriblər orda. Adını daşıyanlar var indi. Bi gəlinimizin yoldaşının adıdı, sora nəvələr də var, balaca nəticələri də var. Dəfni də ki, özünün vəsiyyətidi ki, məni həyətdə dəfn eliyərsiz. Elə bi ki, bunun bi dənə qardaşı olub Mir Kazım. Onun əsgər getməsini istəmirmiş. Hə götürüblər bizim bu Mir Kazımı buğdanın içində gizdədiblər, bi dənə başı görsənirmiş. Həmin əsgər aparan kişi adı Mütəllim idi, onu gəlib götürüb aparıb əsgərriyə. Ona görə o de-

yirdi ki, mənim düşmənim o qəbirsannığdadı. Deyib məni nəbada-nəbada aşırlı qəbirsannığına aparmıyun ha.

Məsələm, o qədər avam olub ki, zəmbili qoyub burda o yatan yerində, zəmbilin içinə iki dənə pişik girir. Elə helə zənbili aparır, o Boradigahacan o zənbil pişiklərnən gedir. Zənbili orda qoyanda orda pişiklər çıxır gedir. Bunu da görənnər deer ay ağa, bi adam zənbilinə baxmaz ki, orda olan nədi? Mənim 7 yaşım olanda o rəhmətə getdi. Bax 4-5 yerdə arvadızadı var. Elə onun bu başdaşı da mərmərdən hazırlanıb. Ağamızın bi dənə arvadı Türkoba kəndində var idi. Anamız deyirdi ki, elə belə şeyləri yığardı verərdi bizə, yaxşısını apardı o arvadçin. Sora boyun alıblar, məsələn, deyiblər qızım ərə getsin, üziy salmanı verəriy sizə.

## Mir Seyid Sadiq Ağa "Kişi Vaar?"

Ağa uzun müddət xəstə olub, çox acılı günnər keçirib, cavannığınnan ta yaşdaşana qədər. Elə hey iyneynən dərmannan. Ağam butun Masallı rayonunun xeyir-şər məclislərində iştirak eliyərdi. Mən olarda dərs oxuyardım, Onun qardaşı mənə dərs deyib. Biz səhər-səhərrər gələndə ağa çağırardı bizi, söbət eliyərdüy. Ağanın qardaşı oğlu bına dedi:

– Ağa, sən hardan bilirsən ee, bu gün hardasa ya xeyir işdi, yoxsa şər işdi?

Dedi:

– Mənə yuxuda deyillər.

Bi də ki nə desəydi olurdu də. Misal deyirdi, səə filan şey eliyərəm o şey gedirdi onun başına gəlirdi. Ya məsəl elə bi yerdədi ki, elə bi işdədi ki, ordan çıxmağ çətindi də, dardadı, Allahın möcüzəsiydi də elə bil. Bının da cətdi peyğəmbərdi.

Allahın yanında ən yüksəy məqamdadı. Kim nə istəsə, ona xatir verərdi. Bunun da cətdinə hec vaxt hörmətsizdiy eləmiyib, yəni Allahın haram buyurduğu işdəri eləmiyib. Bi də bi əlinnən alıb, bi əlinnən verən olub. Da fikirrəşmiyib eee buyün mən bu pulu xəjdəsəm, sabaha Allah verər misal da adamlar var da elə. Bınçin marağlı olmiyib bi əlinnən alır, birinnən də verirdi.

Bi dəfə çıxıbmış yola maşına əl eliyib, indi o yazığında vacib işi olub, ya nəsə saxlamağ istəmiyib, elə 1-2 metr gedib maşın qabağda dayanıb. Hə indi gəl də. Deyib, ədə, ağanı get tap. Ağanı gətiriblər. Ağa maşının dalınnan viran kimi maşın tərpənib. Bi dənə yaxşı sözü var idi onun "Kişi vaar?". Deyərdi mənnən başqa kişi yoxdu. Bi də deyərdi "Yalan, yalan, hamısı yalan".

## Seyid Sadiqin cəddi xərçəng xəstəliyini sağaldır

Masallıda biri vardı, gedib Bakıda deyiblər rakdı. Başqa yerlərdə də deyiblər həmin xəstəliyi. Bı dedi məndə da uje ay söbəti qalıb da. Nəzir boyun aldı ağanın cəddinə. Onun qardaşdarı Germaniyada idi, getdi ora. Hardasa bir 15 gün keçmişdi üstünnən bı həmin adam gəldi. Həkimlər demişdi belə bi şey yoxdu onda. Onda ağa rəhmətə getmişdi uje. Hə gəldi qəbir üstə. Möcuzəlidi kim nə boyun alır, hamısı qabıl olur. O adam da nəzirini verdi.

## Seyid Sadiq Ağanın kəramətləri

Məsəl olub gedib toya, söz vermiyiblər, tufan olub toyxana zad, qarışıb aləm bir-birinə. Toy olmıyıb demək olar ki. Bu nəsildə seyid çox olub, atası, qardaşı buların içində ən güj-

dü cəddi ağa olub. İcdərində də ən məsumu bı olub. Özünün də doqquz qızı var, bi oğlu. Onu bu yerə Allah qaldırıb səxavətinə görə, dəhşət səxavətdi olub, türmədən oğlannar buraxdırıb eee. Ora gedib deeb əyəm buraxmason filan şey olacağ. Həmən o adam da əgəm buraxmaq mümkündü buraxdırıb, ya gorürsən cəzasını yüngülləşdirib. Güjdi yaddaşı var idi ağamın. Məsəl deeb filankəsüü filan vaxtı mən türmədən bıraxdırmışam. O adam da deerdi, "hə" düz deer də. Bu cür cətdi ağırlığı əvvəldən olub, amma bu 1980-ci ildən bu yana lap güjdi olub. Bu ətrafdakı məsələn, Bədəlandakı, Qızılavardakı seyidlərnən bular əmiuşağı sayılıllar. Bir birinə hörmət eliyiblır də bular. Elə olar da bura ziyarətə gəlilllər, bılar da oralara gedillər, bi şey boyun alanda. Bizim də borcumuz bulara xidmət eləməydi. Allah deer yaxşısına özünə görə, pisinə də mənə görə hörmət elə. Deer, tapşırdı gedəndə budı peyğəmbəri sadiq, dedi Qurana əmanət. Quranda deer, həzrəti peyğəmbəri – səni aləmlərə rəhmət olaraq göndərdik. Bular da oların nəvələridi. Ağamın babaları Ərəbistannan köçüb gələnnərdi. Amma özü burada anadan olub. Atası gözəl Quran oxuyan olub, əzbərdən Quranı deyirmiş Adı Seyid Rza ağa.

Babası Mirbəşir ağır Seyid olub. Onu tutublar o vaxtı, bizdə də Şeyx Bəşir var. Əslində o tutulmalıymış. Bını tutublar əvəzində. Bı orda demeeb ki, mən o döörəm. Tutublar sürgünə göndərməyə. Mindiriblər maşına görüblər maşın getmir. Aparıblar haralara oralarda da nələrsə baş verib möcüzələrdən, nə isə amma yenə demeeb ki, mən o döyüləm. Apara bilmiyiblər axırı. Bilirsüz biri Seyx Bəşir olub, biri Mir Bəşir. Ad vermeeb. Orda da bıraxıblar. Ağam özdə tez bağışdıyan idi. Biri xətrinə dəyəndə onu bağışdıyardı. Bi xüssusiyəti var idi belə kxxk (zarafatyana çıxardığı səs) eliyən idi.

Məsəl biri yoldaşıynan gedir kxxk eliyəndə qayıdıb ağanı vırıb da. Amma başına iş gələnnən sora gəlib ağadan üzr issiib, ağa da bağışdeeb. Kinni döyüldü, sadə adam idi.

## Seyid Sadiqin cəddi xəstəni sağaldır

Bizdə bi Teymur Yahyayev var idi icra başçısı, elə bizim kətci idi, Teymur onnan çox qorxurdu. Ağa girirdi içəri daa dayanmazdı ki. Bi dəfə rəis mavininə tapşırıblar ki, ağa gələlndə buraxma ha, qonağlar var nazirriydən gəliblər. Nəsə ağa girər içəri day nə demeeb. Day Teymura nələr demeeb. Olar da baxıblar, ədə, bu nədi, Teymur da deeb ağadı də bizim ağamızdı. Bunın kimisi yoxdu da. Amma həmin adamlar ki, var orda həmin məclisdə olublar, indi olar ağanın ölənnən sora üstünə gəlillər. Bura ən cox xəstələr gəlir, şəfa da tapıllar. Vallah bura xəstə gətmişdilər day yer qalmamışdı gəzzirməsinnər. Hətta yaylığnan zadnan bağladılar məzarın dəmirinə, elə bi ki, havalı kimi olmuşdu də. Gətdilər maşınnan uzanan vəziyyətdə düşürtdülər, səhərdən düz saat 4-ə kimi o, uzandı ağanın ziyarətində, uzatdılar özündə döyül aaa baxa bilmir adama, camaat da gəlir gedir öz ziyarətdərini eliyir. Cavanca oğlandı 30 necə yaşında, 4 günnən sora onu gördüm qolunnan tutub ayağ üstə gəzir.

Qurban da kəsilir burda, elə olur gündə 25-30 qurban olur, nəzir, başqa şeylər də gətirillər.

## Seyid Sadiqin ürəyinə damır

Bi dəfə bi ailə olub evində kişisi olmeeb, heç nəyləri də olmeeb yeməyə, uşağ çox olub, qadın da xəstələnib. Ağanın ürəyinə gəlib ki, kimsə möhtajdı, durub bazarrığ eliyib necə

lazımdı gondərib olara. Öz də belə şeylər çox olub ha, bi bu döyül. Kimədə nə desə, heç kim inciməzdi onnan, lap söyseydi də. Yolda durardı bi də gordün propkadı Masallıda, hə, nədi bəs ağa durub ortada bu üzdən alır buraxır, o üzdən pul alır buraxır. Öz də kefnən aaa necə isteer, hünəriydi kimsə dillənsin. Bi də gördün kefinə gəlirdi ordan aldığı nəziri bı biri maşına verirdi. O ölən günü kimin toyları vardı hamı saxladı. Zaddar a Allahdan qorxannar.

## Dəsmal

Bi dəfə bizim rəis olub – Dövlət Səfərov, deer, oturmuşduy dostdarnan, biz də tanımıruy də, ağa gələr söyə-söyə nəsə. Deeb, bu kimdi? Deeblər ki, bəs belə belə ağamızdı. Bının da seyiddərə hörməti böyük imiş. Nəsə ağanı otuzdurublar yannarında. Ağa bına deeb, sən Naxcıvannısan? Deeb, hə, hardan bildün? Deeb, ə, mən bilirəm. Nə isə durub gedəndə bına 3 dənə cib dəsmalı verər. Bı da hələ onda rəis zad döymüş ee. Deer, heç üstünnən iki il nə çəhmədi ordakıların üçü də vəzifəyə gedib. Deer, gözzənilmiyən bi şeydi da. Deer, mən elə onda fikirrəşdim ki, ağanın o dəsmalı mənə verməsindədi hikmət elə.

## Tfu üzünə

Bi dəfə bazarda bi gəlin xaylağına belə pxkk eliyər, gəlin də nətər qorxarsa, qucağınnan uşağ düşər yerə. Gəlin qayidar mini söyər. Bi da qayidar heç nə deməz, bi dənə baxar mına deyər tfuu üzüvə. İnanın heç gəlin biyaz getməz ki, uşağ qarışığ tarapp dəyib yerə. Gəlin uje ölür, pis haldadı. Camaat yığılışar tökülər bıra, adə, noolub? Ağanı tapdılar gətdilər. Gəldi bellədi

ye, ay çəpəl, dur ayağa. Dedi, məəm ayağlarıma yıxılma, gala bı zadı, ehsanı, nəziri verrəm sənə, get o uşaxçın xəjdə.

İndi bura qəbirsannığda basdırılıb, onun qardaşı burda basdırılmışdı onun yanında dəfn elədilər. Deer uşağı olmıyannara kanfeti ya dişdeeb, ya da belə verib, deeb gala ye, get doğacağsan. Yaxşı oxumağı da vardı. Bi də gördün mikrafonu alardı, getdi yeeee. Amma Quran filan oxumağı bilməzdi. Atası hə, oxuyardı amma özü yox.

## Sah Səfi və ya Qaynar bulaq

Niyyət eliyirsən, o bulax qayniyir, sənin də niyyətin hasil olur. Xalq arasında əslində belə danışılırdı. Bu Sah Səfi də o vaxtı Səfəvilər dövlətinin rəhbərlərinnən, burda gəlib məskən salıblar, bu binanı bir on il bundan qabaq bizdə bi xeyriyyəci var idi, o gəlib tikdi. Dədə babadan burda bi balaca bina var idi, Sah Səfi ocağı deyirdilər, quyuya da "Qaynar bulağ". Yaşdılar deyirdilər ki, olar gəlib burda torpağ mənimsəmiyiblər. O qədər halal adam olublar ki, bu ərazini olar qızıl pulnan alıblar, onnan sora oturub burda düşərgə salıblar, çox mənzərəli yer olub bura yaxşı suyu olub buranın, ağajdığı. Sora döyüşdərə gediblər burdan.

Bu bulağın 2-3 metrə dərinniyi var. Soradan bura yanına dəmir-zad eliyiblər. Biz uşağ olanda deyirdilər ki, güya bura beşiynən bir uşağ düşüb, sora gedib çıxıb Kərbəlada, belə belə sözdər deyərdilər. Amma təmirdə gordülər heç 3 metrə yox idi onun dərinliyi. O vaxt burda çoxlu ilannar olub. Natəmiz, pis adamlar gələndə, ilannar ona hücum eliyiblər. Ona görə də hər adam bura gələ bilmiyib. İndi də davam eliyir, respublikada məşhur olan bir ocaxdı bura, hər yerdən də gələn var bura. Tək

o dini mərasimlər vaxtı yox, ilin bütün vaxtlarında gəlillər bura. Məhərrəmlik mərasimlərini də burada keçirirdilər. O tərəf kişilər üçündü, bu yan arvatdar. Qapağı açıllar suya niyyət eliyirsən, niyyətin qəbul olacaqsa, su qaynayir. Elə bunun möcüzəsi də odur ki, bu su nə quruyur, nə də azalır. İlboyu su sakitcə axıb gedir. Həmin o vaxtkı oların o əsgərrərinnən birda dəfn olunanları da var. Ocağın arxasında məzarlıq var ordadı.

## Hacı Mir Heydər Ağanın əyri ağzı düzəltməsi

Atam özi Quran oxiyirdi, bəzi məsələ şərhləri bilirdi. Mənim yadıma gəlir ki, bi dənə qadın Biləsuvarın Əmənkəndinnəndi, onun ağzı əyilmlşdi. Orda da bizim bi yaxın adamlarımızzan var idi, onu Bakıya aparıblar xəssəxaniyə. Həmən o adam deeb ki, dayı bizim orda bi dənə seyid var Mir Heydər Ağa aparginən onun ocağına, biz onda uşağduğ hələ. Nəsə gördüy bı qadın gəldi. Dedüy, yağın gəlib ziyarət eliyib gedəllər də. Dedi, yo, mən gedmiyəcəm, qalacam bırda, mənim ta bı ağzım düzələ gedəm. Ərinin də adı Bəşir idi. Dedi, Bəşir, mən qallam. Əri də komunistin vaxtında işdiyirdi. Dedi, mən qala bilmiyəcəm axı. Arvad dedi:

– Sən get mən qalıram.

Nə isə o qadın qaldı olar getdilər. Üstünnən bi gün keşdi, o teşt olan evdə qalırdı qadın da. Teşt onun içində su var, camaat gəlir orda ziyarət elyir, kimyəli sudu da icir onnan. Hə, bı qadın bi gün qaldi, utanırdı də yiyəndə su töküllürdü ağzınnan, yaşmağın çəkirdi yenə bi tikə daldalanırdı.

İkinci gündi. Rəhmətdik babam vardı, seyiddi özü də Mir Yaqub. Özü də ki, 41-ci ildə müharibədə iştirak eliyib. Ukraynalı bi palkovnik düz 35-40 ildən sora gəlib tapmışdı onu. Ba-

bam gəldi, otmışdı nahar yeyirdi ağam. Dedi, ağam, bilirsən nə var, mənə sən də dua elə, da bi ümid bilib bı qapını gəlib, Allah bına şəfa versin. Öz də bının yoldaşı, dedi ziyarət elədin gə gedəy, bı dedi yox e, mən qalacam bı belə bi əqidəynən gəlib. Ta düzələnə kimi mən bı seyidin cətdinə əqidə bağlamışam ki, bırda mən nicat tapacam. Nəsə üçüncü gün axşamı idi, yatmışdı bı qadın. Gördüy ağlamağ səsi gəlir, qorxduğ dedüy, yağın bına bi şey zad olub. Durduğ ayağa gəldüy, anam gəldi soruşdu nədi, nə işdi, a bala? Biz də gəldüy yığışduğ, dedi, yatmışdım, gordüm yuxu aləmində göy aləmindən bi şey gəldi içində də beş nəfər şəxs gəldi, oların arasında da bi dənə də qadın xeylağı var idi. İçinnən bi nurani şəxs düşdü, dedi o qadına ki, gəl bı qadına şafa ver, onun ağzına əlüyü çəkginən. Deer, o mənim ağzıma vırannan sora mən yuxuda diksindim oyandım, əlimi belə ağzıma apardım, gördüm ağzım gəlıb yerinə.

Hə onnan üç gün sora gəldilər bını aparmağa, dedi ki, Bəşir, mən getmirəm, get bizim tayfa ki var ordan bi dənə də cöngə gətir bı qapıda kəsim ehsan verim, onnan sora gedim. Təbii bı 1-ci Allahın lutfüdı. Hər şey Allahın əlindədi. Amma o insannar ki, ümid bağlıyıllar, Allah da onlara nicat verir. Bular mənim uşağlığda gördiyim idi. Amma bu günnəri oların o seyidlərin yolun elə saxlasoğ böyük şeydi. Biz olar ola bilmərüy axı. Atam rəhmətdik deyərdi ki, bəzi seyidlər ki var olar cətdinin yolunu saxlamasaydı, oların etiramı aradan gedərdi. Yəni büyünnəri Mir Həsən ağa, Mir Heydər ağa, Mir Məmməd ağa olsun, Bakıda, ya qeyri yerrərdə ki o seyidlər ki öz cəddinin etiramını saxlıyıblar, Allah olarin o əqidəsinə görə, imanına görə oları xəlq icərisində nümunə qərar verib.

## Mir Heydər Ağa oğlan uşağı verir

Köhnə Alvadıdan Əmir kişi vardı, tütün zavodunun müdürü idi. Onun dossı var idi, onun oğul övladı olmaz. Əmir də ona deyər ki, bizim rayonda bi seyid vaar səni boyun alıram, sənə ki Allah bı qədər qız uşağı verib, bı səfər oğlan övladın olsun səni aparacam Mir Heydər Ağanın ziyarətinə. Elə də oldu oğul övladı dunyaya gəldi. Gəldilər bıra Zakataladan. Əmir kişi dedi, bax bı seyiddi, mən səni bının cətdinə boyun almışam və sənə də oğluvun adını mən demişəm Əli qoy.

Bakıda indi də vergi nazirliyində işdiyir, biri var Allah canın sağ eləsin həmişə gedib gəlirdi atamın sağlığında da.

## Ağa müşkülləri həll edir

Bi gun deer, bizim bi kətçi var onnan bi izdaniyədə olur ona deer ki, məəm biyaz işdərim dolaşığa düşüb. Deeb, ədə, bizdə bi seyid var Mir Heydər Ağa onun cətdinə boyun al, səən işdərin duzələcəy. Nə isə gedir, bi də gördüy ki, bi maşın gəldi səhər tezzən. Biz də tanımıruy. Salam əleyküm, əleyküm salam. Deer, Bakıdan gəlmişəm. Sizin bırda Mədət kişi var, onun oğlu biznən bi izdaniyədə qalır o deyib, mənim bi işim var düzəlib gəlmişəm. Deməy, atam rəhmətə gedəndə o bi başqa qardaşı var o da gəlmişdi onnan, atam rəhmətə gedəndə yatar, ağam onun yuxusuna girər. Bu qardaşına deyər ki, mən ağamı yuxuda gördum olara getməy issiyirəm. Qardaşı deyib, qal altı, ya da bazar gedərüy. Deeb, yo mən getməliyəm. O həmin zaman gəldi, o günü atam rəhmətdiyin 7-si idi. Gəldi içəri girdi, dedi, ağa, nə işdi? Dedim ağa rəhmətə gedib. Dedi, sən Allah? Ağladı. And olsun onun cətdinə ax-

şam yuxuma girib mən gəlmişəm. Qardaşım hətda dedi qal, 6-bazar güni gedərüy, dedim yox mən gedirəm.

## Mir Heydər Ağa rusa yardım edir

Necə dəfələrnən insannar dalaşanda onu barışığa gətmişdilər. Ölüm də olsa idi, ağanın cətdinə xatir onu keçəcəydilər. Mən görmüşəm cavan oğlu ölüb, çox adamlar gedib deeb, mən keçmiyəcəm filan, ağayə eləsi var idi qabağdan deyərdi gəlmə ha, sən gəlsön mən gərəy evimnən çıxam. Bizim bi adam var Xocavar kəndində idi, uzun muddət Rusiyada olur. Bi rus dossı var deer, dedim noolub? Dedi, bi problemim var. İşə düzəlməliyəm düzəlmir, helə bugün sabah. Deer, dedim əəə, sluşay sən bını bizdə bi seyid var ona boyun al ona, iş düzələcəy. Nəisə bı şeylər Allahın əlindədi ha, sadəcə insanın əqidəsi Allahnan olanda niyyəti də qəbul olur. Bəli o gedir Allah səbəb salır o iş düzəlir. Deer, mən də Allaha dua eliyirəm ki, ay Allah, Mir Heydər Ağamın cətdi, məni bı rusun yaninda xar eləmə, bının niyyətini hasil elə. Deer, gördüm bı gəlir, əlin salır boynuma, dedim nə işdi? Dedi:

– Bı pılı da, rus rulu idi, o seyidə verərsən, Allah qismət eliyər bi dəfə gedib onu görərəm.

## Mir Heydər Ağanın köməyi

Bi nəfər də vardı Köhnə Alvadıdan, o vaxtı sovetin vaxtında Rusiyaya işdiyiridi, deer otmuşuğ samalyotda, bi dəssə adam. Gördüy, ə, samalyot bi neçə dəfə fırrandı, ama düşmədi. Deer, hardasa bi iyirmi nəfər Köhnə Alvadıdandı, sora orda dedilər ki, bəs təkər açılmır. Elə mını dedilər hamı

düşdü çaxnaşmaya. Dedim, Ya Mir Heydər Ağanın cətdi, mənim aman, zaman bi dənə oğlum var, o da dədəsiz qalmasın, ya ağamın cətdi, özün bırda nicat ver xəlqi bırda qərq eləmə. Deer, dedim, əlimi atdım öz pılımnan 10 manat qoydım bıra. Deer, bi də gördüm ordan dikdavat elədilər ki, bəs narahat olmeün təkərrər açıldı enirüy.

Bilirsüz bı mənim danışmağım yox, xəlqin danışmağıdı. Bu gün adi bi məclisə gedirüy deellər Mir Heydər Ağamın ruhuna bi salavat. O bizim ağamızdi ona bizim əqidəmiz var.

## Ağa ilannarı qovur

Bi dəfə bi qadının evinə ilannar giribmiş, deeb gedün Mir Heydər ağanı gətirün gəlsin ayağın qoysun bura bu ilannar gözümizə gorükməsinnər. Gecə yata bilmerük narahat oluruğ. Amma o köhnə evdə yadımdadi ağam barama saxlıyırdı. Onu xususi saxlamağ qaydası var. Yarpağlari zadı var. İrəhmətdiy özi elə o zəhmətiynən dolanıb. Atam deyərdi ki, bala, insanı ərz eliyən Allahdu. Əgər insan ki, Allaha bağlı oldu, onu şərafətdi eliyən də Allahdu.

## Allahla dostluğ elə

Çün peyğəmbərin (sav) yanına gəlir biri, sual eliyir ki, ya rəsululim mənə bir neçə söz tösiyə elə ki, həmi bu dünyada, həm də o dünyada mən o sizin dediyivüz sözün bərabərində nəticə görüm. Deyir, mən istiyirəm ki, bu dünyada mənim dostum çox olsun. Deyir, dostun çox olsun deyə get Allahla dostluğ elə. Çün məhəbbəti insanın ürəyinə Allah salır.

Məsələn, mənim qardaşımın kamazı var idi. O kamazı da bi nəfər var idi ki, binnan şərik idi, onnan ayrılmışdı. O istədi ki, o kamazı bı qardaşımnan ala. Gedib müdürə zada pıl vermişdi Bakıda. Kamazı onnan almağ issiyirdi. Gəldi oğlan dedi ki, ağa, gedəy o müdürə denən. Ağa dedi:

– Mən o müdürü tanımıram axı.

Dedi:

– Yox ee, ağa, getsön yaxşı olar.

O da tapşırıb qarajın müdürünə ki, o kamazzan ötri kim gəlsə, mən onı qabıl eləmiyəcəm. Deer, mən getdim qarajın müdiri məni görənnən sora dedi:

– Ağa, cətdün haqqı mənniy döör. Mən sənin ki, bu simoyu görürəm, Allah mənim bı qəlbimə sənin məhəbbətüyi atır. Ancağ bu müdürrüy işdi.

Müdür gələnnən sora bı zəng eliyir ki, müdür, bi dənə seyid gəlib, bı kamazdan ötrü.

Deyib:

– Əə, mən sənə demişəm axı, o kamazdan ötrü mən heç kimi qabıl eləmirəm.

Deer, bını deyənnən sora mən qırağa çıxanda bı təsadüfən çıxıb idarənin qırağına ki, paprız çəhməy üçün. Bı məni görənnən sora götürüb zəng vurub o qarajın müdürünə, deyib o seyidi gəti bıra. Ağdamlıdı ha özu də. Deer, gətdüy otağa, dedi seyid hardansan? Deer, dedim Masallıdan. Deer, seyid Allah da şahiddi mən özüm demişdim ki, kamaza görə heç kim gəlməsin. Amma ona baxmiyərəy sənin o simavı gördüm ha sənin məhəbbətivü mənim qəlbimə atdı. Onda da Ağdamlı bizim bi nacannik milisyə var idi. Deeb:

– Ağa, hansı kətdənsüz?

Deeb:

– Masallının Bambaşı kəndinnən, demə bının dayisi olar bi nacannik, zəng vırar bıra.

Deyər:

– Dayı, bi dənə Mir Heydər adlı seyid gəlib bıra.

Deyib:

– Ə, nə?

Deeb:

– Ə, nə üçün gəlib.

Deeb:

– Kamazçün.

Deeb:

– Ə, Allah evüüü tiksin camaat evinnən eşiyinnən çıxır onun cəddinə görə. Sən kamaz deyirsən? Ədə, verginən ona, oni razı yola sal ordan.

Deer, sağ olsun elə də elədi.

Bu, Allahın məhəbbət atmağıdı ya ürəylərə.Yəni Allah düzəldən işi heç kim poza bilməz. Ona peyğəmbər deyir ki, əgər bir insan ki istərsə, dostu çox ola, gərək ilk növbədə Allahla dostluğ eliyə.

## Mir Heydər Ağanın pulu

Qeyri vaxtan əlavə hər il məhərrəmliydə camaat bax cəm olur bura, məçitin qapısına gələn kimi. Bizim seyiddiy şəcərəmiz imam Museyi Kazımdı. Amma seyidin ağırrığı onun saxladığı düzgün yoldadır.

Adamlar var Allah da şahiddi ağanı ziyarətə gələndə ağa o pıldan qaytarıb onun özünə verib. Bəzi adamlar hələ də o pulları saxlayiblar. Biri bi dəfə ağanın verdiyi pılı qoyur səntdərinin arasına. Gəldi başına gələnnəri danışdı. Dedi:

– Ağa, mən Rusiyaya getdim, orda sənin verdiyün 10 manat da sənətdərin arasındeydi. Rus mənnəm bütün pılları, sənətdəri zadı alanda dedim ki, nəyə dəyirsən dəy o pıla dəymə.

Deer:

– Nə üçün?

Dedim:

– Çün bını bi dənə müqəddəs şəxs verib mənə.

Deer, bütün sənəd qarışığ qaytardı mənə. Dedi:

– Madəm sən bu əqidədəsən al.

.

## Pirzova ocağı və ya Qız qəbri

Babam da gözün açannan bı daşdarı zadı hamısını belə görüb. Ordakı qəbir də qız qəbridi. Pirin adı da elə Pirzadədi, ancax camaat Pirzova deer. Çox ağır yerdi, ocaxdı. Elə bura həm həyətdi, həm yaşıyıruy burda həm də elə camaat ziyarətə gəlir. Bura çox balaca kətdi.

Bax bu piri uçurtmağ istiyiblər, heç gediblər pələtdən o yana çıxa bilmeeblər. İrağ, gedib gorüb malı qapısında ölüb, balasına bi şey olub.

## Mir Tağı Ağa "Balalarımın ruzusunu Allah bı pəncərədən verəcək"

Masallı şəhərindən olan Mir Tağı Ağanın on övladı olub. Onun yeddisi oğlandı, üçü qızdı. Əksərimiz də ali təhsilliyük. Ümumiyyətlə, ağa elmə, təhsilə meyilli adam olub.

Ağa rəhmətə gedən vaxtı seyid Mir Əziz İslam universitetinin rektoru, o birda hüzürdə gəldi yaxşı ifadə işdətdi dedi ki, Masallı rayonunun məzlumlarının ağası getdi. Kasıb-

kusubun həmişə arxa dayağı olub. Mənçün marağlı idi ki, o balaca vücuduynan rayonda nə baş verirdi, nə olurdusa, hamısınnan da xəbərdar olurdu. Hammıya da çalışırdı ki, yaxşılığ eləsin. Düzdü ona çox müraciətdər olunurdu.

Bi dəfə bayramdı – Novruz bayramıdı, oturmuşuğ evdə, 1965-66-cı illərdi. Mən də bı arxadakı həmən evdə, orda dünyaya gəlmişəm, pəncərədə oturub dərssərimi hazırrerdım. Nənəm rəhmətdiy ağama dedi ki, a kişi, səhər Noruz bayramıdı, evdə tədarükümüz zad yox. Dedi:

– Ağanın balalarının ruzusu bax o pəncərədən gələcəy.

Elə, belə evdə oturmuşduğ axşamçağıydı, şəxsən mənimçün bi möcüzəydi də bu. Bi də gördüy nəsə şarap-şarap dəydi pencəriyə. Mən də əlimnən ruçkanı zadı tez atdım yerə ki, ə, bı nədi belə?

Çıxağ görəy bı kəvələ deyillər e bizdə, quş gəl çırpıl pəncıriyə düş pola. Nə isə, bı birsi balaca otağ vardı, onda içi hələ hazır döördi. Quş özün yıxdı ora. Getdim quşu tutdum gətirdim. Ağa dedi:

– Gördün? Mən sənə dedim, ay arvad, mənim balalarımın ruzusunu Allah bı pəncərədən verəcək.

## Yağış yağmayacaq

Bir dəfə də mən ev tikmişəm orda, onun üstün bağlıyacöy iş görürük orda, nəsə qış ərərfəsinə düşüb. Yanvar ayıdı. Helə bı ussalara çalışıruğ ki, gəlün evin üssün vırun filan. Ussaların biri gəldi, dedi hə məcbur eliyirsüz, kətdə bı Alvadı tərəfdə məçitin üssünü örtürüy. Onun üssünü açığ qoyub gəlib sənin evün üssün bağlıya bilmərük. Gündəliy də sinoptiklər xəbər verir ki, yağış yağacağ. Hə, rəhmətdik kişi gəldi durdu

orda dedi ki, inşallah yağmıyacağ. Narahat olmoun. Gedün o məçitin də üssün örtün, gəlib bırdada işiüzü görərsüz. İnşallah Allah möhlət verəcəy.

Hardasa bi həftə çəkdi o məçitin işi. Mən də narahatam ki, əşi, bı iş qaldı. Əlqərəz uşağlar gəldi. Üç günə görüləcəy işi iki günə gördülər. İnanırsuz ki, düşdülər aşağı ussalar, ağa da ordan yavaş-yavaş gəlirdi. Gəldi xeyir-dua verdi. Allah xeyir versin bala, sizə mən dedim axı darıxmoun Allah möhlət verəcəy. Elə uşağlar çörəy zad yedilər, bi isgan çay zad içib maşına oturmuşdular ki, bi leysan başdadı məəttəl qalduğ hamı.

## Mircənnətin yuxusu

Bizim bi qonşu var onun on səkkiz il evladı olmeeb. Arxa qonşuda savaşmışdılar, ona demişdilər ki, sonsuzsan. O, ağlıya-ağlıya gəldi, anam da iş görürdü. Gəldi yapışdı babamın şəklinnən. Dedi:

– Ay ağa, səən eviün nökəriyəm, məni burdan naümüd qaytarma. Ya əlimi üz, ya ətəyivi.

Elə ağlıyır ki. Gəldi o köhnə evimizdəydük onda. Ora da neçə əsrin evidi haa. Dedi oon piləkannarının daşın, torpağın yeyərəm mən. Anam gördü bağrı çatdeer, dedi qıza it cəhənnəmə get. Onu arxadan yol var idi, ordan yola salduğ getdi. Bir gün mən də yuxuda gördüm ki, nənəm mənnən kimya göndərdi, iki nəfərə. Biri aldı tökdü gülün dibinə, bına verdim, aldı işdi. Dedi, oxay nə ləzzətdidi. Elə yuxuda da gəlirəm nənəmin yanına, deyirəm nənə bəs belə də aldı işdi , nənəm də bulağ kimi yer idi, ordan su qaynıyırdı, əlin atdı ordan bi lüt uşağ götürdü, dedi, apar ver Ayidə gəlinə. Bu onun qismətidi.

Bi dəfə də yenə yatmışdım. Təkəm evdə, gördüm ki, gəldilər həmin ocağ evdə, biri çağırdı, ürbəntdi çarşablı adamdı, qadındı, kişidi bilmirəm. Çağırdı Mir Cənnət!

Dedim:

– Bəli, dedi qızım, mən sənə söz deyirəm, apar çatdır yiyəsinə. Bəs sizin qonşuda Qulamhüseyn var. Biz də bilmirük, elə hamı Qulam deyir, sən demə adı Qulamhüseyn imiş. Dedim bizim qonşuda belə adam yoxdu. Dedi var, yoldaşının adı Ayidədi. Bəs onun evladı olacağ. Artığ 2 ay 18 gündü. O, sənin ayağıva gələcək. Özü gələcək. Nəsə mən ayıldım. Bir gun Ayidə gəldi paltar gətirdi sərməyə. Dedi, al bunu sər, dedim mən qəbul eləmirəm. Özün. Gəldi sərdi, yığdı, gedəndə nənəmə dedi ki, bəs, bibi, Cənnət mənə cavab qaytarıb. Nənəm dedi, səbəbsiz yerə olmaz. Çağırdı məni. Dedim ki, nənə, bəs belənçiy yuxu görmüşəm. And olsun Allaha nolbanol ayına, gününə qədər, düz idi. Ayidə məəttəl qaldı. Dedi, hə bəs doğurdan da belədi.

Ona hara deerdilər getmiirdi. Deyirdi mən ancağ bılara inanıram. Həmişə də gələrdi atam ona cibinnən xərjdig verərdi. Əmi, gəlmişəm xərjdiy ver. Mən sənin verdiylərünnən ancağ yeyirəm. Atam da ona demişdi ki, inşallah sənə Allahtala övlad payı verəcəy narahat olma. Elə də oldu. Sadəcə olarağ müddətü gözzə. Səbr elə, onun vaxtı var, qızım. O vaxt düz on səkkiz il çəhdi. Şükür ilahiyə hec kəsin həyatı boyu inanmadığı bir möcüzə oldu ki, onun evladı oldu. Bütün həkimlər də qarantiya vermişdi evladı olmiyacay, hər yerə də aparmışdılar. Həmin uşağın adı İlkindi, indi onun özünün dört dənə də uşağı var.

Ağam da insanı inandırmağı bacarırdı ki, istədigüə nail olacağsan. Onda o xüsusiyyət var idi.

## İlannarın qeyb olması

Bi dəfə həyətə bir neçə dənə ilan gəlmişdi, daşdarın arasınnan çıxmışdı. Anam da məni orda gözətçi qoymuşdu ki, daşdarın arasınnan çıxıb uşağları vira bilər ilan. Hamısı başdarın çıxardıb baxır üzümüzə. Mən də hardasa 5-6-cı sinifdə oxuyuram. Durmuşam qoruyuram. Anam təşvişnən dedi, görən bı ilannar nətər olacağ? Ağam işdə, bı ilannarı neyniyək, elə bil üstümüzə atılmağ istiyir. Hansıki indi o ocağ olan yer var ha, bax orda. Hamımız bir-bir nöbeynən gəlib dururuğ. Anam çörəyin yedi mən durdum, sora belə-belə də. Bi də gördüy atam gəlir. Bu evimiz yarı tikilmişdi. Atamın gəlməyinə elə sevinnəm ki, gəlib bıları öldürəcəy. Gördüm atam gəldi həyətə girdi, ilannar onnan da yox oldu. Dedim:

– Ay dadaş, bırda ilan var idi.

Dedi:

– Ay qızım, orda ilan qalmaz.

Gəldi ayağın qoydu o daşın üstünə, mən bayağdan o daşın arasına baxıram ki, o ilan məni vıracağ. İndi həmin ilannar yoxa çıxdı. Dedim:

– Yox, ay ata, bırda ilan var idi.

Dedi:

– Qızım, sənə dedm axı, orda ilan qalmaz.

Daşı götürdüm itələdim çay daşları idi, bı tərəfə o tərəfə. Heş nə yoxdu. Nə ilanı gedən görmədim, nə də yuvasını. Qeybə çəkildi.

Bizim həyətə it sürüynən gəlib girərdi. Çağırarduğ dadaş, gəl həyətə it dolub, bizim həyət də həmişə açığ olub. Həyətə düşməginnən itdər yox olardı.

## Mir Tağı Ağanın beytül-malı

Mən sürücü işdiyirdim, həmişə evdən çıxanda səhər-səhərlər namaza durardı ağam, Quranın altınnan keçirdərdi məni. Mənə atasının adını qoyub, ona görə mənə "ata" deyərdi. Bir gün bizim bı köhnə Alvadı kəndi var, ora tikinti matrialı gətirmişəm. Maşını boşaldmağ bir az vaxt çəkir də. Gəldim gördüm mağazada un satıllar. 80-ci illər idi o vaxt, biyaz un qıt idi. İki tay un aldım. Gəldim evə. Camaat da çox idi orda. Bı da bırda oturmışdı. Evdə də heç kim yox idi, tək oturmışdı. Quran oxuyurdu. Maşını saxladım, taksi idi, unnarı düşürtdüm. Hə nə isə oxudu qutardı, dedi:

– Dədə, nə almısan?

Dedim:

– Hec, un almişam.

Gəldi birinə köməy elədüy, qoyduğ içəri. İkincisinə dedi, yox dəymə qoy qalsın orda. Bildim ki, kiməsə verəcək, cünki bında belə şeylər olurdu. Bir də görsən gəlirdim mən, elə həyətdən deyirdi ki, əə, cıbündə nə var? Adam da oturub evdə gözdiyir də. Ona beytül-mal deyirdilər də. Verərdilər bı da üssün düzəldərdi, ya o qardaşımnan, ya mənnən pıl alardı düzəldərdi payliyardı. O adamlar hər ay gəlırdilər onun yanına.

Özü payliyardı adamlara. İndi məsəl beytül-mal veriblər bına bı qədərdi, cağırardı bizi ki, gəlün bı adamları yola salun. Bıların məsəl un, qənd almağa pılları yoxdu. Yəni imkansız adamlardı.

Nəsə saxladı orda məni, mən də maşını qoyub gəlmişəm orda. Bi dənə də balaca maşınımız var idi. Dedi:

– O unu götür qoy maşına. Bilirsən bınçın orda indi durub ağlıyan var. Dedi, rayonnan almısan?

Dedim:

– Yo Alvadıdan.

Dedi:

– Vay, vay, vay. Sizin üzüzzən elə ajdığ yağır.

Da səsimi də çıxarmadım. Qoyduğ maşına, sürdüy Alvadıya o mağazanın qabağına. Gördüy 2 dənə yaşdı qadındı satıcıynan mübahisə eliyillər ki, əşi, bı un siyahıynan gəlib. Sən niyə bizim unumuzu vermirsən. Əllərində də araba gətiriblər unu aparmağa, un da yox. Demək ağaya hissiyat gəlib ki, biz kiminsə malını yeyirük də. Dedi, düş aç bağacı. Qızım, gəlün bıra. Gotür qoy ora unu. Gotürüb qoydum unu arabıya. Hə gedün.

Dedi:

– Bə, əmi, bının pılı?

Dedi:

– Oon pılı catıb uje. Fırrandüğ çıxdüğ gəldüy.

Hə belə vəhlər çox olurdu.

Bi də görürsən yerinnən dururdu birdən, deyirdi gedirəm filankəs xəstədi, vəziyyəti pisdi. Məətəl qalırduğ özümüz də. Yəni bı hardan bildi bını.

## Mir Tağı Ağanın hissiyatı

Bi dəfə bi qonşuda birinin evi yanırmış, evdə də hec kəs yox. Həmən günü evdən tez çıxar, çıxanda deyər ki, nəsə narahatam elə bil hadısə olacağ. Elə də olub, işdən qayıdanda görüb bəs qonşunun evi yanır.

Ağada belə hisslər çox olurdu.

Adicə onun ayaqqabısın kimsə elə belə ayağına taxıb cıxarseydi, gəlib deyirdi ki, kim mənim ayaqqabımı geyib.

Onu hiss edirdi. Qəsdən eliyirdüy görəy biləcəy? Özü də ki, o elə ateydi ki, hec vaxt səsinin tonu qalxmazdı bizə.

## Lampa sönmür

Mənim anam onun ocağına gələndə, o vaxtı onda işığ olmeyib, lampa olub. Anam gəlib lampanı söndürməyə, neftnən yanırmış. Lampa sönmeyib, piltəsini əlnən sıxıb, nə illah eliyib, lampa sönmiyib. Atamın da anası olmıyıb, nənəsi bıların ikisinə də analığ eliyib. Çağırıb ki, anasın, bacı deyirdi, bacı, lampa sönmür. Nənəm də gəlib nə qədər əlləşibsə, lampa sönmüyüb. Sora qonşunu çağırıb ki, bəs hal qəziyə belə. Bı qadın gəlib ağlıyıb. Deeb, bəs bı ağanın ocağına gəlin gəlib, onun evində teşt qurulub həmişə. O öz ocağının bərpa olunmasını istiyir. Nənəm də deyib ki, mən nə qədər canımda can var, bı ocağı yaşadacam.

## Mis teşt

Bir dəfə bura bi qadın gəldi, seyid idi o da. O gəldi ki, bəs mənə yuxuda deyillər ki, nənəm də teşt qoyurdu ziyarətçilərçin, bəs get ağagilə de ki, o teşt yazılacağ. Çüyünü götürsünnər ora mis teşt qoysunnar. Sözün doğrusu, ailə böyüy idi, çatdırmağ olmurdu. O da baheydi, nənəm dedi eybi yox bu il qalsun. O qadın 3 dəfə gəldi. Axırı nənəm maaşın aldı, sora bı teşti almağa. O qədər saf insan idi ki, onu o ar bilmədi durdu məclisdərin birində, bı məhərrəmliydə, dedi, ay camaat, mənim niyyətim budu, bəs belə, adi qara 2 qəpiy. Onnan kim varranacağ? Dedi, ay camaat, sizə savab olmağçün, 2, 5, 10 qəpiy, kimin nəyə qüvvəsi çatarsa, pıl qoysun. Onda teşt 35 manat idi.

Nə isə yığıldı, verildi. Getdi onu Boradigahdan zakaz verdi onu aldı gətirdi, qurdu. Teşt qurdu. İmamın 7-si idi yığışdırdılar. Yığışdıranda gətirdi teştin suyun boşaltdı, o dua oxunmuş sudu. Onu nənəm içiləsi olmıyanda güllərin dibinə zada tökürdü, kiməsə də nəzir verirdi. Teşti boşaldanda gördüy teştin qırağı bütoy ərəb yazısıynan, Quran diliynən yazılıb. Sadə ustaya düzəlmiş teşt idi. İçi heç nəsiz. Bax o möcüzədi ki, onun içi bütöy yazılmışdı soradan. İçində də dəvə karvanı şəklinə qədər. Gətirdi atam onu özü gördü, oxudu da. Amma şəkk elıməsün deyə millətimiz, götürdü onu apardı Ərkivanda axund var idi. Apardı o axundun yanına. Dedi ki, axund, bını sən oxu. Axund oxuyub ağamı qucağlıyıb ağlamışdı. Demişdi sənin saflığua, mərtdigüə o ocağ elə də olmalıydı.

## Ələm

Ora qeybən ələm gəldi, axşam. Bizdə həmişə söbət olurdu ki, bu evdə Əbəlfəz ələmi yoxdu, ocağımızda. Bir kəs gəlib, atam dedi, mən bı adamı tanımıram. Ürbənddi adam imiş. Arxadan gəlib, qəbristanlığın birinci qapısı var, bizə tərəf. Orda salam verib atama. Atam deyir başıaşağı belə gəlirəm, deyib ki, ay ağa, səə qurban olum, sənə əmanət gətirmişəm. Qara bayrağ yazılı, arasında da ələm. Vermişdi atama, atam gətirdi, onu qoyduğ ocağa.

## Haqqımı halal eləmərəm

Atam deyirdi ki, balalarım, heç vaxt gedib cəddüüzdən istifadə eliyib bir şey eləmöün. Nə vaxtsa kimsə səən qəlbüə dəysə də, hec vaxt ona cəddim evüü yıxsın demiyəsüz. Onda haqqımı sizə halal eləmərəm. O dərəcədə insan adam olub,

məəm atam. Məsəl gedirəm nəsə almağa, mən alanda, qoy o bilməsün mən seyidəm, qoy gələnnən sora bilsin. Elə bilər ki, mən onnan nəsə təmənna umuram. Ona yolda nəzir versedilər, qəbul eləməzdi. Evinə gələməliydi. Əsil seyid idi.

## İşıq

Bir dəfə cümə axşamı kiçiy qardaşım o otağın lampasın açıb, nəysə olmıyıb, bı qız deyib ki, mən salaram yerinə. Bı Mirəli də xəbər göndərib ki, döşəmə plov bişiriblər, bizə gəlillər. Gəldüy. O otağda otumuşduğ. Dedi ki, kim gedər arxa evdən şoraba gətirər. Mən getdim gəlinnən. Arxıya keçəndə gördüm o ocağ evində bi dənə şam yanır. Dedim, ay Şirin, orda şam yanır? Biyaz irəli getdüy o şam qalxdı yuxarı. Qalxanda bı gəlin qorxdu qaşdı gəldi evə. Mən dayandım orda. Yeznəsi gəldi. Dedi, arvaddara iş buyurdun qorxağdılar da. Gəldi o da gördü, dedi, ilahi, möcüzöə şükür. O da qayıtdı gedə bilmədi. Mən də dayanmışam. Bı qız gəldi – bacım Gülüstan. Hə, o mənnən getdi. Getdüy, and olsun Allaha, o işığ qalxdı o evin tininə, ordan da biz getdigcən getdi düz qapının tininə qədər. Orda dayandı. Yəni ki, qalduğ məəttəl ki, gör o bir balaca şamın işığı, necə nurrandirdi o qrannığ otağı. Bilirsiz o niyə helə oldu? Qardaşım dedi ki, əşi, yoldan işığ düşür, bizi qorxuzmasın da güya. Elə bil o işıx lap acığa qalxdı da o küncə ki, ora işıx düsə bilməz. Onnan sora hamı diyandı həyətdə.

## Ətirşah gülü

Bı ətirşah gülü var eee, o mütləq ocağa qoyulmalıdı, behişt gülüdü deyillər. O gülə, bizim bi qonşu var iki qızı var idi, yaşdaşmışdı, alan yox idi, o qızdarı üçüm gətirdi, əl yay-

lığı bağladı, ətirşah gülünə. Biz də uşağuğ. O qardaşımdı, mənəm, bir də böyük bacım var, o idi. Oturmuşuğ biz də evdə. Arvad yaylığı bağlıyıb, 2-3 düyün vırıb yaylığa. Birin bağlıyıb Zərifeyçün, birin də Südabeyçin. Zərifə böyükdü, Südabə kiçiy. Allaha and olsun, gülün üstündə o kiçiy qızçün bağladığı yaylığ başdadı açılmağa. Açıldı düşdü. O biri açılmadı. Neçə il dalbadal bağladı açılmadı. Soradan o biri illərdə açıldı. O birinci yayliğı açılan qız elə həmin ili də getdi. O biri yazığ necə il qaldı, gec getdi ərə.

## Ən böyük ocaq elə sənin evindədi

Bir dəfə də aşura, tasura bilirsüz də nədi. Aşura yox, tasuranın güni. Birda Ərkivan kəndi var, orda tasura ehsanı verilir, atamın ailəvi dostu var idi. O gəlib maşınnan bizi ailəvi yığıb aparıb. Həyətimizdə də toyuğ cücə var idi, qapıya toxunub açılmasın deyə anam cəftəni qaldırıb keçirdib ora. Kilit vırmıyıb ha. Ba o qonşu, bı qonşu görüblər ki, şarşablı adamlar şaxsey-vaxsey sinə vırıllar. Heç kim də yoxdu. Olar ağlaşırmış, atamın da Həsənni kəndinnən dostu var idi, kişi gəlib ziyarətə, görüb bılar ağlaşır. Deeb:

– Bacı, nə ücün ağlıyırsuz?

Deeb:

– Bəs belə. Kişi görüb ki, hə pəncərədən möcüzə. Qapının da dalınnan cəftəsi keçilidi ha. Qapını acıblar da, nəə heç kim yox içəridə.

Gəlib atamın yanına atam zapravkada onda işdiyirdi. Götürüb atamı da gediblər Ərkivana. Yığıb gətirib bizi. Anam onda toba eləmişdi, heç yerə getmirdi. Hər yerdən məhrum

idi. Atam dedi, səə bı göstərmə oldu ki, ən böyük ocağ elə səən öz evündədi. Başqa yerə getməyə ehtiyac yoxdu.

## Mən dilənçi deyiləm

Bir dənə də epizod danışım. Atam yetim uşağ olub. Semişka, siqaret satırmış. Bi dənə də özünnən böyük bacısı olub. Onun üzünə qapını bağlıyıb gedirmiş. Deeb yiyəsizük, heç kəsimiz yoxdu. Onu evdə qoyurmuş. Gedirmiş alver eliyirmiş, gətirirmiş bacısına çörəy verirmiş. Yenə gedirmiş. Amma o, kasıblığnan heç kəsə əyilmiyib.

Bi gün bi İdris adında polis rəisi vardı. O deyər ki, o semişka satan uşağları tutun. Atam çox balaca olub. Deer, hamısı qaşdı, atamı başdeyıblar qovmağa. Bu gəlib çatıb, atama iki dənə elə şillə qoyub ki, atam dəyib yerə. Əlindəkilər dağılıb yerə. Soyuğ da hava imiş. Başında da o tüklü papağlar olurdu yee qabağ, onnan var imiş. Tutublar bıları gətiriblər. Bı atamı çox incidib o adam. Qolunnan tutub belə sürüyüb. Gətirib salıb otağa. Otağda da peç yanırmış. Atamın başınnan papağı alıb soxub o yanan peçin içinə. Peç sönər. Nə qədər eliyər o peç yanmaz. Sora götürər bu papağı çırpar atama. Deeb götür rətdol.

Çıxıblar gediblər. Helə bı gedən kimi bı kişiyə xəbər gələr ki, evə gəlsün oğlu ölür. Gedib görüb ki, uşağı üzü qibliyə çeviriblər, arvad çatan kimi deyib evün yıxılsün kimi sızıldadıbsan? Məən balam ölür. Deeb, Mirini vırmışam. Deeb tap gətir. Ooon əl, ayağınnan öpüm. Həm də uşağın ağzı əyilibmiş. Atamı düşüb axtarıblar sahatdarnan. Axırda tapıblar, gətiriblər. Bı gəlib girib içəri, balacaboy adam ola. Gorüb ki, arvad ağlıyır ki, ağa səən, başua dönüm, qucağlıyıb atamı, öpüb. Atam deeb ki, əlüü çək. Atamın da 10 -12 yaşı olub. O

dəstə ki, var semişkaçı uşağlar, hamısı dəsteynən gəliblər atamın daleycan. Arvad deeb, ağa, uşağın adı Füzuli olub, Füzuli ölür ona əlüvü çək.

Deeb arvada:

– Ürəyın göyneyir?

Deeb ki, hə evladımdı. Deeb atası, anası hərəvüz bi qoluna girün, uşağ ət kimidi. Durğuzun ayaq üstə tutun uşağı. Gör nə qədər hikkə olub atamda ki, otağın o başında uşağı tutublar, bı başınnan qaçıb gəlib ona iki dənə o şilləni qoyub. Anası hiyyy eliyib. Atam deyib ki, səən ürəyin göynədi, məəm də anam olseydi, göyniyərdi bayağ səən ərün məni vıranda. Gəlib əlin çəkib deeb ki, bına ölüm yoxdu.

Arvad gətirib veşılkada atama kastyum verib, deeb and olsun cətduə ki, kastyumu almuşuğ, bayrama bına geydirməyə. Geyinmiyib. Bı sənün. Atam alıb çırpıb paltarı, deeb mən dilənçi döörəm. Mən öz qazancımı yeyirəm hələ. Mənə lazım döör.

* * *

O qədər səliqəli adam idi ki, bırdan çıxardı. Hər yan palçığ olardı, onun ayaqqabısının ancağ altı batardı. Elə bil göynən gedərdi.

* * *

Məsələn, kimsə uşağı gətirərdi yanına ki, ya bı diksinib, ya xəstədi, ya qorxub nəsə, hökman deyərdi ki, uşağı həkimə aparun. Qurannan ayələr də oxuyardı ha, amma həkimə məsləhət görərdi.

## Aparın gəzdirin

Bi dəfə Saatdıdan iki qardaş gəldi. Dedilər:

– Ağa, valla sorağlaşa-sorağlaşa gəlib çıxmışuğ bıra, iki qardaşa bir evladımız var. Nə qədər istiyirsən var-dövlətimiz var də, yəni yer-yurdumuz, malımız-heyvanımız hər cür. Bı uşağ gecələr durur, çıxır gedir, gəzir. Bunu yığışdıra bilmirüy biz. Ya qoşulur bu uşağlara, hər cür maddıyyatı var də. Gedir ora bıra. Bı uşağı biz ipə-sapa yatızdıra bilmirüy də. Evə salıb qapını bağlıyiruy alınmır. Nəsə bizə bi əlac qıl, ağa, qurban olum.

Mir Tağı Ağa saldı uşağı içəri tək tənha, mənə də göz elədi ki, gəl içəri bu uşağa bir-iki suallar ver. Dedi ki, soruş dostarı onu niyə çox istiyir? Onnan nə tələb eliyillər, nəydən xoşu gəlmir. Getdim soruşdum. Gəldim uşağın dediklərin ağama dedim. Sora özü girdi içəri, bir neçə dəqiqə söbət elədi. Sora oturdular çay-çörəy yedilər, atam dedi, bu uşağı götür 3-4 ay çıxart bu ölkədən. Düşdüyü mühütdən çıxart apar bını. Bu mühütdən tamam uzağlaşdır bı uşağı. Nə narazılığun olsa, sora mənə deyərsən.

Bir yarım ildən sora, rəhmətdiy Səkinə bibi gəldi, dedi evləndiriblər o uşağı. Elə o vaxt da aparıblar onda bir neçə müddətə çıxardıblar ölkədən. Deer, qayıdıb gələnnən sora heç o uşağları yaxın qoymuyub. O dostdarı qəti sürətdə yaxın qoymuyub.

## Qazana bilirsən get qazan

Bi nəfər o biri qardaşımı – Mir Əli qardaşımı çox incitdi, amma bı ona o qədər güzəşt elədi, elədi. Dedi:

– Yox ee, ağa, belə evüü də sat mənə ver, son nöktə belə gəldi də.

Bı dayandı, dedi:

– İndi get, gorüm nə qazanırsan qazan.

Adi maşın əzilmə haqq hesabında olmuşdu bı şey. İspisat maşını bına düzəltdirdi. Baş idarədən bına zəng vırdılar ki, ağa, o maşın ispisatdı. Sən ona heş nə qoyma. Olar onçün cinayət daşıyır. Amma dedi, yox eee, onnan çörəy qazanır, qoy düzəldim. Düzəltdi verdi, dedi:

– Yox eee əlavə nəsə də verməlisən mənə. Bı da bezdi yazığ, dedi, qazana bilirsən indi get qazan.

İnanun bir-birinin dalıycan olarda dört hüzür birdən düşdü. Düşdülər bının ayağına, bı da dedi ki, mən sizə qarğış eləməmişəm, sadəcə dedim qazana bilzöz qazanın. Bı evin qədəri qədər qazana bilsən, get qazan.

## Məzluma kömək elə

Həmişə mənə deerdi ki, oğlum, işdiyirsən, çörəy qazanırsan, həmişə məzluma köməy elə. İnanun o söz mənim beynimdə elə qalıb ki, indi də Masallının elə bir kəndi-kəsəyi yoxdu ki, orda məni tanımasınnar. Hara getmişəm, harda oturmuşam, hamı deyib sənin aton çox gözəl insan idi.

O, ölən günü isə dedim hə gör biz nə qədər böyük insanı itirdik. Ağlım kəsmiyən tanıdığım-tanımadığım adamlar gəlib bırda elə ağlıyırdılar, məəttəl qalırdım, əşi.

## Öz ölümünü bilmək

Ölümünə qədər bilmişdi. Səhərə yaxın idi, namazı qılmışdı. Mən də bırda yatmırdım, o ocağ evində yatırdım. Gördüm o balaca qardaşım gəldi ki, bəs kişinin nəsə halı dönüb. Gəldim bıra gördüm, kişi uzanıb üzü qibliyə, tər basıb. Sildüy

tərini zadını, dedi, bala, qorxmeyün, bı tər o tərdən döyül. Mən gedirəm. Bir-birüzdən müğayət olun. Mənim vaxtım tamamlandı. Heş nədən qorxmeyün, heş nədən çəkinmeyün. Ölüm ölümdü. Bir gün gəlmişüy, bir gün güdəcüy. Dedi:

– Mən gedirəm, mənnən sora yerimdə o böyük qardaşıvuzdu. Ba bı ardıcıllığ getməlidi.

Mən ağanın altıncı oğluyam. Atam deyərdi ki, daim çalışun cəmiyyətə xeyirivüz dəysin. İnsannara bacardığca yaxşılığ eliyün, onnarı da yaxşılığa sövq eliyün. Məsələn, mənim əhatəmdə olan sinif yoldaşdarımızın əksəriyyəti içən idilər. Amma indi, hamısı namaz qılır. Bu da bizə atamnan tərbiyədi ki, cəmiyətə xeyrivüz dəysin. Mənim şəxsən özümə deyib ki, pis vərdişlərə qurşanson, sənə atalığ haqqımı halal eləmərəm. Deyirdi, insana iki şey qalır həyatda. Bir rəhmət, bir lənət. Çalışun lənət qazanmıyun. Bu, çox asan bi şeydi. Onu hamı qazana bilər. Amma rəhməti qazanmağ çox çətindi.

* * *

Bi dəfə məktəbdən gəlirdim, bi nəfər qonşu dedi, gözdə gözdə, mən də uşağam məktəbdən gəlirəm. Dedim:

– Nə işdi?

Dedi:

– Sənə bi şey verəcəm.

Dedim:

– Nə?

Gördüm cücədi iki dənə, bağlıyıb qəzetdə büküb, gətirdi verməyə mənə. Dedim:

– Bu nədi?

Dedi:

– Sizə cədd malı verirəm.

Dedim:

– Biz dilənçi-zad döyülük. Cədd malı verən ocağa gələr. Mən sənçin yükdaşıyan deyiləm.

Dedi:

– Niyə elə bəs?

Dedim:

– Elə döyül, məə belə tərbiyə veriblər ki, yolda sənə nəsə versələr, qəbul eləmə. Sən ağzunda ağa deyirsən. Ağa cəmiyyətin elitasıdı.

Bı baxdı belə. Bıy ağa bağışda. Atam bizə deyərdi ki, oğul ağalığı özüvüzə şüar tutub, işivüzü aşırmoun.

## Mənim qabağımda kiminsə qəddinin əyilməyini xoşlamıram

Bi dəfə, bu Prişif deyirdüy də ordan bi qadın, hər yeri gəzib, ona deyiblər ki, xərçəng xəstəliyi var səndə – başunda. Yatıb yuxuda görüb atamı. Necə görüb, deer gördüm ki, tunel kimi yerdən keşdim, atamı aşkarda görmeyib aaa, sorağnan gəlib tapıb. Dedi ki, bırda Mir Tağı Ağanın evi buradır. Dedük, hə elə düz gəlmisən. Sorağlaşa, sorağlaşa gəlib çıxıb bura. Gəldi başın-zadın adyalnan-zadnan bağlıyıb, xəstədi. Gəldi çıxartduğ yuxarı, dedi, yox mən gördüyüm bıra döör. Balaca ev idi, köhnə, belə tunel kimi yerdən keşdim. Gətirdüy onu ordan keçirtdüy. Keşdi, dedi hə bıraydı. Oturdu evin divarrarın öpür, ocağın başına pərvanədi də. Doymur də bı adam. Ağlıyır, amma sevinir. Deer, mənə bı kişini göstəriblər, dərdimin dərmanı bırdadı. Atam da işdə idi. Bı qadın gözzədi. Nəsə çörəy-zad yedi elədi, sora anam xəbər verdi ki, atam gəlir. Qadın dik durdu ayağa. Dedi ki, mən onun ayağların öpə-

cəm. Dedilər ki, o razı olmaz. Dedi yox, sizi and verirəm Allaha mənə dəymöun.

Gəldi çıxdı atam, bı yıxıldı ayağlarına. Atam dik durdu ayağa. Tutdu qolunnan qaldırdı ayağa. Dedi:

– Bacı, qalx!

Dedi:

– Yo, mən əhd eləmişəm. Dedi:

– Elə bil öpdün. Xayiş eliyirəm, elə şey eləmə. Mənim qabağımda kiminsə qəddinin əyilməyini xoşdamıram.

Qadın dedi, ağa, mənə yuxuda səni göstəriblər. Bəs belə. Anam ələmnən bi dənə yaylığ aşdı, nənəm rəhmətdiy atdı onun başına. Dedi ki, bı Əbəlfəz ələmidi hökmlidi, bı imam balasının evinnən sənə şəfa. Bağladı onun başına getdi. Siz inanin ki, o ölən bı ölən. O arvad indiyə qədər də yaşadı, cəmi iki ildi rəhmətə gedib.

## Qızı qayıdan arvad

Bi dəfə də bir başqa qadın gəldi, onun qızının toyu olmuşdu, amma qaytarmışdılar. Qızı bədbaxt eləmişdilər. Gəldi ağlıya-ağlıya, Gülüstan bacımın yanına. Deeb, mən baş götürüb hara gedim, qızımın toyu da olub bədbəxt elədilər. Mən ağamı istiyirəm. Allah elə də ağlıyır ki. Mən onun qəbri üstə getmək istiyirəm. Gedib fırranıb atamın qəbri üstə. Ağlıyırmış, hamı baxıb ki, bı qızı zadı döör də yad adamdı. Deeb, ağa, gəlmişəm, məni bırdan nəümüd qaytarma. Mən sənnən əl çəkmərəm. Neçə saat orda ağlıyıb qəbir üstündə. Siz inanaın iki gün sora onun işi düzəldi, gəlib qızı apardılar.

* * *

Biri də vardı ki, çox kasıb adam idi, həmişə gələrdi, ağam ona pulsuz parasız qələm çalardı, özünə, balalarına. Yasin oxutduraradı, ərizə yazdırardı. Ümumiyyətlə, atam heç kəsdən təmənna ummazdı. Mollalar var də deyər ki, 5-10 manat ver yasin oxuyum. Mənim atam yox, yox, yox. Ömründə o gözdəməzdi ki, onun Quranının altına pul qoysunnar.

* * *

Allah rəhmət elısin ona. Bax həmişə prisyaqa olanda atamı çağırardılar, gedib xeyir-dua verərdi. Məktəblər başdıyanda, son zənglərdə onun xeyir duası mütləq olardı. O qədər gözəl danışığı var idi, natiq idi, natiq. O balaca vücudunun olmasına baxma, çox savaddı adam idi. Yaxşı yaddaşı var idi.

## Mələklərin baş əyməsi

Bir dəfə bı qonşumuz var Naciyə, yatar yuxuda görər ki, iki dənə cavan oğlan qanadı var, məlekdi, uça-uça göydən gəldi, atama 3 dəfə baş əydi salam verdi. Yenə uçdu getdi. Əslində belə olub ki, həmin bu qadın bir şey üçün istehza eliyib. Kimsə başqa bir söz deyib bizim haqqımızda, bu arvad da "hə" deyib, axı bı evin, ocağın çarşablılarının sinə vırmağın sən görmüsən, bütün möcüzələrin çoxunu sən görmüsən bı evdə. Biz uşağ olmuşuğ, sən axı yaşdı olmusan. Bax bı "hə" sözünə görə Allahtala gecə salıb belə bir şeyi onun yuxusuna. Söhbət əsnasında qayıdıb bu qadın o adamlara deyib ki, mən bı gözümnən görmüşəm, olub. Onun həmin gözü ölənə qədər də görmədi.

## Ağanın yuxuda kömək etməsi

Bi gün dəlləyə getmişəm başımı qırxdırmağa, gördüm Tahir oturub orda. Bı durdu ayağa dedi, Möhsün, sən mənə niyə demirdün, ağa, sənin atondu. Dedim, əstafurulla mənim atamnan sənin nə işün var?

Dedi:

– Ə bilirsən nə olub?

Dedim:

– Yoo.

O vaxtı mal daşıyırdılar İrana, Rusiyaya. Deer, mən getdim Rusiyaya alverə. Getdim ora. Hansı mağazinə girdim, dedilər, mal yoxdu. İndi dilxor olmuşam ki, hamı da bilir mən da alverə gəlmişəm. Borc, xərc, filan, nəsə. Ə, mən necə qayıdacam rayona. 2-3 gündü girincəm hessad eliyə bilmirəm. Nəsə gecədi yatmışam. Deer, gecənin bi yarısı, yuxuda gordüm ki, bi kişi peyda oldu. Hələ ağanı da tanımır ha. Kişi deeb, oğul, niyə belə narahatsan. Deyib ki, ağa belə bi şey üçün gəlmişəm, hessad peşmançılığdı. Vaxt daralıb getməliyəm, hec nə də iş alınmıyıb. Ağa deyib, oğul, heç narahat olma, səhər gedərsən elə həmin mağazinnərə. Onun ətrafında da var. Oların hamısına mal verəcəylər. Deib, ay ağa, mən nə vaxtdı gəzirəm deellər, mal yoxdu. Ağa deeb, a kişi, sənə deyirəm gedərsən. Deer, durdum ayağa səhər, Allah, Məhəmməd ya Əli deyib düzəldim yola.

Gəldim həmən mağazinnərə mal nə qədər. Dedilər, nə qədər istiyirsən götür, lap borca da, gələn dəfə verərsən. Deer, indi oturmuşam fikirrəşirəm. Bə o kişi kim idi, gecə mənim yuxuma girmişdi? Nəsə malı aldım, gətirdim, yerbəyer elədim filan. İndi bı hadisənin üstünnən bir neçə il kecər. Deer, təsa-

düfən mən bıra girəndə, atonnan üzbəüz rastdaşdım. Aaa həmən adam, mən başdadım əsməyə. Dedi:

– Oğul, noolub?

Dedim:

– Heç, ağa, mən sizi yuxuda görmüşəm.

Deer əl atdım cibimə ki, bının bırasına pıl qoyum, deer, əlimi qaytardı. Bi nədi belə? Dedim:

– Ağa, sənə çatacağ.

Deyib:

– Yox ee nədi bı pıl?

Dedim:

– Sizin halal haqqıvızdı, nəzirdi, bəs hal-qəziyə belədi.

Danışıb bına olanı. Deyib hə belə de. Onda mən də halalığ olsun deyə ölənnərüvə yasin oxuyaram. Deyir, kişi gedənnən sora dəlləydən soruşdum ki, ə Tapdığ bı kimdi? Deeb, ə, Möhsünü tanımırsan? Onun atasıdı Mir Tağı Ağa. Əəə mən neçə ildə heç bını görməmişəm.

Övladarınnan elə deməg olar ki, hamısına kecib seyiddik. Məsəl ba o Mir Qabil qardaşıma bi şey vəhy kimi gəldi, mütləq olmalıdı.

Ağanın adını da elə nəvəsinə qoymuşuğ.

## Xırdalandıqca artır

Bir dəfə biri atamnan soruşnuşdu ki, ağa, vardan-dövlətdən nəyin var? Həyətüz, bacouz, əkinüüz filan? Deeb ki, heç nə elə gördügün nə varsa bıdı. Bizdə əkin-biçin yoxdu. Deyib ancağ var dövlətim çoxdu. Mən özüm bir dəneydim, xırdalanmışam 10 dənə olmuşam, indi 10 dənəni yavaş-yavaş xırdaleyiram, olar da artır. İnan mənim elə bi var-dövlətim var ki, özü

də xırdalanan var dövlətdi. Helə xirdalanır, artır. Pılı xərjdiyərsən qutarar, amma mənim bı var-dövlətimnən heç nə tükənir, nə bitir. Bı kişi də mat-mat baxır bının üzünə. Çatmır bına bı nə deyir. Deyib ağa bırda axı elə bi var-dövlət əldə eləməy olmaz. Ağa deyər ki, bunnan böyük var-dövlət ola bilməz.

Atam hər günü üçün şükür eliyən adam olub. Bizlərə də onu həmməşə tövsiyə eliyərdi. Deyirdi, Allahtala sənə nəyi verib ona qane ol! Sən Rəbbüü həmişə yadunda saxla, o da səni yaddan çıxarmaz inşallah.

Deyərdi, Allah adama həmişə iki dəfə gülür. Bi səni qaldıranda yuksəyə, ətrafındakılar istiyir dartıb səni salsın yerə, onda gülür, bi də səni yıxanda, o yerdəkilər istiyir səni qaldırsın, bir də onda gülür ki, mən yıxıram eeee sən hara əlləşirsən? Sən mənim qüdrətin qarşısında kimsən?

## Mir Əlican Ağanın qadının yuxusuna girməsi

Uşağ idim, 6-7 yaşım olardı, babamın qulluğunda dururdum. Bi gün həyətdə durmuşdum, gördüm söhbət gedir qde-to 1970-ci illər olardı, bir maşın gəldi dayandı. Soruşdular ki, ağanın evi buradı? Mir Əlican ağanın? Dedim ki, bəli. Balaca bir ev vardı o vaxtı. Qadınnardı, iki də kişi idi. Qadınnar gəldilər, sürünə-sürünə evin başında 3 dəfə fırrandılar. Baba rəhmətdik də balkonda oturmuşdu.Yuxarı qalxanda həmən qadının biri babanı gördü, huşu getdi özünnən. Dedi ki, bu kişi idi, Maskvada məəm qarşıma çıxan.

Deməli, məsələ nə idi. Olar gəldilər babanı tapdilar, qurban kəsmişdilər. Deməli, Maskvada, bu qadının qardaşı öz övladınnan avto avariya düşübər. Belə olub ki, bı xəstəxananın həyətinə gündə gəlirmiş, deyirmişdər ki, vəziyyəti ağırdı, öləcək. Ölməsə, bunu tutacaxlar, günahkar budu. Qadın deer ki, Allah

dərgahına əlimi qaldırdım ki, İlahi, özün kömək ol. Deer, başımı belə tutmuşdum yuxu məni tutdu. Yuxu tutanda bacımı gördüm dedi ki, Mir Əlican Ağanın cəddini çağır, o, köməy olar. Deer başımı belə qaldırdım, səs eşitdim. Dedi ki, qızım, noolub? Başımı qaldırdım dedim, ağa, sənsən? Maskvada, xəstəxanada həyətdə gördüm onu. Deeb. dərdüü bilirəm. Allahı çağır, cəddimizi çağır. Hər şey yaxşı olar, narahat olma. Allaha iman gətir, yəni namaz qıl söbəti olub. Deer, gözümü belə yumdum, dedim, ay ağa, nə desən eliyərəm, başımı qaldırdım gördüm ağa yoxdu.

Üstünnən bir yarım saat keçdi, oturmuşuğ də hamımız. Birdən həkim gəldi, qaçdım qabağına, dedi ki, qardaşın özünə gəlir. Belə oldu ki, iki günnən sora ekspertizanın rəyi çıxdı və rəydə də çıxdı ki, həqiqətən günahkar başqa maşın imiş. Olar da alkaqol vəziyyətində olublarmış sən demə. Ordan deer, mən bacıma zəng elədim ki, bəs belə də, o seyidi tanıyırsan? Bacım dedi, mən sənə nə deyim bilmirəm valla, amma eşitmişəm, hardasa var Masallıda. Nə isə olar gəlib tapdılar, qurban kəsdilər. Bax bu mənim uşağlığ xatirələrimdi.

## Mir Rəsul Ağa və atası Mir Əlican Ağa

Əvvəcə onu qeyd edim ki, babamız da, atamız da, burda anadan olmuyub. Yardımlı rayonunun Primbil kəndində olublar. Primbil seyiddərinnən olublar. Müharibədən sora, babamın o vaxtı 50 yaşı olub, arxa cəbhədə olub.Əmimiz də rəhmətə gedənnən sora hardasa Bir-iki il sora 47-48-ci illərdə əvvəl köç eliyiblər Cəlilabada, sora 50-ci illərin əvvələrində bura köçüblər. O vaxta qədər burda yaşayış olmuyub.Yəni bizdərdən söbət gedir.

## Mir Rəsul Ağanın övlad verməsi

Atamızda da böyuk kəramət olub. Vaxtilə mən ədliyədə işdiyən zaman babamın, atamın cəddinin hansı qüvvədə olduğunu mənim iş yoldaşdarım eşidmişdi. Mənim iş yoldaşdarımnan biri evlənmişdi, amma yeddi ildi övladı olmurdu. Bir gün belə qərara gəldik biz cənub bölgəsi üzrə ezamiyyətə gələk, gələndə həmən yoldaş ki, var o da biznən gəldi. Nəsə bəzi lazımi işdəri görənnən sora gəldik ağamın yanına. Oturduğ söbət elədüy. Həmın adam dedi:

– Ağa, mən bi niyyətnən gəlmişəm.

Dedi:

– Demiyə bilərsən. Sənin övladın olmur. Bu qurudu, duruxdu.

Dedi:

– Allah sənə övlad verəcək. Amma bir şərtnən əyər sən özün namaz qılmağa imkanın yoxdursa, sənin valideynlərinnən atan və yaxud da anan, kimsə namaz qılsın hec olmasa.Yəni onun müqabilində.

Dedi ki, ağa, baş üstə. Üstünnən 3 ay keçmişdi, iş yoldaşıyığ mənə yaxınnaşdı, dedi ki, seyid xəbərin var əmi olacağsan. Deməli, Məhəmməd peyğəmbərin mövlud günü onun qızı oldu. İndinin indisində də həmən yoldaş deyir ki, sizin övladınızdı, sizin qızınızdı. Bir neçə dəfə belə hadisələr olub. Atamın da, babamın da belə möcüzələri çox olub.

## Mir Əlican Ağanın batan maşını çıxarmağı

Masallının uzağ bir kəndinə babam əlil bir qadına ərzağ, əlinə düşəni aparıb. Geri qayıdanda bərk yağış tutub, axşamcağı olub. Avtobus da olmuyub geri qayıtmağa. Söhbət gedir 1960-

cı illərdən. Qonşu kətdən biri təzə qaz 53 maşın alıbmış. Boradigah qəsəbəsinnən qayıdanda görüb ki, yolda yağış yağır, bir yaşdı kişi əl eliyir. Deeb, baxıb kinayənən ki, mən bu yağışda səni də götürəcəm? Nəsə saxlamıyıb. Maşın babadan ayrılan kimi xarab olub. Gedib qabaxda dayanıb, nə qədər eliyib təzə maşındı tərpənmiyib yerinnən. Nəysə, deer, belə otmuşdum baxdım gördüm maşının qapısın aşdı kimsə, baxdım gördüm bu ağadı. Tanımıyıb də. Deeb ki, ağa, cəddivə qurban burda niyə sən? Deeb ki, burda əlil bir qadın var, ona ərzaq gətirmişdim. Deeb, bə niyə getmirsən? Deer ki, ağa getmir axı. Əlin belə deer vurdu maşına, dedi ya Allah deməynən maşın xoddandı. Mən də ağa da mindüy maşına. O qədər həyəcannandım ki, maşınnan nə vaxt gəlmişəm bilməmişəm. Şıxlara çatanda, o vaxt da belə yollar yox idi, torpax yol idi. Yağış da yağdığına görə aləm palçığ idi. Baba deyib ki, bala, girmə bura, batarsan. Burdan da özüm piyada gedəcəm. Dedim, yox eee ağa, sən nə danışırsan. Namazın vaxtıdı. Deer, hələ də özümə gələ bilməmişəm.

Əlqərəz maşını saxladım, baba düşdü, getdi dəstəmaz almağa. Mən də dedim da maşını arxaya cevirim, batdı maşın. Elə batdı ki, təkərin axırına qədər. Nə qədər elədim gördüm ki, qeyri mümükündü çıxartmağ. İndi fikirrəşirəm ki, traktordan-zaddan tapım bu maşını çıxartmağa. Bi də gördüm ağa əlindəki suqabını qoydu gəldi. Dedi, mən sənə dedim axı girmə bura. Dedi, maşını xodda, dedim ağa maşın xoddadı. Əlin deer ki, maşına vurmağnan elə bil ki, maşını böyük bir traktor götürdü qoydu kənara. Maşın o sürətnən elə gəldi ki. Evə gəldim təzə evlənmişdim, ağlıyıram, yoldaşım baxır ki, sənə noolub. Deeb heç nə ağanın möcüzəsin görmüşəm. Sora kimə o maşın batan yeri göstərib deyirdim ki, mən burdan çıxmışam heç kəsin inanmağı gəlmirdi.

## Siftə xiyar

Mən Maskvada oxuyurdum, ailəynən gəlmişik, otpuskaya. Axşam nəsə söbət olub, yoldaşım deeb ki, mart ayı idi, görəsən xiyar çıxıb? Bırda kət camaatı tez əkir də. Baba rəhmətdik deer ki, yəqin ki, çıxar. Səhər-səhər saat 6, 7-yə işdəmiş maşın siqnal verdi. Ay ağa, ay ağa. Mən şəxsən özüm durdum çıxdım. Gördüm ağa əlində bu qədər bükülü xiyar gəlir. Deməli, qonşu kətdə kimsə əkib, bazara satmağa aparır, siftəsin ağeyçün gətirir. Ağa gətirib deer, gəlin, nə istəmişdün dünən? Gəlin deer ki, ağa bunnan ötrü bazara getmisən?

Deeb ki, bala mən bazara getmirəm, Allahım özü göndərib.

## Yun torbasında ilan

O vaxtı kətdərdən yun yığırdılar, kimin nə qədər qoyunu var nəsə. Bir xoşagəlməz bi adam var idi, həmən o yun yığannarın üstündə rəhbərrik eliyirdi. Kənt yeridi el adəti var, yəni kişi evdə olmuyanda qadın icazəsiz gətirib nəyisə orda təhvil verməzdi. Bizim evin yanında baza kimi yığırdılar yunu ora. Bi dəfə kişi dedi, iki dəfə kişi dedi. Anam dedi ki, seyid evdə yoxdu indi gələr, gözdeyin. Bu, çox kobud danışdı. Böyük qardaşım Hacı Mir Yahya o vaxt 10-cu sinifdə oxuyurdu. Əsəbləşdi ki, başqa kişi necə yəni evə deyər ki, belə. Əlin atdı iki dənə sarı meşoklar var idi yunnan dolu. Əlin belə tutdu götürdü gətirdi qoydu ora. Dedi, götürün, nə qədər yazılmısızsa, götürün. Deməli, kişi yaxınnaşdı. İpi açanda meşokun ortasından bi dənə qızıl ilan qaldırdı başın belə tutdu. O kişi yalan olmasın 200 metrə yola qədər qaşdı qorxusunnan. Camaat çəkildi, iş dayandı.

Yəni qeyrilərinnən də mal tədarük eliyirdilər, onu ala bilmədilər. İndi gözdüyüllər ki, nə vaxt atam gələr. Bi də baxdılar ki, ağa gəlir. Yaxınnaşdı noolub? Bı uje ağama gələ-gələ danışır, deer, ağa, sən Allah bağışda, qurban olum. Neynirsən elə o ilanı ordan götür. Ağam yaxınnaşdı, əvvəlcə dannadı o kişini. Sora dedi ki, ay Allahın heyvanı, çəkil. İnanın qızıl ilan torbadan düşdü, sivrilə-sivrilə düz bizim həyətə – tövlənin yenə arxasına getdi. Sora qardaşım torbanın birin saxladı, o birisini götürdü getdi.

Camaat ağaya çox böyük hörmət bəsdiyərdi. Məsələn, kimnənsə kimin arasında bi də görürsən qan davası düşərdi, ora əgər ağa gəlirdisə, orda mütləq barışığ olmalıydı.

## Ağanın övlad verməsi

Məsəlçün birinin uşağını maşın vurmuşdu. Uşağ ölmüşdü. Özdə uşağ bir az ruhi xəstə idi. Olara demişdilər ki, sizin heç övladıvız olmıyacağ. Amma ağa orda barışığ eliyənnən sora, iki il sora oların övladı dünyaya gəldi. Həmin oğlan sağ-salamatdı indi də. Ağam olara demişdi ki, haqqa gəl Allah yolunda barışığ elə, Allah da sənə yenə övlad payı verər. Elə də oldu. Şükür Allaha indi o oğlanın 15-20 yaşı var.

## Ölümünü deməsi

Yolda QAİ saxladı bizi Rusiyada olanda. Sənəddər hamısı bir yerdə və həmən ağanın pulu da oların arasında. Dedim, saxlıyacağlar, qayda pozmusan. Dedi, heç nə eliyə bilməzzər, ağanın nişanəsi var orda. Deməli, inanın ki, açdı sənəddərə baxdı, baxdı, fırradı. Axırıncı səyfəyə baxdı, pravaya baxdı, texpasporta baxdı, ağanın manatına belə baxdı ortdü sənəddəri, verdi, dedi "şaslivovo puti". Dedi, mən sənə nə de-

dim? Bir yerdə ki, ağanın nişanəsi var, orda söz ola bilməz. Biz də sürdüy çıxduy gəldüy.

Baba rəhmətdiy ölməmişdən 40 gün əvvəl nə vaxt öləcəyini özü dedi. Təcili ağamı, yəni atamı çağırdı yanına. Dedi, bala, mən getməliyəm. Dedi, ay ağa, noolub necə? Dedi, gəlmişdi imamlarımız, kimsə qarşısına çıxıb. Deyib məni də apar, deyib sən qeyb olmamalısan. Biz gedirik, sən də qırx günnən sora gələrsən.

Aşura günü – imamın 1-ci günü rəhmətə gedib. Dedi ki, mən ehsan verməliyəm, axı mənim babalarım deyəcək ki, sənin qapiva gəlmişdik, sən bizçin neynədin? Nə isə çadır quruldu, heyvannar kəsildi, baba ehsan verdirdi. Sonuncu dəfə bir tikə o ehsannan yedi. Biz günnəri sayırdığ, çünki demişdi ki, 40 gün tamamında getməliyəm. Dediyi kimi də oldu. 40 gün tamamında da rəhmətə getdi. Dediyi vaxtda. Deyirdi, Məhəmməd peyğəmbərdən nəyim artığdı. Mənim vaxtımdı mən getməliyəm. Elə də oldu, qırxıncı gün öldü.

## Mənə dərman qismət eləmə

Atam Allahdan diləmişdi ki, İlahi, mənə heç vaxt iynədərman qismət eləmə. Elə də oldu. Möcuzə budu ki, deməy atam xəstə oldu biz onu aparduğ Bakıya. Bütün klinikalardan keşdik. Eyni vaxtda bu insanda beyində iki xəstəlik yaranmışdı. Mən bütün xəstəliyin kağızdarını təcili apardım Maskvıya. Dünya şöhrətli neyroxirurq var Kanavalov. Bir sutka orda gözdədim. Həmən vaxtı Reyqanı aperasiya eliyib qayıdırdı. Hansısa möcüzə ilə hətta deməy olar ki, mən Kanavalovun qəbuluna düşdüm. O da bir möcuzə oldu. Heç kəsi buraxmırdılar. Nəsə düşdüm qəbula, bəzi yoldaşdardan verilən məktublar var

idi oları verdim, o baxdı. Snimoklara baxdı. Dedi ki, burda iki xəstəlik var. Bu xəstəliyi müalıcə eləsək, dərmannar digər xəstəliyi artıracağ. Yəni buna heç nə eləmək olmaz, heç bir dərman qəbul eləmək olmaz. Orda mənim ani olarağ yadıma düşdü ki, İlahi, axı o demişdi ki, mənə dərman qismət eləmə. Elə formada da oldu. Necə demişdi elə də getdi dünyadan.

* * *

Boğaz ağrısı, qulağ ağrısı və s. olanda suyu götürərdi, nəsə deyərdi, oxuyardı, üflüyərdi içənə verərdi ki, için. Amma inamnan sən onu içirdinsə, onda səbəb olurdu. Bir şeyə qəzəbnən baxsaydı, o mütləq bəla çəkməliydi.

## Allah səsüvü batırsın

Məsələn, sizə bir şey deyim, demək bir dəfə biz uşağıydıx. Daim gəlib namaz qılardı günortalar, televızor açığ idi, orda da mahnı gedirdi. Biz də karidorda baxırdığ televizora. Bu da orda namaz qılırdı. Ha qıldı, qıldı indi deyə də bilmir ki, onun səsini alın mane olur. Biz də başa düşmürük. Orda da Akif İslamzadə oxuyurdu. 4 rəkət qılannan sora dedi, üzünü televızora tutdu və qeyznən, acıxnan dedi. Allah səsüvü batırsın. Sən qoymadın məni rahat 4 rəkət namazımı qılam. Bu 1980-ci illərin axırı olan şeydi. Heç üstünnən 1 həftə keçməmişdi ki, onun həqiqətən də səsi batdı.

Allahdan istədiyi, dilədiyi niyyətləri adətən sübh namazı vaxtı istiyirdi.

## Mənim qəlbim qəbul eləmir

Bir dəfə ağanı gəlib qonşu kətdən apardılar. Xaloğlu xalaqızıya sataşmışdı, aralarında böyük münaqişə düşmüşdü.

Oğlanın böyük qardaşı deyib ki, bir iş var, səni aparacam ora barışığ etməyə. Nə isə gəliblər ora, deyir, orda mən anladım ki, məni bura nəyə gətiriblər. Ona qədər işin tam mahiyyətini başa düşmürdüm. Biləndə ki, bu iş bu qədər dərin məsələdi, orda ev yiyəisnə də qızgilə də demişdi ki, mən istiyirəm ki, siz bu işdə özünüz qərar verəsiz. Əgər tutdurmağ istiyirsinizsə, bunun cəzası budursa, özünüz qərar verin. Mənə anlatsaydız, heç bura gəlməzdim. Amma qızın atası durub demişdi ki, bu kişinin bu cür xasiyyətinə görə mən keçirəm, mən bağışdıyıram. Ağam demişdi ki, sən keçsən belə mən bağışdamaram. Bunu mənim qəlbim qəbul eləmir.

* * *

Deməк burda təkcə babamın qəbri var idi. Bax görürsüz yazılıb orda da. 1980-ci ildə yanvarın 8-də dünyasını dəyişib, bir məqbərə kimi var idi onda. Sora isə 1994-cü ildə buranın yeri atıldı və nəzərdə tutuldu ki, bura nisbətdə böyük olsun. Ağam özü öz istəyinnən öz qəbrini qazdırmışdı hələ sağ ikən. Baxın bırda sizə bir şey göstərəcəm, bəlkə də heç fikir vermədiniz bayağ. Diqqətnən baxsaz görərsiz ki, burda bir qəbir o biri qəbirə nisbətdə 2-3 sm fərqlidir hündürlüyündə. Bu da o deməkdir ki, yəni özünü atasınnan aşağıda tutub. Öz qəbrini bir az aşağı hördürüb. O əvvəlcədən hər şeyi fikirrəşib. Həftənin hər 4-cü günü o gələrdi bura, atasını ziyarət eliyərdi.

* * *

Ağamın yanına hər dərdə görə gəlirdilər. Bi dəfə qonşu kətdən bi kişi gəlmidi, onun qolu çürüyürdü. Ağam ona əl çəkməknən onun çürüməsi dayanmışdı, hələ də var o adam sap sağlam adamdı. Bi də əllərdə xırda ziyil filan olardı ha, elə bircə dəfə tüpürürdü üstünə elə onnan da səhəri görürdün ki, yoxdu.

## Mir Kazım Ağa "Tüfəngim olaydı"

Mir Kazım ağa 1939-cu ildə gəlib bizim kəndə. Güllitəpədə olurdı. Ordan gəlib qalıb. Qar idi, muharibədən sora idi. Oların evinin qabağında dik var. Göydən qaz ucur, deer bi tüfəngim oleydi oon birin vıreydim. Ordan qazın biri ayrıldı gəldi, düşdü onun qanşarına. Mir Kazım Ağa tutdı dedi, Allahın heyvanı çıx get. Getmədi. Nəğada əlləşdi qaz getmədi. O da götürdi, gətirdi. Özü elə bizim kətdə olurdu. Onun burda türbəsi var, camaat ora ziyarətə gedir. Onun nəvəsi indi bizim axunddu. Qumda oxuyub gəlib.

**Söyləyicilər:**

Hacı Mir Qiyas Təhməzov, doğum tarixi 1944, təhsili orta, Masallı şəhəri

Musarza Əsgər oğlu, doğum tarixi 1956, təhsili ali, Mahmudavar kəndi

Arif Fərzəliyev, doğum tarixi 1956, təhsili ali, Xırmandalı kəndi

Hacı Nüsrət Nəsrullayev, doğum tarixi 1947, təhsili ali, Qızılağac kəndi

Molla Kərbəlayi Nüsrət Qızılağaclı. Qızılağac kəndi, dünən və bu gün. B., 2003

Ərkinaz Ağabalayeva, doğum tarixi 1942, təhsili səkizillik , Qızılağac kəndi

Ələkbər Ələkbərov, doğum tarixi 1928, təhsili orta, Qızılağac kəndi

Musarza Əsgər oğlu, doğum tarixi 1956, təhsili ali, Mahmudavar kəndi

İbrahim Sadıqov, doğum tarixi 1950, təhsili ali, Seybətin kəndi

Şabikə Bəşirova, 75 yaş, təhsili yoxdur, Dadva kəndi

Bulqeyis Gözəlova, doğum tarixi 1947, təhsili orta, Xırmandalı kəndi.

Nəriman Qafarov, doğum tarixi1939, təhsili ali, Hişkədərə kəndi.

Aygul Səmədova, doğum tarixi 1972, təhsili orta, Rüdəkənar kəndi.

Dilbər Nağıyeva, doğum tarixi 1954, təhsili orta, Bədəlan kəndi.

Məleykə Nağıyeva, doğum tarixi 1968, təhsili orta, Bədəlan kəndi.

Elxan Kazımov, doğum tarixi 1981, təhsili orta, Ərkivan kəndi.

Ələddin Nəzərov, doğum tarixi 1957, təhsili ali, Ərkivan kəndi.

Mir Yaqub Abdullayev, doğum tarixi 1961, təhsili orta, Bambaşı kəndi.

Şövkət Huseynova, 50 yaş, təhsili ali, I Şıxlar kəndi.

Mir Əli Tağıyev, doğum tarixi 1956, təhsili orta, Masallı şəhəri.

Mir Möhsün Tağıyev, doğum tarixi 1961, təhsili ali, Masallı şəhəri.

Mircənnət Rəfiyeva, doğum tarixi 1963, təhsili orta, Masallı şəhəri.

Gülüstan Şükürova, 45 yaş,təhsili orta ixtisas, Masallı şəhəri.

Mir Qabil Tağıyev, doğum tarixi 1974, təhsili orta, Masallı

Mir Rafiq Bədirov, doğum tarixi 1965, təhsili ali, //Şıxlar kəndi.

Mir Paşa Bədəlov, doğum tarixi 1972, təhsili ali, //Şıxlar kəndi.

Məhəmməd Abıyev, doğum tarixi 1927, təhsili orta, Köhnə Alvadı kəndi.

**Toplayanlar:**

Füzuli Bayat
Nuridə Muxtarzadə
Çiçək Əfəndiyeva

# 5. ƏFSANƏLƏR

* * *

Qədimdə burda qocalar varmış. Oturturmuşlar burda. Marağlı məsəllər söylərmişlər. Bura karvan ticarət yolu qovşağında yerrəşdiyinə görə burdan keçən adamlar söylərmiş. Bura məsəl söylənən yerdi. Əfsanədə böyük-kiçiyliy yoxdu. Rəvayətdi toponamik əfsanələr var. Masallı ilə bağlı əfsanə yoxdu.

## Qızılağac

Suyu şirin və acı olan ancağ Qızılağacdadı. Bizdə ona "Kiçik dəniz" deyirlər, "Böyük dəniz" deyirlər. Suyu da bir birinə qarışmaz. Quranda var ki, deyir suyu acı və şirin olan "Ərrəhman" surəsində. Ancağ bizdədi – Qızılağacdadı. Orada, deyir ki, İsgəndər dəniz suyu acı və şirin olan yerdə dayandı və orda istirahət elədi. Sonra səhər durdu gördü ki, atı "Bukival" yoxdu. Atını oğurruyublar. Isgəndər dedi ki, əgər mənim atımı gətirməsöz buranı xaraba qoyacağam. Əgər gətirib atımı versöz, nə hörmət desəz, eliyəcəm. Gətirib deyir atı buraxırlar ki, İsgəndər bu atı götür. Həmən o, Qızılağac əhalisinə hörmət eliyir.

## Əli bulağı

Orda var məsələn, "Əli bulaq" haqqında əfsanə. Həzrəti Əli haqqında əfsanədə deyilir ki, burda su da çıxır, şirin su. Allahtala Quranda deyir ki, biz insanları cəzalandırmağ üçün yorğun bitirdik həmin yerdə. Amma orda "Əli bulağı" deyilən bir yer var. Əli bulağıdı, "Alı bulağı"da deyirlər.

Deyirlər ki, guya Həzrəti Əli ora gəlib orda şirin su axar olub, indiyəcən də qalır. Həzrəti Əli taxta çıxıb 656 – cı ildə. 661 – ci ildə qətlə yetirilib. İndi isə ora 2012 – ci ildi. Həzrəti Əli çıxmıyıb e Ərəbistannan qırağa. Bəzi yerlərin adı dəyişib amma Qızılağac elə Qızılağacdı. Qızılağac növü indidə bitir. Kənddə yoxdu o, çayın qırağındadı.

## Qızılağac təkrar

O, vaxtı bir dənə şah yaşıyıb. Padşahın böyük evi var imiş. Bu zəvvarrar gedəndə onnarda baxıb. Deyillər gedirik eşirik, ilannar çıxır. İlannı təpədi ora. Ora gələndə görüb ki, fəhlələr işliyəndə, ev tikəndə yayın günü imiş də ocağın yanınada quyu var imiş. Bir də görüb bir qoca kişi oturub orda. Deyib ki, get su gətir fəhlələr içsinlər. Gəlib dolduranda səhəngi, saxsıdan olarmış, onu dolduranda aparıblar görüb buz bağlıyıb bu. Aça bilmiyiblər. Ona görə – buz bağlıyıb deyə. O, şübhələnib ki, burda bir möcüzat var. Yayın günü bu, buz bağlıyar. Olar gəlincə Allahtala buları qeyb eliyib. Bir cavan, bir qoca. Ad ondan qalıb: Qızılağac.

## Muğan şəhəri

Deyirlər, bu yerlərin təbiəti çox gözəl, adamları isə igid olub. Oğlanlar qızları, qızlar oğlanları bacarığına, igidliyinə, qəddi-qamətinə görə sevərmiş. Burda Muğan adlı bir igid oğlan varmış. Muğan enli kürəkli, sağlam bədənli, ağıllı və qocaq oğlan idi. Qəbilənin qızları elə buna görə də ona vurulmuşdular. Muğan isə Zivər adlı bir qızı sevirdi. Hər ikisi bir obada böyümüşdülər. Mugan Zivəri görərkən qızarar, danışmağa söz tapmaz, nitqi tutulardı. O vaxtlar Atəşgahlarda dua

mərasimi zamanı igidlərə xoşbəxtlik arzulanırdı. El ağsaqqalları deyərdilər: "Bizim Muğanımızın canı nə qədər sağdır, sürümüz arxayın otlayacaq, adamlarımız arxayın gəzəcək, yam-yaşıl meşələrimiz, durna gözlü bulaqlarımız, cüyürlü çöllərimiz yadellilərin olamyacaqdır." Bax, Muğan elin hörmətini beləcə qazanmışdı.

Xoşbəxtlik saatı yaxınlaşırdı. Lakin el adəti var idi. Onu icra etməyincə toy mərasimini başlamaq olmazdı. İlk növbədə, oğlan və qızın nəsli, qohumluğu öyrənilirdi. El adətinə görə, qohumla ailə qurmaq olmazdı. Sonra bir sıra məhəbbət sınaqları başlanırdı. Son sorğu və son söz qız atasının idi. Zivərin atası vəfat etmişdi. Ana Muğanı el ağsaqqallarının hüzurunda qəbul edib deyir: "Mən qohumluğa razıyam. Lakin izdivacla əlaqədar bir xahişim var. Bizim el alaçıqlarda və bir-birindən çox uzaq kəndlərdə yaşayır. Düşmən hücum edərkən sığınacaq yerimiz olmur. Muğan, sən küçələri enli, ətrafı hasarlı bir şəhər salmalısan. Şəhər çay üzərində, dəniz kənarında tikilməlidir. Baxandan sonra mən öz qızımın toyuna razılıq verəcəyəm."

Şəhər salmaq asan deyildi, özü də çox vaxt tələb edirdi. Muğan ruhdan düşdü. Ağsaqqallar isə ona ürək-dirək verdilər: "Oğul, qorxma, bizim xalq əməksevərdir, sizi darda qoymaz, biz elliklə qolumuzu çırmayıb daş daşıyarıq, gözəl bir şəhər salarıq. “Elin gücü, selin gücü”– deyiblər. Bir şəhər nədir ki, bu xalq onun əlində aciz qala, sən razılıq ver."

Muğan ruhlandı. Hamı qolunu çırmayib işə başladı. Elin gücü ilə ətrafı qırmızı kərpicdən hörülmüş bir şəhər salındı. Şəhərin darvazası Xəzərin ləpədöyəninə açıldı. Şəhər çayın yanında tikildi. Bundan sonra toy məclisi başlandı. Muğan vüsala çatdı. Xalq bu təzə şəhəri öz igid oğlunun adı ilə "Muğan" adlandırdı.

Qəhrəman Muğan yeni-yeni igidliklər göstərdi. Onun igidliyi ellərdən ellərə yayıldı.

## Qanlı göl əfsanəsi

Kəndin cənub-şərq tərəfində uzaq keçmişdə ətrafı cəngəlliklərlə əhatə olunmuş bir göl olub. Adına Çandıq deyiblər. Gölün üzərini çox vaxt çən, duman örtərdi. Bəlkə də, gölün adının Çandıq olmasında elə çənin rolu olmuşdu. Belə ki, əvvəllər yerli camaat tərəfindən "çənni yer", "çənnik" kimi deyilə-deyilə, nəhayət, Çandıq kimi bizim dövrümüzə gəlib çıxaraq belə adlandırılmışdır.

Yaşlı kişilər belə danışırdılar ki, keçmiş zamanlarda kəndin ovçuları buraya ova gedərmişlər. Bir dəfə yenə gölün kənarında olan quş və heyvanlardan ovlamaq üçün ora gedən ovçular bir hadisədən heyrətə gəlirlər. Görürlər ki, gölün kənarında bir ana maral yaralı halda uzanıb. Maralın yarasından axan qan suya qarışırmış. Gölün suyu qan rəngində olub. Ən maraqlısı o olub ki, maralın yanında təzəcə doğulmuş bala maral dayanıb heyrətlə o yan-bu yana boylanırmış.

O vaxtdan bu gölün adı "Qanlı göl" qalır.

## Cənnət məkan

Belə rəvayət edirlər ki, insanlara torpaq paylanarkən bir qrup xalq bu mərasimə kecikir. Gecikənlər arasında indiki "Talış-Muğan" zonasında yaşayanların babası da olur. El ağsaqqalları məsləhətləşib öz nümayəndələrini Allahın yanına göndərirlər. Nümayəndələrin başçısı olan Muğan çox ağıllı, cəsur, müdrik və mömin bir adam idi. O, Allaha gəlişinin məqsədini bildirib, yalvarış etməyə başlayır. Allah məşvərət

etdikdən sonra onun yalvarışlarını eşidirlər. Cənnət üçün apardığı torpaqlardan bir hissəsini kəsib tayfanın başçısı Muğana verməyi qərara alır. Xahişə gələnlərin arasında talışların da nümayəndəsi varmış. O da Muğanla birgə gəlmiş imiş. Ona görə də o torpaqlarda yaşamaq üçün talışlara da yer verməyi Muğana tapşırırlar. Elə o vaxtdan bu torpaqlar "Talış-Muğan zonası" adlanır.

## Xırmandalı

Nəql olunur ki, ötənlərdə mehribançılıqda, hörmətçillikdə və nəfsitoxduqda ad çıxarmış iki qardaş bu oymaqda bir əkər, bir biçər, dəni dəyirmanda bir üyüdərmişlər. Bölgüyə gələndə hər kəs qədərincə götürüb bəsimdi," deyərmiş… Günlərin bir gün qardaşlar xırmandan paylarına düşən məhsulu öz evlərirnə aparırlarmış. Böyük qardaş evliymiş, düşünür ki, mən evli-eşikli adamam, güzaranım da pis deyil. Qoy kiçik qardaşımın payı çox olsun! Bu gün-sabah ailə qurar, ehtiyacı olar… Elə bu fikirlə öz payından bir hissəni ayırıb qatır qardaşının payına…

Subay qardaş da öz-özlüyündə götür-qoy edir ki, böyük qardaşım evli-eşiklidir, bir çətən külfəti var, mənimsə nə yeyənim var, nə dağıdanım, qoy məhsulun çoxunu o aparsın. Və öz payında böyük bir hissəsini qatır qardaşının payına… Bu minvalla paydakı nişan hər gün pozulur. Xırmandan məhsul tükənmək bilmir. El-obaya hay düşür ki, balam bu qardaşların xırmanı hey aşıb-daşır, xırmanı dolu qaldı…

Sonralar bu qardaşları el arasında nişan verəndə deyərmişlər ki, «Xırmanıdolu» filankəslər. Çox-çox əvvəllər yaşayan ağsaqqalların dediyinə görə bizim Xırmandalı kəndinin adı bu əhvalatdan binə tutub.

## Qızılgül əfsanəsi

Bir gün mənə dedilər qızılgülün mənası nədi? Dedim mən belə billəm, belə eşidmişəm. Mənası odu ki, Leyli Məcnun o vaxtı bir-birini sevillər. Valideynləri də vermirmiş. Vermiyəndə Məcnun da dəli olur, dərdinə əlac olmur. O da deer mən dəli dööləm, mən sevirəm, onun dəlisiyəm. Nə qədər adam qızın atasına göndərib eliyillər ki, bu qızı ver ki, bu oğlan çöllərə düşməsin. Deer yox, vermirəm ki, vermirəm. Leyli də Məcnun da vəfat eliyillər qubardan.

Olar ölənnən sora ikisin də yan-yana basdırıllar. Ancaq oların arasına bi dənə qarı girir, pis qarı. Xəbər aparan. Leylinin qəbri üsdə qızılgül bitir. Allahtala orda qızılgül bitirir, Məcnunun qəbri üsdə isə sırğeyigül bitirir. O qızılgülnən sırğeyigül gəliilər bitişillər bi-birinə yuxarıda. O qarı ortadan qaratikanı bitirir, orda da qoymur oları birrəşməyə.

**Söyləyicilər:**

Hacı Nüsrət Nəsrullayev, doğum tarixi 1947, təhsili ali, Qızılağac kəndi

Mənsurə Abdullayeva, doğum tarixi 1933, təhsili yoxdur, Qızılağac kəndi

Əlizaman Baxış, Hacıtəpə (Keçmişdə və indi), B., 2010

«Sovet kəndi» qəzeti, 26 iyul 1985

Gülcahan Ələkbərova, 75 yaş, təhsili yoxdur, Qızılagac kəndi

**Toplayan:**

Füzuli Bayat Gözəlov

# 6. HƏM MƏZƏLİ, HƏM QƏRİBƏ ƏHVALATLAR

## Sənin eşşəyin

Şəkililərdə belə bir şey var. Biri gedir Şəkiyə gəzir Şəkini, Şəki dağlıq yerdi, axı, Şəkini gəzəndən sonra bu azır. Azandan sonra gəlir çıxır bir yeməkxanaya, deyir:

– Salam əleyküm oturmaq olar?

Deyir:

– Həblə oturun.

– Nə var yeməyə?

– Həblə quş südü, can dərmanı. Nə istiyirsən var.

Deyir:

– Mənə bir dənə kabab gətir, bir az da çörək. Başqa bir şey lazım deyil.

– Həblə baş üstə. Gedir gətirir.

Gətirəndən soora bu yeyir, deyir, afisant, gəl pulu apar deyir. Çox sağ ol qonağpərvərliyivə görə. Deyir:

– Nə verəcəm?

Deyir:

– İyirmi manat.

Deyir:

– Başuva dönüm, bir dənə kabab yemişəm, bir tikə də çörək, uzağı eləsin beş manat, iyirmi manat hardandı?

Hay-küy qalxanda şef povur çıxır:

– Həblə nə hay-küydü?

Deyir:

– Görmürsən, yeyibdi pulunu vermir.

Deyir:

– Sən kimsən pulunu vürmirsən?

Deyir:
– Məni prokuror təyin ediblər. Bəs sən kimsən?
Deyir:
– Sənin eşşəyin.

## Sizə ətsünnət olmağdansa burda ətsünnət olaram

Bir dənə molla ətsünnət olmuşdu. Baxır dala görür bir dənə qəşəng, gözəl-göyçək arvaddı deyir:
– Bacı?
Deyir:
– Nədi?
Deyir:
– Ətsünnət olmuşam.
Dedi:
– Hə, qardaş.
Dedi:
– Əyalın yoxdu?
Dedi:
– Yoxdu.
Dedi:
– Şəriyyətdə bir var kəbin, bir də var siyğa. Kəbini molla kəsir, deyir bacı sıyğanı oxuyum özümə. Ətivi verəcəm, yağını verəcəm, paltaruvı verəcəm. Deyir, razısan?
Dedi:
– Razıyam.
Dedi:
– Yaxşı, bilirsən, neçənci arvadım olacağsan?
Dedi:
– Yox.

Dedi:

– On üçüncü.

Dedi:

– İstəmirəm.

Dedi:

– Niyə?

Dedi:

– Sizə ətsünnət olmağdansa, burda ətsünnət olaram.

## Talonum oğraş əlinə düşməyib

Mənim dostum var Paltexnikdə, oxuyuruq bir yerdə. Onun bibisi oğlu gəlir, Şəkidən Bakıya. Bu oturar Şəkidə yiyər-içər, polnu. Bu gəlir Gəncədə restoranda yenə də vurar. Birdən gəlir bir qayı saxlayır:

– Filankəsov filankəs.

Deyir:

– Gözuvu yeyim. Şəkili Faiq.

Deyir:

– Qadanalım, sənədləri ver.

Polis baxır görür bunun talonunda deşik yoxdu. Məzələnir dəə bilir, pul alacaq. Deyir, qadan alım, sənin talonunda heç deşik yoxdu ki?

Deyir:

– Rəis, gözüvu yeyim, mənim talonum hələ oğraş əlinə düşmüyübdü.

## Səbrin nə təhərdi?

Aşağıda qohumların birinin hüzürü idi. Getmişdim hüzürə başsalığına, orda molla söhbət eliyirdi, hərdən söhbətdə ara

verəndə biri durdu getməyə. Durmuşdu elə iki addım atmışdı, biri ordan asqırdı. Asqıranda bu ayağ saxladı. Bizdə deyim var, asqırdı ayağ saxla, biraz gözdə. Dayandı, asqırana dedi:

– Səbrin nətərdi?

Dedi:

– Vallah dörd il bundan qabağ qardaşım Rusiyyətə gedib. Asqırdım, gedəndən hələ də ondan xəbər yoxdu.

## Keçi dərisini öpürsən?

Bir müştehid gedir şeyxə bir dənə Quran bağışlıyır. Şeyx götürüb onu öpür. Öper qoyur gözünün üstünə.

Deyir:

– Keçi dərisini öpürsən, Müştehid.

Deyir:

– Ona deyil, onun içindəkinə mən ibadət eliyirəm, onu mən öpürəm.

## Dayanın, yazmayın

Bizim kənddə bir kişi var imiş. Baba adında. Bu, tiryək əkirmiş. Xəbər gedib milis orqanlarına çatıb ki, Filankəs tirek əkib yığıb aparıb bu tireki qoyub boranı tavanın altına. Bu kişi də baməzə idi. Bunu şeytannıyan hər şeyi yerbəyer deyib. Tavanın altında. Bu bazardan gələndə milislər gəliblər. Heç nə demədən giriblər həyətə boranı tavanın altından bir nəlbəki tirreki götürüblər. Kişi, gəl otur. Baba kişi oturub, milislərdən biri başdayıb yazmağa. Kişiynən yazanın arasında iki üç metir məsafə var imiş. Kişidə o vaxt savadı-zadı yox imiş. Heç nə bilmiyib. Başlıyıblar buna pratakol yazmağa. Kişi deyib, dayanın,

yazmıyın. Deyiblər, əşi, nə bilirsən, biz nə yazırıq. Oturubsan orda, savadında yoxdu. Deyib, Masallıda oturub mənim boranı tavanımın altını görürsən, mən burdan bura onu görmürəm.

## Ye, kökəl dənə

Deyir ki, kəndimizdə bir kolxoz sədri var idi. Əzazil imiş. Əlpənah adında. Bu baməzə kişi həmişə istildə quş vurardı. Quşu vurub qaşqaldağ adında quş. Quş bir az arığ olub. Baxıb-baxıb deyib, ay Allah evini yıxsın, sən də Əlpənahdan qorxub bu günə qalmısan. Ye dənə bu istil olmasın, o istil olsun. Ye, kökəl dənə.

## Bir baş soğan

Bizim Xırmandalı kəndində İstam adında bir qaravolçu varmış. Həm tərs, həm də çox dindar kişiymiş. Halallığa, haqqa güvənən bu kişi kolxozun bağ-bostanını, anbara daşınan məsullarını göz bəbəyi kimi qoruyarmış. Günlərin bir günü kolxoz anbarının həyətində cuvallara doldurulub bir-birinin üstünə qalaqlanmış soğan məsulunun qarovulunu çəkirmiş.

Arvadı ona günorta yeməyi gətirir. İstam kişi pələmədə süfrəni açıb, bismillah edəndə görür ki, bəs arvad evdən soğan gətirməyib...

Başlayır arvadını danlamağa, ki, ay filangəsin qızı, bəyəm sən bilmirsən ki, mən bozbaşı soğansız yeyə bilmirəm?

Arvad deyir:

– A kişi, vallah-billah, yadımdan çıxıb, indi dünya dağılmaz ki, kolxozun bir baş soğanını götürüb, bu günlük günortanı yola verəsən?!

Bu qədər soğan tayasının qarovulunu sən çəkmirsənmi?

İstam kişi coşur. Hikkəsindən arvadının gətirdiyi yeməyi geri qaytarır. Deyir:

– Ay filan-filan olmuşun qızı, sən mənə yaşımın bu ahıl çağında haram yedizdirib, dost-düşmən yanında xar elətdirmək istəyirsən? Allah-təala mənə bu bir baş haram soğan üçün o dünyada cəhənnəm əzabı verər, hökümətsə bu dünyada! İstəyirsən məni bir baş soğana görə gedər-gəlməzə sürgün eləsinlər?

## Boş məzar

Rəhmətdik İstamın rus dostu vardı, gedib gələrdilər olara. Onun bi dənə oğlu var idi. Yekə oğlan idi. O elə bil ki, Allah gölünə xilov* saldı, gəldi dedi ki, mən müsəlman olmaq istiyirəm. O vaxtı İstama dedi. İstam da 70-80 yaşında idi. Dedi, musəlman olmaq issirəm. Onu rəhmətdik İstam musəlman elədi. Rusu kəssirdi əməlli-başdı. Musəlman eliyənnən sora üssünnən bir ay kecməmiş İstam rəhmətə getdi. Elə kətdə ölüb. Orda kişini qoydular cənazəyə gətilər evəki, əfn-dəfn eləməyə. İndi aparıllar bunun qəbirsannığa basdırmağa, biz də uşağ idik. Hamımız qacıb durmuşuğ yolun üssündə. Bu kişinin cənazəsinə girənnər cənazənin altında qacıllar. Elə bil cənazə ucur göynən, bala. Ucur elə bil. Mən gözümnən görmüşəm onu, bala. Vahimeydi ona. Biri deyir kişi ucur, o biri deyir kişi ucur. Ancax əllərində tutublar cənazəni, hamı qacır, tutublar əllərində. Cənazənin altında hamı qacır. Bunu apardılar qəbirsannığa basdırdılar, gəldilər. Gələnnən iki gün sora bir nəfər adam yatır, yuxusunda görür ki, bı İstamı aparıllar ağ dəvənin üstündə.

Soruşur:

– A kişi, səni hara aparıllar?

Deyir:

– Hec özüm də bilmirəm vallah, məni hara aparıllar.

Sora gedillər bılar baxsınnar ki, görək qəbirdədir, ya yox. Oğlannarı də, hamı danışır. Gedillər bələ, qəbri bi balaca qazıllar görüllər nə, orda hec nə yoxdu. Qəbir boşdu. Lal, dinməz sirr batsın deyə, ustünü örtüllər, gəlillər evə. Onu o vaxtı hamı belə-belə bir birinə danışdı. Yaxşı kişi idi o rəhmətdik. İndi Allah tərəfinnən qeyb olub, nətərı olub bilinmədi. Düz adam olub haaaa özu, ona görə də ömrü boyu kasıb olub.

## İstamın ac yatmağı

Elə bil o vaxti İstamın arvadı gedib ambardan nəbilim indi bir az buğda, bir az un, nəbilim belə-belə şeylər gətirib, bu ambara buğda atmırlar, mən də atmışam. Biçib gətirib tökürdülər xarmannığa, ordan da soorurdular təmız, gətirib onu ambara tökürdük. Arvad vedrənin yarısından, kasıb imişdər da, gətirib bunu qoot cəkib arvadı, ora da qoot plov bişirib. Hə gətirib bu kişiyə yeməyə. O dəmdə elə bil ürəyi xəbər verib.

Deyib:

– Arvad mən bunu yemərəm. Orda səənnən işdiyənnərin hamısının gözü var idi bunda. Olar madəm gətirmədi, sən munu niyə gətirdin? Bu oğurruxdu. Mən bunu yemərəm. Arvadı da elə o vaxt danışardı, gülərdi.

Deyir elə İstam ac yatdı, bizsə yedik.

## İstamın düzlüyü

Hə kasıbçılıq vaxtları idi onda. Qağam rəhmətdiknən İstam kişi də qalxoz bostancısı idilər. Yemiş, qarpız, əkirdilər, bınnan qabağ, bala, nur, bərəkət vardı. İndi su da veririk

olmur. Belə-belə qarpız, yemış olardı. Rəhmətdik qağam gətirir verir qarpızdarı maşınnan. İcinnən bi dənəsini götürür kəsir yeyir, bu İstam kişi dilini də vırmır. Bunu mən yeməm Paşa, bu oğurruxdu. Mən yemirəm deyərmiş. Onda qağamgilcün uşaxları cölə yemək gətirərmiş yeməyə. Uşaxlar qayıdanda qağam zənbilə 2-3 dənə yemişdən qarpızdan atarmış ki aparsınnar. Deyirmiş ki, mənim uşaxlarıma qoyma, özüvünkülərə qoy. Qağam da atarmış öz uşaxlarının zənbilinə deyərmiş, bala, bunu yolda kecəndə verin olara. 3-ü olara, 3-ü bizə. Gör indi belə düz adam olub o İstam.

## Neçə illərdi camaatın qazandığını yeyirsiz

Masallıda bi kəndin ən yaşdı sakini olur. Çox təbii insan olur, geyiminə, keciminə heç fikir vermir. Adı Orucəli kişi olur. Bi gün bunun işi kolxoz sədrinə düşür. Kolxoz sədri də adətən rəiyyətdən gec durardı, çıxardı kəndə-kəsəyə. Kişi gəlir kolxoz sədrinin evinə. Evdəkilər bu kişinin geyim, keciminə görə bunu bir az maraxla qarşılayıllar. Sora cay icə-icə nahar yeməyi də təklif edirlər. Hələ kolxoz sədri yuxudan oyanmır. Yavaş-yavaş buna yemək də verillər. Elə yemək ərəfəsində kişi kolxoz sədrinnən arvada giley eliyir. Sədrin uşağı da narahat olur ki, olmaz da, kolxoz sədri haqqında danışmazdar da. Anasını cəkir kənara deyir:

– Ay ana, görürsən bu kişini, cörəyimizi yeyir, hələ atamdan da qiybət eliyir.

Kişi bunu eşidir deer, a bala, siz neçə illərdi camaatın qazandığını yeyirsiz, burda mənim də zəhmətim var. Ola bilməz ki, ha ilin bütün günün siz yeyirsiniz, bir dəfə də mən öz qazancımdan bi qarın cörək yeyim? Elə söhbət əsnasında kol-

xoz sədri yuxudan oyanır, gəlir. Deer, nə deyir. Deellər, belə, belə. Deer, a bala, yazıq düz deyir də, mən artıq 2-3 ildi sədrəm, camaatın qazancıdı də, həqiqətə acığın gəlməsin.

## Bir araba dolusu məhsul

Vaxtilə kolxozda xalqa əmək günlərinin verilməsi vaxtı var imiş. Bu Xırmandalı, Hacitəpə, Ərəb bir kolxoz olduğundan, Xırmandalı əhalisinin sayı çox olduğundan, bir gündə iki nəfərə əmək günü müəyyənləşdirilibmiş. Hacıtəpədə 1 nəfərə, Ərəbdə də 1 nəfərə. Günlərin birində Polad kişiyə əmək günü verilməsi təyin olunur. Gecəni gəlir evdə danışır ki, bəs belə belə məsələ var. Polad kişinin atası Bığır kişi kor olur. O vaxtı belə idi ki, yaşdı adamlar evlərinin qulabanında əyləşirdilər, gedib gələni dinləyərdilər. O da bir nəfər qonşusunnan oturub qulabanda söhbətləşirdilər. Birdən araba səsi gəlir. Səs gəlndə kor ata qonşuya deyir ki, filankəs, bu gələn Polad olacağ.

Deer:

– A Bığır kişi, nə bilirsən ki, Poladdı.

Deer:

– Yox, mən arabanın səsindən bilirəm ki, dolu arabadı, özü də Polad bu gün əmək gününü alıb gətirməlidir.

Araba bir az da yaxınnaşanda, təzədən kor kişi söyləyir ki, bəs, filankəs, sən görürsən arabanın ağırrıgını. Araba gücnən yeriyir. Az qalır araba ağırrığınnan sına. Qayıdır, ay Bığır kişi, lap sən deyəsən bu Poladın bu əmək günü almasına belə qibtə eliyirsən. Az qala lap paxıllıq hissi kecirdirsən. Deer, vallah, ay axmaq, ona paxıllıq eləmirəm. Özümün gəncdiyim, işdədiyim illər yadıma düşdü. Mən həmin illərdə demək olar

ki, heç əmək günü almamışam. İndi isə sevinirəm ki, mənim oğlum Polad bi araba dolusu məhsul gətirir.

## Fətulla məllim belə zəifdi ki, sənnən də zəifdi?

Mən tələbə idim, olarda qalırdım. O məllimin dörd övladı vardı. Getdilər uşaxlar qapını açdılar. Gələn buların dayıları idi. Fətulla məllim. O da ibtidi sinif məllimi idi. Cox səmimi, gözəl bir insan idi. Hə, gəldi əyləşdi. Bizdən də xeyli böyükdür. Bir az sora bundan hal-əhval tutdu. Soruşdu məktəbdə vəziyyət necədi? Dedi:

– Tədrisin vəziyyəti necədi?

Dedi:

– Uşaxlar yaman zəifdir bilik cəhətdən.

Dedi:

– Fətulla məllim, yəni belə zəifdi ki, sənnən də zəifdi?

Da yaziğ yaman pərt oldu. Biz də üzr istədik ki, əşi, zarafat eliyir filan.

## Niyə, məni tanımadın

Bizim kətdə Fətulla adlı bir məllim vardı. Ancaq savadca çox aşağı, ama baməzə məllim olub. Buların Salyannan ata-baba qonağı olub. Get gəl elədiyi adamlar. Bir gün məktəbdən çıxıb görüb həmən adam kəndə sarı gəlir. Əvəl elə bilib ki, bını tanıyacaq. Sora görüb ki, bu bunu tanımadı. Tanımıyanda bını sorğu suala tutub ki, sən hara gedirsən. Əvəl boyun almıyıb. Deyib yox, səni buraxmaq olmaz, sən şübhəli adama oxşıyırsan. Əslində tanıyır eeee, ata-babasının qonağıdır. Kişi deyir əşi, vallah mənim heç bi şübhəli işim-zadım yoxdu.

Deer:

– Yox, mən səni buraxa bilmərəm.

Xulasə, bınnan çox sora-sora qoparır ki, hara gedirsən. Həsənlidə bi xata Əhməd var idi. Deer, ora gedirəm.

Deer:

– Bax mən sənə deyirəm. Sən xatalı adama oxşayırsan. Mən yaxşı şüpələnirəm sənnən. Dee, bax görürsən, qoy mən zəng eliyim deem, milis gəlsin səni aparsın.

Deer:

– Sən Allah, məni xatıya salma.

Deer:

– A kişi sən elə başdan ayağa xatalı adamsan. Düz adam olsan, xalı Əhmədgilə gedərdin, da Xata Əhmədgilə niyə gedirsən?

Sora birdən kimsə bunu çağırır ki, ay Qulam məllim. Qulam deyəndə kişi ayılır ki, bu kimdi, indi tanıyır. Deer:

– A kişi, sən məni niyə belə qorxutdun, ay Allah saxlamış Qulam.

Deer:

– Ə, mən səni tanıdım, a nursuz, sən məni niyə tanımadın?

Hə, xeyləm gülüşüllər.

## Adam var, adam var

Bozu kişi Hacıtəpədən sonsuz bi kişi olub, çox səmimi bir adam olub. Bir gun həmkəndlilərinin biri bunnan xış istiyir, bu da vermir. Elə olub üstünnən bi həftə 10 gün keçənnən sora orda Əziz adında bir məllim həmin aləti istiyir bunnan. Bu da verir onu Əziz məllimə. O birinci istiyən adam eşidib ki, bu aləti o, Əziz məllimə verib, elə bu məqam gəzirmiş ki,

buna öz gileyini bildirsin. Bozu kişi də xətirri adam olduğunnan birbaş evinə gileyə getmiyiblər. Belə olub 1 həftə, 10 gün sora rastlaşıblar. Elə bu buna bi balaca soyuxlux göstərib. Bozu kişi hiss eliyib ki, mənim öz cəzamdır. Deyib bəs, ay filankəs, bəs sən mənə niyə belə soyuqluq göstərirsən? Deyib, ay Bozu kişi, axı, mən səni düz kişi bilirdim, yaxşı kişi bilirdim. Nətəri olur, axı, mən səndən iki həftə qabağ aləti istədim vermədin. Amma Əziz məllimə vermisən. Bozu kişi deyir, hə, bala, incimə. Ancaq adam var, adam var.

## Hərə öz işinnən məşğul olsun

Günlərin bi günü Bakıdan evə gəlirəm, gəldim karvansaraya. Maşınnar o vaxt xaltura eliyirdilər. Rayonnan şəhərə, şəhərdən də rayona adam aparırdılar. Hə nə isə gəldim bura, hərəsi bi yandan yapışdı, gəl gedək, gəl gedək. Mən də buları tanıyırdım biri məllimdi, biri də ağranom. Mən də bilirəm ki, bu məllim yaxşı maşın sürə bilmir. Hec o ağranom da yaxşı sürə bilmir. Hər ikisi də yaxınnaşıb ki, gəl gedək, ikisinnən də yaxamı qutarmağ istiyirəm. Elə oldu bi sürücüyə rast gəldim, ona "hə" deyəsi oldum. Gördüm, bular inciyir. Hətta etiraza belə qalxdılar. Mən də həqiqətən yumşaq adamam, hec kimin xətrinə dəymərəm.

Dedim:

– Ay qardaş, bax sən yaxşı ağranom olsaydın, indi sahədə olardın. Məllim incimə, sən də yaxşı məllim olsaydın, indi işinin başında olardın.

Nə isə bulardan canımı qutardım. Hə, o sürücüynən də gəldim evə. Sora eşitdim ki, o ağranom gedib maşını aşırdıb – gələndə, qəza eliyib. Üssünnən xeyli kecmişdi, rastlaşdıq.

Dedi:

– Muxtar, sənin ağzın elə məni saldı oda.

Dedim:

– Əslində mən haxlıyam. Hərə öz işiynən məşğul olsa, yaxşıdır.

## Nə doyunca yeyir

Bi gün kəndə pavidla gətiriblər rusdar. Bu Bığır kişi də qənddən, caydan alannan sora deellər ki, burda pavidla da var. Bığır kişi də bu pavidla haqqında eşidmişdi. Deer, alım görüm hələ bu nəmənə şeydi? Nə isə, həmən o pavidladan alır. Elə orda da dadına baxır, xoşuna gəlir. Deer, bay, zalım oğlu Stalin gör indi nə doyunca yeyir bunnan hər gün.

## Gör özləri nə qədər yeyiblər

Bi gün də yığışıllar bu camaat, plov bişiriblərmiş məclis imiş. Bığır kişi də bu məclisə dəvətliymiş. Gəlib oturub, söz, söhbət, oyan-biyan, plov gəlir ortaya. Bığır kişi də kor olduğundan əliynən yoxluyur görür ki, belə lap qalalama vəziyyətində cəkiblər buna plovu. Deer, bay atonnan gör indi bular özdəri nə qədər yeyiblər ki, mən kor adam mənə də be belə cəkiblər.

## Dalaşan qardaşlar

İki qardaş olub. Bular həmişə bir-biri ilə dalaşırmışdar. O deyirmiş mən burda yurd salacam, bu deyirmiş mən burda salacam. Sora elə ki, yay gəlirmiş, yayda buları tapmaq olmurmuş. Biri bu kölgəlikdə, biri də o yanda sərələnib yatıllarmış.

## Hacının kələyi

O kəntdə Hacı Məmməd adında biri olub, onun yaxşı qızılı var imiş, sandıx dolusu. Demək o qaçhaqaçda sandıqçanı da götürür, qaçır köhnə Alvadıya. Orda dostu olur. Qoyur olarda. Mən onun qəbrini görmüşəm. Onun başdaşına baxmışam, tarixinə. O, 1919-cu ildə ölüb. Demək bu hadisə 1918-ci ildə olub, 1919-cu ildə ölüb. 1918-ci ildə ermənilər çəkilib gedəndən sora camaat qayidanda, bu da gəlir, ama onun qızılın mənimsiyillər, vermillər. 6-7 aydan sora o vəfat eliyir. Onun qızılı belə olub də.

Deməli bu qızılı (sələm verməк o zaman da varmış) sələmnən qazanıb. Bi qadın olub, onda da qızıl var imiş, 12 dənə, amma cır-cındır içində gəzərmiş. Gəlir bu Hacı deyir ki, 12 qızılı ver mənə, mən sənə 15 qızıl verəcəm. Arvad 12 qızılı verir. Həqiqətən bi müddətdən sora 15 qızıl alır. Sora 15-i eliyir 20. 20-ni 30. Belə-belə cəmliyib arvadın bütün qızıllarını alır. Alannan sora arvad düşür çöllərə ki, mənım qızılımı ver. Deer, mən sənnən qızıl almamışam. Gediblər pristavın yanına. Olar da nümayəndə göndəriblər, qazını çağırıblar. Deer bunun üstunə başına baxın, əgər qızıl əlaməti olsa, biləcəysüz. Üstü başınnan bilinəcəy. Bu bədbax da cındırın içındədir axı. Baxıllar qızıl nə gəzir. Dilənçi şeydir. Hə, bax Hacı Məmməd belə mənimsəyib o qızılları. Amma özünə də qismət olmayıb.

## Qismətimizdi

Möhkəm oğru olub o Mürsəl. Hansısa kəndə oğurruğa gedir, görür ki, səbət var həyətdə. Birdən qışqırıllar ki, səbət hərəkət edir. Ev yiyəsi çıgırır ki, həyətdə oğru var. Gəlib gö-

rüllər ki, Mürsəldi. Aparıllar yuxarı. Şişi qoyullar manqala ki, bunu dağlasınnar, öldürsünnər. Bu bilir ki, yoldaşı da həyətdədi, əlində də tufəng. Elə bular hazırraşanda o biri dostu atəş açır ordan lampanı vurur. Ara qarışır, məssəb itir. Deer, girəndə də gözum bir qəşəng buxarı papağa sataşmışdı. Hə, ara qarışanda tez həmən papağı da gotürdüm.

Mürsəl çıxır aradan. Mürsəl qaçhaqaç, qaçhaqaç da bağrı çatdıyır. Bular taxta körpüdə görüşüllər dostuynan. Deer, ə, ürəyimiz dayandı qaçmağdan, ə, bi dayan görək gələnnər kimdi, vurax da oları. Dayanıb arxaya baxıllar görüllər bi dənə qoç hürküb bu çaxnaşmada düşüb buların dalınca. Deer, Mürsəl, tut toğlunu, gətir kəsək yeyərik qismətimizdi.

## Köməkliknən bunu udun

İnqilabdan əvvəl olub, Dəli Həbi. Cox marağlı adam olub. Dəli Həbi elin görən gözü olub. O xeyir-şərdə həmişə gülüş yaradırmış. Onu bi dəfə döyüllər. O da deyir, a köpəyoğlannarı, toyuvuzda ağlamıyım, yasuvuzda ağlamıyım, neyniyim bəs mən? O vaxt İrandan bu taya keçən oyunbazlar kəndirbazlar gəzir, pul toplayırlarmış. Bu dəstənin tərkibində oyunbaz, təlxək, məzhəkəçi, musiqiçi, gözbağlıca göstərənlər daxil imişlər. Həsənlilər eşidirlər ki, bu dəstə Hacıhüseynli tayfasında toya dəvət alıb. Kəndin seçmə cavanları və başda Dəli Həbi olmaqnan toya gedirlər. Toy da hörmətli adamın oğlunun toyu olduğundan qonaq-qara bir əldən gəlib yeyib, içib bir əldən toyxanada sayxınlaşırlar.

Bu toya Lənkaranın pristavı Ağzıəyri Cavad bəy öz əyan-əşrəfi ilə dəvət olunmuşdu. Toyun sədr-əzəmi gələnnəri

salamlayıb, xoşgəldin, deyir. Toy get-gedə qızışır. Bu əsnada İranlının baş oyunbazı deer:

– Ə, burda bi kişi var? Gəlsin mənnən oynasın. Kim mənimlə mənnən yaxşı oynasa, kim özü demişkən onu zarafatda, oyunda pozsa, bu yığdıqları pul onun olacaq.

Bu sözləri neçə dəfə bərkdən elan eləsə də bu işə tərəf müqabili olunmur. Toyxanaya pıçıtlı düşür. Hamı İranlının bu sözündən cana gəlir. Bu lotu da dil qəfəsə qoymur ki, kim mənim döşümə çıxar. Hamının ümüdü Dəli Həbiyə qalmışdı. Qəfildən Həbi quş kimi ortaya atılır. Qışqırıq, çəpik asimana bülənd olur.

Nəsə girər meydana. Zurnaçılara iti hava sifarış verilir, özü də "Qazağ"ı. Birinçi mərhələdə Həbi ilə İranlının rəqsi yarım saat davam edir. İranlı yekə olduğundan qan-tər onu aparır. Həbi də deyilənlərə görə elə bil ilanın boğazından çəkib çıxartmışdılar. Deer, bular hansı havanı caldırallar bu oynayar, oynayar. Həbi bu oyunda heç azca da olsa tərçikmir. Şərtin biri Həbinin xeyrinə olur. Səs aləmi götürür, pişto atan, bir-birinə qarışır. Qısa fasilədən sonra yenə isti hava sifariş verilir. Bu dəfə şərti Həbi qoyur, o deyir ki, "Yallı"nı bir saat oynayacağıq. Şərt qəbul olunur. "Yallı"nın nöfləri ifa edilir. Əldən düşən İranlı yerə oturur. Bundan onun dəstələri çox qəmgin olur ki, pul əldən çıxır. Həbi də çox fəndgir olduğundan fikirləşir bunlar sözlərini dana bilərlər. İşi dərinləşdirir. Danışığa görə pul quyulur ortaya. İranlı deyir ki, bir şərt qalıb məni pozsan, mənə qələbə çalsan, bu sənin – pulu göstərir. Hamı kimi Cavad bəy də bu işin sonunu gözləyirmiş.

Yenə iti hava çalınır, rəqs başlayır, özü də bir-birinə söz ata-ata. Həbi üç-dörd dövrə vurub əynindəki arxalığı çıxardıb atır. İranlı da şalvarını çıxardıb atır. Bunu görən qız-gəlin kənara çəkilir. Ağzıəyri Cavad bəy də məclisin başında, mauzer

qabağında, pul kisəsi qabağında qəlyan çəkir. Pulun ona çatacağını hiss edən Həbi get-gedə gülməli sözlər atıb məclisə şənləndirimiş. Bunu ən çox alqışlayanlardan biri pristav özü olur. Bundan ani istifadə edən Həbi oynaya-oynaya gəlib pristavın qabağında əyilib bir dənə bərkdən əldən qoyur. Məclis çaşbaş düşür. Hamı yəqin eləyir ki, bu biədəb hərəkətinə görə pristav Həbini güllə ilə vuracaq. Cavad bəy mauzer əvəzinə əl atır pul kisəsinə, bir onluq qızıl atır Həbinin üstünə və bağırır.

– Əda zalım oğlu, birinin də vur, bəlkə ağzım düzələ.

Hamı şaqqanaq çəkib gülür. Məclis davam edir. Həbi bir xırda kağız parçası istəyir, verilir. Həbi kağızı yerə qoyur dizliyi çəkir aşağı gücənib bir fındıq boyda salır kağızın üstünə. Bu dəfə ki, İranlı kağız istəyir. Bu qonaq olduğundan ona iri kağız verirlər. Bu da sərir yerə dizliyini çəkir aşağı bir xeyli salır kağızın üstünə. Həbi sürətlə fırlanıb öz kağızını qığ qarışıq götürür, atır ağzına və udur. Üzünü tutur İranlı lotusuna:

–Ədə köpək oğlu, çağır ata-qardaşıyı, köməkliknən munu udun, tək sənin işin dəyil bu.

Camaat Həbini göyə atıb tutur. Pristav Cavad bəy onun üzündən öpür, dost olurlar. Deer, Ağzıəyri pristav Cavad 2 dənə qırmızı onnuğ basar munun cibinə. Həbi çıxar gedər.

İranlılar o gedən olurlar, bir də bu taya qayıtmırlar.

## Başı da sənin

Bi gün Həbi günortadan sora oturubmuş evin böyründə. Görür bi atlı gəlir. Atın böyründə bi dənə qırmızı ziyad balığı asdanıb. Quru ziyad. Deer, qardaş, dayan, dayanır. Deer, mənim arvadımın ağzının dadı dəyişib, o balığdan birini ver də mənə. Sən Allah kasıb adamam. Kişi deer, get evdən biçax

gətir gəl bi az kəsim verim. Gedir evdən biçax gətirir. Atlı tutur quyruxdan yuxarı, deer, qardaş kəs. Həbi görür bu azdı axı, bıçağı çəkir bunun barmağına. Bu görür əlin kəsir çəkir, əlin kəsir çəkir, belə-belə gəlir çatır balığın başına. Başınnan kəsir balığı aparır. Atlı baxır-baxır, deer, ala, qardaş, başı da sənin mən balığsız gedərəm.

## İmam neçədir

O vaxtlar o taydan bu taya keçən saillər qapı-qapı gəzib dilənçilik edərlərmiş. Kimin bunlara yazığı gəlirmış, evində saxlayarmış, dənnən-düşdən verib yola salırlarmış. Bu saillər imam, ağa adı altında belə dolanarmış elə indiki kimi. Kim imkanlı idi, onları bir-iki gecə qonaq saxlayardı.

Bir dəfə də belə oldu. Üç dilənçini ürcah oldu Mürsəl babamgilə.

Babam deer, axşamcağı idi, həyətdə biyaz qar varmış. Birdən görür ki, həyətə 3 dənə seyid girdi: "Ya cəddimin nökərrəri, məə yiyə durun. Babam deer gəlin icəri, çıxın yuxarı. Azdan-çoxdan yeyənnən sora, şam namazının vaxtı gəlir. Babam bulardan soruşur ki, ibadətnən necəsiniz, üçü də verir ağız-ağıza, ağa, bu söz bizə artuqdu. Biz həddi-buluğ olandan ibadətkeşlərük. Babam çox bilən adam idi, abtava-ləyən gəzdirir, dəstamaz almağa. Babam deer, durun namaza. Deellər, baba baş üstə. Deer, baxdım ki, mən nətəri dəstəmaz alıram bular da o cür eliyillər. Başa düşdüm ki, bular namaz qılan deyillər.

Gəlillər icəri namaz qılanda babam baxır ki, mən nətəri əyilirəm, bular da helə,nətəri qalxiram bular da helə eliyillər. Hər bir şeyi eyni. Namazı qutarannan sora babam təsvilatın salamın verir, sora başın qoyur yerə bir dəfə dombalaq aşır.

Seyidlər də baxıllar bir-birinə başdeellər dombalaq aşmağa. Babam başa düşür ki, bular seyid deyillər.

Deer, arvad bir kisə mənə saman gətir. Samanı basır ocağa. O da yaxşı tüstü verir axı. Əvvəlcə buları yaxşıca boğur tüstüynən. Sora beşdilli tilov olardı o vaxtı, qırmanc qol boyda.

Bu dəfə babam lap yanında oturandan soruşur:

– Sizlərdə imam neçə olur?

Biri belə deyir:

– Bizlərdə həştad da digeylər, həşdad beş digeylər.

Babam işarə edir şallaq gətirirlər. Bunlar şallaq görüb təəccüblənirlər, babam buna həşdat şallaq çəkir. Bunun bağırtısına qonum-qonşu tökülür gəlir.

Növbə çatır ikincisinə. Demə bunun adı Mirməmməd imiş.

Babam eyni ilə sualı buna deyir:

– İmam neçədir?

Mirməmmməd dinməmiş birinci döyülən deyir:

– Azalt, Mirməmməd azalt, çox deyəndə çox şallaq vurar.

Mirməmməəd əsə-əsə deyir:

– Ağa, bizdə altımış ikidə deyərlər, altımış üç də deyərlər.

Bunun söz ağzında qalır şallaq işləyir buna, bunun mələrtisinə o biri qonşular da tökülüb gəlirlər.

Növbə çatır üçüncüsünə. Babam buna deyir, yaxın otur, sənnən işim yoxdur. Üçüncü dilənçi özünü itirir.

Birdən birinci döyülənnən ikinci bağırır.

– Adə, zalım oğlu, denən imam yoxdur. Görməysən şallaqnan bizi dildən saldu çox digeysən çox vurey, az digeysən az vurey.

Bu, yarı sevincək deyir ki:

– Ağam, imam nəmənə şeydü, digəm imam yoxdu.

Babam şallaq ilə bunun başına, gözünə o qədər vurur ki, kəndin yarısı tökülür bura. Hamı deyir ki, Mürsəl, sən Allah, bəsdi, burax getsinlər, gedib imamı öyrənərlər. Bunlar da deyir ki, tay sailçlik eləmərik, gedib əkinçiliklə, heyvanlıqla məşgul olarıq. Babam bunları gecə saxlayır. Sabah üçünü də qoşur arabaya, arabanın içində 2 tay taxıl, birbaş Üç daş dəyirmanına, taxılı dəyirmanında çəkib bunlar da qoşquda, yenə qayıdırlar kəndə. Həyətə çatanda açar buraxar hər üçünü də. Da o bu olar bi də bu zonaya gəlmiyiblər.

## Sənə deyənnən olmuram

Bizdə Məmmədhəsən oğlu Həsən kişi vardı. Mənim yadımdadı bi nəfər ona dedi ki, yaxşı bi dənə eşşəyim var, verim sənə yüküvü daşı. O qədər dedi, dedi. Qayıtdı Həsən kişi dedi ki, ə filankəs! Dedi, nədi? Dedi, sən deyənnən oluram, sənə deyənnən olmuram.

## Dədənin yanına

Bi dəfə Həsən kişi qəbir üstə gedir, 4-cü günnər. Bizdə də Rəcəb vardı, el arasında ona Çapax deyirdilər. O da gəlirmiş qəbir üstə. Deer, Həsən paşa, ay Həsən paşa, hara gedirsən? Deer:

– Dədəyin yanına.

Deer:

– Ə yava-yava danışma!

Deyir:

– Ə yava-yava özün danışırsan, bi şey varındısa, ver aparım. Dədən qabağıma gələndə deyim bunu üzüqara övladın göndərib, sənə gətirmişəm.

## Kisəqalxızan

Bi Həsənov vardı bizdə, katib idi. Bu Həsən kişi də fermada gecə növbəsində olurmuş. Həsənov gələr girər fermaya deyər:

– Ağsaqqal, sən burda nə işdiyirsən ?

Deer:

– Kisəqalxızan.

Katib deer:

– Kisəqalxızan nədi?

Həsən kişi deer:

– Direktornan ferma müdürləri satıllar, alıcılar gəlir, mən də kisələri qalxızıram bellərinə, aparıllar.

## 32 hərfdən kənara çıxmıram ki?

Bi Həsənqulu kişi olub, çox hazırcavab olub. Səlyannı idi. Bi dəfə bu gedər şikayətə. Girər içəri. Çox hirsdənər, danışar, o yan, bu yan. Yaman da şöyüşcül adam olub. Elə bu hey danışanda söyər-söyər. Arada Həsənov deyər ki, Həsənqulu kişi, ağzıvın danışığını bil. Bu eşidməz. Yenə danışar, söyər. Yenə Həsənov deyər ki, a kişi, mən katibəm, ağzıvın danışığını bil. Deyər:

– Ay yoldaş katib, mən nağayırram ki, nə qədər söysəm də 32 hərfdən kənara çıxmıram ki.

## Kamal, gəl qapışaq

Bi gün bu Sıgıncağ tərəfdə axşamcağı yaz vaxtı Qudrət kişi dayısıgildən gəlirmiş. Deer, gəldim girdim kəndə. Kəndin arxasında gördüm Kamal heyvan otarır. Çatan kimi dedim:

– Kamal, gəl qapışağ.

70-80 yaşı var axı bu kişinin də. Mən zarafat eliyirəm, bu qalxızdı çirpdı məni yerə. Da hec nə demədim, düzəldim yola gəldim. Buranın bütun cavannarı bilir ki, mənim belə zarafatım var. “Qapşağ” deyəndə bilillər nə deyirəm də.

## Yaxşı itim var

Ağazahidnən də Qüdrət kişi həmişə zarafat eliyərdilər. İkisi də baməzə adamlar olub. Ağazahid deyər mənim atım var, arabam var, bu deyər mənim də var. O deyər mənim inəyim var. Bu da deyər mənim də var. Helə-helə o deer, bu deer. Birdən Qüdrət qayıdır deer, Ağazahid mənim yaxşı itim var 8-9 dənə doğur, a əclaf, sənın nəyin var?

## Adam oğlu adam

Bi dəfə Rəcəb kişi bağın icində durubmuş. Bi dənə də Həzi varmış, oğlu Rusiyada yaşayırmış. Bu Həzinin oğlu gəlir Rəcəbnən 2 əlli görüşür, əmi ya Allah, ya Allah. Rəcəb kişi də bınnan görüşür. Uşax bına ədəbnən salam verib axı. Qayidib Rəcəb kişi ki, ay oğul, sən adam oğlusan, sənin atan adam oğlu dəyil. Sən adamnan adam kimi görüşürsən, dədənsə yox.

Həzi də baxir deer :

– Ə, safağ oğlu safağ, ə, mən adam oğlu dəyiləm?

Deer, bax gordün sən hec danışığıvı bilmirsən hansı adamlığdan söhbət eliyirsən?

## Siz Mədinə əhlisiniz

Bi 100 il bundan qabağ bizdə bir nəcəf alimi olub. Bizim kənddə məsciddə namaz qılırmış. Çıxır məsciddən çölə,

ətrafda da xəndək varmış. Ordan çölə. Atın yüyənini tutullar, alim minər ata. Üzün tutar camaata. Deyər:

– Həsənli, əhli bir-birinizin qədrini bilin, siz Mədinə əhlisiniz.

### Səxavət ibadətdən üstündür

Hişkədərəli Molla Əli Axund adamları səxavətli olmağa çağıraraq moizə edirmiş ki, hər kim öz artıq qalan malından mömin qardaşına versə, əhlibehişt olar.

Moizədən sonra camaat namaza durur. Sözünü bitirən Axund da ayaqlarındakı iki cüt corablarını soyunub dəstəmaz alır, namaza durur. Axundun dostu Molla Qulamhüseyn xəlvətə salıb corabların bir cütünü götürüb öz ayağına keçirir. Əli Axund bir də onda ayılır ki, corablardan bir cütü yoxdur, ora-bura boylanır, baxıb görür ki, corablar Molla Qulamhüseynin ayağındadır. Qulamhüseyn Axundu qabaqlayıb yarızarafat-yarıciddi deyir ki, Qurani-Kərimdə yazılıbmı ki, bir möminin iki cüt corabı olsun, birinin heç olmasın? Narahat olma, Axund, özün dedin ki, şəriətdə səxavət ibadətdən üstündür, etdiyin moizəyə əvvəl özün əməl et, biz də səndən ibrət götürək. Corabları mənə halal elə. Əli Axundun Qulamhüseynə sənə halaldır, – sözlərini deməkdən başqa çarəsi qalmır.

### Qırxına bəs elər

Kənddə bir kişi vəfat edir. Yeddi oğlu olan bu kişini qəbrə qoymağa həsir tapılmır (Adətdir, dəfn olunan üçün qəbirdə mütləq həsir olmalıdır). Övladları həsir əvəzinə qəbrə saman tökürlər. Bir qədər saman tökəndən sonra fərsiz övladların şərəfsizliyindən hiddətlənən Molla Qulamhüseyn deyir:

– Bəsdir, atanız yeddi gündə bu samanı yeyib qurtarar, artıq qalan samanı qəbrin üstünə tökərsiz, qırxınacan bəs edər.

## Ay köpəkoğlu, Mahmudavarlı mənəm, sən haralısan?

Bir gün Molla Qulamhüseyn Lənkəran şəhərində bir dostunun evində qonaq imiş. Qapıya bir dilənçi gəlir. Ona pay veriləndə soruşurlar ki, hardansan? Dilənçi cavab verir ki, mahmudavarlıyam. Mahmudavarda hamını – böyükdən kiçiyə tanıyan Molla Qulamhüseyn yaxına gəlib yalançı dilənçidən ünvanını təkrar-təkrar soruşur və hər dəfə eyni cavabı alır. Səbri tükənən Qulamhüseyn çomağı alıb:

– Ay köpəkoğlu, mahmudavarlı mənəm, sən haralısan, düzünü de, yoxsa... – deyərək başlayır dilənçini qovmağa. Dilənçi dükanı toz görüb yalvarır ki, onda işi olmasın, o, leriklidir.

## Paromda mərci əkmişdin?

Bir molla məclislərin birində heç vaxt oğurluq etmədiyini, dilinə haram tikə dəymədiyini ağız dolusu söyləyəndə Molla Qulamhüseyn özünü saxlaya bilmir, o mollanın sözünü kəsib soruşur:

– Molla, Bakı-Krasnovodsk paromunda nə vaxt öz əlinlə mərci əkmişdin ki, bir pud götürdün?

Demə, 30-40-cı illərin aclıq və qıtlıq dövründə, cavan vaxtlarında həmin molla ilə Qulamhüseyn türkmənlərdən mərci oğurlayıblarmış.

## Pişik gəldi

Arvad ərinə şikayət edir ki, bir oğru pişik onu zinhara gətirib. Kişi deyir ki, sabah evdəyəm, pişik evə gəlsə, onu mənə göstər, öldürüm, canın qurtarsın.

Günorta yeməyi vaxtı pişik oğrun gəlib qapı ağzında pusquda durur. Arvad: – Bu yer talış mahalıdır, pişik də talış dilindən özgə bir dil bilməz, zənni ilə talışca deyil, türkcə ərinə deyir ki, pişik gəldi ha.

Şübhə yox ki, pişik səs eşidib aradan çıxır. Amma "pişik gəldi" məsəli qalır. Kənddə bir gizli xəbəri digərinə çatdırmaq üçün bir rəmz-zarafat kimi "pişik gəldi" deyirlər. Bu zərb məsəl də belə yarandı.

## Gələr ahu bu kəməndə...

Mahmudavarda özündən razı, təkəbbürlü adamlar barəsində Səmədxan Talışinskiyə sual verəndə bir avaz üstündə deyərmiş:

– Gələr ahu bu kəməndə,
Hələ bəd havadır, qoy getsin.

## Mirzəmmədin qocalığı

Sovetleşmədən qabaq İrandan bir dəstə quldur-basqınçı Mahmudavara gəlib gecə ikən Qazı Məmmədəlinin evinə basqın edib vəzndən yüngül, qiymətdən baha əşyaları götürüb aradan çıxırlar. Bunu eşidən Həmidi Mirzəmməd dostlarını cəm edib izə düşür, quldurlara yetir, silahlı toqquşmada onlardan birini öldürür, qalanları oğurladıqları əşyaları qoyub

qaçırlar. Mirzəmməd quldurların oğurladıqlarını, qiymətli əşyaları olduğu kimi gətirib Qazı Məmmədəliyə qaytarır.

## Qorxaq kişi

Cütcü Yusif kişi arvadından bərk qorxarmış, arvadla kəlmə kəsə, bir söz deyə bilməzmiş. Günlərin birində bəlkə də ömründə birinci dəfə cürət edib, ağız açıb arvada deyir ki, acmışam, mənə yemək ver. Arvad özünü eşitməzliyə qoyub qışqırır Yusifin başına:

– Tez ol, nə dedin, təkrar elə, nə deyirsən?

Yusif qorxusundan tez sözünü dəyişib deyir:

– Baltanı ver, meşəyə gedirəm.

Arvad baltanın yerini Yusifə göstərib deyir:

– Get özün götür.

Baltanı götürüb kənddən uzaqlaşan Yusif arvadının səsini eşitmədiyinə yəqin olandan sonra bir təpənin başına çıxır, üzünü kəndə tutub guya arvadına deyir:

– Yemək istəyirdim ey, balta ilə meşəyə odun yarmağa yox.

## Erkək kartof

Xanıbəy yemək istəyir, arvadı deyir ki, yeməyə heç nəyimiz yoxdur, əkməyə saxladığımız kartofa da dəymək olmaz. Xanıbəy kartof adını eşidib dərhal bir şey fikirləşir, arvaddan soruşur:

– Kartofların erkəklərini dişilərindən ayırıb ya yox?

Arvadı təəccüblənib deyir:

– Kartofun da erkəyi-dişisi olar?

Xanıbəy arvadını inandırmağa çalışaraq deyir:

– İri kartoflar erkək – artmayan, xırda kartoflar dişi artıb çoxalan olur.

Beləliklə, iri kartofları ayırıb seçir, arvada verir, bişirib yeyirlər.

## Qatıq dağılar – yeri qalar,
## Ayran dağılsa, nəyi qalar?

Ötən əsrdə Mahmudavar xanlarının nəslindən olan Səkinə xanımın əri həbs olunmuşdu. Onun iki oğlu atasız böyüyürdü. Səkinə xanım qardaşı Yaranaldan (General İbrahimbəy Talışinski) xahiş edir ki, özünün general rütbəsindən istifadə edərək ərini buraxdırsın. Çünkü çar hökuməti generallara ildə bir dəfə bir nəfəri həbsdən azad etmək hüququnu vermişdi. General bacısının xahişini qəbul edir, əvəzində Səkinə xanıma məxsus olan Şonəkon meşələrini ondan istəyir. Yaranalın iki qızı varmış, oğlan varisi yox imiş. Səkinə xanım özünün iki oğlu olmasını, qardaşının isə oğlan varisi olmamasına işarə edərək, onun artıq-tamahını görüb deyir:

– Qatıq dağılar, yeri qalar,
Ayran dağılsa, nəyi qalar?

## Övladın arzusu

Tövlə təmizləməkdən, mal-davar otarmaqdan, heyvanlara qulluq etməkdən bezikən bir övlad Allaha yalvarır ki, bu heyvanları öldürsün, bəlkə canı bu əzab-əziyyətdən, xoşlamadığı bu işdən qurtara. Bir azdan fikirləşir ki, heyvanlar ölsə, atası təzələrini alar, yaxşısı budur ki, Allah atasını öldürsün. Üz qoyur bu arzu ilə Allaha yalvarmağa.

## Həsənqulu pəhləvanı yıxdı, sonra...

Mir Abdulla bəyin toyuna gələn Lənkəran şəhərindən xanın pəhləvanı sayılan bir güləşçi öz gücünü, əzələlərini nümayiş etdirərək, yerli cavanları güləşə dəvət edir. Onunla heç bir kəs güləşməyə cürət etmədiyi bir anda kəndin güclü-qamətli cavanlarından biri Həsənqulu onunla güləşir və pəhləvanı bir göz qırpımında yıxır yerə. Xan da, pəhləvan da pərt olurlar. Həsənquluya ikinci dəfə güləşmək təklif edirlər. O isə güləşmək istəmir. Hədə-qorxu gəlib deyirlər ki, əgər sən güləşməsən, xanın pəhləvanını yıxdığına görə səni tutub Lənkəran qazamatına salacaqlar. Həsənqulu güləşmək əvəzinə, qaçıb meşəyə, orada üç gün gizlənir ki, birdən onu tutub həbsxanaya salarlar.

## Bunların arvadları ilə kim yatır?

Mahmudavar mollaları bir dəfə Lerikə hüzrə gedir, orada gecələməli olurlar. Yer-yatağın azlığındanmı, qonaqların çoxluğundanmı, cüt-cüt yatmaq təklif olunur. Amma bu mollaların əksəri cüt yatmağa razı olmur, deyirlər ki, biz cüt yatmağa öyrənməmişik. Bu yerdə Molla Qulamhüseyn deyir:

– Bilmirəm, bu dəyyusların arvadları ilə kim yatır də.

## Bizim ağzımızda qatıq çalmayıblar ki?

Lənkərandakı bir hüzrdən yük maşınında qayıdan mollalardan bir qismi Mahmudavarda düşür. Molla Əli Axund görür ki, Molla Qulamhüseyn Axund hüzr sahibi tərəfindən qoyulmuş zənbili də götürüb yerə düşdü, əlacsızlıqdan belə deyir:

– Qulamhüseyn, o zənbil sənin üçün yox, Molla Nəcəfqulu üçün qoyulub ki, mərhum üçün Yasin oxusun.

Qulamhüseyn gedə-gedə deyir:

– Axund, bizim ağzımızda qatıq çalmayıblar ki? Yasini mən özüm oxuyaram.

Sən demə, zənbildəki hüzrünə getdikləri mərhumun miras paltarları imiş. Qulamhüseyn bir gün onları geyib məclisə gedir. Papaqdan tutmuş ayaqqabıya qədər təzələnən Molla Qulamhüseyni görən Molla Əli Axund mübarəkbadlıq edir.

Qulamhüseyn deyir ki, bu həmin zənbilin sehridir, hələ bir çox şeylər evdə qalıb.

## Bısk budut

Ağamirzə Ağarzanın əsas məşğuliyyəti ovçuluq, balıqçılıq idi. Mahmudavarda bol olan su tutar-istillərdən çoxlu çəki tutar, təndirdə bişirtdirib yaxın qəsəbə və şəhərlərə də satmağa apardı. Bir gün Port İliçdə şişə çəkilib, təndirdə bişirilmiş ləvəngi balıq satdığı zaman bir rus qadını ona yaxınlaşır, bu balıqlardan almaq istəyir. Ağarzadan xəbər alır ki, balıqlarda bu deşik nədir? Rus dilini bilmədiyi üçün Ağarza bu deşiyin nə olduğunu qadına başa sala bilmir, təkcə bunu deyir:

– Bısk budut. (Bısk talışca şiş, budut rusca olmuşdur, deməkdir). Bazarda bu mənzərini müşahidə edən bir mahmudavarlı əhvalatı kənd çayxanasında danışır, o gündən rəhmətliyin ləğəbi Bısk budut qalır.

## Bacıoğludur, aparmaz

Bir mahmudavarlı Lənkəran dəmiryol vağzalından Bakıya gedirmiş. Vağzalda gəzib-dolaşır, ağız dolusu nəql edirmiş

ki, lənkəranlılar mənim bacım oğlanlarımdır, çünki bir bacım burda ərdədir. Kişinin başında qatı açılmamış, qəttəzə bir papağı varmış ki, hamının nəzərini cəlb edirmiş. Qəfildən biri kişinin başından papağı alıb öz başına qoyur, əvvəl hamı bunu bir zarafat bilir, mahmudavarlı da özünü o yerə qoymur:

– Bacıoğludur, zarafat edir, – deyir.

Oğru yavaş-yavaş uzaqlaşır, adamlar mahmudavarlını xəbərdar edirlər ki, kişi, deyəsən, papağın getdi, axı? Mahmudavarlı hər dəfə deyir ki, bacıoğludur, aparmaz. Bir də görürlər, oğru götürülüb aradan çıxdı. Amma mahmudavarlı hələ də adamlar içindən bacıoğluna sarı boylanır, qayıdıb gələcəyinə ümid edir, eləcə deyir:

– Bacıoğludur, aparmaz.

Beləcə kişi papağını gözgörəsi oğruya verib başıaçıq kəndə qayıdır.

## Vermərəm, nə qədər vurursunuz, vurun.

Bir dəstə mahmudavarlı Murdova ova gedir. Qadağan zonada ov etdikləri yerdə qoruqçu, qaravulçular bunları yaxalayırlar, kimin əlində, əynində nəyi varmış alırlar. Növbə Məşhədi Surətin kürkünü birovuz alıb geyinən mahmudavarlıya çatır, qoruqçular nə qədər əlləşirlər ki, kürkü bundan alsınlar, gücləri çatmır. Ağac götürüb çırpmağa başlayırlar. Ağac zərbələrindən inildəyən-zarıyan mahmudavarlı elə hey təkrar edir:

– Nə qədər vurursuz, vurun, vermərəm, Məşhədi Surətin kürküdür.

Bu əhvalatın başqa bir variantı da var, hadisə eynidir, amma kürkü İnci xalanın adına çıxırlar.

## Sosialist realizmi

Ədəbiyyatdan dərs deyən bir tələbkar müəllim sovet ədəbiyyatının əsas yaradıcılıq metodu olan sosialist realizminin tələbləri və xüsusiyyətlərini daha yaxşı mənimsətmək üçün dəftərə yazdırır, əzbər öyrənməyi şagirdlərə tapşırır. Evdə bütün gecəni sosialist realizmi deyib onun xüsusiyyətlərini əzbərləyən bir şagirdin atası bunu uşaqdan tez əzbərləyir. Çəltikçi-kolxozcu olan ata o gündən kim gəldi, hara gəldi – hər yerdə: iclasda, məclisdə, çayxanada, çəltik zəmisində, yeri gəldi-gəlmədi sosialist realizminin tələblərindən danışır. Adamlar da o vaxtdan ona sosialist "realizmi ləqəbini" qoyurlar.

## Tırkə səlat

Mahmudavarlıların məişətində tez-tez işlətdikləri tırkə səlat anlayışı – məsəli nə deməkdir? İşlətdiyimiz tırkə səlat sözü ərəbcə tərki-səlat sözündən alınmışdır, mənası namazı tərk etmək deməkdir.

Belə bir hədis var. Bir kişi Əba-Əbdüllahdan soruşdu:

– İçki içmək çox pisdir, ya tərki səlat olmaq?

Buyurdu:

– İçki içmək, tərki-səlatlıqdan daha pisdir.

Soruşdu:

– Bilirsən, niyə?

Özü cavab verdi:

– İçki onu bir hala salar ki, Allah izzü cəllini və onu yaradanı tanımaz.

Çoxları üçün anlaşılmaz bir ifadə olan tırkə səlat sözünün mənası belədir.

## Kürk götürərsən

Qulamhüseyn kişi Seyid Miri ilə məclislərdə tez-tez zarafatlaşardılar. Məclislərin birində Molla İbrahim moizə edirmiş ki, günah işlətmiş seyid peyğəmbər övladları nə cəhənnəmə gedər, nə də behiştə. Onları behiştlə cəhənnəm arasında çox soyuq, şaxtalı yerdə saxlayacaqlar... Qulamhüseyn kişi bu dəmdə Seyid Miriyə xitabən deyir:

– Miri, gedəndə özünlə yaxşı bir kürk götürərsən.

## Huşi Xamməd

Ötən əsrdə kəndimizdə Xanməmməd adı ilə huşsuz, yaddaşsız bir şəxs yaşamışdır. O vaxtdan səriştəsiz, tənbəl, küt, huşsuz adamları "huşi Xamməd" deyib çağırırlar.

## Nüsrətin göy rəngli inəyi

Nüsi (Nüsrət) adında bir kişinin göy rəngli, tez gözə çarpan, fərqlənən bir inəyi varmış. Özünü gözə soxan, hər yerdə görünən adama kənddə deyirlər:

– Nüsrətin göy rəngli inəyi.

## Yallah Baloğlan

Deyirlər Qafur kişi Baloğlangilə elçiliyə gəlir. Mətləbə keçib-keçməmiş sözünü bir cümlə ilə bitirir:

– Yallah Baloğlan, sənin qızın, mənim oğlumun olsun qurtardı-getdi. Bu cür danışıqdan əsəbiləşən Baloğlanın bərk acığı tutur, elçilik baş tutmur.

## Şahın ənamını xırdalayıram...

Deyilənlərə görə, seybətinli xanəndə Mir İslam həm də hazırcavab və zarafatcıl bir adam kimi ad çıxarıbmış. Nəql edirlər ki, bir dəfə İran şahı Şərqin ünlü xanəndələrini sarayına dəvət edir. Böyük Muğam dəsgahı qurdurur. Məclisə xitam veriləndə şah bütün xanəndələrə ənam verir.

Mir İslama çatanda:

– Məhrəba! BərəkAllah! – deməklə təşəkkürünü bildirir.

Ertəsi gün bazara alış-verişə çıxan Mir İslam tacirlərdən hər nə alır, pul vermir, sadəcə "Məhraba!", "BərəkAllah" deyib yola düzəlir... Nəhayət, bir nəfər tacir əsəbləşib soruşur ki, bu nə sözdür deyirsən?

Mir İslam halını pozmadan deyir:

– Dünən şahınızın mənə verdiyi ənamı xirdalayıram...

Nə isə, bu söhbət şahin qulağına çatır. Xanəndəni tutub gətirirlər saraya. Şah xəbər alır:

– Bazarda çıxartdığın nə oyundur belə?

Mir İslam deyir:

– Şah sağ olsun, dünən bütün xanəndələrə qiymətli xələtlər, ənamlar verdiniz! Mənə isə "Məhraba!", "Bərəkallah" dediniz...

Şahı gülmək tutur. Barmağından fosfor qaşlı üzüyünü çıxarıb Mir İslama hədiyyə edir. Deyilənlərə görə həmin üzük zülmət gecədə ətrafa gur işıq salırmış...

## Mehtər əhvalatı

Ötənlərdə Mir Cavad bəyin bir mehtəri olur. El arasında "eyibsiz gözəl olmaz" deyirlər. Taleyi bu mehtərdən eybləri əsirgəməmişdi: dili pəltək, ayağı axsaq, bir qolu şikəst, üzü

çopur, başı da keçəlmiş. Bəy həmişə mehtərə zarafatla deyərmiş ki, ağa sənə bir qız alacaq, dünya gözəli! Məxləs, bir dəfə Lənkəranda qonaq olan Cavad bəy həqiqətən də tanınmış adamlardan birinin qızına elçi düşür. Deyir ki, sənin qızını elə bir oğlana alıram ki, dünyada tayı-bərabəri yoxdur... Allahtəala ondan bir dənə yaradıb! Nə isə...

Aldım-verdim olur. Bir gün qız adamı Masallıya – Mir Cavad bəyə qonaq gəlir. Bağçada çay süfrəsində əyləşən qonaqlara mehtər xidmət edirmiş.

Bu zaman qonaqlar soruşurlar ki, bəs ay Cavad bəy, bizi təzə yeznə ilə tanış etməyəcəksən? Mir Cavad bəy qımışır:

– Bəylər, gözünüzün qarşısındakı bu adam yeznədir də!

Qonaqlar peşman olurlar. Əvvəl elə bilirlər ki, Cavad bəy zarafat edir. Dübarə soruşurlar ki:

– Bə sən deyirdin, dünyada ondan bir dənədir, tayı bərabəri yoxdur?

Mir Cavad bəy deyir:

– Əvvəla, bu tifil də Allah bəndəsidir, ikincisi, bunun oxşarı olan bir adam tapsanız mən təslim, odur ki, mən sözümün ağasıyam, bəy, bu adamdan dünyada bir dənədir!

## “Cahanda kəllə sağ olsun...”

Masallının Ağaşbəyli kənd sakini əzcaçı Əliməmməd kişi klassik poeziyanın vurğunu imiş. Bir dəfə kolxoz bazarında Racinin:

> Külahun satgilən, xərc et, tüfeyli olma namərdə,
> Cahanda kəllə sağ olsun, külah əskik deyil mərdə -

beytini ucadan deyə-deyə gedirmiş. Birdən bəstəboy bir kişi onu saxlayıb, bədahətən belə deyir:

Bir qələt sözdür, külahun sat, külah lazımdı hər mərdə,
Dəxi, mərdanə güşəş qıl, girifdar olma, namərdə.

Məlum olur ki, bu misaraları deyən şəxs lerikli Molla Qələm axund imiş.

Əliməmməd kişinin atası Şeyx Həsən axund İraqın Nəcəf şəhərində ali ruhani təhsili alan və şəriət hüququnu kamil bilən alimlərdən idi. Odur ki, Əliməmmədin evə dəvət etdiyi Molla Qələm axundla doyunca həmsöbət olur, ehtiramla onu evində qonaq eləyir.

## İtələmə, gedirəm də...

Deyir, işsiz-gücsüz bir kişi hər gün məsciddə ibadət edəndə, əllərini göyə açıb:

– Ay Allah, mənə çörək yetir! – deyə dua edərmiş.

Bir gün evdən çıxanda arvadı təngə gəlib ona deyir:

– Ay kişi, niyə girinc-giriftar qalıbsan? Get, haranın daşını başuva salırsan sal, ancaq evə çörək gətir!

Kişi yenə kor-peşman gəlir məscidə. Dizini yerə atıb, üzünü göyə tutub:

– Ay Allah, əl məndən, ətək səndən, – deyir. Bura sənin evindir, vAllahi-billahi yol-yolaqda nə dilənənə çörək verən var, nə də sülənənə! Ya sən mənim başıma daş sal, ölüm, ya da bir tikə çörək ver aparım evimə!

Elə bu zaman məscidin divarından qırmızı kərpic parçası düşür kişinin başına. Kişi üzüqoylu sərəvəzlənir yerə. Az sonra özünə gəlib baş-gözünün qanını silə-silə yenə üzünü göyə tutub deyir:

– Allah, bir aydır səndən çörək istəyirəm, bir tikəsini də vermirsən, bir dəfə başıma daş sal dedim, nə tez eşitdin?!..

Deyinə-deyinə qamətini düzəldib, çıxıb gedəndə ayağı ilişir döşəməyə sərilmiş xalçanın qırağına. Səntirləyib təzədən üzüqoylu yıxılır yerə. Bu dəfə üzünü göyə tutub hündürdən acıqlanır ki:

– Ə yekə kişisən, çörək vermirsən, vermə! Başıma daş salıbsan, hələ bir üstəlik itələyirsən də... İtələmə, gedirəm də...

## Alagöz əhvalatı

Nəql edirlər, mollaobalı Sahib Mahmudov kənd toyunda “Segah” oxuyurmuş. Qarşı tərəfdən, toyxana çadırının deşiyindən bir göz kirpik çalmadan heyranlıqla xanəndəyə tamaşa edirmiş. Bu baxışdan kişinin təbi çuşə gəlir, peşəsi sürücü olsa da bildiyi qəzəlləri, xalq mahnılarını bu toyda daha məharətlə ifa edir. Ən çox da dostu Əlimərdanın qəzəllərini oxuyur, “Alagöz”, “Şəhla göz” “Şahanə gözlər” ifadələri ilə zəngin nə qədər gözəlləmə var, yağdırır qaynar nöqtəyə – çadırın deşiyindən boylanan baxışların “sahibəsinə”. Oxuya-oxuya fikir verir ki, zalımın qızı hər kimdirsə, heç yerindən də qımıldanmır. Qərəz, xanəndəyə alagöz gözəli görmək marağı güc gəlir. “Gözlərinə quzu kəsim, ay ala göz!”– deyib təsnifə xitam verir. Sonra çalğıçılara:

– Əyə, siz bir oyun havası çalın, mən də çıxım, bir havamı dəyişim.

O vaxtlar kişi məclislərini qadınlar-qızlar toy çadrının arxasından seyr edərdilər. Sahib özünü verir “Alagöz” səmtə. Görür ki, həmin yer tövlədi, axura bağlanmış bir buzov dartına-dartına başını söykəyib çadıra, gözünü də həmin deşikdən zilləyib içəri... Gördüyü mənzərəyə özü qəşş eləyir. Rəhmətlik xanəndənin “Alagöz əhvalatı” belə sona çatır.

## Qibləyə düz dayan!..

Deyir günlərin bir günü o vaxt Masallıda birinci katib işləyən Əlövsət Baxışov maşınla Masallıdan üzü Lənkəran istiqamətinə gedirmiş. Birdən görür ki, atını buğda zəmisində otaran bir qoca yol qırağında namaz qılır. Raykomun birinci katibi maşını saxlatdırıb kişiyə yaxınlaşır. Təmkinini pozmadan namazın başa çatmağını gözləyir. Namazını qurtaran kimi üzünü qocaya tutub deyir:

– Ay dayı, sən qibləyə düzgün dayanmamısan.

Qoca deyir:

– Bala, 40 ildir namaz qılıram, həmişə də qibləyə belə dayanmışam.

Raykom katibi gülümsünüb:

– Dayi, sən qibləni bu gün səhv salmısan, – deyir və kişiyə zəmidə otlayan atı göstərir. Bax, bizim qibləmiz kimi, həm də o atın ayaqları altında taptalanan çörək də müqəddəsdir.

Qoca üzrxahlıq eləyir. Və Baxışov ona birinci katib olmasını bildirmədən xüdahafizləşib yoluna davam edir.

## Ya Sibir görürəm, ya da qəbir...

Tuthatut zamanı qorxu-hürkü camaatın qanına o qədər işləmişdi ki, hətta müharbədən 5– 6 il ötəndən sonra da adamlar hər an sürgünə göndərilmək təlaşı ilə yaşayirdılar. Sibir sözü xalq arasında “gedər-gəlməz” mənasında ifadə olunurdu. Belə deyirlər ki, bizim Muğan kəndlərinin birində müharibədən şikəst qayıtmış bir nəfər aclıq illərində kolxoza sədrlik edirmiş. Təkqıc sədr özüylə cəbhədən “qənimət” gətirdiyi durbinlə kolxoz idarəsinin pəncərəsindən kəndin anbarına, fermasına və ən çox da qəbiristanlığına baxmağa vərdişkar imiş...

Günlərin bir günü sədr adəti üzrə yenə gah fermanı, gah anbarı, gah da qəbiristanlığı “seyr” edirmiş. Bu zaman kolxoza baş çəkməyə gələn raykom katibi onun kabinetinə daxil olur. Eşitdiyi yavaş ayaq səslərindən mühasibin gəldiyini zənn eləyən kolxoz sədri halını pozmadan durbinlə “nəzarətini” davam etdirir. Bu mənzərəyə bir xeyli tamaşa edən katib sakitcə soruşur ki, bəs, ay yoldaş sədr, de görüm baxdığın o yerlərdə nə görürsən?..

Sədr arxaya dönmədən cavab verir ki, vAllah, bu gün hara baxıram, ya Sibir görürəm, ya da qəbir.

Katib soruşur ki, bu nə sözdür, ay sədr?

Sədr birdən dönüb katibi görür, saymazyana verdiyi cavaba görə boğazı quruyur. Qərəz, özünü ələ alıb, deyir ki, ay yoldaş katib, həmişə bizim kənd qəbristanlığında adam çox olardı. Yəni camaat acından ölənləri dəfn edirdi. Amma bayaqdan baxıram, deyəsən bu gün kənddə ölən yoxdur, deməli, bu adamlar ya anbarı çapıblar, ya da fermanı... Bu da o deməkdir ki, mən bədbəxtin oğlunu Sibir gözləyir...

Elə bu dəmdə kəndin kuryeri tövşiyə-tövşiyə içəri girir. Təngünəs deyir ki, bəs, ay sədr, camaat anbarı çapıb, buğdanı da kəl arabaları ilə Üçdaş dəyirmanına aparıblar.

Sədr deyir:

– Day de ki, evin yıxıldı, o buğdanı toxumluq saxlamışdım.

Sonra üzünü raykom katibinə tutub yazıq-yazıq dillənir:

– Deyirəm axı, bayaqdan hara baxıram, ya Sibir görürəm, ya da qəbir!..

## Dəvəni hürkütməyin

Günlərin bir günü bir arvad olur, bir kişi. Lotular yığışır deyir ki, a kişi, sənə bir iynə vuracuğ hardasa o iynənin vaxtü 10 saat olacağ, sənə bu qədər pul verəcüy, səni aparıb kəfin-dəfin eliyib basduracuğ. Qəbrün üstünə seyrək bir torpağ səpəcüy. Sonra qalx-çıx qırağa. Bədəbəd olanda qalx çıx kef elə özünçün, nə isə kişini basdırırlar. Zəvvar yolnan gedirmiş, fatihə vermək üçün dayanır. Həmişə zəvvar gedər, zəvvarın qabağında dəvə olar. Dəvənin boynunda zınqırov olar. Bu kişinin dərmanının vaxtı qutarır, bu kişi ayılanda qalxır, başını çölə çıxaranda dəvə hürküb qaçır. Kişini basdıranda qəyiş bərabəri basdırırlar. Qadını isə sinə bərabəri basdırılır. Sual verirlər, nə üçün? Ona görə ki, kişi kişidir, qadını da namus məsələsinə görə dərin filan basdırırlar. Zəvvarlar görür ki, basdırılan xortduyub gəlir. Başdıyırlar onu döyməyə. And içir mənu vurmuyun mən xortdamamışam filan, üstü-başı qan içində gəlir evə. Karvan çıxır gedir. Bunu arvadı səliqə-səhmana salır. Deyir ki, sizə bir məsləhət eliyim. Yolnan gedən dəvəni hürkütməyin. Əgər dəvəni hürkütsüz, sizün də başuza bu haqq-hesab gələcək.

## Atın tapılması

Bir kişinin atını gecə həyətdən oğurlayırlar. Malı-qarası da yoxmış. Ağlıyırmış. Bir atdı kişi yolnan gedirmiş. Soruşur:

– A kişi, nədi sənə kim toxunub, nə hadisə baş verib ki, sən ağlayırsan.

Diir:

– Mənim bir dənə atım var idi. Ailəmi onnan idarə eliyirdim. Məsələn, Masallıdan alıb, Lənkaranda satırdım. Masal-

lıdan alıb, Cəlilabadda satırdım. Çörək pulu eliyirdim. Beş baş ailəyük. Uşağlarım acından qırılacağ. Gecə atımı oğurlayıblar.

Deyib:

– Bir-iki gün döz. Sənin atuu, İrana keçirsələr də, mən onu qaytartdırıb gətizdirərəm.

Deməy üç gün çəkib, bu adam haralı imiş. Diyib bu günə çatdıra bilmədim, axşama sənin atuu gətirib çatdıracam. Bu kişi çox gözdiyib. Görüb at gəlmədi. Səhər durub görüb ki, atı bağlıyıblar ağaca. Belənçiy adamlar olub. Minnətsiz atı tapıb gətiriblər.

## Demə qocalmısan

Bizdə ”Keçi məməsi”, ”Dərnəgül” o vaxtının oyun havaları idi. O vaxtı bizdə zurnenan çalardılar. Bi Aşığ Abdulla var idi. Gözəl zurnaçı idi. Yaşdaşmışdı. Bizdə bir-birinin ardınca 12-13– dənə hava oyniyan cayıl var idi. Nə hava çalurdun, ocürnə də oynıyırdı. Nə hava çalurdun, o cürnə də oynıyırdı. Ussa zurnanı saxladı, ona dedi:

– Nəsir!

Dedi:

– Bəli.

– İki sutka oynasan, mən zurnanı çalacam.

Zurnaçının pirani vaxtında dedi:

– Məni apara bilmirlər. Təzə zurna çalan var. Bı gəlir, helə bıralıdı, yaxın talış kənddəridi. Gəlir axunun yanına. Diir issirəm toba eliyəm, day zurnaçılığ eləmiyəm. Axun diyir sənin çalduğun alət hardadı.

Diyir:

– Cibimdə. Kölə, görüm nətərdi. Köhliyib calanda, nəfəs alətdərin nizamlıyan dişi düşdü. Dişi damağdı axı. Dürdür eliyəndə dişi çıxır, salır içəri.

Diyibdi:

– Dimay qocalmısan, dişin tökülüb, zurnanı damağında saxlıya bilmlrsən. Ona görə toba eliyirsən? Day sənə ölüm yoxdu, ged ölüncən çal. O Aşığ Abdulla ölüncə çaldı .

## Şir balası

Deməli mən atamla həmsöhbət olmaram. Bu hadisələri öyrənməyim necə baş verib. Mən işdən evə gəlirəm bir az atamla otururam, sonra atamla sərbəst olmadığıma görə keçirdim o biri otağa. Anam ayrı otururdu. Atamın yanına ağsaqqallar gəldiyinə görə anam qızlarla ayrı oturur. Anamın yanında daha sərbəst hiss edirdim özümü. Bəzən atam tək qalanda, darıxanda deyirdi ki, Hikmət hara getdi bəs gəl yanıma, bura – deyirdi. Sən 4-cü sinif qurtarmış arvaddan nə öyrənirsən. Gəl otur məniynən. Mən danışanda alimlər, professorlar, yazıçılar dayanıb mənə qulaq asır. 4-cü sinif oxumuş arvaddan sən nə öyrənirsən mən bilmirəm. Belə oturanda da atam mənə çox maraqlı söhbətlər edir. Bəzən onu məclislərə aparırdılar maşınnan. Yaşlaşmışdı maşını sürə bilmirdi, mən sürürdüm maşını. Apardığım məclislərin birində söhbət siyasiləşdi bir az.

Dedilər:

– Bir müxalifətçi dedi ki, Heydər Əliyevdən sonra İlham Əliyev prezidentliyi idarə edə bilmiyəcək Respublikada. Heydər Əliyevin yolunu siyasətini davam edə bilməyəcək.

Atam onlara özünə məxsus şəkildə cavab verib deyir ki, meşədə tülkü bir gün gedirmiş. Görür ki, meşənin dərinliyin-

dən bir nərilti səsi gəlir. Meşə lərzeyə gəlir. Tülkü qorxa-qorxa yaxınlaşır görür ki, bir aslandır dünyaya övlad gətirir. Deyir:

– Aslan qardaş, neynirsən? Bu boyda meşəni lərzeyə gətirmisən səs-küydən deyir.

– Tülkü, görmürsən dünyaya övlad gətirirəm, – deyir.

Tülkü:

– Mən də altısını-yeddisini birdən doğururam, amma heç cıqqırımı da çıxarmıram.

Deyir:

– Tülkü, sən doğanda tülkü doğursan, mən doğanda aslan doğuram.

## Sənəti var

Pul məsələsində belə oldu ki, məclisdə oturmuşuq. Məclisdə oturub Astaranın keçmiş icra başçısı İbrahim Quliyev, bir də bir həmyerlimiz var idi – Lənkəranın polis polkovniki idi o vaxtlar. Belə sual verirdi, atama "dayı" diyə müraciət edirdi. Atam tibbi qurtarmışdı Lənkəranda. Onlarnan çox təmasda olmuşdu.

Deyir:

– Dayı, bəziləri deyir ki, bu pul yaxşı şeydi, bəziləri də deyir pul pisdir, bəziləri deyir, adamı çaşdırır pul, bəziləri deyir, şeytan işidir pul. Sən necə fikirləşirsən?

Deyir:

– Bala, pulda heç bir qəbahət yoxdur, qəbahət insanda ola bilər. Pul gələndə ehtiyac gətirdiyi kimi mədəniyyət də gətirir. Pul insanı mədəniləşdirir, təsərrüfatı inkişaf elətdirir, pul gələndə ev-eşik düzəldirsən, pul gələndə qonağ qarşılayır-

san, qonağ yola salırsan, tələbə oxudursan, ümumiyyətlə, bütün işlərlə pul olarsa, məşğul ola bilirsən.

Bu mənada deyir ki, pul iki şəxsin əlinə düşə bilər ya yaxşı adamın, ya da pis adamın. Yaxşı adamın əlinə düşəndə yaxşı işlərnən, xeyriyyəçiliynən məşğul olar, pis adamın əlinə düşəndə pul pis işlər üçün yarıyır. Deməli, yaxşı adamın əlinə düşəndə qonşusu gəlir onun qapısına deyir ki, qonşu bəs qızımı ərə verirəm cehizimnən bir 500 yüz manat çatmır ki, onu köçürdüm. Deyir baş üstə, çağırır həyat yoldaşını, arvad gəl 500 yüz və yaxud 1000 manat ver bu qonşunun problemi var imkanı olar qaytarar, imkanı olmaz halal xoşu olar. Ancağ bir şərtlə toya mənidə çağırarsan, məndə sizin şaddığınızda iştirak edərəm.

Səhər bu kişi gedir evinə qohum-əqrəbasına danışır ki, əşi, mənim pulım çatmırdı, mənim qonşum belə şəxsiyyət imiş, belə xeyriyyəçi imiş. Mənə pul köməy eylədi. Bu qohum-əqrəba bundan xəbərdar olandan sonra sabahları buna dəvətnamə yazırlar ki, bunu şadlığa dəvət edirlər. Bu qonşu məclisə girəndə xalq ayağa qalxır. Buna ağsaqqallığı pul gətirir.

Pis adamın əlinə düşəndə pis adam girir bazara bazarda bir nürani ağsaqqal kişiyə bir şillə vurur. Deyir, a kişi, məni niyə vurdun? Deyir mənim dakumentim, sənədim var səni vura bilərəm. Bu kişi bunu verir məhkəməyə. Məhkəmə çağırır sən niyə ağsaqqala vurmusan. Deyir mənim sənədim, dakumentim var, bunu vura bilərəm. Deyir gətir görüm sənədini, gətirir paketdə verir təqdim edir məhkəməyə məhkəmə paketin açır içini və yüzdükləri görəndə deyir, hə ağsaqqal bunun sənədi var imiş, bəs bu sənə də vura bilər, mənə də vura bilər. Bu pis adamın əlinə düşür pul, bu pulun hesabına gedir prakrolnan, məhkəməynən otur-dur eliyir. Yanında dostları var belə yuxarı vəzifədə işliyən. Bu evə gələndə bunun qadını da pis adamdı. Qa-

dın buna deyir ki, a kişi bilirsən nə olub, deyir yox, deyir bizim o çil fərə vareee deyir hə, hə deyir, nə olub çil fərəyə? Keçmişdi qonşunun həyətinə, qonşu götürdü bir daş atdı, amma az qalmışdı çil fərənin qanadına dəysin. Toyuğ çıppıldıya-çıppıldıya həyətə uçdu qayıtdı gəldi. Deyir, ə, qələt eliyir mənim toyuğuma daş atır, mən onu basdıraram içəri məhkəməynən, prakrolnan dostam, bəs o məni tanımır. Görürsən ki, bir toyuğa kiş eliyib hələ daş ona dəymiyib, onun qanadının yanınnan keçib deyir, onu mən basdıraram içəri. Deməli, bu pula görə, pis adam olduğuna görə belə iqayısdığ bəsliyir. Pulda heç bir qəbahət yoxdur, insanlardadır problemlər.

## Gəlin, ya meyit

Bi dəfə dayım qızının oğluna gəlin gətirməyə getmişdük. Boradigiyə. Qıza maşın yox idi. Dayımqızı qayıtdı didi:

Arazı ayırdılır a nari, nar
Qumuynən qovürdülər a nari, nar.

Bu oxşamadi. Camaat daldan bu nə bir təpiy. Səni yerə soxim. Nə yemisən tuşili aş, gəlin aparırsen, ya meyid aparersən.

## Əhsən, bərəkəllah

Mirislam Rəfiyev var bizdə, onun qəbri Bibiheybət qəbirstanlığındadı, Bakıda. Onun burda 3 qızı olub, oğlu olmiyib. Nəsillərinnən qalır. İndi Mirislam da var, Rəfi də var. Əmioğluldular. Deməy, gedib İrana toya. Ərdəbildə bu başdıyıb toyda oxumağa. Oxuyub, oxuyub, oranın valisi deyib, əhsən bərəkallah. Üç gün orda toy oxuyub. Buna heç bir mükafat-zad vermiyiblər. Gedib bir dənə xurma götürüb dükannan, deyib əhsən, bərəkəl-

lah. Bir dənə barza götürüb, deyib əhsən, bərəkəllah. Bı çatıb valiyə. Deyib, hə, bildim, nə deyir bı. Bına bir dənə üzüy bağışdıyıb, qəşəng, qiymətli, üstü brilyantlı üzüy. Gəlib burdan oğurruyublar. Bizim Masallıdan. O da tərk elədi buranı çıxdı getdi.

## Səni çöllərə salaram…

O, burda toyda olub. Səlyannan bir müğənni gəlib. Mirislam Abdullayev başqa, Mirislam Rəfiyev başqa. Səlyannı buna deyib, oxuyaram, səni ağladaram. Bir dənə zəminxarə oxuyub səlyanlı. Bu deyib, mən də sənə oxuyaram, səni çöllərə salaram. Bu da bir dənə Mirzə Hüseyn segahı oxuyub, səlyanlı qavalını götürüb çıxıb gedib.

## Namazda dombalan aşdı var?

Bizdə bir Zirvəli kişi olub bizdə. Allah rəhmət eləsin. Bizdə bir oğlan vardı, Allahqulu. Böyuk adam olub, iş adamıydı, getdi rəhmətə. Bının qaynanası da çox dindar adam olub. Yardımlı deyilən rayon var bizdə. Ordan bir sail gəlir, dilənçi gəlir. Gələr axşam düşər bulara.

Deyər ki:

– Qardaş, sən namaz qılansan?

Deyər ki:

– Hə, qılanam.

Deyir:

– Onda namaz qılansansa, mənə qonağsan.

Arvada deyər:

– Düş bir dənə beçə kəs.

Kəsər, bozbaş bişirər, yeyəllər, eliyəllər. Sora namaz vaxtı qalxallar ki, namaz qılsınnar. Gələn bu kişi durar bunun

arxasında ki, görməsin. Bu nəğayrır, bu elə deyir, yox, bu məni alladır. O rüküt ki, var, namaza gedirsən, bu dombalıbmış aşağı belə. Bu aşar. Deyər:

- Ə, qardaş, namazda dombalan aşdı var? Deməli, sən namazı bilmirsən. Deyib, dur çıx mənim öyümnən.

## İncil deyil, boranıdı

Bir dənə də qonağ gələr, bu lap qədimdə olub, həmən kişi də getdi rəhmətə. Bizdə incil deyillər. Bizdə də yetişir. Bu boranı var e, balqabaq deyillər. Bu boranı da mirəd elə şeydi ki, dırmaşır incil ağacına. Deyər:

– Qonağ, dur gedək bir dənə incil yeyəy həyətdə.

Çıxallar ağaca. Bı da boranını görmüyüb, bilmir nədi.

Deyər:

– Qonağ, mən bir yeddi – səkkizini yemişəm a.

– Deyir:

– Ə, nətər yeyərsən, mən birin yeyə bilmirəm. Deyər, ə, incil döyül e, boranıdı. Bax, bu olub, həqiqi olub.

## Talış qızı

Bir dənə də talış qız gəlib bıra. Gəlin gəlib. Çox avam imiş. Rəhməttiy Böyükağanın anası. O vaxtı kitayskı batareyalar çıxardı, basardun knofkanı, qalardı yana-yana. Qonşuda da toy imiş. Oğluna deyər ki, Xəlil mənə bir şey ver, işığ, zad yoxuydu da, o vaxtı. Xəlil batareyanın knofkasını basar, verər buna. Gedər, baxar toyuğa-cücəyə. Başdıyar üfləməyə. Batareyanı üfləməyə. Gələr deyər, Xəlil, axı bu sönmür. Deyər, avam oğlunun qızı avam, bunun knofkasını çək də, sönəcəy.

## Təvəkkülün neft quyusu

Birdən xəbər tutullar ki, Seybətinnən neft çıxır. Təvəkkülgilin həyətinnən neft çıxır. Camaat hamısı yığışdı ki, Təvəkkül oldu Zeynalabdin Tağıyev, həyətinnən neft çıxır. Bizdə də dövlətdə qanun var da. Torpağın 5 m-si sənindi, sərvət dövlətindi, kim olur olsun. Millət də deyir ki, Təvəkkül varrı olacağ. Bir nəfəri məzəyçün gətirər orda quyu qazar, traktorist də ora salyarka töklübmüş traktornan. Gətirər iki vedrə salyarkanı boşaldar quyunun içinə. Dayı, Bakıdan Nazirliydən gəldilər, Geologiyadan gəldilər, gördülər yox, bu həqiqi neft döyül.

## Gic sənsən

Birda bi Məhəmmədtağı adlı kişi var idi, mənim atamın əmisi idi o. Evladı zadı yox idi. O helə belə gəzən adam olub, yaxşı dostları var idi bütün kəndlərdə, rayonlarda. O vaxtı maşın az olan vaxtı, müharibədən bir az sorakı illərdə. Deməli, bı kişi o qonşu kəndlərin birində bel satardı, bel sapı, lapatkasapı. Aparır satır orda yavaş-yavaş çıxır yola. Ancaq orada bının qabları da varmış, kisələri də, kisələri bağleeblar belə, gəlir yavaş-yavaş. Onda görür daldan bi ataraba gəlir. Əl eliyir atarabaçı saxleer, bıda oturur. Arabaçı xəbər alır ki, haralısan deer ki, Masallıdan. Deer, əəə, gij talışlardansan ki. Bı kişiyə acığ gedir, amma dinmir. Talış olmasa da arabaçının sözü ona bərk toxuner. Deer, indi sənə sübut eliyərəm mən gijdiyimi.

Bir az gedənnən sora bı atarabaçı yenə diç qalmır deer ki, bi nədi kisələr nə aparirsan ? Deer:

– Bala, bi kisə xiyardı, bi kisə yelpənəy.

Atarabaçı deer:

– Nə danışırsan sən, xiyar yelpənəy eyni şeydi də.

Deer:

– Ə nə danışırsan hələ bilmirsən ki, yelpənəy ayrı şeydi, xiyar ayri.

Xülasə, bı kişi bina xiyrnan yelpənəyin fərqin deyir. Deer, xiyar üstü tikannıdı, yelpənəy isə şumaldu.

Arabaçı deer:

– Eeeee başun xarabdı sənin.

Gedillər yolnan görür ki, qırağda ana potuğ oturub. Potuğ camış balasına deellər bizim tərəfdə. Ala-bıla, axı camış ala olmur tək-tək qaşqası-zadı olur. Deer:

– Ədə, ora bax nə göyçək potaxordı.

Deer:

– Nə potaxor görmeersən o camış balasıdı?

Deer:

– Hə də ona potaxor deyillər.

Deer:

– Ə, necə yəni?

Deer:

– Ə, bilmirsən danaxor nədi, potaxor nədi?

Deer ki, bala inəynən camış ciftələşəndə camış dişidirsə, o potaxor doğar, amma inəy dişidirsə, ona deyəllər danaxor. Sən gijsən ee, ay gij dağlı. Sən bilmirsən, bı bını yenə sıxışdırır. Biyaz gəlillər bəri.

Kişi fikirrəşir ki, bına bir əməlli dərs verim.

Deer:

– Ay bala ey, sən bilərsən neçə adamnan mənim mübahisəm olub, bi telfun ağacı, biri deer 500 metrədi, biri deer 300 metrədi, biri deer 1000 metrədi.

Deer:

– A kişi, 50 metrədi.

Deer:

– Ola bilməz, sən heç ölçü bilmirsən ki...

Deer:

– A kişi, 50 metredi də.

Deer:

– Onda düş ölç də bi şey döör ki.

Bı deer hə. Deer, onda gala sən ciloyu tut atdarı sür. Deer, bala, mənim qulağım da ağır eşidir, araba sürməyi də bilmirəm. Bını örgədir ki, ciloyu əlində belə tut, düz tut, düz tutson, bi dayanmalıdı, yaxud da düz getməlidi, sağa, sola bını çək, bını çək. Bı örgədir təfsilatıynan düşür. Deer, gütdüm, gutdüm hansı telfun yola yaxındı orada saxlamadım. Elə ki, o birilərinə çatdım deer dedim, hə düş olç. Elə ki, bı düşdü atdan, atdarı bi qamçıladım. Bı indi gedib ölçməyə. Hərdən baxır mənə gorür araba gedir də. Ha yavaş-yavaş, atdarı tərpətdim, deer bi qaldı. İndi qışqırır daldan deer demişəm axı karam. Bı indi söyür məni. A kar kopoyoğlu, saxla. Baxmıram deer bına. Atın bı cilovunu cəkirəm at yolun bı cinahına gılir. O ciloyun çəkirəm, o yolun qirağına gedir. Ta bını 1 km. qaçırtdım, gördüm lap ölür, yaxşı döyi ayıbdır, axı. Həm də Göytəpəyə yaxınnaşıram, axı. Saxladım arabanı deer dedim ki, bala, mən araba sürməyi də bilmirəm, qulağım da eşitmir, gəldi oturdu.

Deer dedim ki, bırda bına mən desəm, məni vırıb zad eliyər. Pirişivə girəndə bildim ki, burda daaa adam zad var də. Dedim:

– Bala, sən mənə 3-4 dəfə dedin ki, gij talış, gij talış. İndi gic talış mən oldum, ya sən oldun. Gic sənsən ki, at-araboyun cilovun da verdün məəm əlimə, özün də ləhliyə-ləhliyə qaçırsan dalımca.

## Orandlıların öküzü

19-cu əsrin axrlarında bırda kəndxuda olub, Kərbəlayi Rəhim adında. Bu indi kəndimizin dalında Meşəkənd var, təzə Alvadıynan bizim kəndin arasında. O Meşəkənd əvvəl obalardı, orda olannar Orandlılardı – Lerikin Orand kəndinnən köçüb gələnnərdi. Olar bir az yaxşı aparmeblar özzərini. Bizim mal-qaraya ziyan vırıb, camaatın əkinnərinə zadına. Hətta iş ora gəlib ki, kətdən oğurruğ da eleblər mal-qaradan. Bı söz çatar Kabla Rəhim kişiyə. Yığıb, o bilir də bı işin kim öhdəsinnən gələ bilər. Deer:

– Gedirsüz, o vaxtı Orandlıların belə bi qaydası olub, iş öküzü, oba öküzü deyərdilər. Hə deer ki, gedirsüz bir dənə ziyan vurmadan, itdərinə də daş atmamağ şərtiynən o öküzzəri gətirəcəysüz. Amma gətirib mənə təhvil verəcəysüz.

Camaat 3-5 nəfər gedər, geceynən həmin o oba öküzünü gətirəllər. Orannının da dediyim kimi varı əmlakı odu. Səhər ayılallar biləllər iş nə yerdədi və başa düşəllər ki, bını ancaq Alvadılar eliyər. Bizim zada ancağ Alvadılı gələ bilər. Gələllər bı kişinin yanına. Kişi boyun çəkməz. Atnan gələllər öz də. Qəsdən bıları yubadar, uşağlara gizzincə xəbər yolluyur ki, gedin bıların atdarın da oğurroun. Bilara deyəllər ki, bizdə belə şey yoxdu, çıxın gedin bırdan. Bılar çıxar qırağa görəllər ki, atdar da yoxdu. Əslində inanallar ki, öküzzər bılarda yoxdu.

Gedəndə atdarın da yox olduğunu görəndə, qayıdallar təzədən dala. Kərbəlayı da bilər ki, bılar işi başa düşdü. Gələr deyər gedün. Atdaruz da ordadu, öküzüvüz də. Tooğumuza da daş atmıyasuz. Sizi da köçürtmürəm bırdan, əgər özüvüznən bacarmasoz, özxoşuvuza köçün bırdan. Ağsaqqallar deerlər ki, olar aparıllar öküzzərin bırdan lakin o ki, oğırrığı dəb eli-

yən, adət eliyən adamlar köçür bırdan. Həmin bı Orandlılar qalır bırda, olar doğrulardı qalır. Oların özdərinin dili var, talış dilinə oxşar dildi, bir az kobuddur.

## Ona zərərdi

Bi kişi olur, bının bi gözü kor olur. Vaxt olur, sora o biri də tutulur. Məsələn, bozbaş bişirillər yağlı-zaddı, deer, yo, kişinin gözünə zərərdi olmaz ona, yeyə bilməz. Vermillər ona. Məsəl, bi gün plov bişirillər, yo, yo kişiyə zərərdi olmaz ona. Helə-helə məsəl, cücə kəsillər, katlet eliyillər evdi də indi. Yo-yo olmaz ona, gözünə zərərdi. Kişi yazıx əlin belə eliyir ki, bi şey tapsın qoysun ağzına, iyi gəlir, axı. Tappır. Əşi, sənnik dööl, səən gözəə zərərdi yemə. Kişi də günnərin bir günü başdıyır qalxır. Ay başıza daş düşsün, məən hər şey gözümə zərərdi diyə niyə məə yemək vermirsiz, axı, mən acınnan öldüm.

## Çörəyə and içmə

Şərəfədən bi məllim var idi. Sözünə qulağ asanımız yox idi. Qətiyyən. Oturturduğ aşağı məktəbdə, otduğumuz yerdə başdıyırdığ fit verməyə. Hə, hə kimdi fit verən? Dəlisiz? Kimdi fit verən? Oğlannar fit vermirdi axı, qızdar fitdiyirdi. Məllimin də adı Yunus idi. Sinifdə Salman adında itoynadan biri vardı. Teez o Salmanın bi xasiyyəti var idi deerdi:

– Yunus məllim, Allah haqqı biz fit vermirik.

Bunu deyib tez çıxırdi partanın üstünə. Məktəbin damına da qamış döşəmişdilər. Aralarından qurt-quş düşürdü. Salman da ora beblə, bi parça cörək qoymuşdu. Çörəgi götürürdü, məllim, bı çörəg haqqı biz dəyildik fit verən. Çörəyi qoyurdu ora, tez partadan gupp atdanırdı yerə. Yunus məllim də:

– Sən nağayrırsan? Sən nağayrırsan? Tərbiyəsizzər. Belə tərbiyəsizziy olar?

– Məllim, ta deersən fit verillər and içirəm dana çörəgə.

O çörəyi ordan heç kimin götürmək ixtiyarı yox idi.

## Allaha güllə atma

Bir gün bu kəntdə Xansuvar kişi olub, onun anası xəstə olur, sağalmır, özü də payız fəsli olur, get gedə qadının vəziyyəti daha da ağırraşır, indı bılar hazırraşırrar ki, bir azdan keçinəcəy filan. Bu tərəfdən də yağış başdıyır yağmağa, deer, ədə, bı da vaxt tapdı yağmağa. İndi öləcəy qalacuğ belə. Neyniyim, nağayrım, deer bura bax, diyəsən bekarçılığdı ya. Mən bırda dərd çəkirəm, sən diyəsən qəsdən yağışı mənim başıma tökürsən? Bının da bi dənə dayandoldurum tüfəngi var imiş, götürür tüfəngi çıxır bayıra. Tutur yuxarı Allaha atır gulləni, paart. Qayıdır geri görür ədə, ana öldi ki, bı tərəfdən də yağış lap da şiddətləndi. İndi, xəbər vermək istiyir anasına ki, ana, Allaha güllə atmışam deyəsən yaralanıb, balaları da ağlıyır odu bax suyu da tökülür. Onda görür ki, ana da ölüb. Deer, ədə, bu öləcəydi, elə nahağ yerə mən Allahı da özümə yaman elədim.

## Kommunist qəzetindəki variant

O vaxtı bını kəmnist qəzetinin qirağında dərc eləmişdilər, adə Şamıyan savxozda, Mişkəmi adlı kənd var, vaxtilə olar Allaha güllə atıb. Əslində hadisə belə olub ki, o vaxt bizdərdə belə bi adət varıdı ki, gəlin gətirəndə və yaxud da birinin ölüsü öləndə olar kəddə gullə atardılar göyə. O bayaq cın, şeytan deyirdiz aaaa hə bax oları qovmaqdan ötrü. Bının da anası qocadı da, indi gedib özünnən, bı da indi tüfəngi gö-

türüb atıb göyə. Evə girir, görür ki, arvad tapşırıbmış ki canını. Deeb zalımın qızı öləcəymiş. Allahı da özümnən yaman elədim ki. Bax hadısə belə olub.

## İt yalağı

41-ci ildə bizim atamız müharibəyə getdi. İki bacı qaldüy. Acdığ bi yannan, yalavajdığ bi yannan. Anamın atası bizi saxladı. Nənəm bi gün:

– İt yalağınnan su içərəm, oğlum sağ-salamat müharibədən qayıtsün, it yalağınnan su içərəm.

Bəli, atam müharibədən sağ-salamat qayıtdı. 42-ci ildə yaralandı, gəldi. Nənəm getdi molla yanına. Dedi:

– A molla, mən bu cür boyun almışam.

Molla qəyitdi dedi:

– Ana, boyun almısan əcəb eləmisən. Ged benamaz olan qadınnan əyləş, xörəy ye, bu oldu sənin itün.

Anam da getdi o deyəni elədi.

## Molla Hüseynlə erməni

Molla Hüseyn Bakinin Binə qəsəbəsində olurmuş. Bi dəfə sovet dövründə, hüzür məclisinə erməni gəlir. Erməni diyir:

- Sizin ağə əfəndüzi mən pərt eliyəcəyəm.

Müsəlmanlar deyir:

- Pərt eliyə bilməzsən.

Diyir:

- Ağə əfəndi!

- Bəli!

Diyir:

– Niyə müsəlmanlər öləndə onun ayıb olmasın dalına pambıq təpirlər.

Diyir:

– Pambığı təpürüy ki, nəcis olsə, kəfənə dəyməsün.

Diyir:

– Bəs sən erməni burda neynirsən?

Diyir:

– Mən müsəlmanlərnən işçi yoldəşəm. Hüzür düşdü gəldim.

Diyir:

– Bizim Peyğəmbər meyraca gedəndə yoli düşdü behişdə, gördi burdə bir erməni var.

Dedi:

– Bura müsəlmanin yeridü, sən burda neynirsən?

Erməni dedi:

– Mən, dindar, mömin müsəlmannan qonşu idim. O, ölmişdi, mən onun dalindən girdim qarninə. O düşdi behişdə, məndə onun qarnindən sıpbədən düşdim behişdə.

O vaxdən Peyğəmbər qayıdandan sonra dedi:

– Müsəlmanlar öləndə onlarin dalinə pambıq təpün, qoy ermənilər gəlib girməsün.

## Axundun müəllimə cavabı

Sorə bir müəllim deyir:

– Axund əmi!

Deyir:

– Bəli!

Deyir:

– Dolu gəldi, möminlərün, müsəlmanların, seyidlərün təğinə dəydi, bizikinə dəymədi.

Molla Hüseyin üç dəfə müəllimə dedi:

– Cavəb versəm kefinə dəyməz?

Diyir:

– Xeyr!

Diyir:

– Heç görübsən ki, dabağ gələndə eşşəyə, donuza dəyə? Dabağ gələndə, fəqir heyvanatə dəyər. Qoyinə, quziyə dəyər.

## Elə öz pulunu ver də

Qış günlərinin biri idi, onda da belə idi ki, camaat toplaşardı bir yerə. Mənim atam da yaşlı olduğundan ancaq bizə toplaşırdılar. Mənim bir yeddi, səkkiz yaşım var idi, bəlkə də bir az da aşağı olardı. Bu peç filan yoxudu, camaat ocaq başına yığışardı. Ocaq başı da belə idi ki, bunun normal vəziyyəti üç adamlıqdı. Mən də uşaq olduğumdan xeyli kənarda, evdə belədi ki, üç beşə, dörd beşə otaqdı. Bir saat ikiyə qalmışdı, hələ dağılışmamışdılar. O vaxt da noxud qaynadırdılar. Televizor zad yoxudu, noxud qaynadırdılar, boranı qaynadırdılar. Həm də bular söhbətə şirinlik qatardı. Bizim bu dağların, talış dağlarından gələn girdəkan varddı, girdəkanlar da bərk olardı, çox möhkəm girdəkanı var idi.

Bir səs gəldi, Allah cəmi ölənləri rəhmət eləsin, ev sahibi çıxdı səsə. Gördü, indi rəhmətə gedib Yavər kişi, nə isə, bunun belə bir işi olur ki, guya bunu vəzifəyə dəvət eliyirlər, bunun da nə bilim yüz manatı olur, nətər deyirlər, beş yüz manat pul lazım olur buna. Deyillər ki, səhər səkkizdə beş yüz manatı versən, səni götürəcəyik işə, yox yubatsan, bir başqa-

sını götürəcəyik. Buna belə deyiblər. Bu da çox and-aman eliyir ki, əşi, yüz manatı alın qalanın da nə vaxtsa düzəldib gətirrəm. Deyirlər yox, sabah səhər-səhər gətirməlisən beş yüz manatı. Belə oldu ki, bu da gəldi məclisə çıxdı, indi məclisə təzə adam gəlib dənə, görüşdülər elədilər. Bu dedi, mənə təcili pul lazımdı səhər verəcəm. Verəcəm də, bir işə görə ora verəcəm, biri də sənə qaytaracam. Düzdü, təhsili yox idi, ama, dünya görüşü var idi. Dedi:

– Vallah, əmi, arxayın ol, sənin pulunu qaytaracam.

Sora qağam çox and-aman elədi, əşi, belə demə, səhər sən ona pul aparacaqsan da! Daha mənim pulumu hardan verəcəksən?!

Dedi:

– Yox əmi, başladı and içməyə ki, Allah haqqı, imam haqqı pulu qaytaracam. Gecə də saat üçdü.

Rəhmətlik kişi dedi:

- Quk qulu qu, səhər açıldı, Yavər ver pulu!

Dedi:

- Oğul yalan danışma, belə, yaraşığlı yalan danış. Denən iki günnən sora verəcəm, beş günnən sora verəcəm, ya nəsə satıb verəcəm. Sən elə deyirsən! Doğurdan da pulun varsa, səhər verəcəysənsə, elə öz puluu verdə. Daha mənim pulumu niyə verirsən?!

## Beş yumurtalıq yasin

Günlərin bir günü kətdə bir yaşlı qadın, Xanımcahan adlı bir arvad, o günlərdə daha belə idi dənə, inək süd vermirdisə, ya xəstəlikdənmi, ya hansısa səbəbdən, belə olur ki, bunun inəyi hürkür, sağmağa qoymur. Gəlir dua yazdırmağa.

Bunu iki variantda deyirlər. Bir variantı belədir ki, rəhmətlik Yadulla kişi vardı, arvad gedir Yadulla kişinin yanına ki, bəs ölənlərimə bir yasin oxu. Gedəndə də evdən, o vaxt doğrudanda pul az işlək idi, beş yumurta götürür evdən gedəndə, beş yumurta da bir yasin üçün bir az aşağı qiymətdi axı.

Kişi də məcburiyyət qarşısında qalır oxuyur yasini. Arvad da gedir, xüdafizləşirlər. Üstündən bir-iki saat keçmiş, görürlər palatlarda oturub söhbətləşirlər, dokqaz diyək, palat diyək. Genə oturub söhbət edəndə, Ağalı kişi oxumağı bilirdi, məlumdu dərin savad sahibi deyildi, ama, oxumağı bilirdi. Yadulla kişidən soruşur ki, aravad sizdən gedir nə işdi?

Deyir:

– Bəs belə-belə gəlmişdi ki, yasin oxutmağa.

Deyir:

– Oxudun?

Deyir:

– Əşi, vallah pulu-zadı yox idi, pul-zad gətirməmişdi, beş dənə yumurta gətirmişdi. Elə o yumurtalara görə oxudum.

Ağalı kişi bunnan tutaşır ki, sən niyə belə eliyibsən? Beş yumurtaya da yasin oxuyarlar?! Sən yasini nə ucuz eliyibsən?! Belə eləmə, düz eləmiyibsən, sən səhv eliyibsən. Çox mübahisədən sora, Yadulla kişi deyir:

– Ə, nə yapışıbsan mənim yaxamnan, o, mənə beş yumurta verdi, məndə ona beş yumurtalıq yasin oxumuşam. Bahalı bir yasin oxumamışam. Elə qiymətinə uyğun oxumuşam.

## Yol böyüyündür

Yazın pöhrə götürən vaxtı olub, Allah rəhmət eləsin, atam və onun doğmaca əmisi oğlu var idi. Atam Müfti kişi,

əmisi oğlu Zöhrab kişi qonşu Təkdam kəndində, o dövrün məşhur ustası, həqiqətən məşhur usta olub, Əli kişi təxminən deyirlər otuzuncu illərin ən məhşur ustası olub olara getməli olurlar. Deyilənə görə, köhnə rayspalkom binasını da Əli kişi tikmişdi. Bir balaca qohumluğumuz da var. Nəsə o, bir gün xəstələnir. Elə olur ki, atamla əmisi oğlu üz tutur İstillik deyilən yerə. İstilə bəzən çandığ da deyirlər. Yol olmur, yəqin müəyyən vaxt keçəndən sora, o bitkilər balaca solandan sora, bu İstillik üstündən cığır yaranarmış. Elə vaxtmış ki, hələ cığır yaranmıyıbmış, həmin o yerə gəlib çatırlar ki, addımbaadım getməy lazım olur. Belə olur ki, yaş böyüklüyünə hörmət kimi kiçik əmi oğlu böyüy əmi oğluya deyir ki, buyur qabağa geç. O diyir get, bu deyir get. Sora böyük əmi oğlu deyir:

- Ay Zöhrab, lazım olan yerdə heç böyüyə yol verməyi gözləmirsən?! İndi nə məni əzizləyirsən?! Sən burdan cəngəlliyə salırsan məni ki, yaşda böyüksən, cəngəlliyi mən aça-aça gedim, sən də mənim dalımca gələsən. Hələ elə ola bilsin ki, ilandan-zaddan da məni vursun.

## Məcidin küsməyi

Məcidin küsməyindən də deyirlər. Molla Məcid olur bizim kənddə, gətirirlər bunun qabağına süd yeməyi qoyurlar. Deyir:

- Bu hansı inəyin südüdü?
- Deyirlər:
- Həyətdəki o inəyin südüdü də.
- Bəs o, inək harda otduyub?

Deyirlər, qonşunun bağına girib otduyub.

Onnan da səhəri veşin-vüşün nəyi var, palın-paltarların götürüb çıxıb gedir Təbrizə. Deyir:

– Mən haram otdan yeyib südü sağılan, onnan da yemək hazırlanan vilayətdə yaşamaram!

## Qırx gün gecikibsən

Qurban olduğumdan biri təzə uşağı olmuş bi adama deyir ki:

– Sən uşağına təlim-tərbiyə verirsən?

Deyir:

– Hə, bu gün başladım.

Deyir:

– Haçağ uşağ anadan olub?

Deyir:

– Qırx gündü.

Deyir:

– Sən 40 gün gecikibsən.

## Mənim uşaqlarımı belə şeylərə öyrətməyin

Muşteyid həddinnən artıq savadlı adam olub. Onu biraxmeeblər İraqdan bıra gəlməyə saxleeblar orda. İndi bizdə şıfahi söhbətlərə görə, onun fiqh elmi haqqındakı əsərləri Sank-Peterburqda dərslik kimi istifadə olunub. Elə mükəmməl adam olub. Məsələn, onun toxnəfsliliyi haqqinda bi söz deyim. Bı adam çox ciddi ehtiyac içində yaşamışdır. Lakin onun evinə bırdan gedənnər onçün hədiyyə aparıblar qəbul etmiyib hec birini. Hətta belə bi rəvayət deyillər ki, bir dəfə zəvvar olur gedillər bının evinə. Gedəndə özləriynən çörəy alıllar,

pendir alillar, o vaxtı yemiş varmış, yemiş alıllar, qənd, çay, dügi zad alıllar ki, da bı pıl zad almır qoy mını aparağ. Aparıllar, bı biyaz evə gec gəlir. Elə olur ki, verillər xanımına.

Kişi gəlir evə qonağlarnan görüşür, bəli eldən gəlibsüz filan xoş gəlibsüz. Söz söhbətdən sora deer sürfə gətirün, sürfə gətirənnən sora görür sürfədə yemiş, pendir, cörəy, qənd, çay a bizim evdə bə yoxdı axı hardan oldı? Qonağlar görür ki, bı kişi durdu keşdi o gözə arvadnan ərəb dilində nə isə danışdı. Arvadı ərəb imiş də onda, uşağları da ərəbcə bilir. (Məsələn oğlunun biri Qum şəhərində məllim işdiyir mədrəsədə, hərdən gedib görüşürəm eliyirəm). Qonağlar elə bilir bi gavara bizim gəlişimizə narazıdı yəqin nöş biraxıbsan, axı olarda belədi bıraxmıllar evə, gərək kişi özü ola evdə. (Mənim başıma gəlib o işdər orda.) Xüləse, bir azdan sora kişi gəlib oturub süfrədə. Biyazzan sora arvad alahıdan sürfiyə lavaş, şor nələrsə gətirdi, kişi başın salır aşağı deer, bismillah yeyin. Bı qayda belədi də müsəlmançılığda ki, yeyənə baxmazzar. Bəli qutarannan sora ilahi şükür. Deer ki, gəlübsüz xoş gəlibsüz, həməşə gəlün. Qaldı mənim evimə belə şeyləri gətirmöün, gətirdiyiüz şeyləri özüüznən aparun. Mənim uşağlarımı bına örgətmöün. Mənim uşağlarım belə şeyə örgənmeeb. Olar elə lavaş, şor-zad yeməynən dolanıb və mənim qazancım da helə o qədərdi.

## Şeyx pişik alır

Bir gün küçədə gedirmiş bı görür ki, bir dəstə uşağ yığışıb bı su gölməçəsinin başına birda bir qişqiriğ, hay-küydü. Gəlir catır görür ki, bi dənə pişiyi salıblar o gölməciyə, bı vırır bi pişiy qaçır, o yana o vırır, pişiy qaçır bu yana, deer, ədə, ədə, vırmoun nüş öldürürsüz o heyvanı? Görür ki, bu uşağlar

bina qulağ asmır. Deer, əəə, onu mənə satun uşağlar. Cibində nəbilim 2 dirhəmnən, tümənnən nə varsa verib bı pışiyi alır. Sora da pışiyi bıraxır gedir evinə. Səhəri görür adə qapısında 15-20 uşaq hərənin qoltuğunda da bi pişik. Şeyx pişik alır.

## Üçgünlük möhlət

Bir növbəti məhərrəmliydə, yəni 1932-ci ilin qışında, babam gedər Bərcan kəndində mollalığ eliyər. Məhərrəmliyin aşura günü qutarar, babam xəstələnər. Lap pis vəziyyətdə olar, gətirəllər Bərcana. Orda da ölər. Ordan da Alaşara, çünkü orda bının qohumları var. Gətirəllər qohumlarına. Onun bi qardaşı ordan evlənib, olara. Ordan xəbər eliyəllər ki, gəlün kişi rəhmətə gedib.

Atamgil araba zad götrəllər, əmiləri zadı bı kişinin atası, başqaları, yığışallar gedəllər babamı gətirməyə.

Rəhmətdiy atam onda cavanmış, evlənmişmiş. Atam yolda görər ki, atasının səsi gəlir, bı su istiyir. Deer, adə, bı ölmişdi axı, bı nətər olur danışır.Yığışıllar, adə, bı kişi dirildi ki, gətirəllər su zad verəllər bına, istiyəllər verməsinnər atam deyər yox verün, doyuncan su verəllər mına. Gələr evə. Evdə deyər ki, məni dikəldün. Əmilərimi çağırun 1-ci bının babasını çağırar, sora qaynatasını çağırar, hamını yığar, uşağlarıynan görüşər, qucağlaşar, öpüşər. Deər ki, qulağ asun mənə, molladı özü də biyaz savaddı kişiymiş. Deeb ki, mən Allahdan 3 gün icazə almışam, mən ölmişdim Bərcanda, məni arabaya qoyanda Allahdan isdədim ki, İlahi, mənə 3 gün möhlət ver, gedim əmilərimnən, balalarımnan görüşüm sora canımı alarsan. Allah mənim duamı eşidib, gəldim mən saba yox, birgün ölməliyəm.

Gedün tədarüküzü görün. Heç də narahat olmeon. Mən deerəm bı sözi sizə. Həqiqətdə də belə olub 3-cü günü də ölüb babam.

## Allah istədiyinizi verdi

Bizim babamız Alməmmədin 9 qızı olub, 4 oğlu. Əvvəl onun övladı olmıyıb. Oğul övladı olmıyıb, qızı olub – 6 qız olub. Bi dənə dağdan katib var imiş azərbaycannı. Deyər Kərbəlayı, sənin heç oğul övladən yoxdu məgər? Deeb:

– Xeyr, yoxdu.

Deeb:

– Gələn səfər gələndə mənim bi dənə bacım var, onu gətirəcəm səninçün.

Gəlir bu onunla evlənür. Birinci ili olar qız, 7 qurban kəsəllər, 2-ci olar qız, 8 qurban kəsəllər. 3-cu ili deyər ki, mən gedirəm nahara, gəlləm qurbannarı kəsəm. Dağdan da adam gəlmişmiş. Görəy qızımızın nəyi oldu? Axir bı oğlan doğacağ. Alməmməd gəlib görüb kəsmeeblər, 12-ni kəsmişmiş, xəbər verib arvad içəridən ki, ay balam, Allah issədigüüzü verdi. Deməli oğlan oldu. Arvad bının adını qoyub Şirməmməd.

## Balığ istəmə

Günnərin bir güni keçmiş adamlar yiyən olub də, hamısı hər şey. İndi ya yaz olub, ya da payız. Yağışlı haveymış. Balığ da həməşə yağışda olar. Arvad deyər ki, bala deyəsən havalar yağışdıdı indi balığ olar ha. Əkbər kişi başa düşər ki, arvadın göölü balığ issiyir. Fikirrəşib, Allah, mən nağayrım nəyi satım? Neyneem? Meşə evin qırağındadu. Masallıda da o vaxtı çörəyçilər, nabatçılar zaddar varmış. Olar odun alar-

mışdar. Gedər bi yaxşı şələ odun düzəldər, səviyyəli, çox məsəl 5 manatdısa, biyaz da iri eliyir ki, aparar satar, gələr bazara. Gennən balığçılara fikir verər, görər orda yaxşı iri bi saz balığ var. Amma bi kişi onu danışdırır. Qulağ asır görür ki, balığı bu kişiyə deyir iki abasıya, kişi deyir, yooo mən bına bir abası verirəm. Kalba Əkbər deyir ki, mən ürəyimdə dua elerdim ki, ay Allah o kişi almıyeydi onu, mən bını aleydim. O kişi almır. Helə balaca o kişi o yana dönən kimi bı qaçır deer ki, neçiyə deersən, deer 2 abasıya. Çıxardır pulu verir, balığı alır. Bı dəmdə o kişi qayıdır geri. Deer:

– Ədə, sağır, yetim, sən mənim pılım ola ola, varım dövlıtim ola ola, o balığı almadım, sən yetim o balığı aldın.

Kalba Əkbər gör ona nə deyir:

– Sənin də anon sənnən balığ istəsə, sən də o qiymətə də olsa, alardun. Mən anamın xatirinə alam o balığı. Anam balığ istiyib, neçiyə desə, allam o balığı mən onunçün.

O çörəyi elə Allah o ananın üzünə verir də. Elə helə də deyillər ki, soralar elə o çörəyi də yeyir. Cünki soralar o çox dölətdənib, varranıb.

**Söyləyicilər:**

Rəfayıl Vahabov, doğum tarixi 1944, təhsili ali, Göylənni kəndi.

Həcər Həsənova, doğum tarixi 1950, təhsili orta, Şərəfə kəndi.

Muxtar Gənciyev, doğum tarixi 1951, təhsili ali, Ərəb kəndi.

Həsən Əhədov, doğum tarixi 1935, təhsili ali, Həsənli kəndi.

Vasif Alışov, doğum tarixi 1953, təhsili orta, Həsənli kəndi.

Musarza Mirzəyev, Mahmudavar kəndi, B., 1997

Nurəddin Ədiloğlu, doğum tarixi 1958, təhsili ali, Xırmandalı kəndi.

Ağaverdi Novruzov, doğum tarixi 1940, təhsili orta, Ərkivan kəndi.

Hikmət Xəlilov, doğum tarixi 1977, təhsili ali, Köçəkli kəndi.

Arəstə Əsgərova, doğum tarixi 1939, təhsili 7-illik, Ərkivan kəndi.

Yavər Abbasov, doğum tarixi 1937, təhsili orta, Gəyəçöl kəndi

İbrahim Sadıqov, doğum tarixi 1950, təhsili ali, Seybətin kəndi

Əli Əlişov, doğum tarixi 1938, təhsili ali, Köhnə Alvadı kəndi.

Mədinə Həsənova, doğum tarixi 1941, təhsili 7-illik, Xırmandalı kəndi.

İmran Nəzərov, doğum tarixi 1940, təhsili ali, Hişkədərə kəndi.

Hacı Əlihəsən, doğum tarixi 1939, təhsili orta ixtisas, Ərkivan kəndi.

Muxtar Muxtarov, doğum tarixi 1944, təhsili ali, Həsənli kəndi.

Bulqeyis Gözəlova, doğum tarixi 1947, təhsili orta, Xırmandalı kəndi.

**Toplayanlar:**

Füzuli Bayat (Gözəlov)
Qurban Əliyev
Çiçək Əfəndiyeva

# 7. YAXIN KEÇMİŞLƏ BAĞLI ƏHVALATLAR

Deməli, çox məşhur məhlədir Qala məhləsi. Dediyim o, yəni babamın qayınatası, nənəmin atası – ulu babam o dövrdə elə hey hələ qədim dövrlərdə hansı illər ki, mən bilmirəm bu Qala məhləsində yaşayb. Adı Mircavad Ağa olub. Mircavad Ağa bu bölgənin bəyi olubdur, bu bölgəyə, bu kəndə rəhbərlik edən Mircavad bəy. Nənəm Mircavad bəyin qızıdır. O dövrlərdə XVI əsrdə yaşayıbdır Şah İsmayıl Xətai. Şah İsmayıl Xətai öz qoşunları ilə İrana gedəndə onlar gəliblər Mahmudavarda Qala məhləsində istirahət ediblər. Qala nəyə görə deyilir ora. Onlar tərəfindən səngər qazıblar o qoşun tərəfindən, hətta divarları kərpiclə hörüblər. İndi o kərpiclər yoxdur. Onlar o vaxtı o nəslin yəni o dövrdə yaşayan ulu babamın nəslinin məkanı olubdur o yer. Deməli, o vaxtı onların bir başçısı olubdur da.

Onların gözəl bir qızı olubdur. Həddindən artıq gözəl olubdur. Şah İsmayıl Xətai indi bilmirəm onun neçə xanımı olubdur. Buda həmin xanıma vurulubdur. Biri var deyirlər 3-cü xanımı qalalı olubdur, biri də var deyirlər 7-ci xanımı qalalı olubdur. Yəni Şah İsmayıl Xətai burada onu kəbin edir. O qədər qız gözəl olur ki, qızı Şah İsmayıl Xətaiyə qulluq etmək üçün gətirirlər meydana yanına və ona vurulur. Hətda İrana gedəndə o xanımı qoymur axı onlar müharibəyə gedirlər. Deyir birdən əldən çıxar, nəsə olar. Yəni ki, hər şey ola bilər. O xanımı özüylə götürür aparır. Orada qələbə qazandıqdan sonra xanımı gətirir özüynən aparır. Həmin o, xanım mahmudavarlı qız olur. O, nəslin musiqiçilər nəslinin nümayəndəsi olur. Yəni belə şeyləri nənəmdən eşitmişəm. Belə şeylər olub biz bilmirik uşaqlar bilmirlər. Müasir dövrün gəncləri bilmirlər. Bu qalalar məhəlləsi yəni onlardan qalıb.

* * *

Bu mənim əmim qızıdır. Bunların cahı-cəlalını görmüşəm. Fələk belə gətirdi. Xülasə, razılığ verdim gəldilər, mənə dedilər ki, sən gəlginən camaat səni görsün. Neynən gəlim cırığdı çuxam, yamağlı köynəyim. Əmim arvadı mənə dedi ki, getməlisən. Dedim, ay bibi mənim əmim arvadın adı Ümnisədi dedim, axı mən ora neynən gedim. Paltarım yox, cibimdə pul yox, bir şey aparam. Dedi əmin deyir ki, getməlidir. Deyir qanundu. Gəldim köhnə yoldan aşağı düşürəm e ordan arx gedir. Hava qaralıb gördüm. Mənim qaynanam var idi. Demək istiyirəm bularında mən cahi – cəlalını görmüşəm. İndi gəlib heç zad. Hava qaralıb qaynanam dedi, əlindəki nədir? Dedim bax. Gəldik çayı nədə qaynadırdıq aftafada. Qara aftafada, çayı nədə içirdik fincanda. Çaya nəyi atırdıq qəndi yandırırdıq. Mən neçə dəfə demişəm ki, Allah hər şeyin yaxşısını bilir. Kamil insan nə qədər səbir eləsə, asan olar. Səbri gərək ola.

* * *

Günlərin bir günündə mən oğlumnan gedirəm bazara. Evdən çıxıncan bazara qədər mənə salam verdilər. Ağa, salam əleykim. Uşağ day yığıldı bura. Kinoteatırın yanında dedi:

– Ata, bular sənə niyə salam verir e.

Dedim:

– Oğul, mən oların atalarına salam vermişəm dedi indi mən olara salam verməliyəm ki, olarında evladları mənə salam versin.

Sonra dedi ki, ata, sən bu tərbiyəni kimnən almısan?

Dedim:

- Bala, hey yığışardılar həftənin birinci günü məsələn bizdə idilər, ya bazar günü başladıq söhbət eləməyə mənə de-

dilər ki, məsələn Füzuli var e, Xırmandalıda pay atonnan insan necə qabiliyyətli olar insan necə tərbiyəli olar. Səhər durudum düşürdüm arxasıycan görüm bu Füzuli neynir. Görürdüm Füzuli salam verir, skamekada oturub böyüyü gələndə durur ayağa belə-belə onun yaxşı xüsusiyyətlərini götürdüm. Sonra deyirdilər ki, filankəsin oğlu çox tərbiyəsiz uşağdı. Düşürdüm onun dalınca görürdüm o götürüb daş atır. Atam mənnən oturub dizbədiz demiyib bunu elə, bunu eləmə. Mən belə götürmüşəm. Ata dedi məntiq vara burda uşağ idi, beşinci sinifdə oxuyurdu. İnsanı paltarnan qarşılayıb kəlləynən yola salarlar. Gözünnən götürəsən yaxşını, pisdən vaz keçəsən. Masallı masal bəy deyirlər çox şeyə misal çəkirlər.

* * *

Babamgili sürgün eliyiblər. Məmmədəmin deyib ki, sən o pulları ver mənə, mən qoyum bu toxunulmaz bang deyirlər. Qoyum onu ora bir vaxt olar sənin nəsillərivə qismət olar. Qayıtsan heç, qayıtmasan qoy pulun əllərə düşməsin. Sənin gələcək nəsillərin qoy o puldan istifadə eləsin. Bu babam bu pulu verir ona Məmmədəmində buna xəbər verir ki, pulu qoyub toxunulmaz bangə. İndiyəcən o pul bizə çatmıyıb. O vaxt bangdə bundan istifadə eliyirmiş axı. O pul batdı.

Mənim xalamgili sürgün eləmişdilər. O vaxtı xalamın qızılları qalır burda. Məktəb var bu yanda orada paraxot dayanır. Nənəm götürür məni qucağına qızıllarıda tikir arxalığına pramoy praxota, minir praxota. Pramoy Astarxana gedir. Nənəm orada qızılları verir gəlir. Bizim bu kənd bular hamısı dəniz olub. İndi-indi açığlığ olub.

* * *

Kişi danışırdı ki, on iki on beş yaşı olub. Deyir gəldilər siyahı tutdular. Məscidin böründə kommunist partiyasına yazılardığ. Böyük axund yazıldı, kiçik axund yazıldı. Deyir gəldilər mənim Ağama dedilər, Ağa səndə yazıl. Dedi mən yazılmıram və bir dənə Allahın partiyasının üzvüyəm. Nə qədər elədi yoldaşlar yazıl yazılmadı. Gəldim soruşdum ay Ağa neyçündü, dedi ay bala, dünya dəyişəndən sonra o, partiya ona qalıb. Gələndən sonra hamısını bir dənə-bir dənə dənniyirlər. Tuturlar. O kişi də çox təmiz kişi olub.

* * *

Qağam deyərdi, mən oğruyam, amma baxır nətəri oğru. Mən omrü boyu kiminsə gedib mal heyvanını oğurruyam, ya birinin toyuğunu gətirəm uşaxlarıma yedizdirəm omrü boyu belə şey eləməmişəm. Mən qumaroyniyan olmuşam. Qağamın yaxşı qardaşdarı olub eeee. Bi qardaşı ölüncən kənd soveti işdiyib, bi qardaşı kolxoz sədri olub, bi dənə bu qumarbaz idi. Həm də dələğayı idi. Qumara uduzurmuş. Bi rəhmətdik Abi kolxoz sədri bunnan yaxın dost olub. Qumara bir yerdə gedillərmiş. Qumar oynıyannar da Səlyandan gəlirlərmiş. Səlyannan 2-3 nəfər gəlib birda qumar oynuyurlarmış, bular udduğunda dermişdər biz pul istəmirik, bizə cəltik, buğda verin aparağ. Uduzanda qağam dururmuş ayağa, kolxoz sədri belə göz eleermiş ki, yəni dimmə. 3-4 dənə siyəzi götür get. Gedirdim deer ambarın taxtasını cıxardardım, doldurardım, ağzın bağlardım, atardım ciynimə, aparıb atdım o səlyannının arabasına, sağ ol-sağ ol. Götürüb cıxıb gedərdilər. Mınnan da bitərdi.

Amma and icərdi ki, mən 1 kilo bi adamın bi şeyini oğurramamışam. Özu də cox quvvalı olub eee qağam. Sarı

Süleymannan güləşib. Sarı Süleyman özü qağamı şagird götürürmüş ozünə. Deyib gəl mənnən işdə, qağam deyib yox. Qumarı qoyub gedərdi heç. Ancax düzgün adam idi. Cox düz danışan olub. Oturardı məsəl evdə, biri vırıb birini öldürüb qan düşüb, ya məsəl hayatınnan tiryək, xaşxaş tapıblar. Durardı gedərdi 3-4 il iş veriləcək də filankəsə işi bağlıyardı gələrdi. Bir kəlməsiynən davalılar barışardı. Girdiyi qapıda sülh kəsərdi. Belə kişi idi. Qocu idi də.

Cox namıssı qiryətdi idi. Muharibə vaxtı qağam qacağtutan olub. At veriblər, belinə qatar, beşacılan, tufəng veriblər. Veriblər bi qacağları tuturmuş, muharibədən qacıb gizdənənnəri tuturmuş verirmiş təhvil. 3-nü deer tutdum təhvil verdim bi dənə orden deer vurdular burama. Deer, bi at veriblər mənə qara atdi vallah at deer əlləri üssə qalxır. Biri də deer ailəsinin az qalıbmış doğmağına, gəldim deer bını güdəgüdə gördüm deer bı evdədi. Gəldim yavaşca qapını açdım girdim icəri. Deer dik qalxdı ayağa. Arvadı yaylığını açdı atdı ayağımın altına kı, sən gəl mənim ailəmi aparma. 3-4 günə azad olacam. Mənim onnan başqa hec kimim yoxdu. Yetim adamam. Mən bına gümannıyam. Baxdım baxdım deer, dedim insandı dana. Əgər bı gedərsə vətəni qorumağa elə bu da vətəninin adamıdı də. Deer, dedim mən səni ələ verməərəm. Amma biz 2 yoldaşıq o da mənnəndi. Adı Mirzədi.

Nəisə üssünnən 4-5 gün kecdi səhər-səhərdi, atı minmişəm. Hələ hava tam işıxlaşmıyıb. Gedirəm deer. Yer də deer əl naziklikdə buzdu. Atı sürdüm bizdə cay var Adıgözəldi adı. Helə ora az qalmışdım, gördüm bi dənə atlı qabağında bi arvad gətirir. Arvad da buracağ tumanının ətəyini, tutub əlində gəlir. Yer buz, deməynən 3-cə gündü azad olubmuş. Mən də deer ayrı yerə getmişəm qacağ tutmağa. Bılardan xəbərim yoxdu.

Hə bi də gördüm atın qabağında Mirzə. Ayə, bu nədi dedim. Ağlım başımnan çıxdı. Ayə, bı nağayrır? Gəl ha gəl, gəl ha gəl gördüm əəəəə bu həmin qadındı. Suyu keçdim. Dedim, əəəə, bu kişilikdəndi? Bu arvadı neynirsən, sənə deyiblər kişini tut, bu arvadı neynirsən. Deer, dedi əmi belə başaa dönüm, ayağıın altında ölum sən də məni bağışda 3 gündü azad olmuşam.

Dedim:

– Ə, sən nə təhər adamsan.

Bunu deer hərbələdim. Qolumun pencəyini belə elədim ki, əli əlimə dəymısin. Bala Allahın da yanında üzüm ağdı bəndənin də, pencəyimi belə elədim, dedim bala yapış mənim əlimnən. Yapışdı burdan deer götdüm atdım atın tərkinə. Ata bi qırmanc, aman çəkmədi ki, hazır olduğ bunnarın hayatında. Hey deyərdi bala o uşaxların səsi mənim qulağımnan getmir. Biri 3 yaşında, biri 2 gündü doğulub. İkisi də nətəri ağlaşır, mələşir. Uşağın səsi beynimə girdi.

Dedim:

– Tfuuu nəhlət olsun sənə, sən nə yava adamsan.

Bala düş atdan, bıni düşürtdüm.

Mirzə bunu görndə:

– Paşa səni tutduracam dedi.

Getdim deer Masallıya rayona, gördüm ordadı. Gördüm oturub mənnən döşüyur. Mən əhvalatı olduğu kimi də danışdım böyükümüzə. Danışan kimi kişi qalxdı yerinnən hax-tfuu üzünə. Hec ölürsən? O nədi, əəəə, 2 körpənin sən anasını gətirirsən mənə təhvil verməyə, salaq türməyə o 2 körpəyə kim baxacaq?

Nəisə qacaxlardan 2-ni tutdum verdim, bunu isə ələ vermirəm. Deer, dedim səni ələ vermirəm ailəvi, uşağıvı saxla. İnan deer, az qalır uzana ayağımın altına. Belə oldu ki, o

Mirzə gedir deer ki, Paşa qacaxları görür tutmur. Deer, dedim ayə mən 4 qacax tutmuşam sən hec bir dənə də tutmamısan. Deer, yox mən tuta bilmirəm, sən qacırdırsan. Nə isə ikimizi də tutdular. İkimizə də iş verdilər. 6 il ona verdilər, 5 il mənə. Getdik türməyə. O orda öldü. Mən isə qayıtdım.

Qağam rəhmətdik öləndə də onnan 1 gün qabaq gedib bazara. Bazarın icində də hamam var idi. Orda yuyunardı. Təmizkar idi. Həm də yaraşıqlı idi. Hə gedib hamamda yuyunub gəlib qatığ alıb, deyib arvad bunnan doğa bişirərsən, arvad da səhər durub doğa bişirib. Balığ bişirib. Məscidə də gedib namazını qılıb, surfanu səriblər, hamı gəlib, gəlin, oğul, hami oturub yeyiblər günorta. Deyib:

– Hə, arvad hərif haxlıyıb məni. Dur məəm yerimi sal. Sən görmürsən, mən görürəm. Dur mənim yerimi sal. Arvad deeb, əşi, özüü itiribsən nədi, deeb sora Molla Yusifi çağır, uşaxları yığıb yanıma.

Arvad heç bilmiyib kimə deyə. Deer, həmişəki kimi bunun yerini beləsinə saldım, belə baxdı deer gülümsədi. Deer, dedi arvad dünya görübsən, sən tək, mən də ölü bu yeri kim döndərəcək? Mən ağzı qibləyə ölüm də, tərsiyə yox. Arvad deer məəttəl qaldım. Bunun yerin döndərdim üzü qibləyə. Soyundu, adicə ağ dizzig, ağ köynək geyindi, girdi yerə. Dedi, molla Yusifi çağır. Çıxdim çölə uşax tapıb molla Yusifə yolluyum. Gördüm bıy molla Yusif yolnan gedir. Çağırdım, a bala, sən Allah bura gəl, əminin kefi yoxdu. Gəldi. Kişi dedi, mənə yasin oxu. Molla dedi, əşi, sən də nə var e, dedi oxu sən görmürsən, mən görrəm bıdə mənnən üzbəüz dayanıb. Ay əmi, nədi? Sən görmürsən o hərifi. Yasinin birini oxudu. Əlini deer, bele eledi ki, birini də oxu. Birini də oxuyanda yarıya çatmışdı ki, kişi öldü.

* * *

Qağam yaxşı güləşəndi, toyda onun belini yerə vuran olmamışdı. O vaxt kənddə Müseyib adında biri vardı. Toyda bəzilərinin dolduruşuna gəldi qağamla güləşmək istədi. Cəngi çalındı, qağam rəhməttiy bu Müseyibnən güləşdi. Güləşəndə əlini belə qoyub belə-belə, belə-belə aşırdı. Ə paşa, məni yıxa bilərsən, Müseyib deyib qağama. Deer gəldi əlin belənçik tutdu qağam, atdı özünnən bu yana, Müseyib arxası üstə düşdü yerə. Camaat şapalağ vurdu güldü. Aşıx da bu yannan çalır. Hə, bi xeyləm oynadı 101-i havasına oynıyardı qağam. 101-i havası ən çətin havadı, hər adam oynıya bilməzdi. Elə belə-belə eliyərdi bir də gördün toyxananın o başındadı.

Bi gün hardansa pəhlivan gəlibmiş Xoççobannıya, burdan da gəlib qağamı aparıblar. Həə, qağam elə bil güləşəndə elə bi dəfə yapışıb belənçig əlinnən atıb özünnən bu yüzə. Bi də durub bunun üstünə gələndə əl atıb yapışıb burasınnan təkəlli qalxızıb göyə. Qalxızanda hamı başdıyıb hoy-hoy şapalağ vurmağa. Pəhlivan deyib sən Allah, qardaş, atma məni yerə, ölərəm. Qağam deyib səni mən atmaram axı yerə, amma sən mənnən güləşə bilməzsən. Ged özüvə bab adam tap çağırtdır.

Fərahim əmioğluynan da güləşməsi belə olur ki, hamı deyir ki, paşa qocalıb uje, 70 yaşı var. Fərahim də hündürboylu, kök, dolu adam idi. Həm əmioğluydular, həm də qonşu. O da deyir, ə, paşanı yıxmağa nə var? Bi o yana, bi bu yana gedib, gəlib qağama yapışmağ isdiyəndə qağam əlini çəkib deyib hələ gözdə güləşmə, hələ oynıyağ biyaz. Yox əmi, yıxmalıyam səni, sən yaşdısan, mən cavan. Qağamı zad eliyəndə belənçık eliyib qağam boynunu salıb qoltuğunun altına. Elə qolunun altında belə-belə qiçdarını eliyib, burdan dik qaldırıb yuxarı göyə. Deeb, ə, mən nə qədər yaşdı olsam da 5-6 dənə

sənin kimi cavanın quvvası var məndə. Qağam rəhməddig quvvalı adam olub. Həə, deeb əmi elə bil ayağım yerdən üzüləndə ürəyim üzüldü. Dedim öldüm daa.

* * *

Qağam rəhməddiy yeyən idi. Necə yeyəniydi, lətif xörəy yeyərdi. Da onun plov bişirtdirməyi camaatın canına vermişdi. Daimi quşa gedən idi, ova. Olmıyanda alardı. 20, 30, 40 dənə quşu birdən alardı, tökərdi evə. Qonşumuz vardı, əmim arvadı. Qağam dedi, get Səbiyəni şağır. Səbiyə gəldi, dedi qağa, nə qədə quş almısan. Dedi köməy elə əvvəl mınnan 3-4 dənəsini qoorun günortaya yeyəg. Sora başdıyun yarun, duzdıyun gedəndə sən də apararsan. Həmin günü 3-4-nü günortıya bişirdilər, hammız yedüg, axşama da 3-4-ün qoydu plovun altına. Həə, belə-belə bala. Əgər paşa qalseydi, indi bu kənd belə olmazdı. Nə böyügü bilinir, nə kiçiyi bilinir. Yola daş töküləcəg, qağam bi kəlmə dedi qutardı. Gedirdi kənd savetinə deyirdi filan yol filan yerə qədər düzəlməlidi, daş gəlməlidi. İxdiyarları nədi gətirməsinlər.

* * *

Əvvəl bura atalarımızın deməyinə görə, Ərkivanın asfaltına qədər çay olub, dəniz olub. Çünki biz quyu qazdıranda 4 metrədən sora kötüy çıxdı bu uzunnuğunda. Ordan bildüy ki, bura həqiqətən dəniz olub. Viləşçay da burdan keçib. Soradan çəkilib o tərəfə. Musa adında bir kəs gəlib burada düşüb koma düzəldib qalıb. O adnan da bura qalıb Musaküçə. Sora acığ eliyən gəlib bura, təzə yurd salan gəlib bura. Mənim ulularım Səlyanın Xolqarabucağından gəlib. Acığ eliyib gedib Səlyana. Babamın atası Xolqarabucağdan gəlib Səlyana ordan

da gəlib düşüb Musaküçəyə. Burda ailə qurub. Yeddi oğlu olub. Babmın atasının adı da Kərim olub. Böyük tayfa olub-lar. İndi məhəllənin adı atamın adıynan adlanır. Atamın adı Alıhüseyin idi. Məhəllə də Hüseynli məhəlləsi adlanır.

* * *

Deyillər ki, Azərbaycanda qurulan ilk sovet dövləti Xırmandalı bolşevik respublikasıdır. Deməli bizdə dəniz yolu olduğuna görə adətən bolşeviklər qacağ yolnan bizim kəndin ərazisindən kecib üzü Lənkərana gedirmişdər. Deyillər ki, Stalin dəfələrnən ordan kecib. Hətta bir kağız da yazıb verib ki, ilk bolşeviklər məkanı bu kənd elə özu olmuşdur və bu öz təsirini 32 kənddə birdən birə ya rayspalkom, ya hansısa başçı xırmandalıdan olub. 30-cu illərdə ilk başçı rayon icra komitəsi aryek dövründə olub. Səmərrux arvadın atası bu tarixi qeyd eliyib. Deer, bi gün Stalini tutubmuşdar, salıbmışdar Lənkəranda həbsxanaya. Bizim kənddən də bir kişi olur bu türmədə, adı Məcid olur. Stalinin dostdarı onu qutarmağ üçün türmənin divarının birini capıllar və Stalini qacırdıllar. Qaçanda Stalin deyir, ay kişi, gəl gedək. Kişi deyir, yox, mən qanunu poza bilmərəm. Səhər tezdən gözətcilər türmə işçiləri gəlillər, qapını acıb görüllər ki, türmənin bir divarı yoxdu. Soruşullar ki, a kişi, bəs nə baş verib? Deer, a bala, gəldilər çapdılar divarı onu apardılar. Sən demə bu kişi heç bilmirmiş ki, söhbət Stalinnən gedir. Deellər, bəs sən niyə burdasan? Deer, bala, divarın 4-nü də uçurtsaydılar mən elə burda da qalasıydim, mən qanun adamıyam.

* * *

Əhmədağa kişi olub bizdə pəhləvan cüssəli adam olub. O müharibə dövründə göndərilib müharibəyə cətin yerlərə. Çox

igiddiklər göstərib. Ona sovet ittifaqı qəhrəmanı adını verməyə az qalmış, rus dilini bilmədiyinə görə vermiyiblər. O vaxt rus kamandirrərdən biri bizim kətdə kəççinin birini rusca bilmədiyinə görə silahı cıxardıb vurmağ istiyəndə Əhmədağa kişi deyib:

– Ə kopoyoğlu, mənim kəççimi vurursan?

Həmin zabiti vurub. Onnan sora da rəhmətdik nə qədər cəhd eliyib sənəddərin düzəltməyə öz hakkını qaytarmağa alınmadı.

Həsənli kəndi azərbaycanda çoxdu. Xüsusilə şimali Azərbaycanda. Amma bizim cənub zonasının tarixinnən üst-üstə düşür. Həsən bəy gəlib bura, Cənubi Azərbaycanın Sulduz vilayəti olub, o ordan gəlıb. Burda bina eliyib 12 qəməran yeri. Qəməran torpağ sahiblərinə deyiblər o vaxtı. Yığıb oları başına 12 nəfər. Püşk atma yolu ilə bəylik qazanıb. Sora davam etdirib onun nəsli kökü bu ənənəni, kəndi idarə ediblər. İndi kənd 300 ildən artıq bir tarixə malikdir.

* * *

Puşkatma mərasimi qabağ belə olardı. Primitiv şəkildə. Tayfanın nə qədər adamı varsa, onun sayına görə uyğun qoz yığıllarmış torbaya. Səsvermə ancaq qoznan bildirilirdi. Məsələn, torbalar qoyulub ora. Sənin torbana nə qədər qoz atılırdısa o səsi qazanırdı. Qoz da torpağ sahiblərinə verilirdi. Hər adama yox. Olar da istədiyi torbaya atıb səs verillərmiş. Ya torba olarmış ya sərinc. Bizim babalarımızdan biri Kəlba Mahmud olub. 2 dəfə qazı secilib. Demək, bir qəlyanı varmış, bir mahud cuxası, bir də samovarı. Arvad buna yandı qındı verirmiş ki, sənə dedim ki, yığginən malı dövləti. Yığmadın. Elə belə də qalacağsan. Deer, arvad darıxma. Bir neçə ildən sora camaat yığışır bunu yenə qazı seçillər. Yenidən bu seçi-

lir. Deyir, arvad, gördün? Düzgünlük həmişə qalib gəlir. Xalqa nə qədər xeyir versən köməklik eləsən xalq itirməz.

* * *

Qızılağac! Bu ad haqqında çoxlu rəvayətlər söylənilib. Ancaq ad iki məfhumla bağlıdır. Biri qızıl-sərvət, dövlət, o biri ağac, uca, əzəmətli, vüqarlı. Bu kənd həmişə nəzər nöqtəsi olub. Qızılağac və cənub bölgəsi üzrə ən qədim məlumatı yunan tarixçisi Heredot, çoğrafiyaşünas Starabon verib. Ptolomeyin hazırladığı xəritədə Xəzər dənizinin sahilində Qızılağac şəhəri gösrərilib. O qeyd edib ki, Qızılağac şəhəri Viləş çayının Xəzərə töküldüyü yerin qərb sahilindədir. Heredot və Strabon öz əsərlərində Qızılağacın Midiya ərazisində yerləşməsini qeyd edilər. Makedoniyalı İsgəndərin vaxtında Qızılağac Midiya dövləti tərkibində olmuşdu. Bunu Plutarx özünün "İsgəndər Zülqərneyn" əsərində işıqlandırıb. O, yazır ki, İsgəndər Daranın vaxtında İrana hücum etmiş və Daranı məğlubiyyətə uğradaraq ( e.ə.331-ci il) onu həlak etmişdir. İsgəndər bu qələbədən sonra öz adamları ilə Hirkana (Lənkaran ərazisindədir) gəlmiş, oradan Qızılağaca gəlib Nefcalaya getmişdir. İsgəndər uzun müddət Nefçalanı mühasirə şəraitində saxlamışdır.

* * *

Kəndxudaya talışlar qısa şəkildə "kətto" deyirlər. Mahmudavarda kəndxuda seçkisi ədalətli, düzgün aparılırdı, o, heç də yuxarıdan təyin olunmurdu. Xankişi Kişiyev nəql edir ki, Mahmudavarda kəndxudalıq vəzifəsinə namizədi ağsaqqallar özləri irəli sürürdülər. Seçki günü bütün kənd camaatı, əsasən yaşlılar bir yerə toplaşır, göstərilən iki nəfər namizəddən birini seçmək üçün ortaya iki qoduş (süd sağılan qab) və yanında da

bir zənbil qoz qoyurdular. Hər kəs kimin kəndxuda seçilməsini istəyirdisə, bir qoz götürüb həmin namizəd üçün nəzərdə tutulan qoduşa atırdı. Axırda qoduşlarda yığılan qozları sayırdılar. Hansı namizədin qoduşuna daha çox qoz yığılırdısa, o, kəndxuda seçilirdi. Bu seçki üsuluna ciddi nəzarət edilirdi. Seçkilər müəyyən müddətə keçirilirdi, əgər kəndxuda özünü doğrultmasaydı, növbədənkənar seçkilər keçirilərdi. Beləliklə, hər yeni seçilən kəndxuda çalışırdı ki, müəyyən qrupun mənafeyini deyil, əhalinin böyük əksəriyyətinin mənafeyini müdafiə etsin. İndiki kəndxudalar rəiyyətlə çox vaxt hesablaşmır, bilirlər ki, onu aşağıdan deyil, yuxarıdan təyin edirlər.

## Xanlar da ədalətli idi

Tarix kitablarında xanlar və bəylər həddən ziyadə tənqid edilir, onları az qala dünyanın ən qəddar zümrəsi kimi qələmə verirdilər. İxtiyar babalar qaynaqlarda göstərilən faktlarla heç də tamamilə şərik deyillər. Onlar hakim sinfin istismarçı olmasını təsdiq etsələr də, bunu da qeyd edirlər ki, xanlar, bəylər və kəndxudalar xalq malını yeyib dağıdan indiki bəzi rüşvətxor və bacarıqsız təsərrüfat rəhbərlərinə nisbətən daha ədalətli olub, iqtisadiyyatı daha yaxşı idarə edir, əkinçilik mədəniyyətləri də yüksək idi.

## Mir Abdulla xan rəiyyəti sevirdi

Yüz yaşlı Seyid Hüseyn Həsənov Mahmudavarda yaşayan Talışxanov-Talışinskilər nəslini yaxşı tanıyır, o dövrün canlı şahidi idi. O nəql edir ki, Talışinskilər nəslindən olan xan-bəylər arasında hümanist, rəiyyəti sevənlər az deyildi. Onlardan biri Mir Abdulla xan Talışinski idi, o, rəiyyəti sevən

adam idi, camaata əl tutar, bayram günlərində dükanından onlara ucuz qiymətə şirniyyat, pal-paltar satdırar, borc verər, əkin vaxtı əkinçi rəiyyətlə bicarda işləyərmiş. Novruz bayramında rəiyyətlə "xan-xan oyunu" zamanı Mir Abdulla xanı cəzalandıraraq suya – Qamaş çayına atmışdılar. Bu, xanın xoşuna gəlsə də, qardaşlarının bərk kefinə dəymişdi. Nəql edilir ki, o, qardaşlarını həmişə rəiyyətlə yaxşı davranmağa sövq edərdi.

## Kərbalayı İsa Həzrət Məryəmin nəvəsini öpdü

1918-ci ildə kəndimizdə Mir Qasım xan Talışinskinin toyunda baş vermiş bir hadisə indiyədək yaddaşlarda qorunur. Toy Novruz bayramı günlərində təşkil olunmuş bir həftə davam etmişdir. Seyid Hüseyn Həsənov nəql edir ki, o, bu toyun canlı şahidi olmuş, yeddi gün toyxanada yeyib içmiş, hətta gecələr də toyxanada yatıb evə qayıtmamışdı, çünki özünün dediyi kimi anasının sözünə qulaq asmadığına görə atası ondan acıqlanıb evdən qovmuşdu. Seyid Hüseyn nəql edirdi ki, toyda baş verən bütün hadisələr onun gənclik yaddaşında möhkəm həkk olunmuşdur, çünki o, ömründə heç vaxt Mahmudavarda belə təmtəraqlı toy görməmişdi. Toya Lənkəran qəzasının tanınmış adamalrı dəvət edilmişdi. Çalğıçılar Bakıdan çağırılmışdı. Onlar özləri ilə Marusiya adlı bir rəqqas da gətirmişdilər.

Marusiya yarıçılpaq geyinmiş halda rəqs edir, hamının diqqətini özünə cəlb edirdi. Mahmudavar mühiti üçün nadir görünən bu səhnəyə tamaşa edən bığıburma kişilər ehtiraslarını zorla cilovlayırdılar. Əsəblər gərilmişdi. Marusiya növbəti dəfə rəqs edərkən Kərbəlayi İsa adlı ortabab bir kəndli özünü saxlaya bilməyib qeyri-ixtiyari ayağa durub Marusiya ilə rəqsə başlayır. Bir qədər rəqs edəndən sonra İsa kişi heç kəsin

gözləmədiyi halda Marusiyanı qucaqlayıb öpür və tez cibindən bir qızıl onluq çıxarıb rəqqasa verir. Marusiya pulu alan dəmdə İsa kişi onu yenidən öpür. Bu, məclisdəkilərin hay-küyünə və gülüşməyə səbəb olsa da, bəzi dindarlar bundan hiddətlənirlər. Guya ki, Kərbəlayi İsa xristian qadını öpdüyü üçün qusl verməlidir. Bu hadisəyə görə İsa kişinin bir müddət dini məclislərə qoymurlar. İsa kişiyə həm maddi və həm də mənəvi ziyan deyir. Buna baxmayaraq o, xristian qadınını öz kəndində öpən ilk mahmudavarlı idi.

* * *

O vaxt briqadalar var idi. Əkin-biçinçiliklə məşgul olurduq. Tərəvəz əkirdik. Yolluyurdug Urusiyaya, orda da neçəyə satılırdı, sovxozun hesabına o qiymət də gəlirdi. Məndə 9 nəfər işləyən olub. O dövürdə bir ilə bir gaz 24 alacaq qədər mükafat alırdığ. Son Sovet hökümətі dagılandan sora çox çətinlik çəkdik. Çox gorxulu vaxtlar oldu .

Keçmişdə kotan idi, yəni öküz deyirdik, malın erkəyi, onnan yer sürmüşüy. Gün ərzində 2 adam 15 sot yeri sürüb gurtara bilmiyib. Onu sürəndən sora 1-ci şumu var, 3-cü şumu var. Bu əlnən görülən işdər idi. Elə vaxt olurdu yagmurun vaxtı keçirdi. Texnika olmadığından lapatkenan, yavenan iş görürdük .

Gəyəçöl – mənası, “gen sahəli, geniş sahəsi olan” yerdir. Sahəsi gen olub tarixə gəlib düşüb Gəyəçöl. İsrafil, Şıxlar, Yeddioymağ kəndləri var, bu kəndə Gençölli diyirlər. Soruşanda hardansan? – Diyirsən – “ Gəyəçöl”dən, diyir Gən çöllisən. Dünya zadını araşdıranda, bizdən alayi kənddər bizə “Gençöl” diyəllər.

* * *

Bugdanı tökərdük tavaya onu qovrərdük tökərdük cibmizə gedərdük məktəbə. Kündə tutub fətir bişirərdik. Ondan bebelə qoyardıq başmızın altına. Aclıq idi. Azuqə yox idi də. Bebelə un tökərdüy, onu heyvana verirdilər ki, heyvanın qarnı agriyə. Onu tökürdüy qarışdırərdüy bir çömçə ola olmiya. Turpi töküb qəynədürdüy, yiyərdüy. Ayaga çarıg giyərdün e çarıg. Elə bil heyvanın gönü yoxdu? Göndən ayaqqabı düzəldirlər. Onu dögriyərdilər, qəzənə töküb, bişirib, yeyərdilər.

* * *

Atam Müzəffər 1901-ci ildə Nəcəf şəhərinə ruhani təhsili almağa gedir. 25-il Nəcəfdə təhsil alır. Ərəb qızinən orda evlənir. Bir oğlu olur, bir qızı. Oğlunun adı Yusif olur, qızının adı Bətul. 1926-cı ildə qayıdır. Maşallah zirək kişi olub, tək gedib, beş nəfərnən qayıdır. Gələnnən sora 32-37-ci ildə sürgün eliyirlər. Atam qacağ olub, bizi evdən qovublar. Mən anadan olmamışam onda. Dimək, 32-ci ildə bizi evdən çıxardıblar. Böyük çillədə qarda, şaxtada. Heç kəs bizi kəntdə saxlamaz. Nə əmi, nə dayı, nə qohum, heç kəs qorxusundan bizi saxlamıyıb. Bi dənə lüt ev varmış, balaca koma. İki qardaş orda olurmuşdar. Deməy, olar bizi saxliyarlar.

Qışın oğlan çağında otağı veriblər bizə. Anamnan, böyük nənəmə. Onnan sora özzəri çıxıb çölə. Palaz-malaz tutublar, balaca yerdə qalıblar. Haman yerdə mən anadan olmuşam. Guya ki, buların atası axunddı, sürgün eliyək getsin. Atam da gəlmiyib. Onnan sora atam gəldi. Atam gələndən sora 1941-ci ildə böyük qardaşım Yusif müharibəyə getdi, gəlmədi. Atamı onnan sora Bakıya Şeyx İslam idarəsinə nümayəndə seçdilər. 47-ci ildə Stalin qalmışdı. Onda bir neçə mol-

lalarnan göndərmişdilər atamı İrana. Təbliğatdı də eləmişdi Stalin. Onnan sora atam gəldi. Haman indiki məçid anbar idi. Taxıl-zad tökürdülər. Sora taxılı-zadı təmiziyənnən atam gəlib o məçidi açdı. Onnan sora o məçiddə bir neçə il İmam Hüseyn təzyəsin keçirtdilər.

* * *

Anamızın atası Balaca Kolatannan evlənib. Oda orda dərs alıb. Deməli, o orda evlənib Ərəb qızınən. Bu Ərəb qızınnən bizim anamız olub. Anamızın atası bizim atamıza deyir ki, day bu qızı başqasına yox, sənə verək. Atamızda qəbul eliyir, onu alır. 59– cu ildə atamız vəfat eliyir.

* * *

2 dənə Malakan var: Biri Göytəpə Malakanı, biri də Kalinovka. Kalinovkada heç malakan qalmayıb. Göytəpədə malakanın 2-3 dənə qala-qalmaya. Bizim evin qabagında iki meşənin arasınsda orada Mollahəsənli torpagı sayılır. 26 hektarlıg yer var. Elə bil külqabıdı. Hər dəfə oranı şumlyanda ordan saxsı qablar çıxır.

Stalinin vaxtında o səngərdən bu səngərə gedəndə o vaxt çox acdığ idi. Mən arxa cəbhədə briqadir işləyirdim, əsgər getməmişdim, onda mənim 20 yaşım vardı. Şunametr deyirdilər Məsələn, hər metirdə 100 qr. O vaxtı bilmədən eləmişəm 150 gr. Bilməmişəm quruyannan sora çəkmişəm. Məsələn, bunun müqabilində buğda gətirdim, toninan. 5 min ton olmalı idi . Olub 6 ton. Payızda götürəndə nəm olur axı. Mən 6 ton buğda ğötürmüşəm axı. 5 min vermişəm buğdadan 1ton artığ qaldı. Bunun atası dedi:

– Otur, bala, səbr elə, Allahın dostu səbr eliyən olar. Nəryədnən, şundametrnən olan şeydi.

Dedim:

– Nağayrağ mıni. Novruz əmi, əziyyətin özüm çəkəcəm. Hər kəs nə qədər şundametir çəkər qalan buğdanı böləcəm. Kimə nə qədər düşəcəy gecə aparıb hamıya paylıyacam. Mən qalan 1 ton buğdanı gecənən 5 kilo -10 kilo payladım, arxayın oldum.

* * *

Allah rəhmət eləsin. Hikmətin atası Hacı Maliki, onun babası Allah rəhmət eləsin. Babalı kişini. Babalı kişi özü avam adam olub. Quran oxuyan olub. Amma savadı olmuyub. Gəliblər ki, əsgərlikdən qaçan var imiş. Səlyandan gəlib, buda çıxıb damda gizlənib. Axundda gündüzlər damda qalarmış. Gecələr düşüb Babalıgilin üst evində qalarmış. Alt evində Babalı özü qalarmış. Bir gün rəhmətlik Axund orda damda gizlənib otların arasında, gəliblər ki, bu adamı gəzməyə. Neftçalalı ilə Axunduda tutublar. Axunduda ki, tutublar gətirsinlər Allah rəhmət eləsin yaxşı insanlara. Alişan müəllimin atası Fəyyaz olub – iki qardaş olublar. İndi Köçəklidən çıxardıblar. Həsəniyə tərəf gətirirlər. Ordan gələndə rəhmətlik İsrafil yeriyir irəli deyir:

– Axund, KKB bizim qabağımızda gedir. Biz yerimizi dəyişmək bəhanəsi ilə sənin arxanı boş qoyacayığ. Sən özüvü at bu qamışlığa qaç.

Axund rəhmətlik deyir. Bunlar yerlərini dəyişməyinən mən özümü atım sanduxa, o getməynən getdi. Birdən hər yerdə oxşama deməy ağlaşma Axund ölüb. Getdi Neftçalada yaşadı aralığa gətirib çıxmasına o, Mikayıl kişi Allah rəhmət eləsin, o səbəb oldu. Süleyman oğlu Mikayıl oda Rayspalko-

mun burda müavini işliyirmiş. Belə bizlərdə haqq sevər yaxşı insanlar olub. Allah rəhmət eləsin. Şeyx Bəşir, bizim bu Ərkivanda bir Mir Bəşir olub. Şeyx Bəşir Axund Nəcəf alimi olub. Şeyx Bəşir Axundu axtarırlar. Tutmağa gəlib çıxırlar Mir Bəşirgilə. Mir Bəşir də seyid babası olub. Deyirlər ki, Mir Bəşir deyir, mənəm, kişini aparıb salıblar zindana əzab-əziyyət eliyiblər. Mən Bəşirəm, Mir Bəşir demiyib ki, axund mən deyiləm, deyib qoy Axund sağ qalsın. Belə fədai insanlar olubdur. Mir Bəşirin sonradan məndə məktubuda var. Həmin Şeyx Bəşir Axundun həmən biz toplum yığırıq ki, kitab halına salmağa. Bu insan dörd dəfə epillasiyaya uğruyub. Var-dövləti izzəti hamısı əlinnən gedib. Belə işlərdə bunu yaşatmağ gələcək nəslə lazımdır. Məsələn, yetmiş beş dənə Nəcəf alimlərinin adlarını çəkib birbəbir. Bayaq dediyim kimi Fikrət müəllim deyir ki, atam yaxşı bilərdi, kaş bu vaxt tez gəlib tez gedəydi. Yəni burda ged-gedə tariximizi unuduruq.

Gələcək nəslimizi unuduruq. Hələ bir dənə Ərkivanda Allah rəhmət eləsin on yeddi dənə Nəcəf alimi olub. Ərkivanda rəhmətlik Molla Qulami axund olub. Allah rəhmət eləsin. Molla Qulami Axundun yanına biri gəlir, kəbin kəsdirməyə bu arvadın əri varmış. Əri ola-ola kəbin kəsdirir başqası üçün. Buna ki, deyirlər bunu sən etmisən, qaçır özün atır quyuya öz-özünü öldürür. Niyə mən belə səhv eləmişəm. Allah rəhmət eləsin Lənkəranda olub Molla Qulaməli Axund. Mollaları tutdu-tutdu özünü vurur dəliliyə. Oturarmış pul yığarmış. Durarmış atarmış pulu guyə, ay Allah, ay Allah neynürdün bu qədər camaatı yaratdun. Yəni bu yolnan özünü saxlıyıb türməyə düşmüyüb. Yetmiş beş dənə bizim burda Nəcəf alimlərimiz olub. Həmən Nəcəf alimlərinin başına qan işləri gətiriblər. Onların əksəriyyəti gedib Nargin adasına tökdülər. Allah lənət eləsin. O, vaxtı Mir

Cəfər Ağananın onun tədbiriynən onun göstərişiynən ki, Nəcəf alimlərinin kökü kəsilsin. Çox sözlər var.

* * *

Atamın da dindar öz atası olub. Çox dindar olub. Sovet dövründə sovet hakimiyyəti qurulanda Masallıda Nəcəfil Əşrəfdə oxuyan 112 şeyxin siyahısını tuturlar. Bunların hamısını sürgün eləmək uzaqlaşdırmağ üçün. Bu mənada Masallının Çaxırlı kəndində Şeyx Rəhmət axund bu da öz dövrünün alimlərindən idi. Bu alimi müəyyən adamlar çıxardırdı ki, o siyahıda adı getməsin. Bu da gəlir babama sığınır. Babam buna şərait yaradır Masallının Köçəkli kəndində öz evində bunu gizlədir. Deməli, bu ərəfələr də bunların başına çox hadisələr gəlir. Hətta bir nəfər deyir ki, Babalı sənin Şeyxi saxladığını bilirik. Bu xəbər NTB-yə çatsa səni güllələyəcəklər. Babalı deyir ki, mənim üçün xoşdur. Deyir, ailəvi uşağuvu o mənim üçün xoşdur. Sənə görə dakument var əlimdə. Deyir, necə sənəd olar o sənədnən də ölənə qədər gedərəm Peyğəmbərin yanına deyərəm, ya Peğəmbər, bir Şeyxi qoruduğum üçün məni şəhid elədilər. Ailəmi, uşağımı ailəmdən, uşağımdan keçdim. Əgər mən Kərbəla müsübətində oğlun Hüseynin yanında olsaydım onun qeyrətini çəkərdim. Bu cür bu Şeyxi saxladı.

Şeyxi saxlamaq onun ailəsini, uşağını, mal-qarasını da öz evində saxlıyırdı. Deməli, bir gün Şeyx üçün ot tayası qoyur qışa hazırlıq işləri görür. Şeyxin xanımı Fatma nənəni qaldırır tayanın üstünə özü aşağıdan otu verir nənə yuxarıda otu yığır. Bəzən otu ala bilməyəndə yuxarıdan ot düşür babanın başına saqqalına yapışır tərli adama yapışır. Hirslənir babam deyir ay Fatma alda bu otu. Bunu evin damında gizlənən Şeyx eşidir, Şeyx hirslənir. Axşam vaxtı babam yenə Şeyx üçün

dəstəmaz suyu aparır. Azan vaxtı babam yenə Şeyx üçün dəstəmaz suyu, yemək aparır. Şeyx deyir:

– Babalı, səhər arvadımın üstünə qışqırdığını eşitdim. Bu çəliyi əsanı elə vuraram başına başın partdıyar.

Babam bir söz demir düşür gedir. Babam gedəndən sonra Fatma nənə deyir ki, a kişi bu bütün ölümü, ailəsini, uşağını ölümünü gözə alıb, bizə evində sığınacağ verib. Mənnən böyükdü mənim üstümə qışqırıb onu mən keçirəm sən həzm eləmirsən bu sözü.

Deyir:

– Arvad, düz deyirsən.

Səhər tezdən sübh azanında yenə babam su götürür, dəstəmaz suyu, qalxır Şeyxin yanına. Şeyx bunu görür deyir ki, sən məndən yaxşı kişinin oğlusan. Səhər tezdənnən qalxıb yanıma mənə xidmət üçün gəlmisən. Deyirsən Şeyx sabahın xeyir, ancağ inandırım sən mənim evimdə qaçağ olsaydın səni o sözüvə görə aparıb NKV– də yatızdırardım bu sözüvə görə. Bu o kişilərin özünə məxsus hərəkətləri idi.

* * *

Günlərin bir günü NTB-də əsgərlər kəndə girir. Kəndə girəndə babam başa düşür ki, bütün hər yeri axtaracağlar. Dərhal özü girir süpürgənin altına, evdə də Şeyxi tapmaq üçün evin damına çıxırlar. Siz hay salın mən çıxacam süpürgənin dalından. Süpürgədə çöldən yığılıb satmaq üçün. Çöldə yabanı kökündən bitən süpürgələrdir. Girir babam gizzənir onun altında. Əsgərlər evin damını axtarmaq istiyəndə qadınlar hay salır. Babam süpürgənin altında. Baxırlar görürlər saqqallı zaddı bir qoca kişi, tuturlar babamı gətirirlər ki, bəs sən Şeyxsən. Deyir, yox, mən Babalıyam bunu tanıyanlardan biri iki nəfəri

çağırırlar deyirlər bu kimdi? Deyirlər Babalı. Bəs Şeyx Rəhməti tutmalı idi, əsgərlər bunu niyə tutub? Deyir mən əsgərləri gördüm kəndə girəndə qorxudan getdim süpürgənin altında gizləndim. Bu proses zamanı da Şeyxi damdan düşürdürlər. Dəyişirlər, bu bir bəhanə idi, Şeyxi gizlətmək üçün.

* * *

Ağa Palaz oğlu varmış. Sımavara kömür atarmış. Kömür başdıyarmış yanmağa, sımavar səs verir axı. O səsə bəm tutarmış, not tutarmış, oxuyarmış muğamı.

Sora aşığ sapı kəsib ortalığdan siqaretin kağızı yoxdu, "Avrora"nın kağızı onu qırarmış, onnan zü tutarmış, oxuyarmış.

İndi Masallıda aşığ yoxdu. Atabala idi, getdi rəhmətə.

* * *

1918-ci ildə Sığınacaq Çaxırrıda ermənilər olub. Erməni qızdarı hətta gül əkərmişdər. Ermənilər də yaşayıb burda ta 1918-ci ildə Nuru paşanın qoşunları gələnə kimi ermənilər at oynadıblar burda. Burda Nikalay yolu deyiblər, bu Prişiv yolu, Kalinovka yolu. Burdan rus daşnaq birləşməsi gedirmiş camaatı qıra-qıra. O yol bura yaxındı. Burda Məmmədalı adında bir adam olur o vaxtı. Yaxşı natiq olub o. Həm də ona türklərin generalı deyillərmiş. O deyib ki, mən imkan verməərəm ki, ermənilər bizim yurddan keçsinlər. O atəş açıb ermənilərdən birini vurub. Onnan sora olar da əvvəl məscidin güldəstəsin, sora isə kəndi yandırıblar. Camaatın çoxu qaçıb dənizə tərəf, yarısı meşəyə. 4-5 aydan sora qayıdıb gəliblər. Demək, martda olub hadisə, oktyabrda qayıdıblar. O zamana qaçaqaç deyirdilər. Xırmandalı camaatı da qaçaqaçda çox əziyyət çəkib.

* * *

Acxamramız dönüb daşa,
Süfrəmiz ortülüb başa.
Baxmayır qardaş qardaşa,
Ay sarı telli buğdaça.
Ay qara telli buğdaça.

Allah heç kimə müharibə gostərməsin, onu danışmaq özü zülümdü. Bı dediklərim 1943-cü ildən sorakı əhvalatlardı. Elə ki, gün batardı, görərdün bı kəndin ortasında, o başında, bı başında şüvən qalxdı. Yəni paştalyonnar qara kağızı gecə gətirərdilər. Mənim atam tez gedib gəlib muharibəyə, şıkəst olub, ona görə. Ona görə də biz yaşamışuy də atam gəlib işdiyib eliyib. 3-4 vəzifə aparırdı onda. Çəliynən idi. Atam yadımdadı qoşa çəliynən gəzirdi.

Vijdan haqqı bi də gördun kətdə bi müsibət qalxdı. Deyərdilər ədə filankəsin qara kağızı gəlib. O vaxt ona qara kağız deyirdilər. O hallar mənim heeççç yadımnan çıxmır dəhşət idi. Mənim yadımnan çıxmır bi də kadınnar, taxta götürüb sağsağannarı qovardılar ki, sağsağan, sağsağan xeyir xəbər, xeyir xəbər gətir. Hec vaxt bu səhnələri unuda bilmirəm.O vaxtı belə bir boyatı deyərdilər ki,

Uçubdur quşun sənün,
Yaşıldır başın sənün,
Gedəndə cüt getmişdün,
Hanı yoldaşın sənün.

Axı həmişə kətdən 3-4 nəfəri bir aparırdılar. Nəbilim belə. O vaxtlar kolxozda işliyirdi ancax qocalar, kadınlar və əlillər.

Mən bı təzə icra hakimiyyətində bir 6 il işlədim. Məni məsləhətçi kimi saxladılar. Mavin verdilər getmədim, sora gördüm ki, yox işləməli dööl. Bı dövrdə mən işdiyə bilmirəm.

Orda mənim üzümə dedilər ki, ədə, o vaxtı hələ bı kalxoz sədrrəri zadı yığıb, raykom katiblərinnən bi yerdə dağıdıblar. Mən cavab qaytardım başçıya da, mavinə də. Dedim, bə indi siz satdığuuzu kim tikib? Siz kişisüz deun bi dənə daşı daş üstə qoymuşam. Əyəm deyə biləllərsə. Elə gələn gəlir divarrarı kraskalıyır gedir.

* * *

Amma Şah İsmail Xətai Şeyx Heydərin oğludur. 550 il Səfəvilər sülaləsi hökmdar olublar. 250 il Abbasilər olub, 80 il Əməvilər olubdur. Şah İsmail Xətainin anası Qibti Məryəm gürci qızıdur. Bu öləndə, Heydər öləndə ona bir üzük verib. O da zəhərli olub. Deeb, nəbadə özüü düşmana verəsən. Gəliblər, bını öz dayısı əhatə eleyib, bı görüb ki, onu tutacağlar, həmən uziki salıb ağzına, onan da dünyasını dəyişib, qadın.

Lələ Hüseyin Şah İsmayılı götürüb qoyub cəbbarəyə (beşiyə) asıb ağajdan. Gəliblər axtarsınnar, and içib ki, İsmayil bu torpaxda döör. Axı ağajdan asıb. O vaxt çatdı ki, Şah İsmayil gəldi çıxdı 13 yşına. Ordan Ərdəbildən yavaş-yavaş gəldi çıxdı bu Ərçivana. Astaranın Ərçivan kəndinə. Yasir Həsən ordan bının gəldiyin bildi, xəbər göndərdi ki, Lənkəran xanlığına onu tutun. Deeb, məən nə işim var onnan, gəlib gəzməyə gəzir də. Ordan adam gönərər ki, ona xörəy bişirəndə zəhər töksün. Onu da güdəllər biləllər tutallar. Ordan Şah İsmayıl gəldi Xudafərin körpusunə. Dedi, mənim babam Cüneyd də bırdan keçib. Onnan sora özü birinci dəfə atı saldı, bütün mal qaranın da hamısını barkəzzərnən keçirdi.

Yasir Həsən bütün qoşunlarının hamısını çıxartmışdı şəhərdən, salmışdı qalıya. Kənd qalmışdı bomboş, birdən bı

kəndə gələndə hücum eləsinnər, tutsunnar. Amma bını İsmayıla xəbər verdilər. O da getdi qalanın qabağın kəsdi.

* * *

Bizim bi axundumuz olub, Qaryağdıoğlu Hacı Məhəmməd axund. 1804-ci ildə anadan olub, 1924-cü ildə ölüb. 120 il yaşeeb. Bu axund Nəcəfdə qutarıb, həm də tibb elmini də öyrənib orda. Bu ətrafda axundluğdan əvvəl həkimlik eliyib. Deeb camaatın gərək səhiyyəsiynən sağlamlığıynan məşğul olam. Axund məşhur olub həkim kimi. Sora da axund kimi. Məçid tikib bırda. 1902-ci ildə başdeeb 1907-ci ildə qutarıb. 5 ilə məçid tikiblər. Orda mədrəsə açlb, mənim babam, Sərəfə kəndinnən gələn başqa bi molla orda dərs verib, məllim olub. Mənim babam Molla Əliabbas (Əliş deyirdilər ona). Bu axund gəlib çıxıb sovet hökuməti dövrünə qədər. Onun oğlu da varmış. Onnan razı döörmiş axund. Müəyyən davranışlarınnan. Bı oğlan, gəlir bir gün gecə deer ki, ata, məni kənd soveti sədri qoydular. Axund da savaddıdı də deer ki, adə izah elə görüm, o sənin işün nədi? İzah eleer ki, bəs belə rəhbər oldum, camaata rəhbərrik eliyəcəm filan. Axund deer ki, ədə sən? Sən heç öz ailöə rəhbərrik eliyə bilmirsən. Deer ki, hə belədi də məni qoydular. Axundda bir hiss yaranır. İlahi bu hükumətin əyər rəhbəri bu olacağsa, vay o xalğın başına. Axund səhər süb namazına durur. Namazı qılır, Allaha yarvarır. Deer, İlahi, mən bu quruluşda yaşaya bilmərəm. Əgər məsləhətdisə, mənim canımı al. Axund öziyçin yer salır, üziqibliyə, uzanır elə orada da ölur.

* * *

Bizim kənd ruhani kəndidür. Əyri-üyrülər də var, bı sözsüz belədü. Bıların çoxı Nəcəfdə də oxuyanı var, Tehranada da

oxuyanı var, ən çox Ərdəbildə oxuyublar. Mənim babamgil bir yığın adam Ərdəbildə oxuyublar. Babam ordan gələnnən sora, kətdə onda bu qədər adam yox idi ki, indi 3 min əhali yaşeer, 1000 ev var və s. Yəni mollaya o qədər də ehtiyac olmadığınnan babam dərziliynən məşğul olub balalarını saxlıyırmış.

Bıları müsadirə eliyillər nəyi var, əslində dölətdi olmeeblar, elmə fikir veriblər ən çoxu. Babamın nəyi varmış alıblar. Hətta evin də müsadirə eliyillər, üst mərtəbə olur kənd soveti sədri, alt mərtəbədə bına bi zirzəmi kimi yer verillər. Biyannara bilir hessad eliyə bilmillər. İndi Yardımlıdu, Çanağbulağ, Bərcan bəlkə eşidərsüz Alar kəndləri sora, indi Cəlilabadındu Alaşar Vənni, Qızıldərə zad bı kətdərdə meşə kəndidür bılar, gedillər mollalığ eliyillər məhərrəmliylərdə.

* * *

Şirməmməd bizim babamız olub. Onun yeddi oğlu olub. Ən axırıncısı Kərbəlayi Əkbər kişi. Kərbəlayi Əkbər 1976 ildə 103 yaşında rəhmətə gedib. Şirməmməd ölənnən sora arvadı Şahnisə xanım 22 il yaşeeb. Deeb ancağ mən bı yetimcəmnən qalacam. Əkbərnən. Onda bı cavan uşağ olub. Bı da evlənmeeb, ta anasına istədiyi kimi qulluğ eləsin onnan sora. İndi bı anasına necə qulluğ eleeb?

Təsəvvür elə ki, onda qardaşdarı da qalırmış, hamısı da ona minnətdarlıq eliyillərmiş ki, qardaş sən bu arvada elə baxırsan, bizim hec birimiz sənin kimi bu nənəni saxlıya bilmərük. Analarına nənə deyillərmiş. Kalba Əkbər də hec kimdə qalmağa qoymurmuş arvadı. Getsə də axşam mütləq gedib kürəyində gətirirmiş. O, arvad yaxşı görməzmiş gözü. O vaxtı da indiki kimi tualet zad yox imiş. Kalba Əkbər neyneeb, bi dənə qatma bağleeb bının yerinin yanında, bi ucunu da aparıb

tualetəcən. Deyərmiş nənə bu qatmadan tut, get tualetə. Nənə ora gəlincə bı onun suyun zadın hamısın hazır eliyərmiş. Özi, ancağ özi. Çimizdirməyə də gəlinnərdən çağırarmış, su qoyarmış özü, hər şeyin eliyərmiş, indi deyərmiş soyundurun nənəni çimizdirün, yuyun.

* * *

Sora bizdə Səfəvilər dövləti gəlir. Bu dövlətə aid olan, Ərkivanda da görmüsüz yəqin Şah Səfi bulağı var, onların mənbələri, həm də ki, bizdə olar məskunlaşıblar, öz ordularını olar gətiriblər yerrəşdiriblər, həm də ki, olların qəbirləri bizdə rayon ərazisində səpələnib. Çünki bizim qəbristanlıqlarda onların qəbirləri var. Amma bizim öz qəbristanlığımızda Qızılbaşlara aid olan iki dənə qəbir var. Bunlar isə dəmir xəncərlər, qılınclardır, bir də dayan doldurumlardı. Bunlar bizim xanlığlar dövrünə aiddir və yeni Çar Rusiyası gələnnən soraya aid olan silahlardı. Bu da dayandoldurumlar və çaxmaxlı tufənglərdi.

**Söyləyicilər:**

Natavan Əliyeva, doğum tarixi 1964, təhsili ali, Mahmudavar kəndi.

Kərbəlayı Qulamhüseyn, doğum tarixi 1928, təhsili orta ixtisas, Alışanlı kəndi.

Rəfayıl Vahabov, doğum tarixi 1944, təhsili ali, Göylənni kəndi.

Mənsurə Abdullayeva İbrahim qızı. Doğum tarixi 1933, Qızılağac kəndi.

Cəmiyəpüstə Sadıqov, doğum tarixi 1920, təhsili yoxdur, Qızılağac kəndi.

Həsənova Mədinə. Doğum tarixi 1941, təhsili 7 illik, Xırmandalı kəndi.

Güləsər Dadaşova, doğum tarixi 1942, təhsili orta, Musaküçə kəndi.

Arif Fərzəliyev, doğum tarixi 1956, təhsili ali, Xırmandalı kəndi.

Həsən Əhədov, doğum tarixi 1935, təhsili ali , Həsənli kəndi.

Molla Kərbəlayi Nüsrət Qızılağaclı, Qızılağac kəndi, dünən və bu gün, B., 2003.

Musarza Mirzəyev, Mahmudavar kəndi, B., 1997.

Yavər Abbasov, doğum tarixi 1937, təhsili orta, Gəyəçöl kəndi.

Arəstə Əsgərova, doğum tarixi 1939, təhsili 7 illik, Ərkivan kəndi.

Möhsün Ağayev, doğum tarixi 1932, təhsili orta, Ərkivan kəndi.

Həsən Ağayev, doğum tarixi 1930, təhsili orta, Ərkivan kəndi.

Agababa Abasov, doğum tarixi 1926, təhsili orta, Mollahəsənli kəndi.

Hacı Mir Qiyas Təhməzov, doğum tarixi 1944, təhsili orta, Masallı şəhəri.

Hikmət Xəlilov, doğum tarixi 1977, təhsili ali, Köçəkli kəndi.

İbrahim Sadıqov, doğum tarixi1950, təhsili ali, Seybətin kəndi

Kərbalayı Nüsrət Nəsrullayev, doğum tarixi 1947, təhsili ali, Qızılağac kəndi

Əli Əlişov, doğum tarixi 1938, təhsili ali, Köhnə Alvadı

Məhəmməd Abıyev, doğum tarixi 1927, təhsili orta, Köhnə Alvadı

Əntiqə Tağıyeva, doğum tarixi 1971, təhsili ali, Hişkədərə kəndi

**Toplayanlar:**

Füzuli Bayat (Gözəlov)

Nuridə Muxtarzadə

# 8. LAYLALAR VƏ OXŞAMALAR

Laylay çallam yatasan,
Qızılgülə batasan,
Qızılgüllər içində,
Şirin yuxu tapasan.
Laylay, balam, a laylay,
Beşiyim, bələyim, laylay.
Evim, eşiyim, laylay.

* * *

Ürəyimin yaraşığı,
Balam laylay, a laylay,
Körpə quzum, a laylay,
Şirin balam, a laylay.

* * *

Laylanın səsi gələr,
Yatar yuxusu gələr,
Uzağ-uzağ ellərdən,
Balamın əmisi gələr.

* * *

Laylayı mən gülü mən,
Gülü mən bülbülü mən.
Balamın xətrinə dəysəm,
Gərək çəkəm zülmü mən.

* * *

Su gəlir arxa nə var,
Tökülür çarxa nə var,
Bala baldan şirindi,
Adı baldan şirindi.

* * *

Laylay, beşiyim, laylay
Evim, eşiyim, laylay
Qurban olam o günə,
Cəkim keşiyin laylay
Balam laylay, a laylay

* * *

Deyirdilər, yürügdə də uşaği yelliyərdilər ki, yatsın.

* * *

Bülbül gül üstündə xəstə olubdu,
Ürəyim də məhəbbətlə dolubdu
Balam, biz gedərgiyik qoca dunya qalıbdır
Balam laylay, a laylay
Körpəm laylay, a laylay.

* * *

Laylay çalım məzəsən,
Gülü-güldən təzəsən,
Qurban olum o günə
Ayağ tutub gəzəsən.
Balam laylay, a laylay
Gülüm laylay, a laylay.

* * *

Qızılgül dəstə-dəstə, a balam
Kim sevər mən həvəsdə
Balam laylay, a laylay lay
Əziz balam, a laylay.

* * *

Laylay çallam yatasan
Şirin yuxu tapasan
Laylay balacan, laylay
Körpə balam, laylay.

* * *

Laylay balam, a laylay,
Güllü balam, a laylay.
Körpə balam, a laylay.
Yat beşigində,
Duraram keşigində.
Laylay balam, a laylay,
Güllü balam, a laylay.

* * *

Balama naz eliyirdi,
Astara Bakı torpağı.
Balama kim göz vursa,
Gözünə bibər yarpağı.

* * *

Dilim imanım bala
Xara tumanım bala.
Allah səni verib mənə
Yana çırağım, bala.

* * *

Balama qurban quzular,
Balam haçan üz anlar
Balama qurban atlar,
Atlar çəməndə otlar.
Həmiləli arvadlar
Bu balama qurban.

* * *

Laylay beşıyim laylay,
Evim eşiyim laylay.
Sən yat yuxu alginan,
Man çəkim keşiyin laylay.

* * *

Balama qurban ilannar,
Balam hacan dil annar.
Balama qurban qoyunnar,
Balam hacan oyun eylər.

## Söyləyicilər:

Şabikə Bəşirova, 75 yaş. Dadva kəndi.

Həcər Həsənova, doğum tarixi 1950, təhsili orta, Şərəfə kəndi.

Ağabəyim Nuriyeva, doğum tarixi 1906, təhsili yoxdur, Qasımlı kəndi.

Gülcahan Ələkbərova, 75 yaş, Qızılagac kəndi.

Tağıyeva Fatma (Pərzad). Doğum tarixi 1938, Gəyəçöl kəndi.

Mənsumə Hüseynova, doğum tarixi 1948, təhsili orta, Xırmandalı kəndi.

Zəhra Bədəlova, doğum tarixi 1931, təhsili orta, Hişkədərə kəndi

## Toplayanlar:

Füzuli Bayat (Gözəlov)

Vüsalə Kərimova

İlahə Heybətova

## 9. BAYATILAR

Əziziyəm gül-gülə,
Bülbül gülə, gülgülə.
Göz gözdən kəmin aldı
Həsrət qaldı dildilə.

Əziziyəm yaş ağacı,
Kəsməzlər yaş ağacı.
Qaralar qəbrim olsun
Göyçəklər baş ağacım.

İlana bax, ilana
İlan göydə bulana.
Təzəcə yar sevmişdim,
Göndərillər İrana.

Su ilanı olaydım,
Ləkdən ləkə dolaydım.
Qardaş əkən çəltiyin,
Sünbülü mən olaydım.

Bu yol yolluğa gedər,
Ucu bolluğa gedər.
Yaxşı qızın cehizi,
Bəylərə xələt gedər.

Bu evlər uzun evlər,
İçində olsun toylar.
Yığışsın qız-gəlinlər,
Oynasın bəstəboylar.

Su gəlir arxa nə var?
Tökülür çarxa, nə var?
Məndən öz yarım küsüb,
Bilmirəm, xalxa nə var?

Əmim oğlu Mirağa,
Nöyüt töküb çırağa.
Piltəsin uzun eylə,
İşıq getsin İrağa.

Əmim oğlu, sən nəsən?
Sən məni bəyənmirsən?
Eləsinə gedərəm,
Sən onun nökərisən!

Su gəlir iki haça,
Yar gəlir qaça-qaça.
Əlində qızıl qayçı,
Yaxasın aça-aça.

Sən mənim andım, oğlan,
Şəkərim, qəndim, oğlan.
Necəsən, bir ah çəkim
Olasan bəndim, oğlan!

Oymaqdan gəl, oymaqdan
Yar gəlir oynamaqdan.
Barmaqlarım yanıbdır
Paprıza od qoymaqdan.

Şalım qara boyandı,
Ucu yerə dayandı.
Mənim ah-zarımdan
Göydə fələk oyandı.

Ağdaşdan gəl, Ağdaşdan,
Ağ Gəncə* düşdü başdan.
Bacının sənətidir,
Tez ayrılar qardaşdan.

Ay dolanır batmağa,
Yuxum gəlir yatmağa.
Gecə yuxusu şirin,
Qıymıram oyatmağa.

Su gəlir lülə-lülə,
Yar gəlir gülə-gülə.
Əlində ipək dəsmal,
Tər-qanın silə-silə.

Qızıl üzük füruzə,
Gedin deyin xoruza,
Bu gecə banlamasın,
Yarım gələcək bizə.

Evləri burda yoxdu,
Köçübdü, yurdu yoxdu.
Getdim pələt ağzına
Dedilər, evdə yoxdu.

Mirvari aldırmışam,
Boynuma saldırmışam.
Bir oğlana getmişəm,
Aləmi yandırmışam.

Qardaş gedib bazara,
Cibində şam qızara.
Qardaşın düşmənləri
Sabah düşər azara.

Qardaş, sən arayıbsan,
Telini darayıbsan.
Özün alagöz oğlan
Yaruva yarıyıbsan.

Lənkaran hacıları,
Başında tacıları.
Qurban olsun qardaşa,
Qoşaca bacıları.

---

* Gəncə - baş örtüyü

İstilin[*] dalaları
Kəkliyin balaları,
Qurban olsun qardaşa,
Qoşaca bacıları.

İstilin gül-gülləri,
Oxuyur bülbülləri.
Qurban olsun qardaşa,
Qoşaca bibiləri.

Ləmə çıxdım mən bu gün,
Ləmdən tapdım bir düyün.
Yad oğlu mənim nəyim?
Yadıma düşdü bu gün.

Evləri yaxın yarın,
Boyuna baxın yarın.
Gözəldir, göz götürməz
Nişanın taxın yarın.

Evdən evə zəng olar,
Eşqə düşən dəng olar,
Tuteydun könül quşun,
Göreydün nə rəng olar.

Dəyirman boyu çiçək,
Çin gətir, onu biçək.
Qardaş bir qız sevibdir,
Uzunboy, qarabirçək.

Əmim oğlu bir idi
Üstü-başı kir idi.
Getdim onu yumağa
Axar sular qurudu.

Şərəfənin o üzü,
Yatışıb qoyun, quzu.
Qurban olsun qardaşa
Hər sürüdən bir quzu.

Kəhər at qaçdı, gəldi,
Yüyənin açdı, gəldi.
Xanımlara muştuluq
Bəylər barışdı, gəldi.

Əlin əlimdə deyil,
Şalın belimdə deyil.
Sənin başun ağrısı
Mənim əlimdə deyil.

Nizami gedir Mərəndə
Tamaşadı gələndə.
Vay Nizaminin halına
Qaynanası öləndə.

---

[*] İstil – süni şəkildə düzəldilən gölməçə və ya su anbarış İstildən çəltik əkinində istifadə olunarmış.

Ay, Nizamın həndi var
Həndi var, şəhəri var
Hər qapıda oynasa,
Bir nəlbəki qəndi var.

Mənim yarım kasıbdı
Üzünü tük basıbdı.
İstədi üzün qırxa.
Qayçısın pas basıbdı.

Mənim balam naşıdu,
Qaşı qələm qaşıdı.
Oturanda bəy kimi,
Duranda yüzbaşıdı.

Sürmə çəkin gözlərə.
Şəkər qatın sözlərə.
Bir damla qanımız,
O da qurban sizlərə.

Mən aşiq oyun eylər,
O günlər oyun eylər.
Yar-yara qovuşanda
Bayramın o gün eylər.

Mən aşiq binə gəlləm.
Gedərəm, yenə gəlləm.
Əlim əlivə dəysə,
İmana, dinə gəlləm.

Aşığ ellər ayrısı.
Şana tellər ayrısı.
Bir günüvə dözməzdim,
Düşdüm güllər ayrısı.

Gülü əkdim dübara.
Bülbül onu süvara.
Yayı bir yerdə olduq,
Qışda qaldığ avara.

Su atdım, yara dəydi,
Qolum divara dəydi.
Dilim, ağzım qurusun,
Nə dedim yara dəydi?

İstil üstə putrax.
Dövrə vuraq oturaq.
Bivəfa yar əlindən
Dustağ olağ oturağ.

İstil üstə dur, oğlan,
Kəklik gəlsə, vur oğlan.
Eldən-elə aşığdı.
Süfrə dolu qaşığdı.
Bizim oğlan neynəsün?
Sizin qızdar aşığdı.

O taydan əl eyləmə,
Bağrımı qan eyləmə.
Sən mənimsən, mən sənin,
Özgə xəyal eyləmə.

Bu yol yolluğa gedər,
Ucu bolluğa gedər.
Qurban olum qardaşa,
Gələr qulluğa gedər.

Gedən alagöz oğlan,
Qoltuğunda saz oğlan.
Al qələmi əlinə,
Mən dediycə yaz, oğlan.

Gedirsən neynim sənə,
Düşübdü meylim sənə.
Özüm özüvə qurban,
Daha mən neynim sənə?

Yeri-yeri gəlirəm,
Qolumu düymələyirəm.
Aç qollaruvu, gəlim mən,
Uzağ yerdən gəlirəm.

Yeri-yeri, nişan yar.
Təzə eşqə düşən yar.
Elçiləri qırılmış
Özü elçi düşən yar.

Bu gün yemiş yemişəm,
Yara sözlər demişəm.
Dilim, ağzım qurusun
Acığımdan demişəm.

Ay getdi, batdı ola.
Gün getdi, batdı ola.
Sənin bu narahat canın
Dincəldi, yatdı ola.

Ayın qədri olmaz.
Günün qədri olmaz.
Hər uşağın atası-anası olmasa
Onun qədri olmaz.

Aşığ hayannan gəldi.
Teykən yanınan gəldi.
Göydə bulud yox idi.
Bu sel hayannan gəldi?

Dağlarda sənəy olmaz.
Sənəyi yeməy olmaz.
Canım bir oda düşdü.
Heç yerdə deməy olmaz.

Dağların sarı gülü.
Ağ gülü, sarı gülü.
Mən fələyə neynədim
Görmədim tarı gülü.

Dağlar duman oldu, gəl.
Halımız yaman oldu, gəl.
Aylara vədə verdüz
İliviz tamam oldu, gəl.

Dağlari gəzdim, gəldim,
Daşdari düzdum, gəldim,
Yari bivəfa gördüm
Əlimi üzdüm, gəldim.

Dağlar duman oldu, gəl,
Halım yaman oldu, gəl,
Nə dedim mən dili yanmiş,
Evim talan oldu, gəl.

Su gəlir yarpızdığa,
Tökülür qarpızdığa.
Gördün işün müşgüldü,
Özüvü vur arsızdığa.

Əzizim, Ərzuruma,
Ərizəm var Ərzuruma.
İşi özüm tutmuşam
Gərək dözəm hər zuluma.

Aşığ ellər ayrısı
Başda tellər ayrısı.
Bir dərdüzə dözməzdim,
Düşmüşəm illər ayrısı.

Aşığ el bərabəri,
Başda tel bərabəri,
Yaxşı evladdarım var,
Tamam el bərabəri.

Baxça məndə, bar məndə.
Heyva məndə, nar məndə.
Sinəm ətdar dükanı,
Hər nə desən var məndə.

Araz aşdı başımnan.
Kür qovuşdu başınnan.
. . . . . . . . . . . . . . . . . .
. . . . . . . . . . . . . . . . . .

Bağçamızda miyana
Gül yastığa boyana.
Oxu, bülbülüm, oxu,
Bəlkə yarım oyana.

Bu yoldan yol saleydım.
Karvanımı bol saleydım.
Bilseydim hardan gəlirsən
Oradan yol saleydım.

Aşığ, o gün oleydi.
Zülfün bu gün oleydi.
Sənnən keçirdiyim günnərin
Biri bu gün oleydi.

Əzizinəm, yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Yaram çox, sana gəlməz,
Təbib gəlsə yüz yerdən.

Yaralıyam, yatmaram.
Yaram ağrar, yatmaram.
O qədir dərd məndə var
Heç kəsin dərdinə qatmaram.

Dağda maral bozdadı,
Tükün göyə tozdadı.
Getmisən, tez qayıt gəl,
Qəm məni yalqızdadı.

Yarəm Ay batdı ola,
Mələk gül atdı ola,
Mənə baxtəvər deyənnər,
Dincəldi yatdı ola.

Qızım qızlar içində.
Əyrisi var qıçında.
Qızıma elçi gələr
Gələn ayın üçündə.

Mən aşıq o gün eylər.
Zülfünü dügün eylər.
Haçan qardaşım gələr.
Toyunu o gün eylər.

Araxçının məndədi.
Yumuşam, çəməndədi.
Aləm gözələ dönsə,
Mənim gözüm səndədi.

Qızıl üzük laxladı.
Verdim, anam saxladı.
Anama qurban olum
Məni tez adaxladı.

Dağda maral xoş mələr.
Xoş dayanar, xoş mələr.
Dərdimnən söhbət açsam,
Dağ dayanar, daş mələr.

Sizi qoşa deyərəm,
Coşa-coşa deyərəm.
Ayırmaram sizi bir-
birinizdən
Əzizlərim, həmişə qoşa
deyərəm.

Qarabağda talan var,
Talan üsdə talan var.
Gedirsən tez qayıd gəl,
Gözü yolda qalan var.

Mən səni el bilirəm,
Başımda tel bilirəm.
Uca dağlar başında
Səni qurumaz göl bilirəm.

Gəlmişəm görəm səni,
Zülfün yox hörəm səni.
Nə qapı yox, nə pəncərə
Açam bir görəm səni.

İstil üsdü pıtrağ.
Məsgən tapağ, oturağ,
Bivəfa yar əlinnən
Hara qaçağ qutarağ?

Çıxdım çini divara.
Baxdım alagöz yara.
Mən baxdım, o baxmadı
Nəhlət bivəfa yara.

Dağısdan dağ yeridi.
Gürcüsdan bağ yeridi.
Ancağ bizim Masallı
Qızların bol yeridi.

İsdil içi pizədü.
Yolu rizə-rizədü.
Atamın cavan oğlı
Naçalnikə mirzədi.

İsdil üsdə oturmuş.
İpəy dəsmal götürmüş.
Mən bir oğlan sevirəm
İnistitutu bitirmiş.

Evdən evə işığdu.
Sürfə dolu qaşığdı.
Bizim qızlar neyləsin
Sizin oğlan aşığdu.

Əzizim, gülə-gülə,
Caladım gülü gülə.
Niyə evimi yıxdın
Üzümə gülə-gülə?

Əzizim, axar, gedər.
Ağ sular axar, gedər.
Bu qəmli pəncərədən
Çoxları baxar, gedər.

Əzizim, ağlamazdım.
Qəlbimi dağlamazdım.
Bilsəydim gələcəksən,
Sənə yas saxlamazdım.

Əzizinəm, baxdı kəm,
Fərmanı kəm, baxtı kəm.
Sənin yolunda oldum
Üzü dönük, baxtı kəm.

Əzizim, nə şad olsun,
Sürmə çək qaşa, dolsun.
Məni səndən ayıran
Nə gülsün, nə şad olsun.

Əzizinəm, bir də mən,
Bir sən ola, bir də mən.
Səni əğyar aparsa,
Necə dözüm dərdə mən.

Mən aşıq, bacınam mən.
Sirr qalmır, açıram mən.
Belə xaraba kənddən
Baş alıb qaçıram mən.

Gülü sancdım divara.
Bülbül onu suvara.
Yayı yarnan keçirtdim,
Qışı qaldım avara.

Muğanın göy çəməni,
Göyərib göy çəməni.
Ya gəzərəm taparam,
Ya vurar ovçu məni.

Gedirdim qırağıynan,
Gül biçdim orağıynan.
İtirmişəm yarımı.
Axtarram sorağıynan.

Dəryalar atdı məni,
Naqqalar utdu məni.
Mən fələyə neylədim,
Naləsi tutdu məni?

Savalanım buz bağlar,
Dörd yanı yarpız bağlar.
Burda cavan oğlanın
Yarasını qız bağlar.

Mən aşıq, atma məni,
Yüklərə qatma məni.
Sənnən zəhmət çəkmişəm,
Bu gündə atma məni.

Qəribəm, vətənim yox,
Dadıma yetənim yox.
Nə gedən var, nə gələn,
Axtarıb tapanım yox.

Əzizim, vətən sarı,
Geyməyə kətan sarı.
Çıxeydim dağ başına,
Baxeydim vətən sarı.

Əzizim, yazana qaldı.
Qış getdi, yaza nə qaldı?
Mürvət qələmdə deyil,
İnsaf yazana qaldı.

Başıma baş bağlaram,
Ujdarın boş bağlaram.
Desələr qardaş gəlir,
Xəstə olsam, qalxaram.

Bayquşam mən, bayquş mən.
Hər quşlardan say quş mən.
Nə dərdim var, nə qəmim,
Sızıldaram yay-qış mən.

Keşgə bir quş olaydım,
Yola qonmuş olaydım.
Səni vurmuş ovçunun
Qolun tutmuş olaydım.

Mən aşiqəm, yaraşıq,
Kimsə gəzər yaraşıq.
Dolan, tap o zənəni,
Olsun ömrə yaraşıq.

Mən aşiqəm yarasa,
Fəhmnən uçar yarasa.
El unutmaz bir kəsi,
El dərdinə yarasa.

Ata minən ağadır,
Atın yolu dağadır.
Yaxşı qulaq as, yarım,
Bu bayatı sənədir.

Ay doğdu, gecə oldu,
Gün doğdu, uca oldu.
Bu ayrılıq çox olar,
Halımız necə oldu?

Əlinin babası var,
Belində əbasi var.
Özü pis oğlan deyil,
Nə kifir anası var.

Ayı tutdum qaraldı,
Gül bənizim saraldı.
Yarımnan ayrı düşdüm,
Dünya mənə daraldı.

Dərələr buz bağladı.
Ovçular iz bağladı.
Məni bir gəlin vurdu,
Yaramı qız bağladı.

Al xara, yaşıl xara,
Ciyərim para-para.
Mənnən salam aparın
O qara gözlü yara.

Axşamın vaxtı keşdi,
Bir gözəl baxdı, keşdi.
Zülfünü kəmənd edib,
Boynuma taxdı, keşdi.

Gülü sancdım divara,
Bülbül onu suvara.
Oxu, bülbülüm, oxu,
Bəlkə yatan oyana.

Mən aşiqəm, qal indi,
Qalmalısan, qal indi.
Mən ki, getməli oldum,
Kimə qalırsan, qal indi.

Mən aşiq, yaşıl ördək,
Yaşıldır başın, ördək.
Həmişə cüt gəzərdin,
Hanı yoldaşın, ördək?

Gülü bişdim avara,
Düzdüm, yığdım divara.
Qışı sənnən qışdadım,
Yazı qaldım avara.

Mən asiq, yedi məni.
Qurd oldu, yedi məni.
Bir nadana sir verdim,
Aləmə dedi məni.

Buxarı qurum oldu,
Od yandı, qurum oldu.
Ağır ellər içində
Tək mənə zülüm oldu.

Mən aşiq, yaza nə qaldı?
Qış getdi, yaza nə qaldı?
Mürvət İlahidəndi,
Yazı yazana nə qaldı?

Mən aşiq, keşdi mənnən,
Ox dəydi, keşdi mənnən.
Mərddərə körpü oldum,
Namərddər keşdi mənnən.

Mən aşiq, ozan olmuşam.
Dərdə dözən olmuşam.
Dərd mənə güjdü gəlib,
Kağız yazan olmuşam.

Quzu, quzu, çal quzu,
Çal qoyuna çal quzu.
Duman gəldi, itirdim,
Duman getdi, gəl, quzu.

Mən aşiq, abdal olubdur,
Yığmamışam, abdal olubdur.
Gündə oxuyan bülbül
Bu sabah lal olubdur.

Sərinci düz qoyginən,
Plovu süz, qoyginən.
Məni sənə verməzdər,
Papağı düz qoyginən.

Mən aşiq, dua göndərrəm,
Salam-dua göndərrəm.
Özüm gələ bilmədim,
Çox-çox dua göndərrəm.

Mən aşiq, gül biçərəm,
Gülü güldən seçərəm.
Vətənimin yolunda
Gözlərimnən keçərəm.

İstil üstə at gedər,
At gedər, murad gedər.
Yaxşı qızın cehizi
Oğlana xalat gedər...

İstil üstə kücü var,
Kücünün 40 ucu var.
Siz sevdiz, biz gətirdik,
Bizdə bəylər gücü var...

Keçi ağaca çıxdı.
Keçinin qıçı çıxdı .
Yava-yava danışma
Sözünün pısı çıxdı.

Bu yola bələdəm.
Getməmişəm bələdəm.
O qədər qəm çəkmişəm,
Qəm gölünə bələdəm.

Dağları gəzdim, gəldim.
Daşdarı düzdüm, gəldim.
Gəzdim dünyanı, gəldim.
Əlimi üzdüm, gəldim.

Bagça, bağa dəydün sən.
Heyva, nara dəydün sən.
Mən oturmuşdum öyümdə
Gəldün ürəyimə dəydün sən

Arxalığı qola sal.
Qoldan çıxart, qola sal.
Hansı yoldan gəlmiş olsan
Qoynuva qol salaram.

Qohum qardaş bir yana
Hamıdan ata-ana şirindü
Atam evindən bar iysi gəlir,
Heyva, nar iysi gəlir.
Atam evində atam yox,
anam yox
Atam evindən mənə
zəhirmar iysi gəlir.

Səməni yeməy olmaz.
Suyunu içməy olmaz.
Canım bi dərdə düşüb
Heç yerdə deməy olmaz.

Mən aşıg, ölməmişəm.
Baş yerə qoymamışam.
Hamsı məndən doymuş olsa,
Mən öz yaşımdan
doymamışam.

Apardı çaylar məni.
Həftələr, aylar məni.
Yüküm olub qurğuşun,
Yorub bu taylar məni.

Dəryada cəcim gördüm,
Cəcimin ucun gördüm.
Mən fələyə neynədim?
Fələyin üzün gördüm.

Bir gəmi gəlir Lənkəran üstə,
Birində şabalıd, birində püstə.
Qızım hər vaxt gəlsən,
Yerin var gözlərim üstə.

Dönüm, başıva döndərim,
Səni bazara göndərim.
Sən bazardan gəlincə,
Sənə elçi göndərim.

Əziziyəm andın, oğlan,
Şəkərim qəndim, oğlan.
İstərsən sənə bir ah çəkərəm,
Olarsan bəndim, oğlan.

Oğlan oyuna gedər,
Çoban qoyuna gedər.
Əlimə xonça götürüb,
Sənin şirni toyuna gedər.

Oğlan, adıva qurban.
Alma, dadıva qurban.
Təkcə səni demirəm,
Sevdiyin adaxlıva qurban.

Yox aşıx tatar məni,
Qul eliyib satar məni.
Qurban, bafalı oğlumsan,
Axtarıb tapar məni.

Aşıx oyuna gedər,
Baxar boyuna gedər.
Sənə bir qoç saxlaram,
Sənin şirni toyuna qədər.

Yox aşıx talxa məni,
İlanlar içində talxa məni.
Zəhmət çəkib canımı
qoymuşam,
Yurd qoyub gəlmişəm,
Onu özüm üçün qoymuşam.
Azərbaycanımı verməræm
xalxa mən!

Kaş vətəndə oleydim,
Qarabağı aleydim.
Bacı, əliyi ver əlimə,
Yaramı bağliyeydim.

Mən aşıqəm dağlara,
Qulax verin ağlara.
Əgər məni unutsaz,
Əgər məni yoxlamasaz,
Məni “nənə”, – deyib
tapmasaz,
Ovçu sallam dağlara!

Açıx qoyun pəncərəni,
Gözüm görsün gələni.
Əgər Qurban burdan
gedəndə,
Vüsalə balam burdan gedəndə
Ona canımı qurban verərəm,
Onun xəbərin mənə diyənə.

Aşıx oyuna gedər,
Baxar boyuna gedər.
Bu balalarım Allah qoysa,
Sənin toyuna gedər.

Mən aşıx oxla məni,
Ox götür, oxla məni,
Nə atam var, nə anam,
Oğul balalarım, qız
balalarım,
Gəlin arada yoxla məni.

Analar yanar ağlar.
Günləri sanar ağlar.
Analar olar bir göy
gögərcin,
Yollara qonar, ağlar.

Laylay çallam gülinə,
Bül-bül oynar gülinən.
Analar balasın çağırar,
Şirin şirin dilinən.

Əzizinəm yaz, göndər,
Payız göndər, yaz göndər.
Oğul, məktub tapmasaz,
Yarpaq üstə yaz göndər.

Kol üstə yumirta,
Oğlum, məni unutma!
Əgər məni unutsan,
Məktubumu unutma.

Mən səni yad eylərəm,
Qonşuda əmanət eylərəm.
Gedib oğluma catmasan,
Bil ki, qiyamət eylərəm!

İmza özüm.
Qutardı sözüm.
Cavab gözləyir,
İntizar gözüm.

Ruckanı cernilə belə
bağladım,
Xatirəmi oğul, sənə belə
bağladım.

Yeddioymağın
dərinliyindən,
Oğul balama salamlar olsun!
Bu dünya durduqca o da
var olsun!

Əzizim, balam yoxdu.
Hardadı, balam yoxdu.
Demirəm şad döyüləm,
Şaddığnan aram yoxdu!

Gedirsən mani apar,
Getmə, qiyamət qopar.
Sabah bazar günüdur,
Hamı öz yarın tapar.

Su üzində nanayam,
Ağ ürmə pərvanayam.
Atam muharbədədi,
Dəliyəm, divanayam.

Su üstə gülli xalça,
Kim qaldıra, kim aça.
O yara qurban olaram,
Dindirib könlüm aça.

Əzizim, özümnən,
Bu dağlara dözümnən.
Ah çəksəm aləm yanar,
Çəkməsəm, özumnəndi.

Əzizim, sənnən ötrü ,
Bimanam sənnən ötrü.
Mən birda qalmaz idim,
Qalmışam sənnən ötru.

Əzizim, sini-sini,
Doldur ver sini-sini.
Mənə öz balam gərək,
Neynirəm özgəsini.

Əzizim, şəkər canım,
Qəm-qüssə çəkər canım.
Mən yara neynəmişdim,
Qəm-qussə çəkər canım.

Bu dağdan aşaram mən,
Qana bulaşaram mən.
Vəfalı yarim olsa,
Dünyada yaşaram mən.

Uçar gedər yar-yar,
Köçər gedər yar-yar.
Bu evin böyük qızı,
Saba köçər yar-yar.

Suların səriniyəm
Soruş, ay oğlum, ay qızım,
Haralıyam?
Mən də bi el qəribiyəm.

Nehrəm, mo, mo, mo
Ayranı göz yaşıycan,
Yağı məsələn filankəsin başıycan.

**Söyləyicilər:**

Elşad Zeynalov, doğum tarixi 1974, təhsili orta, Qızılağac kəndi.

Nahidənin kitabından.

Mənsurə Əbilova, 100 yaş, Şərəfə kəndi, Nahidənin kitabından.

Rəfayıl Vahabov, doğum tarixi 1944, təhsili ali, Göylənni kəndi.

Həcər Həsənova, doğum tarixi 1950, təhsili orta, Şərəfə kəndi.

Cəmiyyəpüstə Sadıqova, doğum tarixi 1920, təhsili yoxdur, Qızılağac kəndi.

Gülcahan Ələkbərova, 75 yaş, təhsili yoxdur, Qızılagac kəndi.

Rübabə Ələkbərov. Doğum tarixi 1929, təhsili 7-illik, Qızılağac kəndi

Güləsər Dadaşova. Doğum tarixi 1942, təhsili orta, Musaküçə kəndi.

Fizzə Allahverdi qızı, doğum tarixi 1935, təhsili 7-illik, Hacıtəpə kəndi.

Əlizaman Baxış. Hacıtəpə (Keçmişdə və indi). B., 2010

Nurəddin Ədiloğlu, doğum tarixi 1958, təhsili ali, Xırmandalı kəndi.

Gülxanım Tağıyeva, doğum tarixi 1928, natamam orta, Gəyəçöl kəndi.

Arəstə Əsgərova, doğum tarixi 1939, təhsili 7-illik, Ərkivan kəndi.

Səmərrux Süleymanova, doğum tarixi 1924, təhsili orta ixtisas, Xırmandalı kəndi.

Minaxanım Yusubova, doğum tarixi 1948, təhsili orta, Xırmandalı kəndi.

Ülkər Əhmədova, doğum tarixi 1958, təhsili orta, Xırmandalı kəndi.

Mahirə Bədəlov, doğum tarixi 1952, təhsili orta, II Yeddi-oymaq kəndi.

Arif Fərzəliyev, doğum tarixi 1956, təhsili ali, Xırmandalı kəndi.

Məşədxanım Mirzəyeva, doğum tarixi 1931, təhsili 7-illik, Hişkədərə kəndi.

Şabacı Quliyeva, doğum tarixi 1924, təhsili 7-illik, Hişkədərə kəndi.

Rəxşəndə Məmmədova, doğum tarixi 1936, təhsili 7-illik, Şərəfə kəndi.

**Toplayanlar:**

Füzuli Bayat (Gözəlov)
Vüsalə Kərimova
Nuridə Muxtarzadə
Qurban Əliyev
Aganənə Məmmədova

## 10. AĞILAR

Qardaş-qardaş, quş qardaş.
Çevril ol gümüş qardaş.
Bacın qərib yerdədir, bacın qurban,
Atını döndər düş, qardaş.

Göydən gedən quşa bax.
Qanadı sınmışa bax.
Aləmə pay paylandı.
Mənə yağan daşa bax.

Hər kəndin öz adəti var. Hər kəndin özünün adamları ayrı-ayrı yeddi gün ağlaşma tutar. Mənim qardaşım atam rəhmətə gedəndə, mən uşağ olmuşam da, özü dilə gəldi, dedi: Ağlıyın görüm, kim nətər ağlıyır? Sağlığında deyirdi. Danışdı, Yasinin oxudu, bəlkə bir yüz nəfər adam var idi. Qardaşım can verən gecəsində dedim:

Qardaş, sən mənim diləyim idin.
Qəfil görünən qonağım idin.
Gəl mənim canım, ürəyim, qardaş.
Gəl mənim gözüm, ürəyim, qardaş
Qardaş biriviz sağ gözüm, biriviz sol gözüm.
Birviz ürəyim, biriviz canım.

Biri bacım oğlu idi, biri qardaşım idi. Bakıda həkim işliyirdi. Deyirdi:

– Bir at mindim başı yox.
Bir çay keçdim, daşı yox.

Mənə deyərlər burda bir qərib ölüb
Yanında qardaşı yox.

Aşığ olmayaydım.
Saralıb solmayaydım.
Dünyada bir ayrılığ, bir ölüm,
Heç biri olmayaydı.

Qardaşlar, a qardaşlar,
Yağış yağar, qardaşlar.
Tabutum əyri gedər,
Yapışmasa qardaşlar.

Bala dağı, bal dağı,
Əzizəm bala dağı.
Hər yaralar sağalar,
Sağalmaz bala dağı.

Deyir, əzizinəm, ağlamazdım.
Sızlardım ağlamazdım.
Ana, bilsəydim vəfan budur,
Sənə bel bağlamazdım.

Mən aşiq dolana-dolana,
Dur gəl, dolana-dolana.
Balaların yazığdı, yatma torpağda,
Dur gəl, dolana-dolana.

Deyir, bu qızın adı nədi?
Şənbədir adı nədir?

Bala saxladım böyütdüm,
Bilmədim dadı nədir.

Dağlara bax, dağlara,
Şeh qonub yarpağlara.
Hayıf sənin canınnan,
Qarışdın torpağlara.

Qardaş, dinmə qan olar,
Yel əsər, tufan olar.
Qardaş, gəzən yollaruva,
Tək bacın qurban olar.

Balam can, ay balam,
Can, ay balam, can,
Çağır məni, ana, bala,
Deyim sənə can.

Anam, məndən sonra qəmli dayanma,
Məndən sonra qəm oduna sən yanma.

Əslim Qarabağlıdı,
Sinəm çarpaz dağlıdı,
Gəl mənə dəymə fələk,
Ürəyim oğul dağlıdı.

Qoyunu kəsən olmaz.
Qanaradan, asan olmaz.
Qərib yerdə ölənin
Gözlərin basan olmaz.

Gözlədim birdən bilməz.
Sən qəmdə, mən fikirdə.
Öləndə cüt öləydiy,
İkimiz bir qəbirdə.

Qaşları qibləgahdu.
Yada baxur günahdur.
Dağları duman alsa,
Bil ki, mən çəkən ahdu.

Meşənin yaş ağacı.
Kəsməyə yaş ağacı.
Bağa baltalı girdi.
Gördü bizim ağacı,
Kəsdi bizim ağacı.

Şalım qana boyandı.
Ucu yerə dayandı.
Mənim ahu-zarıma
Göydə fələk oyandı.

Qəribəm bu vətəndə.
Gözüm yoldan ötəndə.
Qəriblik yaman olur,
Baş yastığa yetəndə.

Səlyana binə gəlləm.
Gedərəm, yenə gəlləm,
Bilsəm hardan gəlirsən,
İmana, dinə gəlləm.

Dağların sarı gülü,
Ağ gülü, sarı gülü.
Fələyə neynəmişəm
Görmədim tarı günü.

Dağlarda səməy olmaz,
Səmayi yeməy olmaz.
Canım bir dərdə düşdü,
Heç yerdə deməy olmaz.

Dağları gəzdim, gəldim,
Daşları gəzdim, gəldim.
Gəzdim, tapa bilmədim,
Əlimi üzdüm, gəldim.

Dağların göy çəməni,
Göyərib göy çəməni.
Gəzib taparam səni
Ya vurar ovçu məni.

Dəvəçiyəm gəzirəm,
Dəvəm itib, gəzirəm.
İtirmişəm balamı,
Soraqlaşıb gəzirəm.

Gəlmişəm görəm səni,
Zülfümsən hörəm səni.
Nə qapı, pəncərəm var
Bir açıb görəm səni.

Dəryaya atdı məni,
Nəqqalar utdu məni.
Fələyə neyləmişdim?
Nalələr tutdu məni.

Mən aşiq, oxusana,
Bülbülüm, oxusana.
Hər gün oxuyan bülbül,
Kim atdı oxu sana?

Mən bu bağa gəlmişəm,
Yağa-yağa gəlmişəm.
Götürmüşəm dərdimi
Ağlamağa gəlmişəm?

Getdi, gələ bilməzsən,
Zülfün hörə bilməzsən.
Elə yerdə yatıbdır,
Bir də görə bilməzsən.

Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi.
Viran olub tökülləm,
Xaraba bağlar kimi.

Mən aşiq çaşdım yenə,
Qaynadım, coşdum yenə.
Dərd mənə elə üz verdi,
Kəlməmi çaşdım yenə.

Köynəyi ağ saxlaram,
Yuyaram, ağ saxlaram.
Bir də əlimə düşsən,
Səni qonaq saxlaram.

Mən aşiq uymamışam,
Baş yastığa qoymamışam.
Sən məndən doymuş olsan,
Mən səndən doymamışam.

Əlimə saz verdilər,
Sazıma naz verdilər.
Yalvardım təbiblərə
Dərmanım az verdilər.

Gəl-gəl, gərəyimsən,
Beşiyim, bələyimsən.
Qərib yerdə ölürəm,
İndi gəl, gərəyimsən.

Mən aşiq, bacı, bağlar,
Açar, qıyğacı bağlar.
Bacımın sınıq könlün
Bağlasa, bacı bağlar.

Aşığ ellər ayrısı.
Sona tellər ayrısı.
Bir günüvə dözməzdim,
Düşdüm illər ayrısı.

Dağların göy çəməni
Göyərib göy çəməni.
Ya gəlib taparam səni.
Ya vurar ovçu məni.

**Bunu onda deyirlər ki, evin böyüyləri öləndə:**

Bağa girməli deyül.
Gülün dərməli deyül.
Gedib bağın bağbanları,
Gəlib görməli deyül.

Bağa girmərəm sənsiz,
Gülün dərmərəm sənsiz.
Bağda quzu mələsə,
Bil ki, o, mənəm sənsiz.

Ağac aşanda ağlar.
Kür qovuşanda ağlar.
Ana balasından, bala anasından
Ayrı düşəndə ağlar.

Aşığ ellər ayrısı,
Bacım laylay, bacım laylay
Sona tellər ayrısı,
Bacım laylay, bacım laylay.

Deyir, bacı, bütün ayrılığuva dözməzdim
Elə düşdü ellər ayrısı.
Laylay bacım, laylay.

**Arvadlar qoşulur səs verir. Hərənin öz avazı var. Ana üçün ağlayanda belə deyirsən:**

Mən aşığ ana yeri.
Xan yeri, ana yeri.
Bütün aləm yığılsa,
Heç verməz ana yeri.

Dağların başı sənsən.
Dibinin daşı sənsən.
Bütün aləm yığılsa,
Hamının başı sənsən.

Dağlarda sənəy olmaz.
Sənəyi yeməy olmaz.
Elə bir dərdə düşdüm.
Heç yerdə deməy olmaz.

Nərgizlər, ay nərgizlər.
Top-top bitər nərgizlər.
Hayıf sənnən
Torpağ örtər, yer gizlər.

Mən aşığam, ay dərdim.
Vay dərmanım, vay dərdim.
Hamı gül əkdi, gül dərdi.
Mən gül əkdim, vay dərdim.

Deer yerüz soyuğ olmıyeydi,
Qızılgül solmıyeydi,

Bir ayrılığ bir ölüm,
İkisi olmuyeydi.

Dərya, sənnən kim keçdi?
Kim qərq oldu, kim keçdi?
Əzrayıl sinəyə çökəndə
Göz önünnən kim keçdi?

Dəryada fənar yanar.
Baxdıqcan iraq yanar.
O qədər dərd mənim var,
Dedigcən ürəg yanar.

Yolda maral durmuş oldu.
Boynunu kəc burmuş oldu.
Zalım ovçu sərrast oldu,
Atam oğlun vurmuş oldu.

Yük yığıb, dayanmadı.
Ev tikib qoyammadı.
Ardıycan ağlamağa,
Bir kəsi olammadı.

Aşıx barat, eylədim.
Halım barat eylədim.
Yığdığını, dərdiyini
Kimə barat eylədim?

Aşıx ozan olmuşam.
Ozanı yozan olmuşam.

Tutmuşam dişimə qəmli qələmi,
Almışam əlimə dərdin dəfdəri,
Qəm-qüssədən betəri
Bayatı deyən olmuşam.

Mən aşıx, bu xaniyə,
Bu qana, bu xaniyə.
Kimin belə dərdi var
Gəlsin bu qəmxaniyə.

Əzizim, birəm dağlar,
Gülüm yox dərəm, dağlar.
Mənim ahu-zarımnan
Göydə mələklər ağlar.

Ay taleyim, ay dərdim,
Vay dərmanım, vay dərdim.
Gül əkənlər gül dərdi,
Mən bəs niyə vay dərdim?

Mən aşıq, sulu dağlar,
Çeşməli, sulu dağlar.
Mənim ahu-zarımnan
Göy kişnər, bulud ağlar.

Əzizim, ulu dağlar,
Çeşməsi sulu dağlar.
Mənim ahu-nalama
Göydə mələklər ağlar.

Su axar, yeri yaş qalar,
Daş zindanda daş qalar.
Oğlu gedən ananın
Gözlərində yaş qalar.

Araz axanda ağlar,
Kür qovuşanda ağlar.
Analar balasından
Ayrı düşəndə ağlar.

Mən aşiq, özüm ağlaram,
Özüm deyib, özüm ağlaram.
Dərdimi bilən olmaz,
Özüm deyib, özüm ağlaram.

Mən aşığ, bala dağı.
Bal dagı, bala dağı.
Hər yaralar sağalar,
Sağalmaz bala dağı.

Tüfəngimin mazı var,
Atmamışam, azı var.
Bala, səni sinidim
İllərcən yaşı var.

Oçular olmasın,
Caxmağı qo almasın.
Səni vuran oçular,
Əlləri qo* olmasın

---

* qo – qoy

Mən aşığ, doymamışam,
Baş yasdığa qoymamışam.
Sən bizdən doydun getdün
Biz sənnən doymamışuy.

Qızılgül olmiyaydı.
Saralıb, solmiyaydı.
Bir ölüm, bir ayrılıq
İkisi olmiyaydı.

Gedirəm giran olsa.
Dərdimi bilən olsa.
O qədər ağliyaram,
Gözümə tor gəlincə
Ay bacım, lay-lay.
Anam, lay-lay.
Atam, lay-lay.

Ay sevgilim, səndən qeyri kimim var,
Gəl üstümə.
Aman öldüm, bi kəs öldüm, dad öldüm,
Aman öldüm, bi kəs öldüm, yad öldüm.

Mən aşığ, uymamışam,
Baş yerə qoymamışam,
Sən mənnən doymuş olsan,
Mən sənnən doymamışam.

Fələgin zənciri kürəgimdədi,
Zalımın zənciri biləgimdədi.

Soruşursuz mənə bayatı de, şeer de,
Bala, yarın,[*] ürəyimdədi.

Bu çaylar axar gedər,
Evləri yıxar gedər.
Dünya bi pəncərədü,
Hər gələn baxar gedər.

Açığ qoy pencərəni,
Gözüm gürsün gələni.
Qəbrə necə qoyalar,
Gözü yolda qalanı.

Yanaram, mən yanaram,
Göydə ulduz sanaram.
Hər yadıma düşəndə
Balam, onda mən yanaram.

Aşığam, gözdə məni,
Kababam közdə məni.
Payım qoy paylar üstə,
Gəlirəm, gözdə məni.

Pambığ aralı qaldı,
Başım darağlı qaldı.
Hitlerin gözü çıxsın,
Qızdar adaxlı qaldı.

---

[*] yarın – yarmaq mənasında

Hitler gəldi yol qoydu,
Bumaşnigə pul qoydi,
Hitlerin gözü çıxsın,
Gəlinnəri dul qoydi.

Göydən gedən quba qazlar,
Maşın vurar, tükün tozlar.
Əslidən mənə bir xəbər.
Məktub səni kim gətirdi,
Mən xəstiyə kim yetirdi?

**Söyləyicilər:**

Gülsüm Muradova, doğum tarixi 1937, təhsili 5-ci sinif, Xallıcalı kəndi.

Mənsumə Hüseynova, doğum tarixi 1938, təhsili 7-illik, Xırmandalı kəndi.

Mədinə Kərimova, doğum tarixi 1942, təhsili 7-illik, Şərəfə kəndi.

Həcər Həsənova, doğum tarixi 1950, təhsili orta, Şərəfə kəndi.

Rübabə Ələkbərova, 80 yaş, təhsili natamam orta, Qızılağac kəndi.

Güləsər Dadaşova, doğum tarixi 1942, təhsili 7-illik, Musaküçə kəndi.

Fizzə Abdullayeva, doğum tarixi 1935, təhsili 7-illik, Hacıtəpə kəndi.

Əlizaman Baxış, Hacıtəpə kəndi (Keçmişdə və indi), B., 2010.

Gülxanım Tagıyeva, doğum tarixi 1928, təhsili yoxdur, Gəyəçöl kəndi.

Arəstə Əsgərova, doğum tarixi 1939, təhsili 7-illik, Ərkivan kəndi.

Məşədxanım Mirzəyeva, doğum tarixi 1931, təhsili 7-illik, Hişkədərə kəndi.

Şabacı Quliyeva, doğum tarixi 1924, təhsili 7-illik, Hişkədərə kəndi .

Rəxşəndə Məmmədova, doğum tarixi 1936, təhsili 7-illik, Şərəfə kəndi.

Həlimə Rzayeva, doğum tarixi 1924, təhsili yoxdur, Digah kəndi.

**Toplayanlar:**

Füzuli Bayat (Gözəlov)
Qurban Əliyev
Nuridə Muxtarzadə
Vüsalə Kərimova
İlahə Heybətova

# 12. ADƏT-ƏNƏNƏ

Uşağı da böyüg yanında qucağa götürməzdilər. Bi dəfə gördüm qaynatam ordan gəlir, uşağı elə tulladım pola az qaldı keçinsin. Qaynatam dedi: – “Gülcahan, indi səni çıxardaciyam o bana, mən də səni ordan tulliyacam”. Heç öz uşağın da dindirməzdilər böyük yanında. Arvadın da adını deməzdilər. Gizdin çağırardılar. Him-cimlə çağırardılar.

## Sünnət toyu

Sünnət eliyəndə adam var, adam yığır, toy eliyir, çalğı çaldırır. Dəllək gəlirdi, uşağları kəsirdi. Xonça yığırdılar qədimdə hərə bir xonça qayırırdı, vururdu qoltuğuna zənənlər aparırdı. Kişilər gedirdi. Əməlli-başdı toy eliyirdilər. Neçə qazannarnan xörəy bişirirdilər. Camaat gəlirdi, yeyirdi, gedirdi. Ondan sonra dəllək gəlirdi, uşağı sünnət eliyirdi. Kirvə yox idi. Əmi tuturdu, dayı tuturdu, əmi oğlu tuturdu. Olara xonça verirdilər, pul verirdilər.

Sünnət lap beşikdə olan uşağı da eliyillər. Qabağkı dəb ayrıydı, indiki ayrı. Qabağ bi dənə molla çağırarduğ, gəlirdi uşağların yerin-yadın qayırırdı. Dəlləy də. Biyaz xörəg eliyirdüy, şirin qoorma eliyirdüy, tooğ kabab eliyirdüy. Belə də, kimim gücü nəyə çatardı. Həə, kəsirdilər uşağları, yıxırdılar yerinə. Sora xörəy-yad da çəkilərdi içəridə belənçiynə. Kirvəsi olardı uşağın, ona da pul, padarka verərdilər, uşağı tutana da, kirvə deyərdilər. Kutarannan sora da uşağın əlinə də pul verərdilər.

## Əsgər yola salma

Əsgərriyə yola salanda Quran altınnan keçirdirdüy. Qonum-qonşu yığılardı yola salarduğ, göndərərdüy. Gələnnən sora da qurban kəsib paylıyarduğ qapı-qapı.

Əsgərliyə yola salanda onda aparırdılar avtobusa mindirirdilər. Allah, Məhəmməd çəkirdilər. Salırdılar yola, gedirdi. Gəlirdi, gedirdi, bacı, qardaş, qohum-əğrəba. Qurban kəsirdilər. Camaat yığılırdı kimi ehsan verirdi, kimi qonşuya pay verirdi.

## Əsgərlik

Oğlannarımızı hərbiyə yola salanda, belə deyərdik: necə ana-bacını qoruyursansa, vətəni də elə qoru! And icdirirlər, Quran altından kecirdirlər. Əsgər getməmişdən qabaq qohum-qonşu, qonax cağırırdı. Məsələn, dayı, o bacı oğlunu istiyirsə, cağırırdı, ya baba nəvəsin cağırırdı. Qurban deyirdik ki, İlahi! Mənim oğlumun əzaları üstündəcə, qolu-qıcı üstündəcə, sağ-salamat, ana-bacısına bu şəkildə catsın. Sağ-salamat gəlirdi, biz qoyun kəsirdik. Məsələn, yeddi dənə sağır tapırdıq, payliyirdik. Hec valdeyin elə olurdu, o ətdən dilinə də vurmurdu. Əhd eliyib axı, balam sağ-salamat qayıtsın, mən qurban kəsib ancax payliyaram. İndi bir az dəyişib, indi bir az sintizator gətrirlər. İndi bu dövürnən o dövür müqayisə olmur. Mən özüm də üc oğul hərbiyə yola salmışam. Əsgər getməmişdən bir gecə qabaq, gəlib qonum-qonşu, dostları yığışardı. Deyir, ay qardaş, fikir eləməye, oğul əsgər gedər, dənə!

* * *

Ümumyyətlə yuxunu yozanda deyərdilər, "Yusif peyğəmbər xeyrə calasın". Bəd yuxu olanda isə gedib sübdən suya danışardılar. Bi də deyərdilər filankəsin yuxuluğu yaxşıdı, yəni bu gun məsəl Fatmani yuxuda görmüşəm, onun yuxuluğu yaxşıdı, xeyir olacağ inşallah.

* * *

Böyuklərin yanında uşaq götürməzük qucağımıza, üzünnən öpməzdik. Ər-arvad bir-birinin adını cağırmazdılar. Yeməyə sirəm əyləşərdüy belə, böyuklərimiz başda oturardı, xörəyi arvad cəkərdi. Hamiya cəkərdi yeyərdüy, yığışdırarduğ. Bi işimiz də olanda məslaat eliyərdüy böyüklərə bunu nətəri eliyim?

* * *

Aşura günü adət idi, evə süpürgə vurmazdılar. Həmin günü imamın müsibətinnən məşqul olursan. Günnərin bi güni aşura vaxtıdı, hamı gedib Mürsəl ocağına. Mən qalmışam evdə. Mənə də pul veriblər, qoymuşam o pulu da döşəyin arasına. Ağlım kəsmədi, getdim bizdə bi qədimi sandığ var idi, döşəyi tərpədəndə o pul düşər sandığın dalına. Hə, yadıma düşdü ki, pul ora düşüb, gedim onu da cıxrdım. Elə süpürgəni götürdüm ki, pilləkan süpürgəsini. Oynan belə sandığın dalına soxanda mənim bu barmağımı elə aparmışdı ki sandığın dəmiri, sümüyüm görünürdü. Evdə də hec kəs yox idi. Əlmin ətinin belə yapışdırdım. Mən bunu pul tamahına elədim, süpürgə süpürmədim. Ona görə də aşuranın günündə bi dənə işə əl vurmaq olmaz. Gərək matəm tutasan. Nə biş-düş eləsön de ki, imam ehsanıdır.

* * *

Orucduğ vaxtı kecmişdə qocalardan biri durardı kəndə səs salardı, hamı obaşdannığa durardı. Obaşdannığa duranda qazan səsi gələrdi, qab-qaşığ səsi gələrdi. Bilərdüy ki, kənd durub oruc tutur. Biş-duş eliyərdilər kim durdu.

Hə bayram gəldi indi orucduğa 1-2 gün qalıb da, deyək oruc tutan, tutmıyan bı bayramı əziz tutardı. Şirniyyatı, yeməgləri cürəbəcürə, hər şey, kecmişdə zirinc* cörəyünnən belə bişirilərdi. Bayram günü oruc tutulmurdu. Camaat çıxırdı kücəyə yola ki, bulud olmasın biz Ayı görək. Onnan bı deyir Ayı gördüm, o deyir Ayı gördüm, sora oruc açılardı. Hə, huzur yerinin orucaşdısı dəhşət olardı. Ölü ücün biş-düş eliyirdilər. Sırfa bəziyirdilər. Camaat əyləşir hansi ki, o evdə yasdı, il çıxmayıb hələ. Əgər o il orucduğdan qabaq cıxıbsa, onda onun ili qutarırdı. Ona qara bayram da olmurdu. Əgər çıxmayıbsa qara bayram olurdu.

* * *

Xarmandalı kənd camaatının bir yaxşı xüsusiyyəti var ki, qəriblərə hörmət eliyəndi. Məsəl, bi gəlin gəlib qəribdi ona qonum-qonşu hamı hörmət eliyir. Cəlilabadda belə deyil.

* * *

Qəbir üstündə bizdə cadır qurallar üş gün, müsəlman adətinə görə, inkir-minkiri sakitləşdirmək ücün üş gün Quran oxuyarlar. Orada iki molla olar ki, biri yorulanda o biri oxuyur. Yəni daim Quran oxunsun. Demək biri yatmışmış, o biri də quran oxuyurmuş. Bıdı görüb ki, adə taxta qalxır. Adə, bu

---

*

nədi nə ola bilər? Qorxullar ki, kaftarsiyir zaddı, ya da ölü durub ayılır. Bu molla da arif adam olar götürər qaynar suyu, tökər taxtanın üstünə. Ordan da “Vay dədə, yandım”, – deyə kimsə qışqırar. O kəndin yaxınlığında yaşayannardandı kimsə buları qorxutmağcın gəlib. Bu molla da bunu başa düşür.

* * *

Qabağ buxarı vardı. Peç-meç yox idi. O başda – yuxarı başda nənə oturardı. Bu başda dədə oturardı. Uşaqlarda buların qabağında oturardı. Öyün dədəsi öləndə böyük qardaş gəlib dədənin yerində oturardı. Onda uşağlarçın belənçiy isti yerdə yer açılardı. Əgər basaratdı gəlin olseydi, zirək olseydi, qaynananı basardılar dala. Yani, burda yeməy bişirməy var, aş bulamağ var. Yani acıtmalı fətir bişirərdilər, bölərdilər, qatığdan-yaddan olardı. Fərasətdi gəlin çömçəni alardı əlinə. Elə bifarasat gəlin vardı, vırırdılar başına, büzülürdü qalırdı orda. Qaynata həmişə gəlini çox istərdi. Hamıdan gözəl ailədə dili şirinniydi.

* * *

Müharibə idi. Qabaqlar meyidi külnən yuyurduq. Ama o külün miqdarı yüz faiz yox, həm də beş yüz faiz sənin bədənivə mənfəti var, həm yara, həm də xora salmır.

**Söyləyicilər:**

Gülcahan Ələkbərova, 75 yaş, təhsili yoxdur, Qızılagac kəndi.

Mahirə Bədəlova, doğum tarixi 1952, təhsili orta, II Yeddioymaq kəndi.

Fatma (Pərzad) Tağıyeva, doğum tarixi 1938, təhsili 7-illik, Gəyəçöl kəndi.

Şabikə Bəşirova, 75 yaş, təhsili yoxdur, Dadva kəndi.

Mədinə Həsənova, doğum tarixi 1941, təhsili 7-illik, Xırmandalı kəndi.

Həsən Əhədov, doğum tarixi 1935, təhsili ali, Həsənli kəndi.

Yavər Abbasov, doğum tarixi 1937, təhsili orta, Gəyəçöl kəndi.

Arəstə Əsgərova, doğum tarixi 1939, təhsili 7-illik, Ərkivan kəndi.

**Toplayanlar:**

Füzuli Bayat (Gözəlov)
Nuridə Muxtarzadə
Qurban Əliyev
Ağanənə Məmmədova

## 13. TOY ADƏT-ƏNƏNƏLƏRİ

Bizim zəmanəmizdə toy yox idi. Kim kimiynən ailə qurmaq istiyirdi götürüb qaçırdırdı. Deyirlər, guyə gəlin gələndə qapının ağzına bal çəkirlər ki, şirin dili olsun. Bizdə yağ qoyurdular. Gəlin qapıya çatanda o, çörəyi üç-dörd yana bölürdülər. Verirdilər balaca uşağlara, yesin. Bir də boşqabları düzürdülər gəlin gəlib çıxanda təpiyi vururdu boşqabı sındırırdı. Olar bərəkətdi. Bolluğ olsun, gəlin gəlir, ayağı düşərli olsun.

Mən aşiq üzüm ağacı,
Yollara düzüm ağac.
Ya Hüseyin.
Qapıya paltacı gəldi,
Kəsdim üzüm ağacı.

Gəlinə xeyir dua verəndə,
Gəlin gələn əllər bər-bəzənibdi.
Gəlinin ağ əlləri gülgəz olubdu,
Gəlin, xoş gəldin, xoş gəldin.
Bizim ellərə xoş gəldin.

Səni görək oğullu, qızdı olasan. Səni görək dövlətli, çörəkli olasan, mehriban olasan, şirin, dil olasan, qayğıkeş olasan, belə deyirdik.

* * *

Halayı beş nəfər bu üzdə dururdu üz-üzə belə deyişirdilər. Bu, ancağ toy ərəfəsində olurdu. Oynaya-oynaya deyirdilər. Halay çəkirdilər:

Hay lolu, hay düymələri mərcan,
Hay lolu, qızıl üzük laxladı.

Hay lolu, verdim anam saxladı.
Hay lolu, anama qurban olum.
Ya Əli, məni qonağ saxladı.

Belə-belə mahnılar diyirdilər. Olar "lolu"nan deyirdilər bizdə "haleleynən".

## Xına gecəsi toy gecəsi

Bala bülbül, balalı bülbül,
Bir gecənin qonağı bülbül.

Gəlin gələndə deyərdilər ki, gəlin, qədəmlərin sayalı olsun. Xoş gəlmisən evinə. Mahnılar deyərdilər. Nəğmələr oxuyardılar. Toy, nişan olanda deyirik:

Qırmızı şal güllüdü,
Ortası zər güllüdü.
Oğluma qız almışam,
Hamısınnan dillidi.

## Gəlinə hədə-qorxu gəlmək üçün:

Qardaş minib dayçanı,
Gəzib bağı-baxçanı.
Qardaşa söz demiyin,
Buraxar tapancanı.

Ay qız nişanın gəlir,
Qırmızı şalın gəlir.

Mübarək, ay mübarək.
Qardaş, toyun mübarək.

Axıracan gərək demək üçün dəstəbaşı ola beş nəfər. Burda da beş nəfər, ordada, halay eyləsinlər:

Anam, bacım, qız gəlin,
Əli ayağı düz gəlin.
Yeddi oğul istərəm,
Bircə dənə qız gəlin.

## Qız bəyənmə, elçilik, xınayaxdı

Qızı alanda saçına baxardılar, belinə baxardılar, yerişinə baxardılar. Baxardılar ki, necə dırnağ vurur. Papağ atardılar, yıxılmasa, deməli, ərə getməlidir. Hamama gedəndə fikir verərdilər. Hamamdan çıxanda başını necə bağladı, hamamdan çıxanda nətər çıxdı? Özünə vid verə-verə, təmiz su tökə-tökə çıxdı, hamısına hamamda fikir verərdilər. Hamamda bəyənərdilər, mağazaya gedəndə bəyənərdilər, toya gedəndə bəyənərdilər. Sonra tayfanı da nəzərə alardılar. Əsli-nəsli də gəzərdilər. Əvvəl oğlanın bacısı, əmisi qızı gedib qonşuya deyərdi ki, filankəsin qızının ağzını ara. Nə deyir? Mənim oğlumu bəyənər, ya bizə qız verərlər? Sonra “hə”sin alandan sonra gedərdik. Buna “elçi plov” deyərdilər. Filankəsin “elçi plovu”dur. “Elçi plov” olandan sonra bakılılar “hə” deyir ona, “hə”sin alardılar. Geniş nişan olardı. Ata minib kəndə gedərdilər, qırmızı bağlayardılar. Sonra xına aparardılar. Sonra qəndin, çayın, qoyunun, xələtin verərdilər. Başlıqda gücü çatandan varlılar çox verərdi, kasıblar az verərdilər.

Sonra qıza “xınayaxdı” eliyərdilər. Qızı istiyəndə əvvəl qız uşaqları gedib qızdan xəbər alardı. Könlün var? Deyərdi: “Hə”. Sonra elçi gedərdilər. Elçi gələndə “salam əleykim” de-

yir. Qız qaçardı, gizlənərdi ki, “Mənə elçi gəlib”. İsdədiyi oğlan olsaydı, ürəyinnən olardı. İsdəmədiyi olsaydı, gedib gizlənərdi, gəlməzdi. Qızın boyuna baxardılar. Qız gələrdi çay qoyardı. Ona baxardılar, bəyənərdilər. Deyərdilər: – Biz gəlmişik elçiliyə.

Deyərdi:

– Oğlun nəçidi, nə işə baxır? Gedib bir qonşusundan da xəbər alardılar. Oğlan necə oğlandı, yaxud qız necə qızdı? Ondan sonra “hə”sin aparardılar. Nişanı taxarlar sonra “xınayaxdı”, sonra toyu. Gəlini gətirərdilər.

Halay toyda olardı:

Ay lolo, lolu, əl-ələ
Hay çəkün, halay düzülsün.
Kim halaya girməsə,
Əli yardan üzülsün.
Uca dağlardan səslərəm neynim?
Yar qoynumda bəslərəm ey.
On iki imamdan istərəm ey.
Yar əlinnən, dad əlinnən hey.

O biri dəstə deyərdi, o biri bunun təkrarın deyərdi:

Yar əlinnən, dad əlinnən hey,
Bizim xoruz uca bannar neynim?
Yar əlinnən, dad əlinnən hey.

İkinci sıra deyərdi:

Yeri ha, yeri ha, kimin yarısan?
Kimin heyvasısan, kimin narısan?
Hansı bəxtəvərin vəfadarısan,
Sevdim, ala gözlü, kimin yarısan?

Bunu deyəndən sonra halayı yenə dəyişərdilər. Ondan sonra deyərdilər:

Yar əlin, yar düymələri mərcan.

Bu nəqarətdi.

O biri dəstə deyərdi.

Yar əlin, sevdim həyətdə səni,

Bu deyərdi:

Yar əlin, yar düymələri mərcan.
Yar əlin, boyda qamətdə səni.
Sevdim həyətdə səni
Boyda qamətdə səni.
Laçın kimi boylaram.

Bu, keçmişin ata-baba sözləridi. Dəyişəndən sora keçərdi ondan sora.

Bir dəstə reyhan, bala-bala, yar-yara heyran.

Sora keçərdi lələk-lələyə:

Allah gözəl sizdədi,
Gözələ verin güzgünü.
Gözəl neynir güzgünü?
Gözəl suda baş bağlar.

Zülfün darar, yaş bağlar.
Yar yardan ayrılanda
Ürəyinə daş bağlar.
Vallah gözəl sizdədü.

Bu nəqarət:

Sora təkrar o üzə keçərdi, bu bayatı başlıyanda. Ondan sora keçərdi. Mələk, mələk, ay mələk. Hamısı sındıra-sındıra belə-belə eliyə-eliyə barmağnan.

Mələk mələk ay can mələk.

Hər dəstədə on, on iki nəfər olurdu.

Mən bu küçənin qızıyam.
Ay can mələk-mələk.
Hər kəsənin baldızyam.
Gəl bağa bostana, mələk.
Ay can mələk-mələk

Sora:

Dəst eylər gül eylər.
Basma basma tağları.
Saraldı yarpağları.

Bu nəqarətdi. Sora:

Ha yordu yordu,
Görək kim kimi yordu?
Evləri burda yoxdu.
Aman aman aman ölürəm.
Köçübdü yurdu yoxdu.
Aman aman, Allah.
Qadan allam hey.

Getdim pələd* ağzına
Aman, aman, aman bilirəm.
Dedilər evdə yoxdu.
Aman, Allah, qadan allam.

Sora "gəlin gəldi" mahnıları var. "Gəlin otuzdurdu" mahnıları var. Gəlini evə gətirəndə başlıyardıq deyərdik:

Ey, yara "xoş gəldün" deyün.
Dildara "xoş gəldin" deyün.
Arzuların çəkdiyim gəlinə.

---

* Pələd - darvaza

“Xoş gəldün” deyün, ay.

İki-iki deyərdilər nazlıyardılar gəlini. Ondan sora gəlinə qorxu verərdilər:

İstəkanı nəlbəkidə qoy, gəlin.
Evdəki dilləri yerə qoy, gəlin.

Ondan sora gəlinə deyərdik:

Əylən gəlin, əylən gəlin.
Bizim dil farsu dilidir,
Öyrən gəlin, öyrən gəlin.

Bunun mənası var e, biz fars deyilik ki! Bəs niyə? Yəni bizim evin xasiyyəti sizin kimi deyil. Qızıl fonddadır bizim halayımız. Biz buta idik onu “Ozan” verlişində verirdi:

Bu toy kimin toyudu?
Toyuna qurban olum.
Toyunda oynuyanın,
Boyuna qurban olum.

O birisi təkrar deyərdi:

Toyunda oynuyanın,
Boyuna qurban olum.

Sora dəyişərdi:

Gedirsən ey, ellərə
Boyuva qurban olum.
Düşübdü meylim sənə,
Boyuva qurban olum ey.
Özüm özünə qurban,
Toyuva qurban olum.

Nazlıyırsan oğlan üçün, düyirsən qız üçün.

Nəqarətdi bu:

Bu toy kimin toyudur?
Toyuna qurban olum.

Toyunda oynuyanların.
Boyuna qurban olum.

* * *

Evlərində var çinar,
Yarpağı dinar-dinar.
Qardaş, toyun başlıyıb,
Saxlasın Pərvərdigar.

Adnan da deyirsən kimin toyu olsa. Dinar puldu.

Bu gün ayın onudur,
Zər xaradan donudur.
Qurban olum qardaşa,
Bu gün onun toyudur.

Bu gün ayın üçüdür,
Girmə bostan içidir.
Qurban olum qardaşa,
Dili badam içidir.

Bəyə qurban gedirlər:

İstilin dolaları.
Kəkliyin balaları.
Qurban olsun qardaşa,
Qoşaca xalaları.

İstilin gil-gilləri,
Oxuyur bülbülləri.
Qurban olsun qardaşa,
Qoşaca bibiləri.

O taydan əl eyləmə,
Bağrımı qan eyləmə.
Sən mənimsən, mən sənin,
Özgə xəyal eyləmə.

Bu yol yolluğa gedər,
Ucu bolluğa gedər.
Qurban olum qardaşa,
Gələr qulluğa gedər.

Şarafanın o üzü,
Yatışıb qoyun-quzu.
Qurban olsun qardaşa,
Hər sürüdən bir quzu.

Gedən alagöz oğlan,
Qoltuğunda saz oğlan.
Al qələmi əlinə,
Mən dediycən yaz oğlan.

Gedirsən neynim sənə,
Düşübdü meylim sənə.
Özüm özüvə qurban,
Daha mən neynim sənə.

Yeri-yeri gəlirəm,
Qolumu düymələyirəm.
Aç qollaruvu, gəlim mən,
Uzağ yerdən gəlirəm.

Yeri-yeri, nişan yar.
Təzə eşqə düşən yar.
Elçiləri qırılmış.
Özü eşqə düşən yar.

Evdən evə zəng olar,
Eşqə düşən dəng olar.
Tuteydim könül quşun,
Göreydün nə rəng olar.

Yəni məni qınama da, sənin də könlündə eşq olsa, görərdin nə rəng olar.

Bu gün yemiş yemişəm,
Yara sözlər demişəm.
Dilim, ağzım qurusun.
Acığımdan demişəm.

Su atdım, yara dəydi,
Qolum divara dəydi.
Dilim ağzım-qurusun,
Nə dedim yara dəydi?

İstil üstə putrax.
Dövrə vuraq, oturaq.
Bivəfa yar əlindən.
Dustağ olağ, oturağ.

İstl üstə dur, oğlan
Kəklik gəlsə, vur oğlan.
Eldən-elə aşığdı.
Süfrə dolu qaşığdı.

Bizim oğlan neynəsün?
Sizin qızdar aşığdı.

Gəlin üçün deyirlər bunu:

Gəlin gedək evlərinə,
Xına yaxaq tellərinə.

Mən qurbanam dillərinə.
Al ipək, amma ipək uçar gedər.
Bu evin böyük qızı (və yaxud kiçik qızı)
köçər gedər.
Bu gecə Xanımbacı bizə qonağdı.
Sabah da yola sal, yolu uzağdı.
Qara qoyunun ağısan, ay gəlin.
Bir gecənin qonağısan, ay gəlin.
Xınanı yaxın dəstinə-dəstinə.
Xəbər getsin düşmanına-dostuna.

Dəst haradı? Saçın dəstəbədəstəsi. Yəni bu gecə bunun toyudu.

Boyu bəstə gəlinin,
Saçı dəstə gəlinin.

O gəlini gətirirlər taxta, üzüy taxmağa, onda deyirlər:

Vəziri şamlar yanar.
Çiyni üstə gəlinin.

Uşağ vaxtı deyirdim o, nə deməkdi? Vəziri şamlar yanar. Şamın bir üzü bu üzdə, bir üzü bu üzdədi. Yəni vəzirlərdi də. Sora gəlini gətirən günü deyərlər:

Əylən gəlin, əylən gəlin,
Bizim bu farsu dilin öyrən, gəlin, öyrən gəlin.

Yəni evin adətini öyrən gəlin.
Bi dənə gəlin deyər hanı atam.
Qoyunu, quzuya qatan.

Oğlanın bacısı üçün deyirlər ki:

Xatirədi sənin bacun.
Gəlin, xoş gəldün, xoş gəldün.

Yəni evdə day qardaşdı-bacudu, hamısı bir dənə-bir dənə burdadılar.

Ey gülü xaş-xaşdı gəlin,
Əsli qızılbaşdı gəlin.
Evlisən, ev halıdı,
Ev sənə peşkəşdi gəlin.

Nazlamağ üçün "xoş gəldin" deyirsən. Sonra başlıyırsan keçirsən acığlanmağa:

Stəkanı nəlbəkiyə qoy, gəlin.
Evdəki dilləri yerə qoy, gəlin.
Sonra qurban verərdik:
Ay bəndi, bəndi.
Bəylər bəyəndi.
Ay gəlin, o da sənə qurban.

Qurban, sadağa gedərdik. Toy mahnısı dörd dənə olardı. İkisi o üzdə, ikisi bu üzdə. Başlığı bu idi:

Bu toy kimin toyudu?
Toyuna qurban olum.
Toyunda oynuyanların.
Boyuna qurban olum.

Yəni bir-bir çağurun, hay çəkün.
Hay xumar gözlər süzülsün.

Yəni bir birivizə çığıra-çığıra eləmiyin, xoş gedə-gedə. Sora o biri dəstə sənə cavab verir. O dəstə deyəndən sora sən başlıyırsan. Birdəki gəlmiyəni qarğıyır:

Hay həkim, halay demə say.
Ay əlin yardan üzülsün.

Sora keçirsən ikinci hissədə:

Uca dağlardan səslərəm, neynim,
Yarı qoynumda bəslərəm neynim.
On iki imamdan istərəm neynim,
Yar əlindən, dad əlindən.
(Gileylənir də.)
Evlərinin dalın keçdim,
Əyildim suların içdim.
Mən bu yerə qərib düşdüm neynim.
Yar əlindən dad əlindən.

Ancağ yarı qınıyır. Deyir mən bu yerə qərib düşmüşəm. Sora dingildiyirsən:

Yeri ha yeri, kimin yarısan?
Kimin heyvasısan kimin narısan?
Hansı bəxtəvərin vəfadarısan?
Sevdim ala gözlü, kimin yarısan?

Ayağın atma qaydaları var. Mən dədəmə çəkmişəm. Də-dəm aşığ gətirib çaldırardı:

Səni and verirəm adın Hüseynə.
Gəlib-getmiyəsən bizim küçeynən.
İreyhan dəstəsi ətir şüşeynən.
Sevdim ala gözlü, kimin yarısan?

Biz bayatını deyib qurtarınca o biri dəstə deyirdi:

Sevdim ala gözlü kimin yarısan?

Bayatını qurtardım, olar bayatı başlamalıdılar. Biz nəqarət deyəcəydük. Gözəl halayımız olub. Masallı rayonunun Şarafa kəndində olub. Kəndin kökü Ərdəbil tərəfindəndir. Həmişə xırdalıyardım: "Sevdim ala gözlü nədi?" Demə, onu tez-tez deyirmişlər, həm də avamçılığ idi axı.

Bir dəstə reyhan bala-bala,
Yar-yara heyran ay.
Əlim əlimdə deyil, sunalar, sunalar.
Şalım belimdə deyil, bir dəstə reyhan,
Bala-bala yar, yara heyran.

O birisi də deyir:

Bir dəstə reyhan.

Artıq sənə cavab verir olar, nəqarət deyir. Sonra sən yenə bayatının ardın deyirsən:

Sənin başun ağrısa, sunalar sunalar.
Mənim əlimdə deyil.
Bir dəstə reyhan,
Bala bala yar yara heyran.

Sora keçirsən:

Dəst eylər, gül eylər.

Nəqarətdi o deyir:

Evlərinin dalında.

Bu deyir:

Dəst eylər, gül eylər,
Bənd oldum kollarında.
Dəst eylər gül eylər.
Qızıl qolbağ olaydım,
Dəst eylər, gül eylər.

Yarımın qollarında ay,
Dəst eylər, gül eylər.

Ondan alırsan mahnını sən deyirsən:

Dəst eylər, gül eylər.
Valla, gözəl sizdədir.

Nəqarət də budur:

Bizdə deyil, sizdədir.

O deyir:

Gözələ ver güzgünü.

Bu deyir:

Valla, gözəl sizdədir.
Gözəl neynir güzgünü?
Valla, gözəl sizdədir.
Gözəl suda baş bağlar.
Valla, gözəl sizdədir.
Zülfün darar, yaş bağlar,

O deyir:

Yar yardan ayrılanda.
Valla, gözəl sizdədir.
Ürəyinə daş bağlar.
Valla, gözəl sizdədir.

Yar əlim, yar düymələri mərcan.

Sonra havanı dəyişirsən. Çox vaxt eyni bayatılar olur. Ondan sonra:

Ocağa qoymuşam dolma qazanı,
Yarı yola saldım axşam bazarı.

Gileynən deyirlər də güyə yar gedib-gəlmiyib.

Xarabada çoxdur kağız yazanı,
Hay Leyli, Leyli ey.

Ondan sonra giley olardı:

Qaynətəmin adı Mahirdi, Mahir,
Ətəyinə atdım yüz əlli şahin.
Qaynanamı tutub gəlinin ahı
Allam, allam səni,
Qıza, mən allam səni, ay qara göz.
Yarın ollam sənin ey.

Gedəndə ağlaram,
Gələndə gülləm.
Yar sənin qədrüvi.
Mən hindi billəm.

Paltarın cırılsa, yamıya billəm.
Allam, allam səni.
Qıza, mən allam səni, ay qara göz.
Yarın ollam sənin, hay-hay.

Gedün deyün qaynanamın özünə,
Külü töksün ölüsünün gözünə.
Mən gəlincən ev ayırsın özünə.

Qaynanamı bağda ilan vuraydı.
Baldızıma Quran qənim olaydı.
Qaynatama Məkkə qismət olaydı.

Üçlik bayatı da var, dördlük bayatı da var:

Oturub çayçıda çay qabağında,
Paprız damağında, mey qabağında.
Geyinib, keçinib yar qabağında,
Allam, allam səni,
Qıza, mən allam səni, ay qaragöz.
Yarın ollam sənin ey.

Toyda qızlar bi yerdə oxuyurdular:

Balaca nar ağacı.
Narın nə göyçəydi.
Qardaş başuva dönüm.
Yarın nə göyçəydi.

Bu da nəqarətdi:

Elə deyər, mənəm-mənəm.
Nar ağacı narın nə göyçəydi.
Hansı igid bəyənnərəm.

Bu halaydadı:

Basma-basma tağları.
Saraldı yarpağları.

Gedirsən neynim sənə.
Düşübdü meylim sənə
Özüm özünə qurban.
Daha mən neynim sənə.
Basma-basma tağları.
Saraldı yarpağları.

## Qız bəyənmə

Gəlini deyə-deyə aparadılar.

Gəlini qoyurdular həyətdə deyərdilər:

Boyu bəsdə gəlinin,
Saçı dəstə gəlinin.
Evlərdə çox söz olur.
Alma qulağuva, gəlin.

Qızı ata-ana görüb bəyənirdi. Gəlirdilər evə, bir şeyi bəhanə edirdilər. Evdə baxırdılar qıza nə cürdü, nə təhərdi? Hamamda görürsən bəyənirdilər. Suya gedərdik, kimin çəlləyi var idi, arabaya doldurardı. Suya gedərdi, su yolunda bəyənərdilər. Yolda görərdilər qızı. Ya suyu dolduranda görərdilər, qızı bəyənərdilər. Daha nəslini güdərdilər, filankəs filan nəsildəndi. Qız oğlanı görərdi, oğlan qızı görərdi. ZAQS kəsərdilər, on altı yaşından aşağı ZAQS kəsməzdilər. Sora "Aldım-verdim" eliyərdilər. Gəlirdi oğlanın atası deyirdi:

– Mən sənin qızın üçün gəlmişəm. Qızuvu oğlum üçün alıram. "Aldım-verdim" oldu. Zənbilnən paltarı gətirərdilər, xonçaynan olmazdı. Ta ki, ZAQS olmuyunca. ZAQS olandan sora xonçaynan paltar gələrdi. Bir dənə nişan eliyərdilər. ZAQS kəsilənnən sonra xınaya paltar gətirərdilər. Bir dənə qoyun gətirərdilər, bir kisə un, bir kisə düyü gətirərdilər. Toyu olurdu qızın, xınayaxdısı olurdu. Səhəri götürüb aparırdılar. Gəlinin başına xına yaxardılar. Sonra halaya gedərdilər. Mahnı oxuyardılar. Səhərəcən öz keflərində olardılar. Üç gün, üç gecə aşığ çalardı. Gecə aşığ yatannan sora arvaddar halaya gedərdi:

Ha yordu yordu-yordu,
Görək kim kimi, yordu.

* * *

Bən bənövşə, bəndə düşə,
Sizdən bizə, bir qız düşə.
Adı gözəl, özü gözəl.
Filankəs bizə düşə.

Küpə minərdilər,* ixtiləf qızdar yığılardı, bayram eliyərdilər. Özdəri üçün halaya gedərdilər. Küpə minərdilər. Olardı otuz nəfər, qırx nəfər ona ixtiləf deyərdilər:

Şal almağa gəlmişik.
Mal almağa gəlmişik.
Oğlanın dayısıyığ,
Qızı aparmağa gəlmişik.

## Gəlinin vəzifələri

Qabağ belə olardı. Gəlin tezdən durardı. Sübdən. Əvvəlcə ayağyolu təmizdiyərdük. Qabları doldurarduğ ki, duran gedir ora. Qoy gedib boş görməsin. Evdə böyük durmasa, biz çörəy yeməzdüg. Birinci, onarın yeməyi, işməyi, çayı, çörəyi – hamısı verilərdi. Sırfa sərilərdi, hər şeyi qoyulardı. İcazə olseydi gəlin də oturardı, olmaseydi heç. Gəlin həmişə aşağı tərəfdə oturardı. Ama hamı bir süfrədə oturardı, ayrı yox.

## Gəlin gətirmə

Gedirdüg gəlin gətirməyə, deyirdüg:

Verin bizim gəlini,
Qaynı bağlar belini.

---

* küp – yelləncək

* * *

Həştərxana gedən gəmi bənd olar,
Qayıdanda içi dolu qənd olar,
Qayda budu, oğlan qıza bənd olar.

* * *

Bu gün bacım gəlin köçür,
Əllərə xına yaxarlar,
Gözlərə sürmə çəkərlər.

* * *

Almanı alma gəlin,
Al, yerə salma gəlin.
Evlərdə çox söz olar,
Qulağuva alma gəlin.

* * *

Əylən gəlin, əylən gəlin,
Bizim dil farsu dilidi,
Öyrən gəlin, öyrən gəlin.

Yəni "farsı" – o deməkdi ki, bizim dili öyrən, aton öyünnən gəlmisən bizim hal-xasiyyətimizi götür.

Eyvanın altı səkilidü,
Giləmərzə əkilidi,
Oğlan qızın vəkilidi,
Gəlmişəm yarın camalın görməyə,
Gəlmişəm ay hey.

* * *

Bırdan getdım Həmədana,
İncil yığdım dana-dana
Səni qoydum yana-yana,
Gəlmişəm yarın camalın görməyə,
Gəlmişəm ay hey.

* * *

Evlərinə getdim qonağ,
Savaş oldu, sındı çanağ.
Sənə bişirdim qayqanağ,
Gəlmişəm yarın camalın görməyə,
Gəlmişəm ay hey.

* * *

Ay dədə, çatmaqaş daşı mənə dəydi,
Belimi sındırıb dərd əlimi əydi.
Bi qar yağıbdı, belə dimnən ay,
Sürməsi getməz belə gözümnən ay,
Əyilim öpüm belə, üzünnən ay.
Aşığ balam, belə balam ay.
Geymə lalanı belə, lalanı ay,
Sağ olsun, var olsun, yar bizə qonağ olsun.

* * *

Bi köynəyim var,
Bi köynəyim var belə, dəridən ay.
Belə ürəyimin yağın,
Belə əridən ay,
Bi köynəyim var.

Belə məni başmağsız belə, yeridən ay,
Bi köynəyim var.
Belə lalanı, ay aşığ balanı,
Belə lalanı, ay, geymə valanı.
Belə lalanı ay sağ olsun, var olsun.
Yar bizə qonağ olsun eyyy...

* * *

Evlərinin dalı, belə aldım, oturdum,
Belə daşdarı içinə mən saldım, oturdum.
Belə eşitdim: yar gəlir, belə durdum oturdum,
Belə lalanı, ay aşığ balanı,
Belə lalanı ay geymə valanı.
Belə lalanı ay sağ olsun, var olsun,
Yar bizə qonağ olsun...

* * *

Yeri-yeri, yeri, yerim var, yeri,
Sevdim alagözdü, kimin yarısan?
A bivəfalı dağlar ay,
Əcəb safalı dağlar,

* * *

Su gəlir lülə-lülə,
Yar gəlir gülə-gülə.
Əlində ipək dəsmal.
Tər-qanın silə-silə ay,
A bivəfalı dağlar ay,
Əcəb çapalı dağlar.

Bizdə nişan olanda çala-çala gedirik qızgilə. Sora qıza nişan aparırığ. Qıza üzük taxırlar. Şirniyyat stulu açırlar. Toya bir gün qalmış "xınayaxdı" olur. Xınanın içinə altı qızın üzüyün atırlar. Xınayaxdısı olan qız bir-bir üzügü çıxarır. Hansı qızın üzügü birinci çıxırsa, o qız birinci ərə gedər. Gəlin gedən günü qabın içinə su töküb, bir azda pesok tökürlər ki, şirinlik olsun, qarişdürrüy sora gəlin gəlir oturur. Gəlin gedəndə sandığda çörək, iynə və qənd aparır. İynəni, qəndi qoyurlar quyunun başına, çörəyi də kəsib paylıyırlar uşaqlara, böyüklərə. Sora qəndi quyuya atırlar, iynə ilə də paltar tikirlər. Gəlin 3 dəfə qapını açıb örtür. Qaynatanı çağırırlar. Qaynata deyir: bəzisi deyir, xalça verirəm, bəzisi deyir, sənə oğlumu verirəm, bəzisi deyir inək verirəm, bəzisi də deyir ev-eşik verirəm. Sora gəlin oturur. Gəlin oturur, əlin başın üstündə tutub, əlin içinə bal qoyurlar. Sora gəlinin qucağına oğlan uşağı qoyurlar. Sora deyirlər:

Aman nənə, zalım nənə, can nənə,
İstəkanı nəlbəkiyə qoy gəlin.
Evdəki dillərü yerə qoy gəlin.
Evdəki dillərü evdə qoy gəlin.

Gəlin gəlir, xan gəlir.
Gəlin gələndə deyirlər ki:
Gəlin, gəlin döyül, düşdüyü yer gəlindi.

* * *

Bizdə kirvə nə desə o olmalıdır. Xeyirdə və şərdə birinci o olmalıdır. Kirvə qız verə bilməz kirvəyə, nə də qız ala bilməz kirvədən. Belə bir adət var: qıza 2-3 dəfə elçi gəlir. Görür ki, buların rayı vaar, olannan sora xəbər göndərir ki, bəs kişilərimiz

gələ. 2-3 kişi danışığa gəlir. Nə qədər səndə, nə qədər məndə. Bi dənə kostyum, bi az şirniyyat, tort, gəlirlər oları qoyurlar. Yarı oğlan evi, yarı qız evi qoyur ki, oğlan evinə güc düşməsin. Oğlan evindən gələn xonçalar boşaldılannan sora, təzədən üş dənə xonçaya oğlana dair belənçiy köynək, alt paltarları qoyurlar. Duxu-muxu bir dənə səbətə yığılır. Belənçiy, 3 dənə adam gedir oğlan evinə. Oğlanın tay-tuşdarı oğlanın başına yığılır. Bişirilən yiməklərdən də qoyulur, oğlan evinə göndərilir. Olar da xonçaların içinə pul qoyurlar, göndərillər qızgilə.

Xınayaxdıda xörək-zad süzürük, gəlinə xına qoyurlar. Gəlin gidəndə quyunun başına qənd və iynə qoyullar ki, həmişə gəlinin sözü ötəngli olsun. Xınayaxdıda xınanı oğlan uşağı oğurlayır. Gəlini gətirib qəpinin yanında qoyuruq. Qız evindən gətirilən çörəyi uşağlara, böyüklərə paylayıllar. Toyda gəlini oynadıllar. Qız evi oğlan evinə xələt verir. Üzüg verən üzüg verir, qızıl verən qızıl taxır gəlinin yaxasına. Deyirlər:

Verin bizim gəlini, gəlini,
Qaynı bağlar belini , belini.
Bu öyün böyük qızı,
İndi köçər, gedər yarıyar.
Şal əlməyə gəlmüşük,
Mal almağa gəlmüşük.
Gəlinin adamıyuğ,
Aparmağa gəlmüşük.

* * *

Əylən gəlin, əylən gəlin,
Bizim dili, farsu dili,
Öyrən gəlin, öyrən gəlin.

Qızın atası girir qızın qoluna və deyir ki, oğlanın atası sənin atandı, anası anandı. Olara kəm baxsan, qarğıyaram səni. Toydan 3 gün sora, 3 günlük plov olur. Üçüncü gün qız evinnən oğlan evinə nə qədər adam gedirsə, o qədər yiməy aparıllar. Oğlan evinə gedənnən sora gəlin gəlir adamlarnan görüşür. Gəlin görüşdüyü adamların başına ətir tökür.

* * *

Uzağı iki dənə toy olardı. Qabağlar yol-rız yox idi, gəlini at araba ilə aparardılar. Soralar "QAZ-69" ya da "vilis"nən aparardılar. Toya 10 gün qalmış qohum-qonşu yığılardı, həyəti-bacanı təmizlərdilər. Sora da 2 dəstəyə bölünərdi. Bir dəstə qabağında bir qabal, o biri dəstə də qabağında bir qabal. Olar halay gedərdilər. Halayın mahnıları da belə olardı:

A yordu, yordu, yordu,
Görək kim-kimi yordu?

Qızdarın yaylıqların daldan bir-birinə bağlayardıq.

Yeddi gün olardı. Bizdə nişanda içki olmaz, soğan olmaz. Yeddi gün şələ aparanda, qoğal-moğəl, zirinc çörəy, bir də külçə çörəy, təndirə yəpərdilər. Kanfetdən, pçennikdən, filan, buna "Yeddigün" şələ diyərdilər. "Üç gün plov" da belədi ki, üçüncü gün anası, atası, bacısı, xalası üçün xələt, padarkə qoyallər.

* * *

Ey, yara "xoş gəldün" diyün,
Dildara "xoş gəldün" diyün.
Arzumanın çəkdiyini,
Gəlinə "xoş gəldün" diyün

Diyir bu xaşxaşdı gəlin,
Əsil qızılbaşdı gəlin.

Evlisən, ev halı bil,
Ev sənə peşkəşdi, gəlin.

* * *

Gəlini aparmağa gələndə deyirdüg:
Yaxşı bəzəg vurun bizim gəlinə, gəlinə,
Mirvarıdan saçağ tökün telinə, telinə.

Alırduğ gəlini, mindirirdüğ arabaya, maşına, nə gəlibsə ona. Deyirdüg:

Gəlin gəlir, evimi döşə,
Qayınnarı əyləşib qoşa.

Aparıb təhvil verirdüy, orda da xeyləm mahnı deyirdüy:

Almanı alma, gəlin,
Al yerə salma, gəlin.
Evlərdə çox söz olar,
Ürəyivə salma, gəlin.

İstəkanı nəlbəkiyə qoy, gəlin.
Evdəki xasiyyətivü yerə qoy, gəlin.

Yəni gəldün oldun dayı bu evin adamı.

Qabağkı aşığlar toya gələrdilər, çalardılar. Tahirdən, Zöhrədən, Əslidən, Kərəmnən, Şah İsmayıldan dastan başdadardılar. Onarın bir-birini isdəməyinnən, ərə getməyinnən, köçünnən, ya qismət oldu, ya olmadı, onu deyərdilər.

Qoçum balabançı, gəl dalımcan gör, aşığ nə deyir. Sazı basardı sinəsinə, sifdə girəndə toyxanıya, nəsiətnamə verərdi. Əhali oturub sakit. Aşığ deyərdi:

Salam verib bir məclisə varanda,
Böyükdən kiçiyə nəsihət gərək.
Hər kim öyüd versə, öz övladına,
Nəsildən-nəsilə nəcabət gərək.

Balabançı da onun dalıycan fırranırdı. Hamı onun aşığına, sazına pul basardılar. Bular oğlan toyunda olurdu.

Deməg gedirdilər elçiliyə. Başdıyırdılar deməyə ki, Allahın göndərdiyi, Məhəmmədin buyurduğuynan sənin qızın, mənim oğlum bir-birinə qismət olarsa, sizin razılığuvuzu isdiyirik.

Hə, alırduğ qızı, "hə" deyilirdi, gəlirdüg hazırrığımızı görürdüg. Yəni istəgana bi qənd atılırdı, şirin eliyib, əl görüşürdülər ki, yəni qız bizimdi. "Hə"ni alduğ, gedirdüg evə. İndi adam var 3 günnən sora, adam var 1 həftə sora, bi üzüg, şal, əsasən, baş yaylığı aparırdılar. Bi də şirniyat aparırdılar. Xonçıynan gedən də olurdu. Mahnı deyə-deyə gedərdüy nişana. Deyərduk:

Ay qız, nişanun gəlir,
Qırmızı şalün gəlır.
Gəldi oğlan adamı,
Oğlan, sındır badamı,
Görməsin qız adamı.
Ay qız nişanun gəlir,
Qırmızı şalun gəlir.

Belə-belə nişanı verirdük. Yeyirdük, kəllə qəndləri paylayırduğ, qayıdırduğ dala. Sora "paltarkəsdi" eliyirdüy. Yenə pal-paltar götürüb qız evinə gedirdük. "Paltarkəsdi", toy eliyəna yaxın olurdu. Bını oğlan evi eliyirdi. Hərə bi xoncaynan, xələtnən gedirdilər qiz evinə. Orda da deyirdilər ki, bı filankəsin payı, bı bəhmənkəsin payı. Yenə orda da halay, demək, yemək, icmək, sora hər kəsən öz evinə. Qaldı toy. Hər kəsən öz toyun eliyirdi. Oğlan evi qız evinə başdığ verirdi. Məsələn bi qoyun, bi

tay un, bi tay dügi, bi tay qənd aparırdı. Qoyunun başında qırmızı şal aparırdılar qız evinə. Hə sora, şükür Allaha, gəlini gətirdi, oğlan evi də toy eliyirdi, qoyun aparana pul verilirdi, kim tutubsa, ona, güzgü tutana, şam tutana, hamısına pul verirdilər.

Hə, az qalmış da, "ev döşəmə" (ev bəzəmə) başdıyırdı:

Gəlin gəlir, evini döşə,
Qayınnarı əyləşib qoşa.
Verdim bi balaca quzu,
Aldım bi balaca qızı.
Atasına, anasına,
Verdim issiotnan, duzu.

"Qazanaşdı"da xələt verilməsə, qazanın ağzı açılmazdı. Neçə nəfər varsa hamısına pul verilirdi, qırmızı onnuğ. Sora qazanın ağzı açılırdı. Bişirirdilər, qoyunu kəsirdilər, əti qovuurdular soğannan, qıp-qırmızı yağ içində. Plov süzürdülər.

## Bayramlığ aparmaq

Qurban bayramı vaxtı gəlinçün qurban apardılar. Qurban xoncaları götürülür, qurbannığ qoyunu da bəzəyillər, qırmızı yaylığı salıllar boynuna. Qurban qabağı da xoncalar əllərdə, hamı gedərdi qız qapısına. Evin ic adamları, qohum-ağraba gedirdilər, qurbanı gəlinin başına fırradırdılar, kəsirdilər. Qanınnan da gəlinin alnına bi balaca vuvurdular.

* * *

Bu gün toy günündür ,ay xanım bacım,
Başına qoyulur xoşbəxtlik tacın.
Səni yoxlamağa gələr qardaşın, bacın,
Gedən yerdə yarıyasan, mənim bacım.
Xoşbəxt olub qarıyasan, mənim bacım.

Bu gün toy günündü, ay Həsən qardaş,
Atan, anan sənə alıb ömürlüg sirdaş.
Arxadır, dayaqdır qardaşa qardaş,
Allah bir ömrü verib, yüz yaşıyasan.
Ata-anava mehriban ailədə şən yaşıyasan.

Yaşa bu dünyanı, yaşınnan qocal,
Çalış bu dünyada adınnan ucal.
Allah sevən ol, Allahdan güc al,
Aldığunnan yarıyasan, tazə bəy,
Ata-anaya mehriban ol, tazə bəy.

Əyləş, gəlin, əyəş, gəlin,
Bizim dil farsu dilidi,
Öyrəş, gəlin, öyrəş, gəlin.

Evlərində var aftafa,
Yolunda çəkmişəm cəfa,
İndi olmuşam bifəva,
Əyləş, gəlin, əyləş, gəlin.

Ay xınanı yaxun dəsdinə-dəsdinə,
Xəbər getsin düşmanına, dosduna.
Gəlib burdan getmiyəsən,
Ay xınanı yaxun dəsdinə-dəsdinə.

Çadranı yellətmiyəsən,
Ay xınanı yaxun dəsdinə-dəsdinə.
Dul kişiyə getmiyəsən,
Ay xınanı yaxun dəsdinə-dəsdinə.

Səhər qız gəlin köçəndə deyirdilər:

Evlərinin yanı hasar,
Ay qara toyuğun yağısan, ay gəlin.
Bir gecənin qonağısan,
Ay qara toyuğun yağısan, ay gəlin.

Gün gəlib kölgəni basar,
Ay qara toyuğun yağısan, ay gəlin.
Yarun gəlib qulağ asar,
Ay qara toyuğun yağısan, ay gəlin.

* * *

Mən qız vaxtı qəşəng qabal çalardım. Sonradan cırıldı. Kişiyə dedim, bir qabal al, dedi: "Şöngi oturduğun yerdə".

Qabal çaldığıma görə, qızdar məni "xınayaxması"na çağırardılar. Gedərdüy oturarduğ, xınayaxdıda, e, gecə yarısınacan. Qaval vurardım, dambıltısı çıxardı ərşə. Başda mən durardım. Elə vaxtı olurdu, gecənin yarsınacan səhərə yaxın oturduğ ki, nə var, nə var bi çiqqana xına yaxacüy, sora gedəcüy öy-eşiyimizə. Bi dəfə bi dənə qızın xınayaxtısı idi. Gedmüşüy, o qızın xınayaxtısına. Halay çəkdüy, yatdüy-durdüy, ay Allah, neyliyək, səhər açılmadı.

Həmən bu nişannı qızgilin həyətdərində 2-3 dənə gomuş bağlamışdılar həyətə. Üç-dörd dənə qızzdarnan düşdüy həyətə. Gomuşdarın təzəyi koma-koma, "əstəfurulla" gördüy xına kimi şeydi. O qıza dedim ki, gə bu gomuşun nəcisinnən bi çıqqan götürəy, çıxəy yatanların əlinə yaxəy. Biqətənə götdüy, çıxduğ yuxarı. Yatannarın əlinə yaxay. Kimin əli münasib yerdədi, əlinin ortasına qoyduy. Biri gənnəşir, biri durur. Yuxudan

durannar gərnəşir, kimi diyir mənim əlimə kim yaxdı xınanı? Mən dedim: – “Kül başua, mal zadıdı yaxmuşuğ əlüə”.

Halay gedərdüy:

Çəkün halay düzülsün,
Xumar gözdər süzülsün,
Hər kəs halaya durmasa,
Əli yardan üzülsün.

* * *

Bizlərdə gəlni gətirəndən sora gəlni gətirirdilər, gəlnin başında bu mahnını oxuyardılar.

Qız gedər, gəlin olar,
Meh dəyər, sərin olar.
Qızın getdiyi yerlər,
Boy verməz, dərin olar.

Əvvəl gəlinə xına yaxmamışdan qabaq, kasaya bi az su tökürdülər. İynə atırdılar içinə, bi dənə də cörək kasanın böyrünə qoyurdular, sora, belə mahnı oxuyurdular.

Ay xınanı yaxdım dəstinə, dəstinə,
Xəbər verin düşmanına, dostuna.

Bunu mahnı ilə diyirdilər. Gəlin içəri girməmişdən qabaq, gəlni gətirəndə qapının ağzına bi kasa su qoyardılar. Bi dənə də nimcə qoyardılar. Gəlin əvvəlcə suyu qıcınnan vurur dağıdır, sora o nimçəyə bi təpik qoyur, nimçə qırılır. Qırılandan sora qapını üc dəfə açıb örtür. Sora girir evə. Başında cörəg kəsirlər ki, cörəgin bol olsun. Suyun qoyurlar ki, gəlin suyu dağıdır, yəni yolun aydınlıq olsun, gəldiyin yerlər aydınlıq olsun. Məsəlcün qabı qırıllar ki, dava qeylü-qal bu evdə olmasın. İndi bəzən görürük ki, cörəyi yerə düzüllər gəlin yığayıga gedir. Yox-yox, o, düzgün deyil! Cörəgi Qurandan irəli

deyiblər. Onu hec gəlnin ayağı altına düzməzlər. Cörəgi onun başında kəsirlər ki, həmişə cörəgi olsun. Elə onu, cörəgi gəlnin başında kəsən adam diyirdi də, cörəgin bol olsun! Həmişə başından tökülsün! O kəsilmiş çörəgi qoyurlar gəlnin evinə. Sora, gəlnin qaynatası gəlir gəlni otuzdurur. Məsələn üc dəfə qalxızır, otuzdurur. Əgər oğlan evi tək oğuldursa, deyir bu ev-eşig sənin, otur gəlin! Oturandan sora kimin qucağında oğlan uşağı var, qoyur gəlnin qucağına.Yəni ki, oğlun olsun daa:

Biz almışıq arvadı oğlan doğa,
Almamışıq, qız doğa bədbaxlığa.

Bədbaxlıq bi növi bədbaxlıq fasondu.

Gəlni evə salandan sora yığışardıq gəlinin başına belə deyərdik:

Əylən gəlin, əylən gəlin,
Bizim dil farsi dili,
Öyrən gəlin, öyrən gəlin.

Deyirlər daş düşdügü yerdə qalır, yəni, gəlin evinə bağlı olar. Bi dəfə qızımgilə getdim, qızım dedi: Ay Mədinə, o qədər dedin, daş düşdügü yerdə qalar, daş kimi düşmüşük, hec evimizə gəlmək istəmirik.

Naskə məni bağlama,
Xınan gəlir, ağlama.
Gedərəm, yenə gələrəm,
Yadlara bel bağlama.

Verin bizim gəlini,
Qaynı bağlasın belini.
Ha-ha! Hurre!

Yaxşı bəzək vurun bizm gəlinə, gəlinə,
Mirvaridən saçax tökün telinə, telinə.

Gəlin oturanda qırmızı kalağayı atırdıq. Gəlin yuxarı çıxanda, iki metrə xara sərirdik. Bi dənə boşqab qoyurduq. Gəlin o qıçınnan bərk vurursa, demək bundan iş gözləmək olar. Əgər elə-belə vurursa, bunun işi də belə olacax. Bizim dövrdə lampa olardı, gəlinçün qoyardıq. Sora şam-zad cıxdı. Güzgü qoyardıq gəlin qabağına. Güzgüdə yazdırardıq ki, Allah mübarək eləsin! Güzgü baxt aynasıdı də. Güzgü Allah eləməmişkən, əgər qızı gətirəndə sınırsa, deməli buların axırı yoxdu. Şam sönərsə, lampa qırılarsa, gəlin maşına oturan zaman, deməli, buların şamı yanmayacaq. Gəlin gələndə üzr istiyirəm, bir həftə onnan işimiz olmazdı. Ay qız, burdan otur, ordan otur. Xalça qoyardılar. Ay qız! Soyuq su, isti su olmasın! Sora da iş tələb edirdilər. Qaynatavə dəstəmaz suyu gətirməlisən, namaz qılır, qaynənəvə dəstamaz suyu gətirməlisən. Bu evə xidmət eləməlisən sən bi qız kimi. Ata-ana qaldı öz evində. İndi burda atan da biz olaciyıx, anan da. Ağ paltarda ordan cıxıbsan, ağ kəfəndə burdan çıxacaqsan. Gəlin gələndə, hec kimin ixtiyarı yox idi gəlini oturtsun. Ay qaynata, gəl də, bunu əyləşdir! Qaynata gəlirdi, deyirdi, hə, əyləşdirəcəm, oğlum da onundu, bu ev-eşik də onundu. Deyirdilər yox e, bunlar razılaşmırdılar. Deyirdilər bir şey verməlisən buna. Deyərdi bi dənə qara inək verdim. Əşi inək işi deyil, onsuz da inəgi o sağəcəy. Bi dənə boyunbağı verdim otursun.

Ata-anaya qız yaraşır! Buna inanız siz! İnanın! Lap oğlan onu qoymasa da ata ananın yanına, genə də deyir bi gedim, görüm ata-anamı. Ama oğlana bi gün qız desə ki, həə, mən sənə deyirdim, o gün bacın sənin dalınca belə deyirdi, anan sənin dalınca belə deyirdi. Əşi bilirəm e, o diyər. Onnan da kitab bağlanar.

* * *

Xınayaxtıda diyərdüy.

Yar Əli, yar düymələri mərcan,
Yar Əli, bu toy kimin toyudu?
Yar Əli, balalarımın toyudu,
Yar Əli, bu toyda oyniyanın,
Yar Əli, boyuna qurban olum.

Mağarsız yola saldım,
Safa başına vurdı.
Yar düymələri mərcan.

* * *

**Masallının talışlar yaşayan kəndlərində də toy adətləri türklər (azərbaycanlılar) yaşayan kəndlərində (el arasında Muğan deyilir) olduğu kimidir. Aşağıda Mahmudavar kəndində olan toy adətini veririk.**

Yaşlı nəslin fikrincə, oğlanla qızın bir-birin bəyənməsi heç də əsas deyildi, valideynlərin qızı bəyənməsi ilə hər şey öz həllini tapırdı. Burada qızlar İslam ənənələrinə uyğun olaraq 12-16 yaşlarından etibarən, həddi-buluğa çatmış hesab olunur. Bu yaşda qızlar kişilərdən yaşınır, örtünməli olurdular. Oğlanlar isə bu yaşda odun daşıyır, mal-qara otarır, təsərrüfatın müxtəlif sahələrində çalışırdılar. Oğlanlar 15-20 yaşlarında ailə qura bilərdilər. Talışın bir çox yerlərində olduğu kimi, bu kənddə də bir çox ailələrdə qızlar bəzən çadrasız gəzir, kişilərdən yaşınmır, hətta çəltikçilikdə birgə çiyin-çiyinə işləyirdilər.

Oğlanlar sevdikləri-bəyəndikləri qızlar barədə ilkin olaraq bacılarına, yaxud analarına eyham edərdilər. Bəzən isə valideynlər övladlarını evləndirmək, yaxud ərə vermək, kim

ilə qohum olmaq məsələləri ilə bağlı evdə öz aralarında məşvərət edərdilər. Oğlanın bacıları qardaşlarını evləndirməklə bağlı ata-analarının söhbətlərinə gizlincə qulaq asır, sevinər, şənlənib bayatı, mahnı oxuyardılar. Qızı görüb xasiyyətinə yaxından bələd olmaq üçün oğlanın anası özünə yaxın məhrəm qadınlarla qız evinə gedir, bir bəhanə ilə qızı ətraflı öyrənər, aldıqları məlumatı, gəldikləri qənaəti ərlərinə nəql edərmişlər. Əgər qız tərifə layiq olub bəyənilsə idi, müəyyən vaxt təyin edib arvad elçiləri qız evinə göndərilərdi. Keçmişdə belə hallarda valideynlər əvvəlcə mollanın yanına gedib istixarə (dini fal) etdirər, yaranacaq, yeni qohumluğun xeyirli olub-olmadığını qabaqcadan öyrənməyə çalışardılar.

İstixarə yaxşı gəlsə idi, qız evinə oğlan anası başda olmaqla bir neçə ağbirçək qadın elçiliyə gedərdi. Burada oğlan anası qız anasına məqsədi açıqlayardı, ondan xeyir-dua istərdi. Qız anası isə əri və yaxın qohumları ilə məsləhətləşmək üçün oğlan tərəfinə vaxt verərdi. Çünki qız anasının heç kəsə məsləhət etmədən razılıq vermək hüququ yox idi. Müəyyən vaxtdan sonra oğlan tərəfini qadın elçiləri yenidən qız evinə gedərdilər. Qız anası öz tərəfinin razılığını onlara bildirəndən sonra "Kişi elçiliyi" başlanardı. Belə ki, oğlanın atası yaxın adamları ilə birgə qız evinə elçiliyə yollanardı. Elçiliyə hər kəs yox, kəndin sayılan ağsaqqalları aparılardı. Fəxrlə deyilərdi ki, mənim elçiliyimə filan ağsaqqal gəlmişdi, yoxsa atam məni verməzdi. Ağsaqqallar bir qədər ordan-burdan danışandan sonra mətləb açıqlanar, hər iki tərəf ümumi razılığa gələndən sonra oğlan tərəfdən olan ağsaqqallardan biri "Xıdo xəyr bıko" (Allah xeyir versin) deyib qız adamlarından biri ilə əl verib görüşür, xələt əvəzinə pul verirdi. Daha sonra ortaya

şirinçay, müxtəlif şirniyyatlar gətirilir, “siprişə plo” (ağsaqqal plovu) yeyilir. Bununla da elçilik mərhələsi bitir.

Bir-iki həftə sonra, ya bir az tez, qız evinə nişan aparılırdı (“hoşte” yaxud “nişonə” – bu mərhələ belə adlanırdı). Burada hər iki tərəfin ən yaxın qohum-əqrəbası iştirak edirdi. Nişan mərasimi daha şən təşkil olunardı. Qaynaqlarda qeyd olunduğu kimi, “Lənkaran zonasında oğlan evindən nişana gedən arvadlar qız evinə çatanda mahnı oxuyardılar. Xonçalar başlarında ikən bir qədər oynayıb oxuyandan sonra yerə oturar, xonçaları qız evinə verərdilər. Nişan gətirənlərin qabağına şirinçay, müxtəlif şirniyyat məmulatları və s. qoyarlar. Burada çalmaq, oynamaq da öz qaydası ilə...” (“Azərbaycan folkloru antologiyası”, I kitab, s. 259/ B., 1968). Nişan mərasimi zamanı gəlinin barmağına üzük keçirilər və beləliklə, o gündən qız oğlanın nişanlısı hesab olunardı. Hamı “Xıdo mübarək bıko” (Allah mübarək eləsin) deyib evlərinə dağılışardılar.

Bəyoğlan qaynatasından gizlənməli, abır-həya gözləyib, qızla aşkarda görüşə bilməzdi. Bir müddət sonra qız atası bəyoğlanı dost-tanışları ilə birgə evə qonaq çağırır, hədiyyə verərdi. Bundan sonra oğlan qız evinə sərbəst gedib gələ bilər, qaynata ilə görüşüb söhbət etmək hüququ əldə edərdi. Qız evinə hər hansı bir işdə kömək lazım olanda bəy özü və dostları ilə gəlib işləyərdi (Bu adətə “zomoa koyə” “yeznə köməkliyi” deyilərdi).

Bundan sonra “Şalüzüyü” mərasiminə hazırlıq görülərdi. Mərasim qız evində keçirilərdi. Oğlan tərəfi öz adamlarının sayını hansı ki, mərasimdə iştirak edəcəklər, həm də orada yemək üçün istifadə olunan qoyun, ət, düyü, dağ, un və s. Şeyləri qız evinə azı bir gün qabaq göndərir. Bu mərasimə çalğıçılar da dəvət olunur. Oğlan tərəfinin gətirdiyi sandıqdan

qızın cehizləri, pal-paltar bir-bir göstərilir, nişanlı qız məclisə dəvət edilir, barmağına üzük taxılır... Qurban və Novruz bayramlarında isə oğlan tərəfi qız evinə bayramlıq payı göndərir. Qurban bayramında qoçun (qoyunun) boynu qırmızı rəngə boyadılır, yaxud qurbanlığın boynuna qırmızı parça dolayırdılar, xonçalarla qız evinə gedərdilər.

Novruz bayramında da oğlan tərəfi qız evinə bayram payı aparırdı. Mahmudavarlıların "kuləxonça" adlandırdıqları bu bayram xonçasında mütləq təzə balıq, balıq ağzında da bir qızıl üzük olmalı idi. Daha sonra "idə xonça" adlı bayram payı aparılırdı. ("Kuləxonça" – "axırçərşənbə payı", "idə xonça" isə "bayram payı" deməkdir).

Hər iki tərəf üçün baram payları müəyyən xərc tələb etdiyi üçün çox vaxt bayrama qədər oğlan tərəfi toyu sürətləndirir, gəlini evinə gətirirdilər. Sovet dövründə həm də 8 Mart – Beynəlxalq Qadınlar günündə və nişanlı qızın ad günündə oğlan tərəfi xüsusi hədiyyələrlə qızı təbrik edirdi. Buna cavab olaraq 23 Fevral – Sovet Ordusunun yaranması günü və oğlanın ad günündə qız evi təbrikə gələr, oğlan üçün hədiyyələr gətirərdi.

"Şalüzüyü" mərasimindən sonra oğlanın və qızın valideynləri mollanın yanına gedər, kəbin kəsdirərdilər. Son vaxtlar mollalar VVAQ-evlənmə şəhadətnaməsi olmadan kəbin kəsmirdilər, yalnız müstəsna hallarda buna yol verilirdi.

Evlənənə qədər oğlanla qızın görüşləri çox gizli olardı. Bu barədə yalnız oğlan və qız anaları bilərdilər. Kişilər xəbər tutmamalı idilər. Mahmudavarlı gənclər çox həyalı və ismətli olar, paklıqlarını, şərəf və ləyaqətlərini qoruyardılar, bakirəliyi toy gecəsinə qədər hifz edərdilər.

Mahmudavarda qız qaçırmaq hallarına da rast gəlinib. Bu hal indi də müşahidə olunmaqdadır. Qızın ata-anası oğla-

na qız verməkdən imtina etdikdə, yaxud oğlan çox kasıbdırsa, silsilə toy mərasimlərinin öhdəsindən gələ bilmirdisə, yaxud başqa müstəsna hallarda qız ilə oğlan gizlicə sövdələşib-vədələşib qoşulub qaçırdılar. Çox vaxt qız öz razılığı ilə qaçırılırdı. Amma elə hallar da olurdu ki, oğlan bir qızı sevər, qız isə başqasını sevər, o halda oğlanın tay-tuşları o qızı zorla qaçırdardılar. Hər üç halda qız qaçırmaq arzuolunmaz olub, nəsilə, tayfaya, kəndə əskiklik, ləyaqətsizlik sayılıb, hətta tayfa, nəsil, oba ilə oba arasında ədavətə çevrilib. Toya hazırlıq mərhələlərindən biri də "Şirni (şini) paltarkəsdi" ("talışca "olətəbırın") adlanır. Mahmudavarlılar buna "hırdəbo" (xırda yük) ağırlıq da deyərlər. Bu mərasim "Şalüzüyü", "Nişantaxtı" mərasimlərindən sonra keçirilir. Oğlan tərəfi allı-güllü xonçalarda öz adamları ilə qız evinə gəlir. Gəlinin paltarlarını kəsib biçmək üçün xonçaya qayçı da qoyulur. Parçanı kəsib-biçən qadına oğlan adamları xələt də verirlər.

Qız evində olan toya "kinəvəyə" (qız toyu) deyərdilər. Toy üçün mağar – çadır qurulur. Bu işi, adətən, bəy öz dəstəsi ilə birgə görür. Toya bir gün qalmış oğlan tərəfi qız evinə lazımi ərzaq: qoyun, ət, düyü, yağ və s. şeylər göndərir. Buna əvvəllər "yolə hırdəbo" (böyük yük) ağırlıq deyərdilər. Toydan bir gün qabaq toya dəvət üçün kəndə adam salardılar, ona "səlo je", "səlo bıjən" (vədə almaq, vədəçi) deyərdilər. Bu məqsədlə oğlun toyunu xəbər verən kişi, qız toyuna vədə alan isə subay qızlar olur. Qız toyunda ancaq qız-gəlin iştirak edər, kişi xeylağının qız toyunda iştirakı qəbahət sayılardı.

Qız toyları axşam başlanar, gecədən xeyli keçmiş qurtarardı. Bəzi yerlərdə toy gündüz başlanar, axşam bitərdi. Son vaxtlarda bəy öz dəstəsi ilə gəlib qız toyunda iştirak edir, gəlin oynayanda bəy ona xələt verir. Toyda qız-gəlin rəqs edir,

xanəndə qız oxuyur, gəlin axırda oynayır, tərif edilir, hamı xələt – hədiyyə verir. El adətidir, qız toyunda qız bəyənərlər. Bu məqsədlə müasir toylarda subay oğlanlar mağardan uzaqda qalar, qızları gizlicə müşayət edər, yaxın qohum qadınları toydan evlərinə ötürərlər.

Qız toyundan bir qədər sonra oğlan toyu olur, buna “yola vəyə” (böyük toy) deyərlər. Keçmişdə varlı mahmudavarlılar toy məclisini üç, yeddi, qırx gün keçiriblər. Oğlan toyuna bir gün qalmış qız evinə yengə gələr. Oğlan yengəsi həmin gecə qızgildə qalar, gəlinin və rəfiqələrinin əllərinə həna yaxar. Qızlar həmin gecə mahnı oxuyur, gəlin qızın əl-ayağını, başını, üz-gözünü bəzəyirlər. Həna yaxmaq üçün valideynləri sağ olan qız seçilir (yetim qız məsləhət deyil) ona hədiyyələr verilir. Səhər qız yengəsi və rəfiqələri gəlin qızı hamama aparırlar, axşamçağı qızı oğlan evinə gəlin köçürürlər.

Gəlini gətirmək üçün oğlan evindən çalğı dəstəsi, yük maşını, gəlin maşını, oğlan adamı ağsaqqal və ağbirçəklər, qız-gəlinlər, uşaqlar-böyüklər gəlirlər. Əvvəl “vəyüə maşın” (gəlin maşını) bəzədilir, qırmızı şal, alabəzək lentlər, müxtəlif bəzəkli parçalar, gəlincik və s. olur. Sürücü üçün də xələt qoyulur. (Ötən əsrdə gəlini at belində, araba ilə, şəhərdə isə faytonla oğlan evinə aparardılar).

Qızın yola salınmasına az qalmış ata-anası, bacı-qardaşları onunla xudahafizləşirlər, valideynləri ona öyüd-nəsihət verirlər, onu Quranın altından keçirirlər. Gəlin maşını yola düşərkən anası arxasınca su atır. Keçmişdə qızı mahnı oxumaqla yola salardılar. Kənd yerlərində uşaqlar kəndir ilə gəlin maşının qabağını kəsər, xələt, çox vaxt pul alardılar. Xələti – pulu oğlan tərəfi ödəyərmiş. Gəlin maşınında qızın yengələri və qardaşı, qardaşı olmasa, yeznəsi, əmioğlu və s. (maşından

düşüb bacısının əlindən tutub bəy otağının qapısına qədər müşayət edərdi. Ona xələt verib yola salar, yaxud toya dəvət edərdilər.) Oğlanın bacısı gəlin evə girəndə mahnı oxuyardı.

Qaynı gəlib gəlin qızın belini bağlamalı idi. Bəy otağı ağzında gəlin ayaq üstə durar, başına şirniyyat, düyü, xırda pul tökərdilər. Bu adət gəlin maşını gəlib qapıda dayananda da təkrar edilərdi. (Bu, gəlinin mübarək qədəmlərinin barlı-bərəkətli olmasına işarə edir). Musiqi çalınır, oğlan adamları rəqs edir, şabaş verirlər. Gəlin bəy qapısı ağzında ikən məcməyinin içində bir kasada bal, çörək, yağ gətirirlər. Gəlinin barmağını yağbala batırıb qaynananın ağzına salırlar. Bu da rəmzi məna kəsb edir, yəni gəlin-qaynana yağ-bal kimi qovuşar, bir-birinə şirin olarlar. Çörəyi yeddi tikəyə bölüb yağ-bala batırıb yeddi oğlana yedirdərdilər. Bu da o deməkdir ki, gəlinin yeddi oğlu olsun. Gəlin gələn qapı ağzında boşqab qoyardılar. Gəlin boşqabı ayağının zərbəsi ilə sındırar, təpiyi ilə qapını açar. "Qapıya təpik vurma" üç dəfə təkrar olar. Gəlinin başı üstündə təndir çörəyini iki bölüb qonşuya göndərərlər. Gəlin bəy otağına daxil olub, ayaq üstə qalar, oturmaz. Oğlan adamı gəlini təbrik edər, ona xeyir-dua verərlər. Qaynatası gəlib gəlininə xələt verər, yaxud camış, inək, qoyun və s. ev heyvanları, var-dövlət, maldavar boyun olur. Bundan sonra gəlin oturur, rəfiqələri, yengəsi onu ta bəy gələnə qədər darıxmağa qoymur.

Oğlan toyu da çadırda keçirilir (çadıra talışca "çodo" deyərlər, "ço" – dörd, "do" – ağac deməkdir). Çadırda toyu idarə edən "sərxi" (sərxeyr) – "toybaşı" adlanır. O, kənddə sözü keçən adam olmalıdır. Bəy oğlan sağdış, soldışı ilə hamamdan çıxıb, dəstəsi üçün təşkil etdiyi xüsusi yerdə dincəlir, burada dostları yeyib-içər, bəyin şərəfinə sağlıq söylənər. Bəy həmin gecə spirtli içkilər içməməlidir. Yeyib-içmək-

dən sonra bəy öz dəstəsi ilə toyxanaya daxil olur. Toyda oğlanlar rəqs edir, xanəndə oxuyur, bəy toyun axırında öz dəstəsi ilə, yaxın adamları ilə oynayır, bəy tərif edilir, ona xələt – hədiyyələr verirlər. Axırda xanəndə "Bəy tərifi" edir, oğlan və qız adamları bəyin boynuna müxtəlif xələt (parçalar) bağlayır, əlinə şabaş verirlər. Başına şirniyyat, pul səpirlər. Toya qız-gəlin gəlməməlidir, oğlan toyunda bu nöqsan sayılır, düzgün hesab edilmir. Son zamanlar bəyə yaxın qadınlar toy çadırından uzaqda durub tamaşa etdiyi hallara rast gəlinir. Toy axşam başlanır, gecə yarısında bitir.

Bəylə gəlinin yerini yengə salır, bəzəyir, gəlinin bakirəliyini isbat edəcək ağ parçalar qoyulur, bu, elə yengənin əsas vəzifəsidir: gəlinin bakirəliyini yoxlayıb nümayiş etdirmək. Yeri gəlmişkən, Mahmudavarda gəlin qızın bakirəliyinə çox ciddi yanaşırlar. Bu, ismət, ləyaqət, şərəf, namus rəmzi hesab edilir. Zifaf gecəsi oğlan yengəsi bəyə, qız yengəsi gəlinə məsləhətlər verirlər. Oğlanın sağdış, soldışı bayırda gözləyirlər. Sağdış ailəli cavan, soldış isə subay olmalıdır. Bəy gəlin otağına daxil olarkən, qız ayağa qalxmalıdır, hər ikisi bir-birinə yaxınlaşmalı, bir-birinin ayağını basmalıdır (bu adətə "lınq əğatə" deyərlər, yəni ayaqbasma). Əlaməti budur ki, görək ailədə kimin sözü ötəcək? Guya nişanlısının ayağını birinci basan ailədə sözü ötər, dili uzun olar. Toy gecəsi ilə bağlı bir sıra adətlər də mövcuddur. Məsələn, bəy kişilik gücündən istifadə edə bilsə, qız gəlin olandan sonra oğlan da, qız da döşəyin altına xələt-pul qoyarlar, qızın bakirəliyi barədə yengə ("deyne jen") oğlan adamlarına xəbər verər, xələt alar, muştuluq istəyər, səhər qız evinə də xəbəri özü aparar, onlardan da xələt-muştuluq alar. Xəşil bişirilib (talışca "leketor") yaxın adamlara qonum-qonşulara paylanar, xələt-pul alınar. Bəs zi-

faf gecəsi bəy kişilik gücündən istifadə edə bilməsə, nə olur? Onu utancaqlıq, zəiflik və naşılıqdan xilas etmək üçün mollaya kitab açdırar, dua etdirərlər. Bəyoğlanı sağdış-soldış soyuq suda çimizdirər, yaxud söyüd ağacına çıxmağa, evin başına dolanmağa məcbur edərlər. Bunlar da kömək etməyəndə qız üçün mamaya, oğlan üçün həkimə müraciət edərlər.

Bəylə gəlin üç gün "pərdəyi-ismətdə" qalarlar. Bəy anası balaca bir qızla onlara çay-çörək yollayar. Üçüncü gün qız yengəsi gələr, gəlini otaqdan bayıra çıxarar, onu quyu başına aparar. Gəlin quyu başında yerə iynə sancar, gül basdırar, pul qoyar. (Mahmudavarda belə bir inam var ki, gəlinin o pulunu kim görüb götürsə, xoşbəxt olar). Gəlin kişilərdən yaşınar, ağzını və burnunu tutar, bundan sonra ailə üzvlərinin hər biri üçün hazırlayıb özü ilə gətirdiyi hədiyyələri-xələtləri paylayar, ailə şənlik edər. Buna "se rüje" (üç günlük) deyərlər. Bununla da yengələrin işi-vəzifəsi bitmiş olar, xələtlərini alıb gedərlər. Yeddinci gün qız adamları gələrlər, hədiyyələr gətirərlər. Oğlan evində onlara qonaqlıq verərlər. Qız anası qızı ilə xısınlaşar, ona məsləhətlər verər. Bu mərasimə "haft rüje" (yeddi günlük) deyərlər, gətirdikləri hədiyyələrə isə "haft rüje şele" (yeddi günün xonçası) deyilir.

Gəlin qırx gün özünü bəd ruhlardan, soyuq sudan, qaranlıqdan gözləməli, gecələr bayıra tək çıxmamalıdır… Qırx gün müddətində gəlin hər şeydən pəhriz saxlamalıdır. Gəlin "çilləli" sayılır. Gəlinin hamiləliyi onun şor və meyxoş meyvələr, şeylər yemək istəməməsi ilə aşkar olar. Buna "voni karde" (yerikləmə) deyərlər. Gəlin uzun müddət uşağa qalmayanda oğlan və qız tərəfi narahat olarlar. Gəlini pirə apararlar, dua yazdırarlar, türkəçarə ilə müalicə edərlər. Mahmudavarlıların inamına görə, gəlin hamilə vaxtı dovşana baxsa, uşaq qarnında

bu zaman tərpənsə, ağzı mırıq olar, yerikləyən vaxtı böyürtkən, yaxud gicitkən yesə, uşağı nadinc olar. Vaxt yetişəndə "momone jen" (mamaça) dalınca gedərlər. Ailədə ilk uşağın – ilk nəvənin… olması şənlik doğurar, körpə oğlan olsa, bu sevinc bayrama çevrilər, ikiqat – fərəh gətirər. Mahmudavarlılar oğlan uşağını çox istər, ona "peşt" (arxa, dayaq) deyib əzizlərlər. Gəlin zahılıq dövründə bir həftə evdən bayıra çıxmaz, "şaşa" adlı qara pişikdən, kiçik heyvandan qorunmalı, qırx gün özünü bəd ruhlardan, bərk isti-soyuqdan, qaranlıqdan, tənhalıqdan qorumalıdır. Özü də, uşağı da "çilləli" olduğu üçün otağa qırx gün nə özü, nə də bir başqası qəfildən girməməlidir. Kim də otağa girmək istəsə, əvvəl uşaq eşiyə çıxarılır, həmin adam otağa girər, sonra uşaq otağa daxil edilər. Uşaq ailə səadətinin başlanğıcı sayılır. Körpə yeddi gün bələnər, ana qucağında yatar, yeddi gündə nənəsi ona beşik, nənni, uşaq arabası gətirər, uşaq da beşikdə yatar, bəslənib böyüyər…

**Söyləyicilər:**

Gülsüm Muradova. Doğum tarixi 1937, təhsili 5-ci sinif, Xallıcalı kəndi.

Həcər Həsənova. Doğum tarixi 1950, təhsili orta, Şərəfə kəndi.

Gülcahan Ələkbərova, 75 yaş, təhsili yoxdur, Qızılagac kəndi.

Zəringül Mirzəyeva, doğum tarixi 1956, təhsili orta, Musaküçə kəndi.

Zemfira Əliyeva, doğum tarixi 1944, orta təhsili, Ərkivan kəndi.

Ağaverdi Novruzov, doğum tarixi 1940, təhsili 7-illik, Ərkivan kəndi.

Zərifə Xəlilova, doğum tarixi 1945, təhsili 7-illik, Ərkivan kəndi.

Fatma (Pərzad) Tağıyeva. Doğum tarixi 1938, təhsili 7-illik, Gəyəçöl kəndi.

Şabikə Bəşirova, 75 yaş, təhsili yoxdur, Dadva kəndi.

Güləsər Dadaşova, doğum tarixi 1942, təhsili 7-illik, Musaküçə kəndi

Gülbacı Əhmədova, doğum tarixi 1947, təhsili orta, Gəyəçöl kəndi.

Mədinə Həsənova, doğum tarixi 1941, təhsili 7-illik, Xırmandalı kəndi.

Cavahir Xanəliyeva, doğum tarixi 1931, təhsili 7-illik, Gəyəçöl kəndi.

Musarza Mirzəyev. Mahmudavar kəndi. B., 1997.

Rübabə Ələkbərova, 80 yaş, Qızılağac kəndi.

**Toplayanlar:**

Füzuli Bayat (Gözəlov)
Çiçək Əfəndiyeva
Nuridə Muxtarzadə
Qurban Əliyev

## 13. HALAY

Halayın kökü var, halayın mənası var. Uşağ olanda deyərdim niyə halay loluynan başlıyır?

Ay lolo

Lolu nə deməkdi, uşağı nəyə mindirərdik? Loluya. Lolu yüyrük, beşikdir, uşağın yırğalandığı yerdir. Halay heç olmasa altı nəfərdən ibarət olmalıdır. Azı üç, dəstə üçdən başlıyır. Filankəsin bir halay qızı var, filankəs bir yerə bir halay qız apardı. Halay yığıncağ deməkdi. Halay nədi? Çoxluğ deməkdi. Filankəsin bir halay qızı var. Filankəs bir yerə bir halay getmişdi. Halay çoxluğdu. Öz-özümə fikirləşərdim ki, lo, lo, lo, lo nədi lolo uşağ asdıyırsan e, yellədirsən a, keçmişdəkilər ona lolo deyib. Halay ki, başladı elə bil ki, yellənirsən, ona görə də lolu ilə başdayır:

Ay lolo, lolo əl-ələ
Hay çəkün, halay düzülsün.
Ay çəkün halay düzülsün, hay,
Ay əli yardan üzülsün, hay,

Uca dağlardan səslərəm, neylim.
Yarı qoynumda bəslərəm, neylim.
On iki imamdan istərəm, neylim.
Yar əlindən, dad əlindən, hay.

Bizim xoruz uca bannar, neynim.
Onun dilin kimlər annar, neynim.
Qonşular üzümü dannar, neynim.
Yar əlindən, dad əlindən, hay...

Evlərin dalın keçdim, neynim.
Əyildim suların içdim, neynim.
Mən bu yerə qərib düşdüm, neynim.
Yar əlindən, dad əlindən, hay.

Halayın ardıcıllığı.

1-ci: Lolu.
2-ci: Uca dağlardan səslərəm səni.
3-cü: Yeri ha, yeri.
4-cü: Yar əli, yar düymələri mərcan.
5-ci: Sunalar.
6-cı: Dəst eylər gül eylər. Yəni gülü dəstəliyir.
7-ci: Aman mələk.
8-ci: Basma, basma tağları.
9-cu: Ay yordu, yordu, yordu
10-cu: Aman, aman

Bunların heç olmasa hərəsini yarım saat deyərdilər. İki-iki qruplarda mahnılar olardı. Halay gedə-gedə fırranardıq.

**Sunalar**

Gəncənin qıyqacına
Sunalar, sunalar,
Nabat bağla ucuna.
Bir dəstə reyhan,
Bala-bala mən sənə heyran.

Bakı, Bakı bu imiş
Sunalar, sunalar,

Dörd tərəfi su imiş.
Bir dəstə reyhan,
Bala-bala mən sənə heyran.

İndiki oğlanların
Sunalar, sunalar,
Etibarı bu imiş.
Bir dəstə reyhan,
Bala-bala mən sənə heyran.

Bakıda girdim bağa
Sunalar, sunalar,
Başım dəydi yarpağa.
Bir dəstə reyhan,
Bala-bala mən sənə heyran.

Cavanam keçmə məndən,
Sunalar, sunalar,
Necə gedim torpağa?
Bir dəstə reyhan
Bala-bala mən sənə heyran.

Əlim əlimdə deyil.
Sunalar, sunalar,
Şalım belimdə deyil.
Bir dəstə reyhan
Bala-bala mən sənə heyran.

Sən mənimsən, mən sənin.
Sunalar, sunalar,

Camahat acığına
Bir dəstə reyhan
Bala-bala mən sənə heyran.

Mənim çəpərdən aşmağım
Sunalar, sunalar,
Ağzımdan düşdü yaşmağım.
Bir dəstə reyhan,
Bala-bala mən sənə heyran.

**Mələk, mələk, canım mələk**

Mən bu küçənin qızıyam,
Yarın nəməkdan duzuyam.
Hər kəsənin baldızıyam.
Gəl bağa, bostana mələk,
Canı mələk, mələk,
Aman mələk, mələk.

Evlərinin dalında
Bənd oldun kollarında.
Qızıl qolbaq oleydim
Yarımın qollarında.
Canı mələk, mələk,
Aman mələk, mələk.

Oğlan adun Mürşüddü.
Gün dağlara düşübdü.
Sən aldığın üzüklər,
Barmağımdan düşübdü.

Canı mələk, mələk,
Aman mələk, mələk.

Mənim çəpərdən aşmağım,
Ağzımdan düşdü yaşmağım.
Əlimdə güllü dəsmalım,
Mələk, mələk, mələk,
Canı mələk, mələk,
Aman mələk, mələk.

Oğlan adun Yağubdu,
Gün dağlara doğubdu.
Sən aldığın üzüklər,
Barmağımı boğubdu.
Canı mələk, mələk,
Aman mələk, mələk.

Gəl gedək eyvan altına
Eyvanın, eyvan altına.
Kəlağayı yorğan altına.
Canı mələk, mələk,
Aman mələk, mələk.

**Ay leyli leylaye, gəl saçı tellaye**

Yeri ha, yeri, ha kimin yarısan?
Kimin heyvasısan, kimin narısan?
Hansı bəxtəvərin vəfadarısan?
Ha leyli leylaye, gəl saçı tellaye.

Ocağa qoymuşam dolma qazanı,
Yarı yola saldım axşam bazarı.

Xarabada yoxdur kağız yazanı
Ha leyli leylaye, gəl saçı tellaye.

Gəmiyə vurmuşuq taxta, talaşa,
Gəmini hasta sür, dəyməsün daşa.
Bir kağız yazaram Ağa qardaşa,
Ha leyli leylaye, gəl saçı tellaye.

Sənə kim dedi ki, düyü alasan?
Mənim bu canımı çəbrə salasan,
Məni qoyub, o pintini alasan,
Ha leyli leylaye, gəl saçı tellaye.

## Allam, allam səni

Evlərini dalın aldım, oturdum.
Daşların sinəmə saldım, oturdum.
Eşitdim yar gəlir, durdum, oturdum.
Allam, allam səni, qıza, mən allam səni
Qıza, mən allam səni, hey, ay qara göz,
Yarın ollam sənin, hey, ay qara göz.

Evlərin dalın halağ eylərəm,
Gələnə, gedənə sorağ eylərəm.
Bacısı göyçəyi qonaq eylərəm,
Allam, allam səni, qıza, mən allam səni, hay
Ay qara göz, yarın ollam sənin, hey, ay qara göz.

Evlərinin dalı hündür məsçiddir,
Oğlan, arxalığın nə güllü çitdir.

Məyər mən ölmüşəm rəngin qaçıbdır?
Allam, allam səni, qıza, mən allam səni
Ay hey, ay qara göz,
Yarın ollam sənin, hey, ay qara göz.

Qaynana, qaynata, mənnən düz danış,
Altuva qoyaram nazlı gül balış.
Oğlun evə gəlir, xanım, az danış!
Allam, allam səni,
Ay hey, ay ara göz,
Yarın ollam sənin,
Ay hey, ay qara göz.

Qaynanamın adı Mahidi, Mahi,
Ətəyinə atdım yüz əlli şahi.
Qaynananı tutub gəlninin ahi.
Allam, allam səni,
Ay hey, ay qara göz,
Yarın ollam sənin,
Ay hey, ay qara göz.

## Şərəfə kəndində halay

### I

**Nəqarət**
*I dəstə:* Ay lolo, lolo, əl ələ,
*II dəstə:* Ay cəkin halay düzülsün.

*I dəstə:* Ay lolo, lolo, əl ələ,
*II dəstə:* Ay xumar gözlər süzülsün.

*I dəstə:* Ay lolo, lolo, əl ələ,
*II dəstə:* Ay hər kəs halay deməsə

*I dəstə:* Ay lolo, lolo, əl ələ,
*II dəstə:* Ay əli əldən üzülsün.

*I dəstə:* Uca daglardan səslərəm neynim?
Yarı qoynunda bəslərəm neynim?

*II dəstə:* Yarı qoynunda bəslərəm.

*I dəstə:* On iki imamdan istərəm neynim?
Yar əlindən, dad əlindən neynim?
*II dəstə:* Yar əlindən, dad əlindən.

*I dəstə:* Yeri ha yeri, ha kimin yarısan?
Kimin heyvasısan, kimin narısan?
Hansı bəxtəvərin vəfadarısan?
Sevdim ala gözlünü, kimin yarısan?

*II dəstə:* Səni and verirəm adın Hüseynə?
Gəlib getməyəsən bizim küceylə.
Reyhanın dəstəsi ətir şüşeylə
Sevdim ala gözlünü kimin yarısan?

*I dəstə:* Evlərinin dalın aldım, oturdum.
Daşdarı sinəmə saldım, oturdum.
Eşitdim yar gəlir, durdum, oturdum.
Sevdim ala gözlünü kimin yarısan?

**II**

**Nəqarət**

*I dəstə:* Mələk, mələk, ay canı mələk-mələk,
*II dəstə:* Mələk, mələk, ay canı mələk-mələk.

*I dəstə:* Mən bu küçənin qızıyam,
Yarın nəməkdan duzuyam.
Ay canı mələk-mələk.

*II dəstə:* Mələk, mələk, ay canı mələk-mələk.

*II dəstə:* Hər kəsənin baldızıyam,
Gəl bağa, bostana mələk.
Ay canı mələk-mələk.

*I dəstə:* Aman mələk, ay canı mələk-mələk.

*I dəstə:* Mənim çəpərdən aşmağım,
Ağzımdan düşdü yaşmağım.
Ay cani mələk-mələk.

*II dəstə:* Aman mələk, ay canı mələk-mələk,

*I dəstə:* Əlimdə güllü dəsmalım.
Gəl bağa, bostana mələk.
Ay canı mələk-mələk.

*II dəstə:* Aman mələk, ay canı mələk-mələk.

## III
## Nəqarət

*I dəstə:* Bir dəstə reyhan, bala-bala, yar-yara heyran.
*II dəstə:* Bir dəstə reyhan, bala-bala, yar-yara heyran.

*I dəstə:* Əlin əlimdə döyül, sunalar, sunalar,
Şalın belimdə döyül.

*II dəstə:* Bir dəstə reyhan, bala-bala, yar-yara heyran.
*I dəstə:* Bir dəstə reyhan, bala-bala, yar-yara heyran.

*II dəstə:* Sənin başın ağrısı sunalar, sunalar,
Mənim əlimdə döyül.

*I dəstə:* Bir dəstə reyhan, bala-bala, yar-yara heyran.
*II dəstə:* Bir dəstə reyhan, bala-bala, yar-yara heyran.

## IV
## Nəqarət

*I dəstə:* Yar, əlim yar düymələri mərcan.
*II dəstə:* Yar, əlim yar düymələri mərcan.

*I dəstə:* Yar, əlim sevdim həyətdə səni.
*II dəstə:* Yar, əlim yar düymələri mərcan.

*I dəstə:* Yar, əlim boyda qamətdə səni.
*II dəstə:* Yar, əlim yar düymələri mərcan.

*I dəstə:* Yar, əlim lacin kimi boylaram.

*II dəstə:* Yar, əlim yar düymələri mərcan.

*I dəstə:* Yar, əlim hər səmitdə səni
*II dəstə:* Yar, əlim yar düymələri mərcan.

*I dəstə:* Yar, əlim yar düymələri mərcan.

*I dəstə:* Basma-basma tağları,
Saraldı yarpaqları.
*II dəstə:* Basma-basma tağları,
Saraldı yarpaqları.

*II dəstə:* Su ilanı olaydım,
Ləkdən-ləkə dolaydım.
*I dəstə:* Basma-basma tağları,
Saraldı yarpaqları.

*I dəstə:* Qardaş əkən çəltiyin,
Sümbülü mən oleydim.
*II dəstə:* Basma-basma tağları,
Saraldı yarpaqları.

*II dəstə:* Bu ellər uzun ellər,
İçində olsun toylar.
*I dəstə:* Basma-basma tağları,
Saraldı yarpaqları.
*II dəstə:* Yığışsın qız, gəlinlər,
Oynasın bəstəboylar
*II dəstə:* Basma-basma tağları,
Saraldı yarpaqları.

**V**

*I dəstə:* A yordu-yordu-yordu,
Görək kim kimi yordu?
*II dəstə:* A yordu-yordu-yordu,
Görək kim kimi yordu?

*I dəstə:* Masallı hacıları,
A yordu-yordu-yordu.
Başında tacıları,
Görək kim kimi yordu-yordu?

*II dəstə:* Qurban olsun qardaşa,
A yordu-yordu-yordu.
Qoşaca bacıları,
Görək kim kimi yordu-yordu?

*I dəstə:* Şərəfənın o üzü,
A yordu-yordu-yordu.
Yatişib qoyun-quzu,
Görək kim kimi yordu-yordu?

*II dəstə:* Yatişib qoyun-quzu,
Görək kim kimi yordu-yordu?

*I dəstə:* Qurban olsun qardaşa,
A yordu-yordu-yordu.
Hər sürüdən bir quzu,
Görək kim kimi yordu-yordu?

*II dəstə:* Qardaşın kürən atı,
A yordu-yordu-yordu.

Meydana girən atı,
Görək kim kimi yordu-yordu?

*I dəstə:* Meydana girən atı,
Görək kim kimi yordu-yordu?

*II dəstə:* Heç kəs oynada bilməz,
A yordu-yordu-yordu.
Qardaş oynadan atı,
Görək kim kimi yordu-yordu?

*I dəstə:* Bu gun ayın onudu,
A yordu-yordu-yordu.
Zər xaradan donudu,
Görək kim kimi yordu-yordu?

*II dəstə:* Zər xaradan donudu,
Görək kim kimi yordu-yordu?

*I dəstə:* Qurban olsun qardaşa,
A yordu-yordu-yordu.
Bu gün onun toyudu,
Görək kim kimi yordu-yordu?

*II dəstə:* Araz-Araz kampanaya hürr ey,
Ay ha, ay ha qıy.

*I dəstə:* Araz-Araz kampanaya hürr ey,
Ay ha, ay ha qıy.

Halayda musiqi zad yox idi, elə bi dənə dəfdən, tütəydən çala-çala gəlini gətirirdilər. Halayı da gəlin gətirənnən sora, həyətdə deyərdüg:

Ha lolo, yar, dugmələri mərcan,
A qırmızı nımtana.
Nimtana abi gərək,
Yar-yara babi gərək,
Neynirəm göy çəlləği,
Ağli, kamali gərək.

Mənim halayımın 9 dənə başı var. Hecadan əmələ gələndi. Örgənmişəm oları rəhmətdik xalalarımnan.

Uca dağlardan səsdərəm neynim?
Yarı qoynunda bəsdər ayeyyyy.
On iki imamnan istərəm neynim?
Dad əlinnən, yar əlinən ayeyyyy.

* * *

Yeri ha yeri, ha kimin yarısan?
Kimin heyvasısan, kimin narısan?
Hansı bəxtəvərin bafadarısan?
Sövdim ala gözdi kimin yarısan?

* * *

Ay çəkin halay düzülsün ayeyyy.
Ay xumar gözdər süzülsün ayeyy.
Ay hər kəs halaya getsa ayeyyy,
Hay əli əldən üzülsan ayeyyy.

* * *

Öyləri köndələn yar,
Sunalar sunalar.
Mənə gül göndərən yar,

Bi dəstə reyhan,
Bala-bala, yar yara heyran.

* * *

Gülün yarpıza dönsün,
Sunalar sunalar.
Mənnən üz döndərən yar,
Bala-bala, yar yara heyran.

* * *

Əlün əlimdə döyi,
Sunalar sunalar.
Şalım belimdə döyül,
Bi dəstə reyhan,
Bala-bala, yar yara heyran.

* * *

Sənin başun ağrısi,
Sunalar sunalar.
Mənim əlimdə döyir,
Bi dəstə reyhan,
Bala-bala, yar yara heyran.

* * *

Qara at qaşdı gəldi,
Sunalar sunalar.
Yügənin aşdı gəldi,
Bi dəstə reyhan,
Bala-bala, yar yara heyran.

* * *

Xanımlara muştuluğ,
Sunalar sunalar.
Bəylər barışdı gəldi,

Bi dəstə reyhan,
Bala, bala yar yara heyran.

Bını dəfnən vıraraduğ, qəşəy dəfnən, halay vırıb oyniyarduğ. Halayda dəstədə olannar da belə tutullar, çəçələ barmağınan bir-birinin əlinnən, 6-7 nəfər biyanda, 6-7 nəfər də biyanda olur, lap 20 nəfər də olar, fərqi yoxdu. Fırranır bi dəstə belə durur, bi dəstə də o tərəfdə durur. Biz halayın sözdərin deyəndə, o biri dəstə nəqarətin deyirdi, olar sözdərin deyəndə, biz nəqarətin deyirdik. Fırrana-fırrana, belə-belə.

Dolayı gəl, dolayı,
Həsri basma, dolan gəl.
Övləri bırda yoxdu,
Həsri basma, dolan gəl.
Köcübdü yurdu,
Həsri basma, dolan gəl.
Getdim pələd ağzına,
Həsri basma, dolan gəl.
Dedilər evdə yoxdu,
Həsri basma, dolan gəl.

* * *

Su ilanı oleydım,
Həsri basma, dolan gəl.
Ləkdən-ləkə doleydım,
Həsri basma, dolan gəl.
Qardaş əkən çəltigün,
Həsri basma, dolan gəl.
Sünbülü mən oleydım ay,
Həsri basma, dolan gəl.

* * *

Ay xınanı yaxun dəstinə, dəstinə.
Xəbər getsin düşmanına, dostuna.
Helə dedim mənəm, mənəm
Ay xınanı yaxun dəstinə, dəstinə.

* * *

Lənkəran hacıları,
Ha yordu, yordu, yordu.
Başında tacıları.
Görək kim kimi yordu?
Qurban olsun qardaşa,
Ha yordu, yordu, yordu.
Qoşaca bacıları.
Görək kim kimi yordu?

## Digər kəndlərdə halay

Qız vaxtı halaya gedirdik. Halay çəkürdük. Onnan sora mahnı deyirdik:

Aman, nənə, zalım nənə, yar nənə.
Qaynanamı bağda ilan vureydi.
Baldızıma Quran qənim oleydi.
Qaynatama Məkkə qismət oleydi.
Aman, nənə, zalım nənə, yar nənə.

Gəlini hamama göndərin. Bunu oxuya oxuya gəlini bəziyərdik:

Gəlini hamama göndərin.
Gəlini hamama göndərin.
Gəlin hamamdan çıxanda.
Hamamdan çıxdı balaca qız.

İndi gələrlər apararlar qızı.
Səhər obaşdan deyərdik.
Dan yerinə səda düşdü.
Bülbüllər yuvadan uçdu.
Dan yerinə səda düşdü.
Bülbüllər yuvadan düşdü.

Mahnıynan deyərdik. Halaya gedərdik. Paltar aparardıq, xonça qoyardıq başımıza.

Nar atdılar yara.
Bu evin böyük qızı.
Uçar gedər yara.

* * *

Dəfnən halaya gedərdik.

Qaynım var idi, gəlib durardı yanımda. Deyərdi ki, oxu. Deyərdim, nə oxuyum axı?

Nənəm-nənəm, bacım, nənəm.
Süd ver mənə, nənə- nənəm.

Deyərdim Vallah deyə bilmirəm deyərdi de. Deyərdim.

Nənəm, ay nənəm, ay nənəm, nənəm ay.
Süd ver mənə, balam ay.
Nənəm, nənəm, nənəm ay.
Süd ver mənə, balam ay.

* * *

Gecəni səərəcən halay deyərdik

Dan yerinə sada düşdi,
Bülbillər nuna da* düşdi.

---

* nuna – çuxur

Çıxarduğ qırağa, 2 nəfər bırda durardı, 2 nəfər orda, onu deyərdik, camaat da bilərdi ki, filankəsin bı gecə xınayaxdısıdı.

Ay xınanı yaxun dəsdinə-dəsdinə,
Xəbər getsin düşmanına, dosdına.

Halayda 10 nəfər bu tərəfdə, 20-25 nəfər bu tərəfdə dururdu başdıyırdılar.

Ay lolo, lolo, lo,
Ya lolay ey,

* * *

Ay çəkin halay düzülsün,
Ay xumar gözlər süzülsün.
Duşmançılığsa əyər,
Əlim yardan üzülsün.
A yordu, yordu, yordu,
Görən kim kimi yordu?

* * *

Bizim vaxtımızda 15 qadın bıyizdə, 15-i bıyizdə dayanardı. Kişilərimiz deyərdi ki, halay çəkilməsə, günarta verilmiyəcək. Halaybaşının əlində qırmızı dəsmal, birinin də əlində qaval:

Çəkin, halay düzülsün,
Xumar gözlər süzülsün.
Hər kim halay çəkməsə,
Əli əldən üzülsün.

* * *

Yar, əlim yar, düymələri mərcan.
Əmim oğlu sən nəsən.

Sən məni bəyənmirsən
Eləsinə gedərəm,
Sən onun nökərisən.
Yar, əlim yar, düymələri mərcan.

**Bi kəlmə olar deyirdi, bi kəlmə də biz deyirdiy.**

Heyvalığdan yolum var,
Sənə qurban olum yar.
Dimə ki, bivəfadur,
Anam qoymur gələm yar.

Bu mahnılar kişiləri dəlicəsinə həyəcana gətirirdi. Səsimiz gedirdi kəndin o başına. Kişi deyəndə öz qardaşımız, əmi, dayı oğlannarımızıydı. Səhərəcən mahnı deyərdüg, dəf çalarduğ, toyxana musiqiçi-zad yoxuydu. Gəlib gəlini apararduğ. Bəyi bəy hamamına aparardılar, onda deyirdilər:

Dan yerinə sada düşdü,
Bülbüllər yuvadan uçdu.

* * *

Kecmişdə qız-gəlin halay cəkməsə idi, o toyun dadı-ləzzəti olmazdı. Yığılardılar əl-ələ verərdilər halay cəkərdilər. İndi o halaylar yoxdu. Deyerdilər:

Su atdım yara dəydi,
Əlim divara dəydi.
Yar əli, yar düymələri mərcan.
Lal olsun həylə dilim,
Nə dedim yara dəydi?
Yar əli, yar düymələri mərcan.

* * *

Çəkin, halay düzülsün.
Xumar gözlər süzülsün.
Hər kim halay çəkməsə,
Əli yardan üzülsün.

## Mahmudavar kəndində halay

Öz qərarıynan Mahmudavar kənd klubuna rəhbər oldu o vaxtı. Həmin ili anam rayon yığma ansanbılıynan Respublikaya çox gözəl bir müsabiqəyə qatılır, müğənni kimi. Orda çıxış eliyəndən sonra musiqiçilərin diqqətini cəlb edir özünə, yəni çox bəyənirlər onu və bu musiqiçilərin içində oturur arıq bir qadın, anamın dediklərini deyirəm. Səhv eləmirəmsə, həmin müsabiqədə Zeynəb xanım Xanlarova da müsabiqədən çıxır. Deməli, 55-ci ildə həmin müsabiqədən çıxır. Onu Bakıda saxlamaq istəyirlər müğənni kimi. Anam deyir mənim işim var, molla qızı olduğuna görə, ağır seyidlər nəsli olduğuna görə rədd edir bu təklifi. Deyir ki, mən qala bilmərəm, razılaşmır. Münsiflərdən biri uzun arığ xanım anama təklif edir ki, sənə baxıram sən gəncsən, gözəlsən, bacarıqlısan, sən öz bölgənizin, cənub bölgəsinin qədim folklor bayatılarından ibarət kollektiv yarada bilərsən. Orada cənub bölgəsinin rəqsləri, mahnıları olar. Anam deyir ki, həmin an halay düşündüm, bilirsiz nəyə görə, çünki mənim nənəm bədahətən bayatı, qəzəl deyən olubdur. Onun savadı olmuyubdu, yazı yaza bilməyib. O vaxtı biz körpə olmuşuq, yəni tez-tez onun yanına gələrmişlər. O, bədahətən bayatılar deyərmiş. Deyir ki, nənəm o vaxtı o kəndin sahə kənd işindən uzaq oladuğuna görə, o vaxtı avtomobili olmuyubdu onun, o qadınları helə bil iki

hissəyə bölürdü. İki cərgəyə ayırırdı onları, oxuya-oxuya nənəm də rəhbərlik eliyərmiş ki, başçı kimi başçılıq edərmiş. Onlar da oxuyarmışlar bunlar da gedərmiş həmin əkin yerinə ki, məsafə onlar üçün tez gəlsin, yəni halay o dövrdən qalıb halay, yəni haray kimi bir şeydi. Halay çoxluqdu, bir yerdə rəqs etməkdir, birlikdi. Yəni bir cərgə deyir, o biri cərgə cavab verir, yəni ki yallı getmək bir yerdə, oxuya-oxuya bu cərgə cavab verir. Deyir ki, saylar istədiyi qədər ola bilər, tək olmamalıdır.Yəni həmin vaxt anamın ağlına bu gəlib anam deyərdi ki, halay gedirlər. Sonra nənəm ilə 5-6 qadın olubdurlar. Hələ 30-cı illərdən söhbət gedir. Əlli beşinci ildə anamın fikirlərini dedim. Nənəmin o qadınlarnan hələ 30-40 ci illərdə halay çəkdiyini anam yadıma salır. O dövrdə nənəm hələ 5-6 qadından ibarət bir kollektiv formasında öz aralarında xına gecələrinə gedərlərmiş. O vaxtı xına ev şəraitində olubdu. Qadınlar yığışıblar, qızlar, qonşular gəlinin başına. Yəni qarmon çala-çala oxuyarmışlar, yəni o dövrlər anamın yadına gəlir. O dövrün bayatılarıdı bizə gəlib çıxıb. Bir yaşlı Xumar nənə vardı kəndimizdə, o da nənəm kimi bədahətən bayatılar deyirdi. Yəni anama təklif olunanda onun yadına nənəmin dedikləri düşür. Vaxt gəlir halay yaranır.

İlk dəfə artıq 56-cı ildə burda Mahmudavar kulubunda baxış keçirilir. Halaya Qəmbər Hüseynli gəlir, Ənvər Abdullayev gəlir. Mahmudavarda iki nəfər bayatılarnan, geniş bir repertuarnan çıxış ediblər. Deyiblər ki, sayı artırın, üç nəfərnən müsabiqəyə qatılmaq olmaz, bir az sayı artırın. 57-ci ildə artıq festival keçirilir, onlar həmin festivala qatılırlar. 59-cu ildə həmin festival ikinci dəfə keçirilir o dövrdə artıq on iki nəfər olur. Bunlar on iki nəfər həmin festivala qatılırlar. O festivalın bütün üzvləri, halayın bütün üzvləri halay diplomuna, nişanına layiq

görülürlər, həm də diplom verilir onlara, yəni o gündən bu günə festivallarda, müsabiqələrdə xarici ölkələrdə olurlar. 52-ci ildən anam işləyibdi. Bunun 55 ilini halay, yaratdığı kollektiv ilə məşğul olubdu. Uzun illər şəkər diabetindən əziyyət çəkirdi anam. Onu mən əvəz edirdim, mən də bir övlad kimi fəxr edirəm. Mən kollektivnən bir yerdə çalışmışam. Anam dünyasını dəyişibdi 2007-ci ildə, dekabrın 17-də.

Halayı rayon mədəniyyət evinin kollektivi kimi elan ediblər. Elə bil ki, mənə bir az qızqanclıq yaradır. Mahmudavar mədəniyyət evində o ad götürülməsin deyə veteranlar qrupu yaratdım ki, Mahmudavar mədəniyyət evinin adı folklordan çıxmasın. Halay heç bir yerdə yoxdur, ancaq bizdədir. Bir də görürsən nənələr gedirlər məclislərə deyirlər. Bu, o demək deyil ki, onlar mədəniyyət evinə aiddirlər. Bunlar aid deyillər özləri üçün oxuyurlar, ancaq adət-ənənələr yaşayır. Elə nənələr var ki, onlar da məclislərdə otururlar, xınayaxdı gecələrində elə yaşlı qadınlar var, o nənələr ansambılı. Necə bizdə, yəni bizim lolu deyəndə cənub bölgəsi yada düşür, daha heç kim bilmir ki, lolu mənim nənəmin əsəridir. O vaxtı anam deyərdi ki, lolu halay deməkdir, lolu bir üsyandı, bir layladı. Lolu nənələrin harayıdı. Qadınlar meydana çıxırlar, özlərini atırlar ortalığa ki, biz varıq tapdalanmayıblar, özlərini qoruyublar, yəni ki, öz səslərini elə çıxarıblar, öz hüqüqlarını qoruyublar. O nənəmin halayıdır. Lolu halayın şah əsəridir. Bizim birinci əsərimizdir. Halay yaranan günü lolunu səhnəyə qoyurlar. Bayatının sözləri Azərbaycancadı (musiqi).

Bu rəqs qrupudur, halayın ilk nömrəsidi helə bil, ilk kompozisiya – həm oxuyurlar gənclər, həm də oynayırlar. Biz də oturduğumuz yerdə oxuyuruq. İndi gənclər üçün rəqslər qurulur. Yəni əsl halay necə yaranıbsa elə ayaqlaşmalıdırlar.

Biz avropalaşmayaq. Mədəniyyətimiz yaşası,n folklor yaddan çıxmasın deyə veteranları başıma yığdım ki, əsl folklorumuz qalsın. Gənclər pul alırlar hələ ki, veteranlar yox.

Belə mahnılar oxunur, deməli, mənim az-çox informasiyam var. Deməy, halay deyəndə nə başa düşülür? Bu qadınların toplaşdığı yer olur halay. Mən deməzdim, elə kişilər də halay gedirlər. Türklərdə kişilər halay gedir. Tək-tək halay yoxdur. Meydan ki yaranır halay çəkilir:

Çəkin, halay düzülsün.
Xumar gözlər süzülsün.
Kim halaya gəlməsə,
Əli yardan üzülsün.

Yəni o bayatı elə bil ki, insanları qorxudur. Burada deyirlər ki, kim halaya gəlməsə əli yardan üzülsün. Heç bir qadın istəməz ki, yarsız qalsın. Yəni bu halay sözü qarğışdan qorxurlar. Meydançanı dəyişmək olar. Yəni halay yallı formasında gedir. Orada birləşirlər, iki qrupa ayırırlar. Biri girir ortalığa, həmin səhnə gələndə həmin bayatı gələndə.

Ay yordu yordu yordu,
Görək kim kimi yordu?

Bu formada bir nəfər qalır ayaq üstə, əl çala-çala həmin bayatıları deyirik, sonra o biri cərgə cavab verir. Elə bu formada yallı gedə-gedə səhnədən çıxırlar səhnəni tərk edirlər. Elə bil sadə bir şeydi hərəkətlər.

## Mübarək, ay mübarək

### I

**Nəqarət:**

*I dəstə:* Mübarək, ay mübarək, qardaş toyun mübarək.
*II dəstə:* Mübarək, ay mübarək, qardaş toyun mübarək.

*I dəstə:* Əllər hənasıyam mən,
Sular sonasıyam mən.
*II dəstə:* Mübarək, ay mübarək, qardaş toyun mübarək

*I dəstə:* Cəllad əlini saxla,
Oğul anasıyam mən.
*II dəstə:* Mübarək, ay mübarək, qardaş toyun mübarək

*II dəstə:* Bu ellər, uzun ellər,
İcində olsun toylar.
*I dəstə:* Mübarək, ay mübarək, qardaş toyun mübarək.

*II dəstə:* Yığılsın qız, gəlinlər,
Oynasın bəstəboylar.
*I dəstə:* Mübarək, ay mübarək, qardaş toyun mübarək

**II**

**Nəqarət**
*I dəstə:* Bu toy mübarək olsun, toyun mübarək olsun.
*II dəstə:* Bu toy mübarək olsun, toyun mübarək olsun.

*I dəstə:* Əllərə xna yaxarlar, bu toy mübarək olsun.
*II dəstə:* Bu toy mübarək olsun.

*I dəstə:* Gözlərə sürmə cəkərlər, bu toy mübarək olsun.
*II dəstə:* Bu toy mübarək olsun.

*I dəstə:* Cəkil burdan, haramzada, bu toy mübarək olsun.
*II dəstə:* Bu toy mübarək olsun.

*I dəstə:* Gəl, pəncərədən baxarlar, bu toy mübarək olsun.
*II dəstə:* Toyun mübarək olsun.

*II dəstə:* Mənim çəpərdən aşmağım, bu toy mübarək olsun.
*I dəstə:* Bu toy mübarək olsun.

*II dəstə:* Ağzımdan düşdü yaşmağım, bu toy mübarək olsun.
*I dəstə:* Bu toy mübarək olsun.

*II dəstə:* Hanı mənim güllü başmağım, bu toy mübarək olsun.
*I dəstə:* Toyun mübarək olsun.

**III**

**Nəqarət**
*I dəstə:* Ağ alma, qızıl alma, yollara düzül, alma.
*II dəstə:* Ağ alma, qızıl alma, yollara düzül, alma.

*I dəstə:* Alma almaya bənzər, alma ağacdan gözəl,
*II dəstə:* Ağ alma, qızıl alma, yollara düzül, alma.

*I dəstə:* Masallının qızları ahu, ceyrana bənzər,
Ağ alma, qızıl alma,yollara düzül, alma.

*II dəstə:* Masallı hacıları, başında tacıları,
*I dəstə:* Ağ alma, qızıl alma, yollara düzül, alma.

*II dəstə:* Əğa qardaş toyunda, oynasın bacıları.
Ağ alma, qızıl alma, yollara düzül, alma.

*I dəstə:* Ay lolo, çəkil, halay düzülsün,
*II dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*I dəstə:* Ay lolo, xumar gözlər süzülsün.
*II dəstə:* Ay lolo çəkil halay düzülsün.

*I dəstə:* Ay lolo, kim halaya girməsə,
*II dəstə:* Ay lolo, çəkil halay düzülsün.

*I dəstə:* Ay lolo, əli yardan üzülsün,
*II dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*I dəstə:* Ay lolo, o tay, bu tay bir olsun.
*II dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*II dəstə:* Ay lolo, aramızda çay olsun.
*I dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*II dəstə:* Ay lolo, o tayın qız, gəlini,
*I dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*II dəstə:* Ay lolo, bu taya qurban olsun.
*I dəstə:* Ay lolo, çəkil halay düzülsün.

**IV**

**Nəqarət**
*I dəstə:* Sevdim ala gözlünü, kimin yarısan?
Ay qara gözlü, kimin yarısan?
*II dəstə:* Sevdim ala gözlünü, kimin yarısan?
Ay qara gözlü, kimin yarısan?

*I dəstə:* Əmimə demişəm mənə saz alsın,
Sazımı çalıb, dərdi-qəmim azalsın,
Oğluna getmirəm, oğlu qız alsın.
*II dəstə:* Sevdim ala gözlünü, kimin yarısan?
Ay qara gözlü, kimin yarısan?

*II dəstə:* Evlərin dalını halağ eylərəm,
Gedənə, gələnə soraq eylərəm.
Balaca qaynımı qonaq eylərəm.

*I dəstə:* Sevdim ala gözlünü, kimin yarısan?
Ay qara gözlü, kimin yarısan?

*I dəstə:* Ay lolo, çəkil, halay düzülsün.
*II dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*I dəstə:* Ay lolo, xumar gözlər süzülsün
*II dəstə:* Ay lolo, çəkil, halay düzülsün

*I dəstə:* Ay lolo, kim halaya girməsə,
*II dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*I dəstə:* Ay lolo, əli yardan üzülsün.
*II dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*I dəstə:* Ay lolo, o tay, bu tay bir olsun.
*II dəstə:* Ay lolo, çəkil, halay düzülsün,

*II dəstə:* Ay lolo, aramızda çay olsun,
*I dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*II dəstə:* Ay lolo, o tayın qız, gəlini,
*I dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*II dəstə:* Ay lolo, bu taya qurban olsun.
*I dəstə:* Ay lolo, çəkil, halay düzülsün,

*I dəstə:* Ay lolo, çəkil, halay düzülsün,
*II dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*I dəstə:* Ay lolo, xumar gözlər süzülsün,
*II dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*I dəstə:* Ay lolo kim halaya girməsə,
*II dəstə:* Ay lolo çəkil halay düzülsün.

*I dəstə:* Ay lolo, əli yardan üzülsün.
*II dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*I dəstə:* Ay lolo, o tay, bu tay bir olsun.
*II dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*II dəstə:* Ay lolo, aramızda çay olsun.
*I dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*II dəstə:* Ay lolo, o tayın qız, gəlini,
*I dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

*II dəstə:* Ay lolo, bu taya qurban olsun,
*I dəstə:* Ay lolo, çəkil, halay düzülsün.

## Bal yemə, bal yemə......

### I

**Nəqarət**

*I dəstə:* Bal yemə, bal yemə, bal yeyəsi gəlir, balam.
Dədəmin evindən toy səsi gəlir, balam.

*II dəstə:* Bal yemə, bal yemə, bal yeyəsi gəlir, balam.
Dədəmin evindən toy səsi gəlir, balam.

*I dəstə:* Şal-şala bağlar gedər.
Gül şala bağlar gedər.
Oğlanın bacıları
Nişanə bağlar gedər.

*I dəstə:* Bal yemə, bal yemə, bal yeyəsi gəlir, balam.
Dədəmin evindən toy səsi gəlir, balam.

*II dəstə:* Dərmişəm şirin narı,
Şirin deyərlər yarı.
Hamıdan şırın olsun,
Kicik qaraşın yari.

*II dəstə:* Bal yemə, bal yemə, bal yeyəsi gəlir, balam.
Dədəmin evindən toy səsi gəlir, balam.

*I dəstə:* Ləmə çıxma damcıdı,
Köynəyim narıncıdı.
Oğlan qızın dərdindən.
Ölməsə, zarıncıdı.

*I dəstə:* Bal yemə, bal yemə, bal yeyəsi gəlir, balam.
Dədəmin evindən toy səsi gəlir, balam.
*II dəstə:* Mən aşiqəm, gün gələr,
Ay dolanar, gün gələr.
Gözlərin aydın olsun,
Nişanlın bu gün gələr.
*II dəstə:* Bal yemə, bal yemə, bal yeyəsi gəlir, balam.
Dədəmin evindən toy səsi gəlir, balam.

**II**

**Nəqarət**
*I dəstə:* Əcəb şalın güllüdü, ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm, əcəb şirin dillidi.

*II dəstə:* Əcəb şalın güllüdü, ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm, əcəb şirin dillidi.

*I dəstə:* Qardaş mənim qardaşım,
Qardaşa qurban başım.
Qardaş evlənmək istər,
Dur ayağa, yoldaşım.
*I dəstə:* Əcəb şalın güllüdü, ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm, əcəb şirin dillidi.

*II dəstə:* Qardaş gəlir enişə,
Yükü dönüb gümüşə.
Qardaşa qız tapmışam,
Üzdə xalı bənövşə.
*II dəstə:* Əcəb şalın güllüdü, ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm, əcəb şirin dillidi.

*I dəstə:* Qardaş ovuna gedər.
Baxar boyuna gedər.
Bu bayramın xonçası,
Qardaş toyuna gedər.
*I dəstə:* Əcəb şalın güllüdü, ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm, əcəb şirin dillidi.

*II dəstə:* Qardaş, adına qurban.
Alma, dadına qurban.
Sənə yalğız demərəm,
Gül adaxlına qurban.
*II dəstə:* Əcəb şalın güllüdü, ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm, əcəb şirin dillidi.

*I dəstə:* Əcəb şalın güllüdü, ortası bülbüllüdü.
Qardaş, adaxlın gördüm, əcəb şirin dillidi.

## Arxalığın mərdanə, yar hey...

### I

*I dəstə:* Arxalığın mərdanə, yar hey.
Mərcan düzdüm gərdanə, yar hey.

*II dəstə:* Mərcan düzdüm gərdanə, yar hey.

*I dəstə:* Sevdin ala bilmədin yar-yar,
Niyə girdin meydana, yar hey?

*II dəstə:* Gül baxçada yolun var, yar-yar,
Anam qoymur gələm, yar-yar hey.

*I dəstə:* Anam qoymur gələm, yar-yar hey.

*II dəstə:* Demə ki, bifəvasan, yar-yar,
Sənə qurban olum yar-yar hey.

**II**

*I dəstə:* Göy dəvə düzdə qaldı, ay nar hey nar.
Yükü Təbrizdə qaldı, gülü nar hey.

*II dəstə:* Yükü Təbrizdə qaldı, gülü nar hey.

*I dəstə:* Oğlanı dərd apardı, ay nar, hey nar,
Dərmanı qızda qaldı, gülü nar hey.

*II dəstə:* Qızılgülsən butasan, ay nar, hey nar,
Dostu əziz tutasan, gülü nar hey.

*I dəstə:* Dostu əziz tutasan, gülü nar hey.

*II dəstə:* Mən o güldən deyiləm, ay nar, hey nar,
İyləyəsən, atasan, gülü nar hey.

**III**

**Nəqarət**

*I dəstə:* Çal belə qurbanın olum, çal belə,
Gedər bu dövran, daha qəlməz əley.

*II dəstə:* Çal belə qurbanın olum, çal belə,
Gedər bu dövran daha qəlməz əley.

*I dəstə:* Eşqdən zarə gəlmişəm oğlan-oğlan,
Eşq bazara gəlmişəm oğlan-oğlan.

*II dəstə:* Çal belə qurbanın olum, çal belə,
Gedər bu dövran, daha qəlməz əley.

*I dəstə:* Əvvəlki görüş yeri oğlan-oğlan,
Çəmənzarə gəlmişəm oğlan-oğlan.

*II dəstə:* Mən gəlmişəm sini-sini, ay oğlan,
Mən sevmişəm birisini, ay oğlan.

*I dəstə:* Çal belə qurbanın olum, çal belə,
Gedər bu dövran, daha qəlməz əley.

*II dəstə:* Ay, cəllad boynumu vursa, ay oğlan,
Mən demərəm özgəsini, ay oğlan.

**IV**

**Nəqarət**
*I dəstə:* Xonçaya düzdüm noğulu, badamı,
Mübarək olsun gəlinin qədəmi.

*II dəstə:* Xonçaya düzdüm noğulu, badamı,
Mübarək olsun gəlinin qədəmi.

*I dəstə:* Ellər deyər mənəm-mənəm,
Xonçaya düzdüm noğulu, badamı.

*II dəstə:* Xonçaya düzdüm noğulu, badamı.

*I dəstə:* Mənəm şirazi geymərəm,
Xonçaya düzdüm noğulu, badamı.

*II dəstə:* Xonçaya düzdüm noğulu, badamı.

*I dəstə:* Mən heç kəsi bəyənmərəm.
Xonçaya düzdüm noğulu, badamı.
Mübarək olsun gəlinin qədəmi.

*II dəstə:* Ay, bu dağların meşəsi.
Xonçaya düzdüm noğulu, badamı.

*I dəstə:* Xonçaya düzdüm noğulu, badamı.

*II dəstə:* Ay, gözəldi bənövşəsi.
Xonçaya düzdüm noğulu, badamı.

*I dəstə:* Xonçaya düzdüm noğulu, badamı.

*II dəstə:* Ay, yadda qalası olsun.
Xonçaya düzdüm noğulu, badamı.

*I dəstə:* Xonçaya düzdüm noğulu, badamı.

*II dəstə:* Ay, belə şənlik gecəsi.
Xonçaya düzdüm noğulu, badamı.
Mübarək olsun gəlinin qədəmi.

## V

**Nəqarət**

*I dəstə:* Ay, çini boşqab, çini neylər mənə,
Yarım yar olsa, günü neynər mənə, ey?

*II dəstə:* Ay çini boşqab, çini neylər mənə,
Yarım yar olsa, günü neynər mənə, ey?

*I dəstə:* Ay, narıncı atdım tasa,
Ay çini boşqab, çini neylər mənə.

*II dəstə:* Ay çini boşqab, çini neylər mənə.

*I dəstə:* Ay, yar düşdü tasa-vasa,[*]
Ay çini boşqab, çini neylər mənə.

*II dəstə:* Ay, çini boşqab, çini neylər mənə.

*I dəstə:* Ay, yarımın yarı ölsün.
Ay çini boşqab, çini neylər mənə.

*II dəstə:* Ay, çini boşqab, çini neylər mənə.

*I dəstə:* Ay, bəzənəm gedəm yasa.
Ay çini boşqab, çini neylər mənə?
Yarım yar olsa, günü neynər mənə, ey?

---

[*] ...

*II dəstə:* Ay, narınca bax, narınca,
Ay çini boşqab, çini neylər mənə.

*I dəstə:* Ay, çini boşqab, çini neylər mənə?

*II dəstə:* Ay, dərmərəm saralınca,
Ay çini boşqab, çini neylər mənə?

*I dəstə:* Ay, çini boşqab, çini neylər mənə?

*II dəstə:* Ay, canımda can qalmadı,
Ay çini boşqab, çini neylər mənə?

*I dəstə:* Ay, çini boşqab, çini neylər mənə

*II dəstə:* Ay, yar könlümü alınca,
Ay çini boşqab, çini neylər mənə?
Yarım yar olsa, günü neynər mənə, ey?

## Nanay, nanay, ay nanay...
## I

**Nəqarət**
*I dəstə:* Nanay, nanay, ay nanay.
Gülüm nanay, ay nanay.

*II dəstə:* Nanay, nanay, ay nanay.
Gülüm nanay, ay nanay.

*I dəstə:* Ağacın şirin narı,
Şirin deyərlər yari.

*II dəstə:* Nanay, nanay, ay nanay.
Gülüm nanay, ay nanay.

*I dəstə:* Hamıdan şirin olur
Kiçik qardaşın yari.
*II dəstə:* Nanay, nanay, ay nanay.
Gülüm nanay, ay nanay.

*II dəstə:* Bağa girdim mən bu gün,
Bağda tapdım bir düyün.
*I dəstə:* Nanay, nanay, ay nanay.
Gülüm nanay, ay nanay.

*II dəstə:* Yad oğlu mənim nəyim?
Yadıma düşür hər gün.
*I dəstə:* Nanay, nanay, ay nanay.
Gülüm nanay, ay nanay.

**II**

**Nəqarət**
*I dəstə:* Nananay, nay nanay, naynanay, nay nanay.
Nananay, nay nanay, naynanay, nay naney.
*II dəstə:* Nananay, nay nanay, naynanay, nay nanay.
Nananay, nay nanay, naynanay, nay naney.

*I dəstə:* Masallının düz yolu, nananay, ay naney.
Sel gəldi basdı yolu, gülüm var, ay naney.
*II dəstə:* Nananay, nay nanay, naynanay, nay nanay.
Nananay, nay nanay, naynanay, nay naney.

*I dəstə:* İstədim sizə gələm, nananay, ay naney.
Can alan kəsdi yolu, gülüm var, ay naney.
*II dəstə:* Nananay, nay nanay, naynanay, nay nanay.
Nananay, nay nanay, naynanay, nay naney.

*II dəstə:* Əzizim, əsmə külək, nananay, ay naney.
Səbrimi kəsmə, külək, gülüm var, ay naney.

*I dəstə:* Nananay, nay nanay, naynanay, nay nanay.
Nananay, nay nanay, naynanay, nay naney.
*II dəstə:*Sevgilim yol üstədi, nananay, ay nanay.
Yolumu kəsmə külək, gülüm var, ay naney.

*I dəstə:* Nananay, nay nanay, naynanay, nay nanay.
Nananay, nay nanay, naynanay, nay naney.

**III**

**Nəqarət**
*I dəstə:* Nar, nar, nargilə.
Durun, gedək yar, gilə.
*II dəstə:* Nar, nar, nargilə.
Durun, gedək yargilə.

*I dəstə:* Pəncərəmiz işıqdı,
Yar əlində qaşıqdı
*II dəstə:* Nar, nar, nargilə.
Durun, gedək yargilə.

*I dəstə:* Bizim qızlar neyləsin?
Sizin qizlar aşiqdi.

*II dəstə:* Nar, nar, nargilə.
Durun, gedək yargilə.

*II dəstə:* Bu yerlə də talan var,
Zülfün üzə salan var.

*I dəstə:* Nar, nar, nargilə,
Durun, gedək yargilə.
*II dəstə:* Gedirsən tez qayıt gəl,
Gözü yolda qalan var.

*I dəstə:* Nar, nar, nargilə,
Durun gedək yargilə.

## IV

**Nəqarət**
*I dəstə:* Ağlama, ceyran balası, ağlama,
Gedər gözlərin qarası, ağlamey.
*II dəstə:* Ağlama, ceyran balası, ağlama.
Gedər gözlərin qarası, ağlamey.

*I dəstə:* Hey, gülü lalə vaxtıdı,
Ağlama, ceyran balası, ağlamey.
*II dəstə:* Ağlama, ceyran balası, ağlamey.

*I dəstə:* Doldur piyalə vaxtıdı,
Ağlama, ceyran balası, ağlamey.
*II dəstə:* Ağlama, ceyran balası, ağlamey.

*I dəstə:* Çix eyvana, bax ulduza,
Ağlama, ceyran balası, ağlamey.

*II dəstə:* Ağlama, ceyran balası, ağlamey.

*I dəstə:* Gör gecənin nə vaxtıdı?
Ağlama, ceyran balası, ağlamey.
*II dəstə:* Ağlama, ceyran balası, ağlamey.
Gedər gözlərin qarası, ağlamey.

*II dəstə:* Ay, Masallı yeddi küçə.
Ağlama, ceyran balası, ağlamey

*I dəstə:* Ağlama, ceyran balası, ağlamey.
*II dəstə:* Ay, yeddi yol, yeddi küçə.
Ağlama, ceyran balası, ağlamey.

*I dəstə:* Ağlama, ceyran balası, ağlamey.
*II dəstə:* Ay, qardaşa toy eylərəm,
Ağlama, ceyran balası, ağlamey.

*I dəstə:* Ağlama, ceyran balası, ağlamey.
*II dəstə:* Ay, yeddi gün, yeddi gecə.
Ağlama, ceyran balası, ağlamey.
Gedər gözlərin qarası, ağlamey.

*I dəstə:* Ağlama, ceyran balası, ağlamey.
Gedər gözlərin qarası, ağlamey.

**Nəqarət**

*I dəstə:* Nanay, nanay, ay nanay.
Gülüm, nanay, ay naney.

*II dəstə:* Nanay, nanay, ay nanay.
Gülüm, nanay, ay naney.

*I dəstə:* Nanay, nanay, ay nanay,
Gülüm, nanay, ay naney.

*II dəstə:* Nanay, nanay, ay nanay.
Gülüm, nanay, ay naney.

**Söyləyicilər:**

Həcər Həsənova, doğum tarixi 1950, təhsilli orta, Şərəfə kəndi.

Mənsurə Məmmədova, doğum tarixi 1950, təhsili orta, Şərəfə kəndi

Məhəbbət Məmmədova, doğum tarixi 1959, təhsili orta, Şərəfə kəndi

Gülizar İsgəndərova, doğum tarixi 1952, təhsili orta, Şərəfə kəndi

Xanımqız Piriyeva, doğum tarixi 1950, təhsili 7-illik, Şərəfə kəndi

Təzəgül Kərimova, doğum tarixi 1952, təhsili orta-ixtisas Şərəfə kəndi

Rəxşəndə Məmmədova, doğum tarixi 1936, təhsili orta, Şərəfə kəndi

Mənsurə Abdullayeva, doğum tarixi 1933, təhsili 7-illik, Qızılağac kəndi

Rübabə Ələkbərova, doğum tarixi 80 yaş, təhsili yoxdur, Qızılağac kəndi

Fatma (Pərzad) Tağıyeva, doğum tarixi 1938, təhsili 7-illik, Gəyəçöl kəndi

Şabikə Bəşirova, 75 yaş, təhsili yoxdur, Dadva kəndi

Güləsər Dadaşova, doğum tarixi 1942, təhsili orta, Musaküçə kəndi

Natavan Əliyeva, doğum tarixi 1964, təhsili ali, Mahmudavar kəndi

Heyran Sadıqova, doğum tarixi 1967, təhsili orta, Mahmudavar kəndi

Minarə Hüseynova, doğum tarixi 1959, təhsili orta, Mahmudavar kəndi

Həlimə İbadova, doğum tarixi 1955, təhsili orta, Mahmudavar kəndi

Lətifə Abdullayeva, doğum tarixi 1963, təhsili orta, Mahmudavar kəndi

Məhbubə Nuriyeva, doğum tarixi 1965, təhsili orta, Mahmudavar kəndi

Gülizar Nağıyeva, doğum tarixi 1960, təhsili orta, Mahmudavar kəndi

Mehparə Qulamova, doğum tarixi 1961, təhsili orta, Mahmudavar kəndi

Pərvanə Məmmədova, doğum tarixi 1959, təhsili orta, Mahmudavar kəndi

Ayabəyim Hacıyeva, doğum tarixi 1957, təhsili orta, Mahmudavar kəndi

**Toplayanlar:**

Füzuli Bayat (Gözəlov)
Nailə Rəhimbəyli
Nuridə Muxtarzadə

# 14. XALQ SƏNƏTLƏRİ

## Dulusçuluq

Dulusçuluqda hər palçıqdan qab-qacaq qayırmaq olmur. Dulusçuluq mamulatları gil tərkibli palçıqdan olur. Palçığı isladırığ iki üç gün sora elə bil ki, acıyandan sora içinə heç bir şey qatmırıq. İsladırıq qalır, sora yapışqan kimi olur. Ondan sora başlıyırıq hazırlamağa. Qurudub qoyuruq taxçalara. On-on beş gün qalır quruyur. Ondan sora peçə veririk. İşə başlamazdan əvvəl Allah, Məhəmməd ya Əli deyirik. Bu elə peyğəmbərin sənəti olub. Bu çox qədim sənətdir. İki min, üç min, beş min il tarixi var. Keçmişdə belə qablar olmadığı üçün torpaqdan düzəldiblər. Qatığın saxlanması, südün saxlanması üçün saxsı qablardan istifadə olunub. Bura hər cürə insan gəlir baxırlar. Cin, şeytanı Allah qəbul eləmirsə bizdə qəbul eliyə bilmərik. Əziyyət çəkilir, zəhmət çəkilir. Mən babamdan öyrənmişəm.

## Həsirçilik, səbətçilik

Həsir toxunanda otururduğ, altımızda nalçalı stul. Yerdə dəzgah qururduğ, daldalı gedə-gedə vururduğ. Belə-belə uzanıb olur həsir. Qabağ həsir sıx toxunardı. İndi seyrəy toxuyullar. Həsir yayda sərin, qışda isdi saxlıyır evi. Həsirin salınma qaydası var. Enni toxunan həsiri otağa elə salırsan ki, həm bu divardan, həm o divardan qalxır yuxarı. Həsir iki cür olur, yaşmağlı və lıcığlı. Lıcığlının elə bil qırağına yaşmağ verilmirdi. Yaşmağlıda isə pizə qatdıyırsan, qırağı olur yaşmağlı. O möhkəm olur. Ona görə də ona yaşmağlı həsir deyilir. Həsir pizədən toxunurdu. Torpağın üsdünə sərilir. Rütubəti buraxmır. Həsirin sdandart qalınlıqda toxunuşu var. Sərilmə qaydası var.

* * *

Həsiri ağacda da toxuyurduq, yerdə də, çöldə vururdük oni, pizəni eşürdük, asurdük. Səhər 3 dənə kəsürdük, 4 dənə kəsürdük.

* * *

Həsir toxuyardım deyərdim:

Yeri, qamışda yerı,
Qızıl camışda yeri.
Ayağların ağrısa,
Gəl sinəm üstə yeri.

* * *

Bax, bu göy həsiri toxumağçin dəzgahdır. Göydən asılır, bir də var ki, yer həsiri. O da bu formada qurulur. Yəni yerin üzərində qurulur. Bax, həmin qadının şəklidi bu bayax oturmuşdu ha burda, odu həsir toxuyur burda. Bunun haqqında qısametrajlı 20 dəqiqəlik bi film də çəkilib, o film Azərbaycan telestudiyasının arxivində saxlanılır. Bizim etnoqrafiyamızı tərənnüm edən bir filmdir.

Bi də var Gilan həsirin toxunması. Gilan həsirin sili göy həsirin silinnən bir az fərqlənir. Gilan həsiri bax o naxışlı həsirdi. Burya həsiri isə bax budur. Kənəfnən lığbisin qarışığınnan hazırlanmış həsirdi. Həsirçilik sənəti hələ də davam eliyir. Bu əsasən Şatrobada, Türkobada hələ də davam eliyir. Amma Burya həsiri artıq toxunmur. Gilan isə Masallıda yox, Lənkəranda toxunur. Sora bizdə o bölmədə, mən sizə göstərərəm, namaz qılmaqçün möhürü hansı nöqtəyə qoymaq ücün yeri olan namazlıq həsir toxunmuşdur.

Bu isə səbətdir, çay filan yığmağçin istifadə olunub. Siz dediyiniz zənbil isə, bax bu eşmələrdən lığlar bir-birinə birləşdirilir. 3-3 qurulur, sora birləşdirilir qıyıqla hazırlanıb. Bular isə balıq torudu. Balıxcılıx da var burda. Bizdə sarvan var

idi, o vaxtı çay axını gəlirdi, çayçılığı sulamağçün həmən o sarvanlarda balığ tuturdular.

## Arıçılıq

Mən heç vaxt arıya yem-zad vermərəm. Şanı qoyursan ora, ramkanı özü düzəldir. Asan başa gəlir. Boş yeşiyə dörd qaşığ bal sürtürsən, Allaha təvəkkül. Daşiyir, yığır balı ora. Nektarı qıçdarında gətirirlər. Elə bil vertalyot gəlir. Bəzisi qona bilmir, düşür aşagı, gəlir yeşiyin dayanacağ yeri yoxdu? Ora düşür, təzədən qalxır. Ayagındakı nektarı yavaş-yavaş ora işdiyirlər. Elə qəşəng toxuyur, yıgır onun içinə. Məsələ ondadı ki, təbiət buna öz təsirin edir ki, bu öz formasın dəyişdirir. Belə qoyursan, görürsən, bıyy xarrandı. Qəndalaş gülü sarı gül açır. Haçan gülün rəngi qaralanda balı kəsməy olar. Arı özü ağzın şirəliyib üstün bağlıyir.

On-on beş günə bal hazır olur. Əgər bir ailədə iki ana varsa, onlar vuruşur. Hansı ana zəif olarsa, bala da zəif olur. Üç yeşiyin arısın yığıram bir yeşiyə. Onda onu yığıb-yığışdırmağ olmur. Başqa bir cücü, ya bir kəpənək gələrsə, onu qoymurlar, öldürürlər. Təzə ailə çıxır şanıdan. Köhnə işçi arını ana götürüb çıxır gedir. Ana arı yumurta qoyur, ana çıxır. Bir ailədə üç mindən beş minə qədər arı olur. Yaz ayında bir saata kimi uçuş eliyirlər. Qalan biri nəzarət eliyir ki, görüm nə iş görürlər. O, bir nəfərə bağlıdır. İyirmi min də olsa bir nəfərə tabedi. Ana arının yerini özün dəyişdirə bilərsən. Alayı eşiydən gətirirsən ananı şirə qoymağa. Gərək onunla bunun yeri uyğunlaşa. Arılar 8 $km^2$ kimi gün ərzində yol gedə bilir. Yəni biri uçuşa getdi, o biri ona lazım olanı gətirsin. Gün ərzində 36 dəfə uçuş eliyə bilirlər. Arılara baxanda ona tüstü verirsən. Ona dair geyimi var, əlcəyi var, papağı var. Onun zəhmətindən götürəndə acığ-

lanıb vurur. Balı səhər saat 9-da götürəsən. Onda arılar çöldə olur. Çöldən gələn çox vurur, içərdəkilər az vurur.

İki dəfə məhsulun götürmək vaxtı var. May ayının 15-dən sora, bir də avqust, sentyabrda götürəsən ki, o da yaşıya bilsin. Çıxış yolları var orda. Arının nonasının ağzında yələmir olur. Onunla qapısının ağzın tutur. Bir dənə arı özü üçün giriş-çıxış yeri qoyur. Lenti iki ramkanın arasına qoyurlar ki, o iyə gənə gəlməsin. Gənəni o məhv edir. Bir yeşiydə 7-8 kilo bal olur. Beçə balının şanısı da ağ olur. Körpə arı süd kimi olur. Getdikcə böyüyür. Düzdü qolı-qıçı bilinmir. Bir aya, ay yarıma böyüyür. Qış vaxtı noxuddan bir az balaca yer qoyurlar, özlərinə sərf eliyən qədər.

## Qavalçılıq

Qavallar hazırlanır çəki balığının dərisinnən. Çünki bizdə bir dənə müəllim vardı, – Qaraxan Behbudov – mənə dedi ki, mənə iri çəkilər gətir Masallıdan. Dedim, neynirsən, dedi, mən onnan qaval düzəltdirəcəm özümə. Ən yaxşı qavallar çəki dərisinnən olur, heyvan dərisinnən də var, amma səs məsələsi var da.

## Zənbilçilik

Zənbil toxumaq üçün lığı çalırsan, qurudursan, oni seçirsən biri-birindən. İrisi olur onun, bi də balacası. Oni isdadıllar, yumşaldıllar. Onnan qayış kimi toxuyullar. 9 dənə eşmə götürüllər, deməy, 5 götürsən, alınmaz, 8 də götürsən alınmaz. Onun ispisəlni iynəsi olur, iynə ücün də sapı lığdan eşillər, bir xana aşağıdan götürüllər, bir xana yuxarıdan, belə firramayçin. Əgərrərim hər ikisini qoşa götürsəg, alınmaz. O gərəg firrana axı dairə şəklində, o cürə onu tuxuyullar ta başa qədər. Böyuk kiçikliyi sənin özünnən asılıdı.

## Kənəfçilik

Bu kənəf bitkisini biçiblər, qurudublar, qurudannan sora bu alətlə onun saçağını lif hissəsini döyüblər. Döyənnən sora həmin saçaxdan alınmış lifdi bu. Sora bunu təzədən abrabotka edərək onnan iplik alıblar. Bu da həmin lifdən alınmış iplikdi. Bundan yalnız ipəkçilikdə istifadə olunub. Bu isə gördüyünüz baramadan alınmış iplikdi. Bu həmin kənəf bitkisinnən alınmışdır. Bu bitkilərin qarışığınnan qədim buriya həsiri olan həsir hazırlanıb, sora bizdə ciyə toxumaxçin, kəndir toxumaxçın bundan istifadə olunub. Müxtəlif corab toxumaxçün istifadə olunub, sora rəngə salarax xalça toxumaxçın istifadə olunub. Qədim xalça imenni kənəf bitkisinnən toxunmuş xalçadı. İpək kimi olub, daha doğrusu kətan. Kətan hissəsi ki, var xalçanın, bax o bu kənəf bitkisinnən toxunub. Hal-hazırda bu kənəfçilik sənəti ölüb gedib tamamilə, istifadə olunmur. Bitkinin özu də yetişdirilmir, onun dənəsi küncüt dənəsinə oxşuyur.

## Kəndirçilik

Bu kəndir toxumaxçin alətdi. Ciyə toxumaxçin. Deməh bunu necə toxuyullar? Xırda nazih iplihləri 3 dənə, 4 dənə, 5 dənə, yəni yoğun, ya da nazik eləmək istiyirsənsə, bunu 100 metir, 200 metir, sənin məsafənnən asılıdi, yəni nə qədər istiyirsən də, cəmi uzunnuğu olsun. Xırda həmin ipliklər o başdan bu başa bağlanılır, aşağı hissədə belə burulur, bura salınannan sora. Həmin o 3-lük burc hissəsi, əsas hissəsi, ipliklər bax burdan salınır və o burulduxca bunu çəkillər və hazır ip, yəni ciyə hazırdır. Bu sənət də çoox qədimdir, amma bunnan məşğul olan bizim kənddə var idi, o da iki il olar rəhmətə gedib. Amma başqa kəndlər var ki, hələ bunnan məşqul olanlar var.

## Camçılıq

Bu isə hac ziyarətinə gedəndə geyilən geyim dəstidir. Amma bizdə dinə bağlılıq zərdüştlük dövründən başladığından, ən əsasda dualardan istifadə olunurdu. O, siz dediyiniz kimi qızları köçürdəndə 40 açarlı camlar var, belə camlar hazırlanıb, o camları su ilə doldururdular. O qızları bir evdən başqa evə koçürərkən onların başı üstündə tutardılar. Onun içi butun ərəb yazısıyla yazılmış dualardı. Bunun adına da 40 açarlı cam deyirlər. Yəni qizi 40 gün müddətində həmin duaların qoruması.

**Söyləyicilər:**

Zöhrab Nuriyev, doğum tarixi 1975, təhsili orta, Ərkivan kəndi
Mədinə Kərimova, doğum tarixi 1942, təhsili 7-illik, Şərəfə kəndi
Güləsər Dadaşova, doğum tarixi 1942, təhsili 7-illik, Musaküçə kəndi
Gülsaba Rəsulova, doğum tarixi 1928, təhsili 7-illik, Hişkədərə kəndi
Kişvər Abbasova, doğum tarixi 1927, təhsili yoxdur, Ərkivan kəndi
İqamət Kərimov, doğum tarixi 1949, təhsili ali, Mollahəsənli kəndi
İbrahim Sadıqov, doğum tarixi 1950, təhsili ali, I Seybətin kəndi
Qasım Qafarov, doğum tarixi 1923, təhsili 7-illik, Hişkədərə kəndi
Əntiqə Tağıyeva, doğum tarixi 1971, təhsili ali, Hişkədərə kəndi

**Toplayanlar:**

Füzuli Bayat (Gözəlov)
Nuridə Muxtarzadə
Ağanənə Məmmədova

# İÇİNDƏKİLƏR

**Tarixini folklorunda, sözünü tarixində yaşadan diyar** ..3
**1. İNANCLAR**..........18
**2. DİNİ RƏVAYƏTLƏR**..........27
İmam Hüseynlə ərəb..........27
Hz. Əlinin borcu..........31
Halallıq və ya dişlənmiş alma..........34
Qonaq..........38
İmam Hüseynlə Əli Əkbər..........39
Nuh peyğəmbərin yazısı..........44
Peyğəmbərin məsləhəti..........44
Nuh Peyğəmbər..........47
Qarı əhvalatı..........47
Hz. Məhəmmədin Namaz Ricası..........48
Mansurla Hüssam..........50
Qəbr əzabı..........52
Bir anbar xurma..........53
Alicənab kişi..........53
Gəlin-məleykə..........56
Naxələf oğul..........57
Allaha şükr etmək..........58
İnsan Nəfsi..........59
Peyğəmbərin uzaqgörənliyi..........59
Loğmanın şağirdi..........60
Loğmanın möhləti..........61
Qarışqanın balasına yemək verirəm,..........62
sənin balana yemək vermiyəcəm?..........62
Böyük gələndə ayağa durarlar..........63
Daş..........64
Hələ nəzəri üstümdədi..........64

İki şeyi unutma, iki şeyi unut,......................................65
dörd şeydən də özünü qoru..........................................65
Qonağın qəsri ...........................................................66
Əbabil quşları ...........................................................66
Yunis peygəmbərin insanları dinə dəvət eləməsi..........67
Allahın Məryama övlad əta eləməsi .............................69
Həzrəti İsanın möcüzəsi...............................................71
Hər əməli sorğuya yalnız Allah cəkər..........................75
Nuh peygəmbərin insanları dinə dəvət eləməsi............76
Allahın Əyyub peyğəmbəri sınağa cəkməsi .................77
Hər şeyə qadir olan yalnız Allahdı................................80
Musa peyğəmbərin Allahı görmək istəməsi .................81
Həzrəti Əli....................................................................82
Tacir və sail..................................................................84
Allah yolunda sədəqə ver.............................................87
**3. DİNİ NƏSİHƏTLƏR ..................................................89**
**4. MƏNKABƏLƏR**........................................................102
Mir Həsən Ağa ..........................................................102
Mir Həsən Ağa yol daşlarını təmizləyir.......................102
Mir Həsən Ağa qadına paltarını verir ..........................103
Quyu...........................................................................104
Oğru ...........................................................................104
Sərçələr.......................................................................104
Maşın yerindən tərpənmir............................................105
Mir Həsən Ağanın mərhəməti......................................105
Pul saxla .....................................................................106
Gəmiricilərin dəfi .......................................................106
Mir Həsən Ağanın inək satmağı...................................107
Seyid Sadiqlə Seyid Rza..............................................109
Qızılağac piri..............................................................109
Mir Möhsüm ağanın kəraməti.....................................112

Mir Cəfər ağanın kəraməti....................................................112
Hissiyyat...........................................................................112
Mir Cəfər Ağanın ov məsələsi..........................................113
Allah dəf eləsin................................................................113
5 manat ver.......................................................................114
Dadaşbala kötək yeyər......................................................114
Kimyələmə.........................................................................114
Qızıl ilan............................................................................115
Cücələr..............................................................................115
Oğurlanmış toyuq.............................................................115
Tufu mərəyə......................................................................115
Kərbəlayı Hüseynalı və oğlu İbrahim...............................116
Seyid Camalın Hikməti.....................................................117
Mir Ələsgər ağanın kəraməti............................................118
Ağanın Kitab Açması........................................................119
Seyid Sadığ Ağanın kəraməti............................................120
Şirin su quyusu..................................................................120
Çilə qarpızı........................................................................121
Yağış yağdırma.................................................................122
Çinar Ağacı........................................................................122
Ya babalarımın cəddi.........................................................123
İmamzadə..........................................................................124
İmamzadə ocağının kəramətləri........................................125
Lal Seyidin ocağı...............................................................127
Mir Tağı ocağı...................................................................128
Mir Tağı Ağanın kəramətləri.............................................128
Boyun olunan pul..............................................................129
Məni aşırlı qəbiristanlığına aparmayın.............................130
Mir Seyid Sadiq Ağa "Kişi Vaar?"...................................131
Seyid Sadiqin cəddi xərçəng xəstəliyini sağaldır...........132
Seyid Sadiq Ağanın kəramətləri.......................................132

Seyid Sadiqin cəddi xəstəni sağaldır.............................134
Seyid Sadiqin ürəyinə damır.........................................134
Dəsmal .........................................................................135
Tfu üzünə .....................................................................135
Hacı Mir Heydər Ağanın əyri ağzı düzəltməsi..............137
Mir Heydər Ağa oğlan uşağı verir ................................139
Ağa müşkülləri həll edir ..............................................139
Mir Heydər Ağa rusa yardım edir.................................140
Mir Heydər Ağanın köməyi .........................................140
Ağa ilannarı qovur........................................................141
Allahla dostluğ elə........................................................141
Mir Heydər Ağanın pulu ..............................................143
Mir Tağı Ağa “Balalarımın ruzusunu ...........................144
Allah bı pəncərədən verəcək”.......................................144
Yağış yağmayacaq ........................................................145
Mircənnətin yuxusu......................................................146
İlannarın qeyb olması ...................................................148
Mir Tağı Ağanın beytül-malı........................................149
Mir Tağı Ağanın hissiyatı.............................................150
Lampa sönmür..............................................................151
Mis teşt.........................................................................151
Ələm.............................................................................152
Haqqımı halal eləmərəm ..............................................152
İşıq................................................................................153
Ətirşah gülü ..................................................................153
Ən böyük ocaq elə sənin evindədi ................................154
Mən dilənçi deyiləm......................................................155
Aparın gəzdirin.............................................................157
Qazana bilirsən get qazan.............................................157
Məzluma kömək elə .....................................................158
Öz ölümünü bilmək.......................................................158

Mənim qabağımda kiminsə qəddinin əyilməyini xoşlamıram....................................................160
Qızı qayıdan arvad.....................................................161
Mələklərin baş əyməsi....................................................162
Ağanın yuxuda kömək etməsi ....................................163
Xırdalandıqca artır.....................................................164
Mir Əlican Ağanın qadının yuxusuna girməsi.............165
Mir Rəsul Ağa və atası Mir Əlican Ağa .......................166
Mir Rəsul Ağanın övlad verməsi.................................167
Mir Əlican Ağanın batan maşını çıxarmağı..................167
Siftə xiyar .....................................................169
Yun torbasında ilan .....................................................169
Ağanın övlad verməsi..................................................170
Ölümünü deməsi ........................................................170
Mənə dərman qismət eləmə.........................................171
Allah səsüvü batırsın ..................................................172
Mənim qəlbim qəbul eləmir .........................................172
Mir Kazım Ağa "Tüfəngim olaydı"..............................174
**5. ƏFSANƏLƏR**......................................................176
Qızılağac .....................................................176
Əli bulağı.....................................................176
Qızılağac təkrar .....................................................177
Muğan şəhəri.....................................................177
Qanlı göl əfsanəsi .....................................................179
Cənnət məkan.....................................................179
Xırmandalı .....................................................180
Qızılgül əfsanəsi.....................................................181
**6. HƏM MƏZƏLİ, HƏM QƏRİBƏ ƏHVALATLAR**..182
Sənin eşşəyin .....................................................182
Sizə ətsünnət olmağdansa burda ətsünnət olaram .......183
Talonum oğraş əlinə düşməyib....................................184

Səbrin nə təhərdi? ....................................................184
Keçi dərisini öpürsən? ..............................................185
Dayanın, yazmayın ....................................................185
Ye, kökəl dənə ..........................................................186
Bir baş soğan.............................................................186
Boş məzar ..................................................................187
İstamın ac yatmağı .....................................................188
İstamın düzlüyü .........................................................188
Neçə illərdi camaatın qazandığını yeyirsiz ..................189
Bir araba dolusu məhsul ..............................................190
Fətulla məllim belə zəifdi ki, sənnən də zəifdi?...........191
Niyə, məni tanımadın...................................................191
Adam var, adam var....................................................192
Hərə öz işinnən məşğul olsun .....................................193
Nə doyunca yeyir........................................................194
Gör özləri nə qədər yeyiblər .......................................194
Dalaşan qardaşlar........................................................194
Hacının kələyi .............................................................195
Qismətimizdi...............................................................195
Köməkliknən bunu udun .............................................196
Başı da sənin...............................................................198
İmam neçədir ..............................................................199
Sənə deyənnən olmuram...............................................201
Dədənin yanına ...........................................................201
Kisəqalxızan ...............................................................202
32 hərfdən kənara çıxmıram ki? .................................202
Kamal, gəl qapışaq......................................................202
Yaxşı itim var..............................................................203
Adam oğlu adam..........................................................203
Siz Mədinə əhlisiniz.....................................................203
Səxavət ibadətdən üstündür .........................................204

Qırxına bəs elər ........................................................204
Ay köpəkoğlu, Mahmudavarlı mənəm, sən haralısan?205
Paromda mərci əkmişdin? .........................................205
Pişik gəldi ...............................................................206
Gələr ahu bu kəməndə... ............................................206
Mirzəmmədin qocalığı................................................206
Qorxaq kişi................................................................207
Erkək kartof ..............................................................207
Qatıq dağılar – yeri qalar, ..........................................208
Ayran dağılsa, nəyi qalar? ..........................................208
Övladın arzusu ..........................................................208
Həsənqulu pəhləvanı yıxdı, sonra... ............................209
Bunların arvadları ilə kim yatır? .................................209
Bizim ağzımızda qatıq çalmayıblar ki? .......................209
Bısk budut.................................................................210
Bacıoğludur, aparmaz ................................................210
Verməsəm, nə qədər vurursunuz, vurun. .....................211
Sosialist realizmi .......................................................212
Tırkə səlat ................................................................212
Kürk götürərsən ........................................................213
Huşi Xamməd ............................................................213
Nüsrətin göy rəngli inəyi ............................................213
Yallah Baloğlan .........................................................213
Şahın ənamını xırdalayıram... .....................................214
Mehtər əhvalatı ..........................................................214
“Cahanda kəllə sağ olsun...” .......................................215
İtələmə, gedirəm də....................................................216
Alagöz əhvalatı ..........................................................217
Qibləyə düz dayan!.. ..................................................218
Ya Sibir görürəm, ya da qəbir.....................................218
Dəvəni hürkütməyin ..................................................220

Atın tapılması........................................................................220
Demə qocalmısan ....................................................................221
Şir balası ...............................................................................222
Sənəti var ..............................................................................223
Gəlin, ya meyit.......................................................................225
Əhsən, bərəkəllah ...................................................................225
Səni çöllərə salaram… ...........................................................226
Namazda dombalan aşdı var?..................................................226
İncil deyil, boranıdı.................................................................227
Talış qızı ................................................................................227
Təvəkkülün neft quyusu .........................................................228
Gic sənsən..............................................................................228
Orandlıların öküzü..................................................................231
Ona zərərdi.............................................................................232
Çörəyə and içmə ....................................................................232
Allaha güllə atma...................................................................233
Kommunist qəzetindəki variant..............................................233
İt yalağı .................................................................................234
Molla Hüseynlə erməni ..........................................................234
Axundun müəllimə cavabı......................................................235
Elə öz pulunu ver də ..............................................................236
Beş yumurtalıq yasin ..............................................................237
Yol böyüyündür......................................................................238
Məcidin küsməyi ...................................................................239
Qırx gün gecikibsən................................................................240
Mənim uşaqlarımı belə şeylərə öyrətməyin.............................240
Şeyx pişik alır ........................................................................241
Üçgünlük möhlət ....................................................................242
Allah istədiyinizi verdi............................................................243
Balığ istəmə ...........................................................................243

**7. YAXIN KEÇMİŞLƏ BAĞLI ƏHVALATLAR**........246
**8. LAYLALAR VƏ OXŞAMALAR**...............................274
**9. BAYATILAR**.............................................................277
**10. AĞILAR**...................................................................294
**12. ADƏT-ƏNƏNƏ**.......................................................310
**13. TOY ADƏT-ƏNƏNƏLƏRİ**.....................................316
**13. HALAY**....................................................................360
Şərəfə kəndində halay.................................................366
Digər kəndlərdə halay.................................................376
Mahmudavar kəndində halay .......................................380
**14. XALQ SƏNƏTLƏRİ**..............................................403
Dulusçuluq ..................................................................403
Həsirçilik, səbətçilik ...................................................403
Arıçılıq ........................................................................405
Qavalçılıq ....................................................................406
Zənbilçilik ...................................................................406
Kənəfçilik.....................................................................407
Kəndirçilik...................................................................407
Camçılıq ......................................................................408

**Masallı folklor örnəkləri,**
**1-ci kitab,**
Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013.

Nəşriyyat direktoru:
***Prof. Nadir Məmmədli***

Nəşriyyat redaktoru:
***Ləman Süleymanova,***
***Səbinə İsayeva,***
***Nigar Həsənova***

Kompyuterdə yığdı:
***Ruhəngiz Əlihüseynova***

Kompyuter tərtibçisi və
texniki redaktoru:
***Ramin Abdullayev***

Kağız formatı: 60/84 32/1
Mətbəə kağızı: №1
əcmi: 418 səh.
Tirajı: 300

Kitab AMEA Folklor İnstitutunun
kompüter mərkəzində yığılıb səhifələnmiş,
"Elm və təhsil" nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.